

# QUSAR

## Beşiyim mənim

Elbrus Şahmar

**ELBRUS ŞAHMAR**

Az - 267410

# Qusar beşiyim mənim

*(Sənədli, bədii-publisistik xatirə roman)*

M.F.A
Az
Kit

**Bakı-2012**

Elbrus Şahmar «**Qusar beşiyim mənim**»,
«Zərdabi LTD» MMC, Bakı, 2012, 400 səh.

*«Qusar beşiyim mənim» kitabı tanınmış yazıçı-publisist Elbrus Şahmarın oxucularla 33-cü görüşüdür. Kitab Qusarın görkəmli ziyalılarından olan Zeynəddin Çələbovun ömür yolundan söz açır. İnanırıq ki, siz çox maraqlı bir insanın həyatı, şəxsiyyəti, ictimai və pedaqoji fəaliyyəti ilə yaxından tanış olacaqsınız.*

E $\frac{4705120496}{0103-2012}$ qrifli nəşr

© E.Şahmar, 2012



«Azərbaycanın şimal sahələrini Qusar rayonu təşkil edir. Sizə minnətdaram ki, müstəqil Azərbaycanın şimalındakı torpaqlarda Azərbaycanın müstəqilliyi keşiyində dayanmısınız və eyni zamanda bizim şimal qonşularımızla əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsində öz xidmətlərinizi göstərmisiniz. Bu, Qusarın Azərbaycan həyatında, Azərbaycan siyasi xəritəsində xüsusi əhəmiyyət kəsb edən roludur. Qusarlılar xüsusi etimada layiqdir. Sizin tarixiniz qəhrəmanlıq tarixidir. Sizin tarixiniz qurub-yaratmaq tarixidir. Vətənə, torpağa, dövlətə sədaqət tarixidir.

Qusarlılar Azərbaycanın müstəqilliyinin, ərazi bütövlüyünün qorunmasında xidmətlər göstərmişlər, qan tökmüşlər, şəhidlər vermişlər, Azərbaycanın milli qəhrəmanlıq zirvəsinə ucalmışlar... Qanlı dərədə 1918-ci ildə qusarlılar Azərbaycan xalqına təcavüz edən erməni millətçilərinin qarşısını alıb onları darmadağın etmişlər. İndi də qusarlılar Azərbaycan ordusunda xidmət edir, qəhrəmanlıq nümunələri göstərirlər və əminəm ki, qusarlılar müstəqil Azərbaycanın müdafiəsində həmişə dayanacaqlar.»

Heydər ƏLİYEV

Qusar Azərbaycanın ən gözəl guşələrindən biridir. Burada yaşayan insanlar Azərbaycan dövlətçiliyinin inkişafı və möhkəmləndirilməsi yolunda böyük xidmətlər göstərmişlər. Biz görürük ki, Qusar gündən-günə gözəlləşir, inkişaf edir. Buraya daha böyük həcmdə sərmayə qoyulacaq və xüsusi diqqət göstəriləcəkdir. Sizi əmin edirəm ki, mən daim qusarlılarla olacam. Qusara tez-tez gələcəyəm və birlikdə böyük işlər görəcəyik.

Onlar Azərbaycan ərazi bütövlüyünün qorunması yolunda şəhidlər vermişlər. Ona görə də Azərbaycan xalqı qusarlılara minnətdarlığını bildirir.

Əminəm ki, növbəti illərdə Qusar əhalisi həmişə olduğu kimi, Azərbaycanın hərtərəfli inkişafına, müstəqilliyimizin möhkəmlənməsinə öz dəyərli töhfəsini verəcəkdir.

İlham ƏLİYEV



# Dəyərli ömürdən anlar

Ayıblı sözlərin yazılmasından,
Yaxşıdır, bir dəftər ağ qalsa, inan.

*Nizami Gəncəvi*

Sən mükafatını insanlığa xidmətdə ara.

*A.Səhhət*

Çalxalandıqca, bulandıqca zaman nehrə kimi,
Yağı yağ üstə çıxar, ayranı ayranlıq olur.

*M.Ə.Sabir*

Ölüm, ölmək deyil, yer dəyişməkdir.

*Nizami Gəncəvi*

Nə şəhvət, nə yuxu, nə də ki, yemək,
Həyatın mənası olmasın gərək.

*Nizami Gəncəvi*

Hər şeydə oğurluq haramdırsa, qızlar üçün oğlanın qəlbini oğurlamaq halaldır.

*M.S.Ordubadi*

Kitabsız bir ömürün nə mənası var?

*Səməd Vurğun*

Müəllif kitabın yaradıcısı, cəmiyyət isə onun taleyinin yaradıcısıdır.

*V.Hüqo*

Həyat beşik ilə tabut arasındakı dar bir dəhliz və yolçuluqdan ibarətdir.

*Osman Nuri Topbaş*



## KİTABA GİRİŞ

*Ay Allah, ilham ver, yetərli olsun,*
*Dəyərli bir kitab yazım, oxunsun.*
*Əsərin taleyi uğurlu olsun,*
*Dostum Zeynəddinin ömür yoluna,*
*Şam tutum, şöləsi çox nurlu olsun!*

İnsan öz ömrünün kamillik dövrünə qədəm qoyur, onu peşəsindən və tutduğu vəzifəsindən asılı olmayaraq hər şeydən öncə belə suallar düşündürür: xoşbəxtliyi nədə axtarmaq, necə axtarmaq? Yaşamaqda məqsəd nədir? İnsanlığın ən böyük amalı nədir? Və kamil insan o suallara birmənalı cavab verib – insan insanın qayğısını çəkməli, Vətən və Xalq qarşısında, onu böyüdüb boya-başa çatdıran valideynlər qarşısında, eləcə də gənclik qarşısında məsuliyyətli olmalı, bir insan, bir vətəndaş kimi onları sevməli, onların xoşbəxtliyi uğrunda mübarizə aparmalı, haqqı-ədaləti uca tutmalı, bu yolda heç bir çətinlikdən qorxmamalıdı.

Bütün bu duyğular, bu hisslər ana südülə, ana laylası, ata öyüd-nəsihəti ilə doğulur və bütün ömrü boyu insanın ruhuna, qəlbinə hakim kəsilir. Elə insanlar mənsub olduğu xalqın ləyaqətli övladları olur, insanlığın bəzəyi və yaraşığı sayılırlar.

İnsan ömrü gah lal axan, gah da kükrəyib öz yatağından çıxan, yenidən öz doğma məcrasına qayıdan və sonda dəryaya qovuşan bir çaya bənzəyir. Çayın mənbəyi uca dağlardır. Məkan əbədidir, ömür isə o çayın çağlayan sularıdır, durmadan, nəfəs dərmədən, ara vermədən axıb gedir. Çay suyu var şəffafdı, gözəlliyinə, duruluğuna, aydınlığına baxmaqdan nə göz doyur, nə ürək. Su var baxanda dibi görünür, su var nə qədər baxsan da, diqqət versən də dibi görsənmir ki, görsənmir. Su var can dərmanıdır, su da var ürək bulandırır. Bütün bu səciyyəvi xüsusiyyətlər hər bir bəşər övladına da aiddir. Kimi pak və müqəddəs, xeyirxah və ədalətli, kimisə şər tumu, barıt dağarcığı olub şeytana papış tikəndi. Kimin ömrü ayla ölçülür, kiminki illə, əsrlə. İnsan var ki, ömrü nə məkana sığır, nə də zamana. Elə ömür uzun ömürdü, yaşayan və insanlığa mənsub olduğu xalqa başucalıq gətirən, alqışlanan ömürdü.

Elə insanların həyatı işıqla, nurla bəzənmiş olur, heç vaxt çətinliklərdən qorxmaz, dövranla, zamanla cəngicidayə çıxar. Adam var ki, vəzifə kürsüsündən düşsə də, heç vaxt sınmayıb, əyilməyib, vəzifəsini itirsə də, vicdanına, adına xələl gətirməyib, mənsub olduğu xalq və el-oba qarşısında üzüağ, başıuca olub. Böyük inamla bu çərxifələyin acığına daha mübariz olub, daha qürurlu yaşayıb və nə vaxtsa haqqın, ədalətin qələbə çalacağına inanıb. Və xalqın, el-obanın hörmətini qazanan elə insanlar hər yerdə, hər zaman ağsaqqallıq kürsüsündə olub, adı ehtiramla çəkilib, ovxarlı sözləri dəyərli sayılıb. Bu baxımdan





Zeynəddin Çələbov şəxsiyyəti və keçdiyi ömür yolu səciyyəvidir, örnəkdir.

Zeynəddin müəllim hansı vəzifədə olubsa, onu zabitəli və tələbkar bir rəhbər kimi tanıyıblar. Onu da qeyd edim ki, onun bu xüsusiyyəti arxasında insanlara böyük bir sevgi, məhəbbət və ehtiram dayanıb. Zeynəddin Çələbov kimi insanlar riyadan, saxtakarlıqdan uzaq olub, üzdə necədirsə, daxilən də elə qalıb.

Bir də Zeynəddin Çələbov kimiləri balalarımızın köksündə dayanan tamahdan uzaq olub. O tamah ki, zaman-zaman bizim maddi və mənəvi inkişafımıza böyük maneçilik törədib, rüşvətxorluğa, amansızlığa, hərcmərcliyə yol açıb.

Onu da deyim ki, Homer qəhrəmanlarının əzəməti, yenilməzliyi və cəsurluğunun sirri və böyüklüyü Vətənə, ailəyə bağlılığında idi. Ürəkləri hər zaman Vətən və doğmalarının vüsalı ilə döyünüb, bu səbəbdən min bir çətinliyə dözüb, dəfələrlə çıxılmaz vəziyyətlərə düşüb, ölümlə üz-üzə dayanıblar. Mübaliğəsiz deyə bilərəm ki, Zeynəddin Çələbovun həyatı və ömür yolu da, sanki Homer qəhrəmanlarının ömür yoluna, həyat amalına bənzəyir. O baxımdan Azərbaycan adlı məmləkətin gözəl bir guşəsi olan Qusar, «Qusar beşiyim mənim» deyən Zeynəddin müəllimin insanlığa həsr olunan həyatının, ömür yolunun arzu və ümidlərinin müqəddəs məkanına, doğma yurd-yuvasına, ürəyinin hərarətinə, məhəbbətinə çevrilib.

İnanıram ki, Zeynəddin Çələbovun mübarizələrlə dolu ömür yolu, onun ləyaqət sahibi olan bir insan kimi rayon rəhbərliyinə yüksəlməsi oxucunu razı salacaq və

belə bir qənaətə gələcək ki, əsl insan, əsl vətəndaş kimi araya-ərsəyə gəlmək üçün həyatda gərək kişi kimi addımlayasan. Bu kitab da elə əsl kişilər haqqındadır.

Hörmətli oxucular, Zeynəddin Çələbovdan bəhs etməzdən əvvəl, onun ana beşiyi sandığı Qusardan və dünyaya göz açdığı Hil kəndinin tarixindən, dünənindən, bu günündən, tanınmış insanlarından qısa da olsa söz açmağı zəruri bildim. Axı, əsərimin qəhrəmanını Qusardan, Qusarı da ondan ayırmaq olmaz. Əgər ayırsaydım, günah olardı.

Adam var başını aşağı salıb ömür sürür, heç kimə, heç nəyə, heç bir hadisəyə münasibət bildirmir, bütün hallarda «mənə nə», «dəymə mənə, dəyməyim sənə» məntiqi ilə yaşayır.

Bir də həyatı ağlının, məhəbbətinin arzularının istəyi ilə yaşayan Zeynəddin Çələbov kimi heç bir çətinlikdən qorxmayan insan kimi ömür sürmək. Bax, belə insanlar az-az tapılır və çox zaman da qədir-qiyməti yetərincə dəyərləndirilmir. Ancaq bununla belə, həmin insanlar öz tutduqları mərdlik, xeyirxahlıq, yurdsevərlik amalından əl çəkmirlər. Eşq olsun elə insanlara!

Zeynəddin Çələbov sıravi müəllim olanda da, təhsil ocağına rəhbərlik edəndə də, Qusar kimi böyük bir rayonun rəhbəri vəzifəsinə irəli çəkiləndə də öz əqidəsinə xilaf çıxmayıb, həmişə özü olub, sözünün ovxarını, kəsərini də heç vaxt itirməyib.

Hələlikdə onun tərcümeyi-halı ilə qısa tanış olaq:





Zeynəddin Ramazan oğlu Çələbov Qusar rayonunun Hil kəndində, 1933-cü il oktyabrın 15-də kolxozçu ailəsində anadan olmuşdur.

Atası – Ramazan Çələb oğlu Ramazanov müharibə vaxtı arxa cəbhədə çalışmış, kolxoz briqadiri olmuş, 1943-cü ilin fevralında sətəlcəmdən vəfat etmişdir.

Anası – Cağa Xankişi qızı Xankişiyeva evdar qadın olub, 1989-cu ildə 100 yaşında vəfat edib.

Üç qardaş, beş bacı olublar. Böyük qardaşı Mövlüd 1939-cu ildə hərbi xidmətdə olub, orada təhsil almaqla zabit rütbəsini alıb. Ordan birbaşa müharibəyə yollanıb. 1943-cü ildə yaralanıb, sağaldıqdan sonra bir aylığa kəndə məzuniyyətə gəlib. O, atasının vəfat etdiyini, ailəsinin ağır vəziyyətdə olduğunu görüb, öz zabit maaşının yarısını anasının adına köçürüb və yenidən müharibəyə qayıdıb. Bir ay sonra Kiyev ətrafı döyüşlərdə itkin düşüb. Bundan sonra onun maaşı anasına təqaüd kimi ödənilib.

Kiçik qardaşı Muzafəddin 1955-ci ildə hərbi xidmətə çağrılıb, Şimali Saxalində orduda xidmət edərkən ağır xəstələnib, 1957-ci ildə xidməti başa vuraraq Hilə qayıdıb. 1959-cu ilin oktyabr ayında vəfat edib.

Zeynəddin Çələbovun bacıları – Səlmi, Şəkər, Gülayət, Tayifət və Sadira ailə həyatı qurublar.

Zeynəddin müəllimin bütün bacıları indi haqq dünyasındadırlar. Zeynəddin 1945-ci ildə Hil Sırt ibtidai məktəbin 4-cü sinfini bitirib. Həmin ildə Hil kənd orta məktəbin 5-ci sinfinə daxil olub, 1952-ci ildə oranı bitirib. Sonra S.M.Kirov adına Azərbaycan Dövlət Bədən Tərbiyəsi institutuna daxil olub, 1956-cı ildə oranı bitirib.

Həmin ildə Qusar şəhər 1 saylı orta məktəbində bədən tərbiyəsi müəllimi vəzifəsində çalışıb. Daha sonra ailə vəziyyəti ilə əlaqədar öz kəndinə qayıdıb və 6 ay orada işləyib. Sonra yenidən Qusar şəhərinə qayıdıb internat məktəbində bədən tərbiyəsi fənnini tədris edib.

1962-ci ildə qiyabi olaraq S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə daxil olub və 1967-ci ildə oranı bitirib.

1968-ci ildə Qusar şəhər internat məktəbinin direktoru vəzifəsinə təyin olunub.

1991-ci ildə isə ona əlavə olaraq Elmi-istehsal birliyinin Kosmik tədqiqatlar zavodunun «Xazri» filialının baş direktoru vəzifəsində işləmək həvalə olunub. Zeynəddin müəllim 1990-cı ildən 1995-ci ilədək Qusar Rayon Xalq Deputatları Sovetinin deputatı seçilib.

1992-ci il yanvarın 30-dan isə Qusar şəhər ərazisi üzrə Qusar rayon İcra Hakimiyyəti başçısının nümayəndəsi təyin olunub. 1992-ci ilin sentyabrın 3-də isə Qusar rayon İcra Hakimiyyətinin Başçısı vəzifəsinə təyin edilib. Bu vəzifədə 1993-cü il avqustun 14-ə kimi fəaliyyət göstərib. 1994-cü ildən isə təqaüddədir.



# Tarixdən gələn səslər

İnsanın ən çox möhtac olduğu nöqtə, qəlbinin gözü ilə görə bilmək və qəlbinin qulağı ilə eşidə bilməkdi.

*Osman Nuri Topbaş*
*«Mövlana dərgahından əsintilər»*

Dostun dostunu xatırlaması mübarək bir şeydir.

*Cəlaləddin Rumi*

Dünya ruhlar həbsxanasıdır.

*Cəlaləddin Rumi*

Sual da elmdən doğar, cavab da.

*Cəlaləddin Rumi*

Bu dünya bir ağaca bənzər: biz də bu ağacın yarı kal, yarı yetişmiş meyvələri kimiyik.

*Cəlaləddin Rumi*

Namazsız imanın faydası vardır, imansız namaz fayda verməz.

*Cəlaləddin Rumi*

İnsanın sözü başqası üçündür, qulağı isə özü üçün.

*Cəlaləddin Rumi*

Vicdan – bizim malik olduğumuz ən yaxşı əxlaq kitabıdır, yoldan azmamaq üçün ona tez-tez baxmaq lazımdır.

*O.Balzak*



Azf- 267410

# QUSAR VƏ QUSARLILAR BARƏDƏ OXUDUQLARIMDAN, EŞİTDİKLƏRİMDƏN VƏ TANIŞ OLDUQLARIMDAN SƏHİFƏLƏR

Xalqım sevinməsə, elim gülməsə,
Ürəkdən şad olub mən də gülmərəm.
Aşıq Hüseyn Cavan

«Kim öz vətənini sevmirsə, heç nəyi,
heç kimi sevə bilməz.»

...İranda rus səfirliyində işləmiş A.İ.Lopuxin özünün 1718-ci ildə çap olunmuş «Журнал путешествия через Дагестан. 1718» oçerkində qeyd etdiyi kimi, Qubadan çıxıb bir neçə verst yol gedən o, Qusar çayının kənarında adını bu çaydan götürmüş bir kəndə təsadüf edir.

Həm o, həm də başqa müəlliflər çayın və kəndin adını «Kuzar» kimi göstərib. Semyon Bronevskinin Qafqazdan topladığı XVIII əsrə aid materiallarda da bu hidronimin və okonimin adı «Kuzar» kimi göstərilmişdir.

Gürcü alimi G.G.Georqadzenin fikrincə «Qusar» toponimi eramızdan əvvəl II minillikdə Kiçik Asiyada mövcud olmuş Tuz gölünün şərqindəki Xett dövlətinin Qusar şəhərinin adından götürülmüşdür...

Bəzi müəlliflər Qusarın ilkin adının Qeysəri olduğunu yazırlar. Bəzi müəlliflər isə Qusar adını rusların qusar polkunun adı ilə əlaqələndirirlər. Onların fikrincə, bir vaxtlar burada olmuş qusarlıların adı bu yerə verilmişdir. Bu, yalnış fikirdir, çünki hələ rus suvari polkları Qafqaza gələnə kimi Qusar adı mövcud idi...

...Ləzgi alimi, filologiya elmləri doktoru R.Heydərov «Qusar» sözünü şərh etmək üçün bir neçə varianta əl atır. O, gah bu sözün «Qusarın yaxınlığından axan Kuzar çayı hidronimindən yarandığını» göstərir, gah Qusarda qusarlıların polklarının olduğuna görə göstərir, gah da «Qusar» sözünün ərəb dilindəki «kausar» sözündən yarandığını qeyd edir. Təəssüf doğuran hal odur ki, alim toponimin mənasını yerli xalqın, ləzgilərin dilində deyil, başqa dillərdə axtarır...

Bizim fikrimizcə, «Qusar» sözü ləzgi dilindəki «kas» sözündən əmələ gəlmişdir. Lakin bu ad «kas» («kişi») mənasında işlənərək yaranmamışdır. «Qusar» toponimi ləzgilərin kas tayfasının adından götürülmüşdür...»

«Azərbaycan tarixi» (Bakı, Azərnəşr, 1994) səhifə 222-də göstərilir ki, ləzgi dil qrupuna, ləzgi, arqun, aqun, aqul, tabasaran, saxur, rutul, qriz, budax, xınalıq və udin dilləri daxildir.

Azərbaycan sovet ensiklopediyasında Qusar rayonu barədə deyilir ki, rayon mərkəzi ilk illərdə Hildə olub. İnzibati rayon kimi Azərbaycan SSR-də 1930-cu ildən yaradılmışdır. Rayon şimal-qərbdə Dağıstanla həmsərhəddir. Sahəsi 1542km$^2$-dir. Rayonda 1 şəhər, 83 kənd var, mərkəzi Qusar şəhəridir.

Qusar, Böyük Qafqazın şimal-şərqindədir. Cənub – qərbi dağlıq, mərkəzi hissəsi maili düzənlik, şimal-şərq kənarı Samur-Dəvəçi ovalığıdır. Rayonun cənub-qərb sərhəddi Baş Qafqaz silsiləsinin suayrıcından keçir. Salavat aşırımı (2895m) buradadır. Respublikamızın ən hündür zirvəsi olan Bazardüzü dağının hündürlüyü 4466 metrdir. Şahdağın hündürlüyü isə 4243 metrə bərabərdir... Bu baxımdan Tufan və Bazaryurd dağları da öz əzəməti və mənzərəsi ilə göz oxşayır.





Sədaqət xanım Kərimovanın «Qusar, qusarlılar» adlı ensiklopedik xarakterli kitabında Qusar barədə dəyərli məlumatlar vardı. Böyük zəhmət və doğulub boya-başa çatdığı torpağa böyük məhəbbətin bar-bəhrəsi olan həmin kitabda rayonun memarlıq və arxeoloji abidələrindən də söz açılıb.

**ARXEOLOJİ ABİDƏLƏRİ:**

Kurqan. e.ə. I minillik, Həzrə kəndi

Qalaxür yaşayış yeri, IV-XV əsrlər, Həzrə kəndi

Mahmudtəpə yaşayış yeri, IV-VIII əsrlər, Gədəzeyxür kəndindən 1 km şimalda

Yaşayış yeri, ilk orta əsrlər, Gədəzeyxür kəndi

Verdixantəpə yaşayış yeri, ilk orta əsrlər, Gədəzeyxür kəndindən 1 km cənubda

Qazıxantəpə yaşayış yeri, IV-VIII əsrlər, Gədəzeyxür kəndinin cənub-şərqində

Şamiltəpə yaşayış yeri, IV-VI əsrlər, Gədəzeyxür kəndinin şimal-şərqində

I Qəflətəpə yaşayış yeri, ilk tunc dövrü, Qusar-Xudat yolunun sol tərəfində. Qubaya gedən yolayrıcının I km şimal-şərqində

II Qəflətəpə yaşayış yeri, e.ə. III minillik, Qusar-Xudat yolunun solunda

III Qəflətəpə yaşayış yerləri, dəmir dövrü, erkən orta əsrlər, Qusar-Xudat yolunun sağ tərəfində

IV Qəflətəpə yaşayış yeri, VIII-XVIII əsrlər, Qusar-Xudat yolunun sol tərəfində

Qızılgül təpələri yaşayış yeri, ilk orta əsrlər, Xudat-Qusar yolunun kənarında, Qubaya dönən yolda

Ağaxantəpə yaşayış yeri, ilk orta əsrlər, Aşağı Ləgər kəndindən 1 km şimal-şərqdə

Təpələr yaşayış yeri, ilk orta əsrlər, Aşağı Ləgər kəndi

Zaraqlar yaşayış yeri, orta əsrlər, Suvacal və Yuxarı Ləgər kəndlərinin arasında

Qızlar təpəsi yaşayış yeri, antik dövr, Yeni həyat kəndindən 1 - 2 km şərqdə

I Qızlartəpə yaşayış yeri, IV-VII əsrlər, Yeni Həyat kəndi

II Qızlartəpə yaşayış yeri, II-VII əsrlər, Aşağı Ləgər kəndindən 1,5 km şimal-şərqdə Kunttəpə yaşayış yeri, III-VII əsrlər, Gündüzqala kəndi

Meysartəpə şəhər yeri, I-III, V-VII əsrlər, Bədirqala kəndindən 300 - 350 m şimal-qərbdə

Meysartəpə yaşayış yeri, IV-VII əsrlər, Bədirqala kəndi

Qalaysuvar yaşayış yeri, ilk orta əsrlər, Samur qəsəbəsi

Qala, IX-XIV əsrlər, Əniğ kəndi

Köhnə qəbiristanlıq, IV-VII əsrlər, Əniğ kəndi

Köhnə qəbiristanlıq, e.ə. I minillik, Hil kəndi.

I Gavdişantəpə yaşayış yeri, erkən dəmir dövrü, təxminən e.ə. I minillik, İmamqulukənddən bir neçə km şimal-şərqdə

II Gavdişantəpə yaşayış yeri, erkən dəmir dövrü, təxminən e.ə. I minillik, İmamqulukənddən 3-4 km şimal-şərqdə

III Gavdişantəpə yaşayış yeri, erkən tunc dövrü, Qalacıq kəndindən 1 km cənub-şərqdə

Legar yaşayış yeri, orta əsrlər, Əvəcuq kəndindən 2 km şərqdə

Rutar yaşayış yeri, XVII-XVIII əsrlər, Piral kəndindən 2-3 km şimalda





Yaşayış yeri, IX-X əsrlər, Köhnə Xudat kəndi

Köhnə Xudat qəbiristanlığı, ilk orta əsrlər, Köhnə Xudat kəndi

Nadirtəpə yaşayış yeri və qala, XI-XIII əsrlər, Quba-Xudat yolunun sağ tərəfində

Çobantəpə yaşayış yeri, IV-VII əsrlər, Quba-Xudat yolunun sağ tərəfində

Yusufxantəpə yaşayış yeri, III-VI, VI-VIII, XV-XVI əsrlər, Qalacıq kəndindən 3 km şimal-şərqdə

Quxur təpələri yaşayış yeri, IV-VII əsrlər, Quxuroba kəndindən 1,5 km şimalda

Quxuroba nekropolu, IV-VII əsrlər, Quxuroba kəndi

I Kurqan, erkən dəmir dövrü, Quxuroba kəndinin yaxınlığında, Bakı-Dərbənd yolundan 2,5 kilometr aralıda

II Kurqan, erkən dəmir dövrü, Quxuroba kəndindən 2,5 km qərbdə, Bakı-Dərbənd yolunun sağında

III Kurqan, erkən dəmir dövrü, Quxuroba kəndindən 2 km cənubda, Bakı-Dərbənd yolunun sağında

I Böyüktəpə yaşayış yerinin qalıqları, ilk tunc dövrü və ilk orta əsrlər, Kiçan kəndindən 2 km şimal-qərbdə

II Böyüktəpə yaşayış yerinin qalıqları, ilk tunc dövrü və ilk orta əsrlər, Kiçan kəndindən 2,5 km şimal-qərbdə

III Böyüktəpə yaşayış yerinin qalıqları, ilk orta əsrlər, Kiçari kəndindən 2 km şimal-qərbdə Yeddi qardaş, bir bacı yaşayış yeri, erkən tunc dövrü, erkən orta əsrlər, Zindanmuruq kəndi

Pirali təpələri yaşayış yeri, IV-VII əsrlər, Samur-Abşeron kanalının sol tərəfi, Qusar-Xudat yolundan 500 m aralıda

Gursanpel yaşayış yeri, III-VII əsrlər, Cağar kəndinin cənub-qərb hissəsində

Qurupel yaşayış yeri və qəbiristanlıq, III-VII əsrlər, Hil kəndi

Kuçumxantəpə yaşayış yeri, e.ə. III minillik, orta əsrlər, Qullar kəndindən 1 km cənub-qərbdə

**MEMARLIQ ABİDƏLƏRİ:**

Qala divarlarının qalıqları, IX əsr, Əniğ kəndi.
Şeyx Cüneyd türbəsi, 1554-cü il, Hərzə kəndi
Karvansara, orta əsrlər, Kiriq kəndi
Bulaq, orta əsrlər, Suvacal kəndi
Xudat qalası, XVII əsr, Köhnə Xudat kəndi
Məscid, XVIII əsr, Böyük Muruq kəndi
Məscid, XVIII əsr, Xuray kəndi
Məscid, XVIII əsr, Tağaroba kəndi
Yaşayış evi, XIX əsr, Həzrə kəndi
Məscid, XIX əsr, Əniğ kəndi
Məscid, XIX əsr, Hil kəndi
Məscid, XIX əsr, Zindanmuruq kəndi
Məscid, XIX əsr, Cağar kəndi
Məscid, XIX əsr, Gündüzqala kəndi
Məscid, XIX əsr, Çətkün kəndi
Məscid, orta əsrlər, Balaqusar kəndi
Məscid, XIX əsr, Mucuq kəndi

1941-1945-ci il Böyük Vətən müharibəsində 10 mindən çox qusarlı cəbhədə vuruşmuş, onlardan 3200-dən çoxu həlak olmuşdur. Təkcə əsərimizin qəhrəmanı Zeynəddin Çələbovun doğma kəndi Hildən 1000 nəfərdən çox gənc cəbhədə olmuşdur. Ön cəbhədə vuruşan qusarlılardan Mahmud Abdulrza oğlu Əbilov general – mayor rütbəsinə yüksəlmiş, üç nəfər – Mirzə Vəliyev, Adil Quliyev və Aleksandr Rıbakov Sovet İttifaqı qəhrəmanı adına layiq görülmüşdür.





Həmin müharibədə iştirak edən qusarlılardan daha böyük xidmətləri olan gənclərdən bir çoxu yüksək mükafatlara və rütbələrə layiq görülmüşdür. Bu yöndə Bayram Bayramovun, Midhəd Şirinbəyovun, Abdulla Orduxanovun, Şıxnəbi Şıxnəbiyevin (o uzun illər DİN-də yüksək vəzifədə olmuş, polkovnik rütbəsinə yüksəlmişdir), Salat Saruxanovun, Salah Salahovun, Rəşid Hüseynovun, Salat Mövlanovun, Sədrəddin Mirzəliyevin, Balaqardaş Hacıyevin, Əlhəd İsmayılovun, Abdulhəlim Abdulhəlimovun, Camaləddin Cəlilovun, Abumüslüm Babayevin, Nurbala Rzaxanovun, Loğman İdrisovun, Kərimağa Cəfərovun, Qayıtmaz Baçarovun və başqalarının adlarını çəkmək olar.

Qusarlı gənclər son illərin məlum savaşında da vətənimiz Azərbaycanımızın ərazi bütövlüyü uğrunda vuruşmuş və onlardan 46 nəfəri şəhid olmuş, Fəxrəddin Musayev isə Azərbaycanın Milli qəhrəmanı adına layiq görülmüşdür. Savaşda iki ayağını itirmiş Arif Tahirov isə «Azərbaycan Bayrağı» ordeni ilə təltif olunmuşdur. Apardığı uğurlu əməliyyata görə Şair Ramaldanova vaxtından əvvəl polkovnik rütbəsi verilmişdir. Bu yöndə savaşda fərqlənən Bəhrəm Ağakişiyevin, Adil Şıxverdiyevin, Bəxtiyar Əliverdiyevin, Sərvər Abdulkərimovun, Adil Salamovun, Sərhəd Zöhrabovun, Yaşar Kərimovun, Yavər Qaçarbəyovun, Firudin Qarabəyovun, Canəli Hörmətovun, Nuhbala Kərimovun və onlarca başqalarının adını çəkmək olar.

Qusarlılardan neçəsi hərb sahəsində çalışmaqla bərabər, bir çoxu da hüquq-mühafizə orqanlarında işləmiş,

yüksək vəzifə və rütbələr daşımışlar. Onlardan bir neçəsinin adını çəkirəm: General-mayor Ənvər Əkbər oğlu Mikayılov: Azərbaycanımızın ilk təyyarəçilərindən Xaliddin Məmmədxanovun, general-mayor Zabit Xiyirbəyovun, uzun illər daxili işlər orqanlarında rəhbər vəzifələrdə çalışmış, daha sonra Ədliyyə nazirinin birinci müavini işləmiş polkovnik Arzuman Zülfüqarovun, Müdafiə nazirliyinin hüquq idarəsinə rəhbərlik edən «Azərbaycan Bayrağı» ordeni ilə təltif olunmuş polkovnik Rauf Kişiyevin, general Zərifə Beybutovanın, Qazaxstanın daxili işlər orqanlarında çalışmış milis polkovniki İzamuddin Məsimovun, uzun illər Azərbaycan DİN-ində rəhbər vəzifələrdə işləmiş və vəzifə başında həlak olmuş, podpolkovnik Əziz Səfixanovun, briqada komandiri Kamil Səlimxanovun, gömrük xidməti polkovniki Zal Zalovun, uzun illər rayonlarda, eləcə də Qusarın hərbi komissarı vəzifəsində çalışmış İskəndər Quliyevin, uzun illər Azərbaycanımızın bir neçə rayonlarında daxili işlər şöbələrinin rəisi işləmiş, milis polkovniki Həmid Fərhadovun, bir neçə rayonlarda hakim və baş hakim işləmiş Fərhad Fərhadovun və başqalarının adını çəkmək olar.

Yeri gəlmişkən onu da qeyd edim ki, yuxarıda adları çəkilən polkovnik Arzuman Zülfüqarov barədə «Fəxrimiz Arzuman» və podpolkovnik Əziz Səfixanov barədə «Kişi ömrü» kitablarını da yazıb çap etdirə bilmişəm.

Onu da deyim ki, ermənilərlə aramızda olan son savaşda 100-dən çox qusarlı gənclər şəhidlik zirvəsinə yüksəlib, Allah dərgahına qovuşublar.

Vaxtı ilə Qusarın Xuluq kəndində məktəb müəllimi olmuş, Azərbaycan Dövlət Himninin sözlərini yazmış, başı olmazın müsibətlərini çəkmiş böyük şairlərimizdən





olan Əhməd Cavad yaradıcılığında Qusarın təbiətinə və insanlarına həsr etdiyi şeirləri olmuşdur. Bu yöndə, onun qədim xalq mahnısı «Perizada» oxuyan ləzgi qızlarının ümumi obrazını verdiyi «Pərizadə» şeirini oxucu diqqətinə çatdırıram:

*Süzər yaşılbaşlı sonalar kimi,*
*Oxur Pərizadə ləzgi qızları.*
*Dadmışlarmı nədir eşqin camını,*
*Gəlmişdir fəryada ləzgi qızları.*
*Bilməzlər ki, məndə bir qığılcım var,*
*Bircə zərrəsindən yanar dünyalar.*
*Etdilər könlümü yaxşı tari-mar,*
*Gəlməzlər ki, dadə ləzgi qızları.*
*Oynadaraq durur gözəl gözəli,*
*Eşq anlayanların yorulmaz əli.*
*Süzgün gözlərini yana süzəli,*
*Saldı məni oda ləzgi qızları.*

Bəli, gənc yaşlarında şairi oda salan ləzgi qızları, zaman keçəndən sonra Hüseyn Arifi yandırıb yaxdığından «Ləzgi qızı» şeirini yazdı və səkkiz bənddən ibarət olan həmin şeirini bu misralarla bitirdi:

*Zamanın köhləni yeyindən yeyin,*
*Başımın üstündən illər ötüşdü.*
*Heyf ləzgi qızı, sənin gəncliyin,*
*Hüseynin qocalan vaxtına düşdü.*

Qusar təbiətinin tərənnümü böyük şairimiz Səməd Vurğunun yaradıcılığında da öz əksini tapıb:

*Düşündürür məni bir sirli diyar,*
*Burda həqiqətlər, əfsanələr var.*
*Ürəklərdə axın, qollarda qüvvət,*
*Burda öz-özünə gülür təbiət.*

*Burda çiçəklərin, quşların dəmi,*
*Burda könüllərin əski həmdəmi.*
*Dumanlar içində duran hər qaya,*
*Göz vurur günəşə, göz vurur aya.*

*Dağların döşündən gedən cığırlar,*
*Qalmış babalardan bizə yadigar.*
*Başını dağlara vurur Şah dağı,*
*Alınır aləmdə onun sorağı.*

*Döşündən çağlayan soyuq bulaqlar,*
*Dilsiz əsrlərə xatirə saxlar.*

Şair dostumuz Oqtay Rza general-mayor Mahmud Əbilova ithaf etdiyi şeirində belə deyir:

*Vüsala yetməyə səbrim tükəndi,*
*Xatirə çiçəyi dərdim, general!*
*Ərzə göz açdığın səfalı kəndi,*
*Mən də öz gözümlə gördüm, general!*

*Müdrik, unudulmaz, fədakar insan!*
*Ən gözəl abidən mərd elindədir,*
*Özün Bakıdakı xiyabandasan,*
*İlk izin Uğurçay sahilindədir.*





Azərbaycan hərb tarixinin böyük tədqiqatçısı dostum Şəmistan Nəzirli özünün «Arxivlərin dili açılır» kitabındakı General-mayor Mahmud Əbilov yazısında general barədə ürəkdolusu söz deməklə yanaşı Qusarın təbiətinə olan vurğunluğunu da böyük məhəbbətlə bildirir: «Şahdağın döşünə sığınmış Qusar rayonunun Ukuz kəndini ilk dəfə görəndə ulu Zərdüştün sözlərini xatırladım: «Ormanı sevirəm. Şəhərlərdə yaşamaq pisdir, oralarda azğın çoxdur.»

Hələ sovetlər vaxtı general Mahmud Əbilov haqqında televiziya üçün veriliş hazırlamağa gedəndə bu kəndin əsrarəngiz təbiəti məni valeh eləmişdi. Göyləri dələn xan çinarları, min bir boran görmüş, yenilməz qəhrəmanlar kimi məğrur dayanan qocaman palıdları adamı heyran edirdi. Xoşsimalı, şirin ləhcəli, qonaqpərvər insanları isə bu kəndin yetirdiyi sərvətdir.»

Təkcə qusarlılara deyil, eləcə də Azərbaycanımıza başucalığı gətirən, adı ilə qürur duyduğumuz general – mayor Mahmud Əbilov barədə Qusar rayon tarix və diyarşünaslıq muzeyində saxlanılan ABŞ prezidenti Harri Trumenin general barədə dediyi sözləri fəxrlə oxuyuruq: «Ağ ev, Vaşinqton. İnformasiya legionu üçün sitat. Qızıl Ordunun diviziya komandiri Mahmud Əbilov 1943-cü ilin avqustundan 1945-ci ilin may ayınadək çox böyük mərdlik göstərmiş və ona etibar olunan döyüşlərə bacarıqla rəhbərlik etmişdir.

Diviziya onun komandanlığı altında döyüşə-döyüşə Desna çayını keçmiş, Narev çayının sahillərini tutmuş və faşist qoşunlarının böyük bir qrupunu darmadağın etmişdir. Bununla da ordunun əsas qüvvələrinin Berlinə doğru irəliləməsini asanlaşdırmışdır.

General Mahmud Əbilovun cəsur hərəkəti, şəxsi nümunəsi, rəşadəti və mərdliyi diviziya qarşısında qoyulmuş vəzifələrin yerinə yetirilməsinə çox kömək etmişdir.»

Bu baxımdan SSRİ Ali Soveti Rəyasət heyətinin sədri M.İ.Kalininin generala ünvanladığı məktub da dəyərlidir: «Hörmətli Mahmud Əbdülrza oğlu. Smolensk və Roslavl şəhərlərinin alınması əməliyyatına bacarıqla rəhbərlik etdiyinizə və faşist işğalçılarına qarşı döyüşlərdə qazandığınız uğurlara görə SSRİ Ali Soveti Rəyasət heyəti Sizi 1943-cü il 28 sentyabr tarixli fərmanı ilə ikinci dərəcəli «Kutuzov» ordeni ilə təltif etmişdir.

Həmin ordeni Sizə göndərir və əlinizi möhkəm sıxıram.

M.İ.Kalinin»

---

Sədaqət Kərimovanın «Qusar, qusarlılar» kitabında coğrafiya elmləri doktoru, akademik Budaq Budaqov Qusarla bağlı dediyi bu sözlər maraqlı və könül oxşayandı:

«Həyatımın böyük bir hissəsi Qusarla bağlı olub. Namizədlik və doktorluq dissertasiyamı bu rayonda apardığım elmi tədqiqatların nəticəsi kimi müdafiə etmişəm. Azərbaycanda Qusara bənzər ikinci rayon yoxdur. Onun relyefi okean səviyyəsindən 28 metr yüksəklikdə başlayır və 4300 metrə qədər ucalır. Belə relyef burada bir neçə landşaft qurşağının yaranmasına səbəb olmuşdur. Çəmənlər, kolluqlar, meşələr, yastanlar, dərələr, orta və yüksək dağlıq əraziləri, alp çəmənlikləri bir-birini əvəz edir.»

Zaman-zaman söz ustaları, alimlər, bir sözlə yaradıcı adamlar təhsilin, elmin tətbiq olunmasını ictimai mühitə





bağlamış və bununla bağlı olan böyük çətinliklərin, imkansızlığın, ağır şəraitin aradan götürülməsini arzu etmiş, daha böyük təhsil və söz meydanı arzusunda olmuşlar. Bu baxımdan təhsil ocaqlarının məqsəd və amalı tələbələrin elm və təhsilə yiyələnməsi ilə yanaşı, onların Azərbaycanımızın əsl vətəndaşı kimi boy atmasına, keçmişimizi, bu günümüzü dərindən dərk etməsi, gələcəkdə bu sərvətə sahib ola bilməsi bacarığı aşılanmasındadır. Bu yöndə Qusardan, eləcə də əsərimizin qəhrəmanı Zeynəddin Çələbovun doğulduğu rayonun ən qədim və böyük kəndi olan Hildən dünyamıza boy atmış bir çox dəyərli insanlar, eləcə də alimlər olmuşdur. Onların bir neçəsi ilə tanış olaq.

Kərim Kərimov, Kamal Abdullayev, Arif Şıxverdiyev, Kamil Aydazadə, Qavril İlizarov, İbrahim Novruzbəyov, Tofiq İsmayılov, İkram Novruzbəyov, Geylani Pənahov, İbrahimxəlil İbrahimxəlilov, Əhmədxan Əlimov, Yarəli Yarəliyev, Həsənbəy Arazov, Sərhəddin Abdullayev, Tarıqulu Əmiraslanov, Siracəddin Sərkərov, Hacağa Əmirquliyev, Qanbay Xanməmmədov, Oqtay Xanməmmədov, Tofiq Xanməmmədov, Zərifə Xanməmmədova, Gerasim Rüstəmov, Nurəddin Həbibov, Abdulla Orucov, Əşrəf Balamətov, Abdulla Əhədov, Əli Musayev, Nazim Əmirov, Ağaverdi Ağaverdiyev, Vahid Qədimov, Kamil Hacımuradov, Bəhram İslamov, Bilal Kiçibəyov, Şaiq Şıxkərimov, Eyvaz Eyvazov, Məhəmməd Azayev, Rafiq Nurmətov, Meyvəddin Hacıyev, Fəxrəddin Aydayev, Əlisultan Quliyev, Güli Əzizov, Ələddin Həkimov, Rauf Əmirov, Nizaməddin Əliyev, Cavid Qaziyev, Elmar Nurməmmədov, Fikrət Əmirbəyov, Elxan Osmanov, Fedik Rəhimov, Yusif Yüzbəyov, Validə

İsazadə, Muradağa Muradağayev, Benyaməddin Davudov, Səmayə Əfəndiyeva, Raya Mustafayeva, Afər Əlifov, Akif Xıdırov, Zeynab Abdullayeva, Həcər Əmirova, Arif Həsənov, Qalib Quliyev, Nigar Kərimova, Kəmalə Burziyeva, Nigar Muradova, Məmləkət Pirimova, Qazıməmməd Məmmədxanov, İdris Əmirbəyov və onlarca başqaları. Azərbaycanımızda, eləcə də dünyamızda ad-san çıxarmış neçə-neçə idmançıları da var Qusarın. Onlardan bir neçəsinin adını çəkirəm: Şəkərxan Əlismanov, Rəcəblilər ailəsi – Əhməd Rəcəbli, Fərhad Rəcəbli, Məmməd Rəcəbli, Əhəd Rəcəbli və Elxan Rəcəbli, daha sonra Nazim Hüseynov, Kamran Məmmədov, Samir Sərkərov, Timur Əlixanov, Nofəl Musayev, Elnur Qazıməmmədov, Fəridə Əzizova, Zamiq Məmmədov, Vasif Qurbanov, Kamran Fərzəliyev, Nasir Məmmədəliyev, Ceyhun Paşayev, Rəşad Mədətov, Valeh Əmirəliyev, Ruslan Ramazanov, Fariz Ağasiyev, Azər Əliyev, Pərvin Həsənov, Hacıbala Hacıbalayev, Afət Əliverdiyeva, Ənixli Abdulbəy və oğlanları – Adil, Qabil və Habil, daha sonra Fərhad Mərdanov, Aelita Xələfova, Maksim Müslümov, Şövkət Orduxanov, Dadaş Şirinov, Cəlil Mustaqov, Hüseynbala Ağayev, Əliyullah Nacarov, Şahlar Mustafayev, Rauf Qazıxanov, Carullah Şinğarov, Fikrət Qardaşov, Həbibullah Ağalarov, Kamran Qəribov, İlqar İsrafilov, Nazim Rüstəmov, Roman Muradov və övladları – Sevda və Gülnarə Muradova.

Tamaşaçıları hayıl-mayıl qoyan qusarlı kəndirbazlar da həmişə alqışlarla qarşılanıb. Bu yöndə Qasımın, Vitalikin, Seymurun, Abdullanın, Əlimin, Carullah Mirimovun adlarını çəkmək olar.





Qusarlıların tanınmışlarından üç nəfər: 1928-ci ildə Qusarda anadan olmuş Qabil Səmədov neçə illər rəhbər vəzifələrdə işləyib. O, düz 8 il Dəvəçi rayon Partiya Komitəsinin birinci katibi olub.

Əslən rayonun Ukur kəndindən olan Elçin Oktyabr oğlu Əmirbəyov respublikamızın tanınmış diplomatıdır. O, Azərbaycanın İsveçrədəki fövqəladə və səlahiyyətli səfiri olmuş, hazırda isə Azərbaycanın Fransadakı səlahiyyətli səfiridir.

Qusarın Xuray kəndindən olan Nizaməddin Ağamurad oğlu Ağamuradov bir sıra məsul vəzifələrdə çalışmış, xidmətlərinə görə ən yüksək adlarla mükafatlandırılmış - «Lenin ordeni», «Qızıl ulduz» və «Qırmızı əmək bayrağı» ordenləri ilə təltif olunmuş, 1971-ci ildə «Sosialist Əməyi Qəhrəmanı» adına layiq görülmüşdür.

Ta uzaq keçmişdən bu günə kimi qusarlılar arasından öz sözü, öz yazısı ilə tanınan bir çox simaları olub. Bu yöndə öyrənib-bildiklərimdən, ayrı-ayrı qaynaqlardan oxuduqlarımdan araya çıxardıqlarım bunlardır: XIX əsrin sonları və XX əsrin əvvəllərində 20 ildən çox Quba əyalətinin qazisi olmuş Məhəmməd Şərif Əfəndi. Daha sonra Abdulhey Əfəndi, Sudurlu şair Stur Dalah, urvalı ləzgi Əhməd, Şeyx Şamilin silahdaşlarından tahircallı Əmirəli Tihircalvi, gədəzeyxurlu Sayad Pəri, Əmiraslan Ganidin, həzrəli İshaq Əfəndi, Aşiq Yəhya, Kasıb Abdullah (İmamqulu kəndindən), Xuluq kəndindən Xuluqvi Abdulcəlil, Əvəcuqlu Məhəmməd Səid Əvəcugi, Gündüzqala kəndindən Nurəddin Şərifov, İmamqulu kəndindən Zabit Rizvanov, Sudur kəndində anadan olmuş, Dağıstanın xalq şairi Bayram Səlimov, Əcəxurlu ləzgi Nemət, Urvadan Rasim Hacı, Dağıstanın Xalq artisti Əcəxurlu

Asəf Mehman, İzzət Şərifov, Avaran kəndindən Yadulla Şeydayev, Sudurdan Kələntər Kələntərli, Əmir Mustafayev, Aşiq Nüsrət (Bədişqala kəndi), Əcəxurdan Şəmsəddin Piroğlanov, Həzrədən Mirzəli Rüstəmov, Hildən Yusif Hacıyev, Əvəcuq kəndindən Məhəmməd Ağa, Qilah kəndindən Qilah Qüdrət, Aşağı Ləyər kəndindən Əziz Mirzəbəyov, Düztahir kəndindən Teyruz Bədəlov, Həzrə kəndindən Hacıbala Yargünvi, Sudur kəndindən Etibar Sturvi, əslən Qusarın Yasab kəndindən olan Ramiz Qusarçaylı, Niyaz Əli Paşayev, Yunus Bağırov, Həsən Xasiyev, Finyaz Nurəliyev, Zərifə Qasımova, Mənsum Mənsumov, Gülbəs Aslanxanova, Mədət Ərzimanov, Eyvaz Güləliyev, Nazir Gülmətov, Vaqif Müskürli, Şafiddin Gərəyxanov, Əfruz Rəhimova, Fəxrəddin Orucov, ləzgi Bəhlul, Abdulhəlim Əhmədzadə, Bacıxanım İsayeva, Bəybala Ələsgərov, Məmmədağa Sərdarov, Rimma Hacımuradova, Əhmədbəy Şıxqayıbov, Roza Şərifova, Fikrət Xıdırov, Anelya Orduxan, Seyidmət Samuri, Kamran Qurbanəliyev, Qəhrəman Yaqubov, Sönməz Xanmirzəyev, Pevriz Pirəliyeva, Abir Eçexvi, Saimat Şıxqayıbova, Meyram İbrahimova, Ağaverdi Əliverdiyev, Əlimurad Əlimuradov, Məclum Fərzəliyev, Mehdi Paşayev, Vəlixan Davudov, Şəmsəddin Şərifov, Məlahət Gülməmmədova, Şıxzada Vələdov, Kamilla Hətəmova.

Bir vaxtlar «Qığılcım» və «Sosializm tempi» adlanan, indi isə «Qusar» adı ilə müntəzəm olaraq çap olunan rayon qəzetinə rəhbərlik edən jurnalistlər olub – Nurəddin Şərifov, İbrahim Məcidov, İlyas İlyasov, Qaçabəy Nağıyev, İbrahim Məcidov, Əli Səlimov, Ənvər Şahvələdov, Həmid Əliyev, Səlimxan Əzizov, Nüsrət







Zeynəddin Çələbov, Şahdağına gedən yolda



Zeynəddin Çələbov və ömür yoldaşı Şərqiyyə xanım



Zeynəddin müəllim, qayınatası Rəcəb Qayıtmazov, qayınanası Fatimə xanım və qaynı Eyyubla







Ömrün tələbəlik illəri. Ön cərgədə soldan ikinci Zeynəddin Çələbov. 1953



Zeynəddin Çələbov orta məktəbin müəllimləri arasında, ön cərgədə sağdan üçüncü. 1956



Hərbi xidmətdə, Zeynəddin Çələbov ortada



Zeynəddin müəllimin bacısı Gülayət Çələbova



Tələbəlik illəri. Soldan Zeynəddin Çələbov və tələbə yoldaşı Ziyəddin







Sağdan birinci Zeynəddin müəllimin anası Cağa xanım



Zeynəddin müəllimin böyük qardaşı Mövlüd Çələbov. 1942



Zeynəddin müəllimin kiçik qardaşı Müzafəddin. 1949



Ön cərgədə Şərqiyyə xanımın qardaşı
Rahib ömür yoldaşı Evsiyadla



Zeynəddin müəllimin
bacısı Sadirə xanım



Tələbəlik illəri. Sağdan Zeynəddin Çələbov
tələbə yoldaşı Əlrza Əlrzayevlə birlikdə







Zeynəddin Çələbov. Ömrün gənclik illəri



Zeynəddin Çələbov və həmyerlisi general-leytenant Ənvər Mikayılov



Z.Çələbovun dostu Professor Xəlil Əlmirzəyev



Ortada prof. Q.A.İlizarov, sağdan üçüncü Z.Çələbov, soldan ikinci İlizarovun aspirantı olmuş prof. Məmməd Cabbarov





Mustafayev, Bahadur Qacabəyov. Son illər həmin qəzetə rəhbərlik edən, sələflərinin yolunu davam etdirən isə baş redaktor Vidadi Sevzixanovdu.

**Milliyyətcə tanınmış dağıstanlı ləzgilər**

Miqraq Qəmər - 1425-1460
Küçxur Səid – 1967-1812
Məhəmməd Yaraği – 1770-1840
Həsən Alqadari – 1834-1910
Yetim Emin – 1838-1885
Süleyman Staliski – 1869-1937
Xürüq Tahir – 1893-1958
Ziyauddin Əfəndiyev – 1903-1980
Əlibəy Fəttahov – 1910-1935
Qiyas Məcidov – 1911-1974
Şahəmir Muradov – 1913-1995
Əlirza Səidov – 1932-1978

**Qusarlı bəstəkarlar, musiqiçilər və s.**

Fətullah Rəhimxanov – 1924-1999 – Köhnə Xudat, bəstəkardır.

Ömər Abusalat oğlu Əyyubov Aşağı Ləyər. Bəstəkar, 1970-ci ildən «Dağıstan respublikasının xalq artisti» adına layiq görülüb

Əjdər Əlifxan oğlu Gərəyxanov 1920-1959. Qusarda anadan olub. Bəstəkardır.

Sülhiyət Hacıyeva 1947-ci ildə Urfa kəndində anadan olub. Dağıstanda yaşayır, ləzgi mahnılarının mahir ifaçısıdır. O, «Rusiya Federasiyasının əməkdar incəsənət xadimi» və 2003-cü ildən «Dağıstan Respublikasının xalq artisti» adına layiq görülüb.

Əkbər Fərzəli oğlu Fərzəliyev, 1932-1999. Tanınmış kino aktyoru.

Aliyə Ramazanova, Piral kəndindəndi, rəqqasədi, 1982-ci ildən «Azərbaycan Respublikasının əməkdar artisti» fəxri adına layiq görülüb.

Qəni Qəniyev – Xuluq kəndində anadan olub. «Şahdağ» mahnı və rəqs ansamblı onun təşəbbüsü və rəhbərliyi ilə yaranıb.

İmaməli İlyasov, 1927-ci ildə Hil kəndində anadan olub, tanınmış musiqiçi, müğənni və aktyordur.

Nora Əlimova, müğənni və rəqqasədir. 1962-ci ildə Nora «Çiçəklən doğma Azərbaycan» festivalının laureatı olub.

Zeynal Cigərxanov 1962-ci ildə Əcəxur kəndində anadan olub. Tanınmış rəqqasdır.

Qusar şəhər mərkəzi kitabxanasının direktoru işləyən Zahir Mustafayev 1959-ci ildə Çiləgir kəndində anadan olub. Vaxtı ilə Qusarda yaradılmış «Trillo» folklor ansamblında uğurla çıxış edib.

Ləzgi Oqtay Hil kəndindəndi. Bəstəkar və müğənni olub, gənc yaşından dünyasını dəyişib.

Vidadi Zülfüqarov – Gündüzqala kəndində anadan olub. Bəstəkardır. 1984-cü ildə rayonda yaradılmış «Şahdağ» adlı vokal-instrumental ansamblının rəhbəridir.

Noviddin Cığarov – 1948-ci ildə Düztahir kəndində anadan olub, qara zurnanın mahir ifaçısıdır. 1992-ci ildə Türkiyədə keçirilən «Türk muzik dünyası» festivalının laureatı olub. O, həm tütəkdə, qaboyda, balabanda və nağarada də məharətlə çalır.

Faid Ağayev «Şahnabat» ansamblının rəhbəridir. O, musiqi alətlərində məharətlə çaldığı kimi və bir müğənni kimi könülləri fəth edir.





Faiq Qardaşov, 1960-cı ildə Qusarın Əcəxur kəndində anadan olub. «Qayi bulaq» ansamblının rəhbəri və Rayon Mədəniyyət Evinin direktorudur.

**Qusarlı rəssamlar**

Əliyar Əlimirzəyev «Azərbaycanın Əməkdar» rəssamıdır.

Seyfəddin Seyfəddinov 1952-də Qusarın İmamqulukənd kəndində anadan olub. Dağıstanın əməkdar rəssamıdır. Onun qardaşı Ayzek də rəssamdır.

Mahmud Çələbov 1935-ci ildə Qusarın Gündüzqala kəndində anadan olub.

Şahlar Əlirzayev Əvəcuq kəndindəndir.

Neva Ağaliyeva Qusarda anadan olub.

Rüstəmbəy Nağıyev

Bahar Nurəliyeva

Günel Hacıbalayeva

Qeybulla Məmmədov Aşağı Ləyərdəndi, vəfat edib. Onun çeşidləri ilə yeni-yeni xalçalar toxunub.

**XVI əsrdən XX əsrin ikinci yarısına, eləcə də XX əsrin ikinci yarısından bu günlərə kimi təhsil sahəsində xüsusi xidmətləri olanlar**:

Şıxım Əfəndi

İbrahim Əfəndi

Mirzə Əli Əfəndi

Molla Carulla

Cami Əfəndi

Şərif Əfəndi

Abdulla Əfəndi

Mahmud Əfəndi

Şəfullah Aslan oğlu Hacızadə.

O 1932-ci ildə ilk dəfə Hil rayon maarif işçiləri həmkarlar ittifaqının sədri olub.

Hacı Cavad

Zəki Əfəndi

Mehman Abdullayev

Qarabəy Səlimov («Lenin ordeni» və «Azərbaycan əməkdar müəllimi» fəxri adına layiq görülüb»)

İlyas İlyasov

Güllü Şahmərdanova, onun qızı – Sara Şahmərdanova

Əli Mücrüm Tağızadə

İsmayıl Pirimov, Nürmət Zəkiyev

Hüseyn Musayev, Ənvər Həsənov

Səid Əmirov, Əziz Hacıyev, Abdulhaşım Məcidov, Zal Zalov, Nemət Nemətov, Xuzəmməd Qədimov, Umuyat Səmədova, Səbri Babayev, Yafəz Əhmədov, Niyaz Əmirbəyov, Bəsirə Kərimova, Yevgeni Şubin, Hikmət və Hörmət Ağacanov qardaşları

**Səhiyyə sahəsində çalışanlardan**:

Qusarın ilk səhiyyə şöbəsinin rəhbərlərindən biri – İbrahim Abduləziz oğlu Mirzəquliyevdir.

**Daha sonra bu yöndə xidmətləri olanlar: -**

D.Sultanov, A.Qədimov, A.İsaxanov, D.Əhmədov, A.Quliyev, Ş.Paşayev, S.Rəhimov, A.Mirzəyev, Ə.Kərimov, Ə.Əzizov, N.Hacımuradov, M.Babaxanov, P.İbrahimov, S.Bağırov, A.Şıxəliyev, V.Mehdixanov, M.Kərimov, İ.İsgəndərova, N.Şirinov, V.Mehdixanov.

Asim Uluxanov – Bakıda 1 saylı xəstəxananın həkimidir.

Nəriman Osmanov rayonun Samur qəsəbəsindəki xəstəxananın baş həkimidir.





**Xeyriyyəçilər**:

Qusarın Xural kəndindən Bakıda yaşayan Rauf Məmmədzadə, Şeyx Abdulrza, oğlu Salah və Salah oğlu Nəzər, Salah oğlu Carullah, Şəfullah Aslan oğlu Hacızadə, Xanbaba Səfərov, Hacı Cavad (Xuluq kəndi) və Nurullah Qədimov «Qırmızı Oktyabr» kolxozunun sədri olub.

Moskva böyük şəhərdi, əlbəttə o şəhəri sevirəm, amma ailəm mənə daha əziz və doğmadır. Bir vaxtlar təxminən belə deyib Dağıstanın xalq şairi Rəsul Həmzətov. O baxımdan Bakını da, Qusarı da sevir və əzizləyir Zeynəddin müəllim. Onun üçün daha əziz, daha doğma, daha mərhəm, daha münus, bir sözlə ona bir köynək yaxın olanı dünyaya göz açdığı, ağrı-acılı uşaqlıq illərini yaşadığı ata ocağı, ana yurdu, özü demişkən beşiyi timsalında ulu keçmişi olan Hil kəndidir. Ona görə də o kənd barədə söz açmağı özümə borc bildim.

Hil kəndi barədə «Azərbaycan toponimləri» kitabında göstərilir ki, toponim Qafqaz Albaniyasında yaşamış «gel» tayfasının adını əks etdirir. XIX əsrdə Hiloba, Tamuskən, Survanbəy, Xıdırbəy, Tulab, Köçərquş, Tumalar, Xıdırbəy qazmaları həmin kənd əsasında yaradılmışdır.

**Hil kəndinin keçmişi, bu günü, təbiəti, tanınmış adamları barədə:**

Yazıçı – publisist, şair və jurnalist Sədaqət xanım Kərimova, 2011-ci ildə çap etdirdiyi «Qusar, qusarlılar» kitabında xeyli geniş, ətraflı və kamil yazı verdiyindən mən Zeynəddin Çələbovun ömür yolundan yazdığım bu kitabımda qəhrəmanımın doğulub boya-başa çatdığı həmin kənd barədə əlavə məlumat axtarmalı olmadım və

müəyyən ixtisar və əlavələrlə həmin yazıdan istifadə etdim:

Qədim hel tayfasının adı ilə olan Hil kəndinin tarixi 3 min ildən çoxdur. Azərbaycan arxeoloqları bu fikri kənddə 1976-cı ildə apardıqları arxeoloji qazıntılardan sonra bir daha təsdiq etmişlər.

Qədim zamanlardan hel tayfasının adını qorumuş hillilər hər sahədə üç cür seçilir: Onlar vətənə bağlı adamlardır, usyankar ruha malikdirlər və sənətkardırlar.

Suval meşəsində məskən salmış qədim kəndin dörd tərəfi qayalar idi. İndiki kənd «Şahnəzər təpəsi, «Semiz təpəsi» və «Musa təpəsi» adlı üç təpədə yerləşir. Onun IX-X əsrlərdə dağılmış üç kənddən - Kəmsil, Cənnət və Səfiqulu kəndlərinin əhalisi tərəfindən salındığını deyirlər. Kənddə üç məşhur pir var: Qarabuba, Murad və Rutar. Burada qədim qəbiristanlıqlar da üçdür. Onların yaşı 3 min ildən çoxdur.

Qusarlı alim, tarix elmləri doktoru Abidulla Orucov və Qubanın Xucbala kəndindən olan məşhur arxeoloq Cabbar Xəlilov 1977-ci ildə çap olunmuş «Azərbaycan SSR Elmlər Akademiyasının xəbərləri»ndən birinci çap etdirdikləri «Qusar rayonunun Hil kəndindən tapılmış bəzi arxeoloji nümunələr haqqında» adlı məqalədə, eləcə də C.Xəlilovun, Q.Qaşqarlının, R.Arazovanın 1991-ci ildə rus dilində nəşr etdirdikləri «Şimal-Şərqi Azərbaycanın arxeoloji nümunələri» kitabında qədim kəndin 3 min illik tarixi olduğunu qeyd etmişlər. Bu məlumatlarda Hilin Qafqazın qədim kəndlərindən olduğunu qeyd etmiş. Sonralar bura qarq tayfasından da bir neçə ailə köçmüşdür. Kəndin nəsilləri arasında qarqarların xələflərinə indi də rast gəlinir.





Üç qəhrəman bu kəndin adını hər yerdə məşhur edib: XIII əsrdə pəhləvan Şuval, XVII əsrdə Abdullah, XIX əsrdə Yarəli.

1837-ci ildə Quba üsyanı zamanı böyük qəhrəmanlıqlar göstərən Yarəli rusların qoşunundan bir dəfə 200, bir dəfə isə 68 kazakı əsir alır. Həmin il sentyabrın 5-də Quba qalasına girən rus əsgərlərinə qarşı döyüşən Yarəli ilə birgə onun oğlu Rəcəb və hilli Yunus da böyük qəhrəmanlıqlar göstərir.

Üsyankar ruhu ilə seçilən hillilər 1915-1916-cı illərdə Quba qəzasında ilk olaraq vaxtilə çarın onlardan aldıqları torpaqları geri alırlar. Sonra isə onlar hökumətə xərac verməkdən imtina etdilər. Rus imperatorunun əlaltıları 300 kazakın köməyi ilə hilliləri ram etmək istəyir. Lakin Əlisultanın rəhbərliyi altında hillilər kazakları kənddən qovurlar.

Üç böyük sənətkar nəinki Hilin, eləcə də bütün ləzgilərin mədəniyyətini yüksəklərə qaldırıb. VII-VIII əsrlərə aid «Alupan ulub» kitabında yazıldığı kimi məşhur hilli usta İlebis, müskürlü Kiril, Küre vilayətinin sakini Şarvan, şamaxılı Miflillə birlikdə Şamaxı qalasını, Şəkinin Keli qalasını, Qəbələ və Qum qalalarını tikmişdir... XVIII əsrdə yaşamış hilli Məhər taxta üzərində naxışlar açan sənətkar kimi məşhur idi. XX əsrdə yaşamış Qırmızı Əmək Bayrağı ordenli Zibeydə Mikayıl qızı Şeydayeva xalçaçılıq sənətini bütün dünyaya tanıtdı. Bu qadın ləzgi xalçalarının səkkiz yeni çeşidini yaradıb.

Üç dövr hillilərin tarixinə Qusarın kəndlərinin mərkəzi kimi düşüb: XV-XVII əsrlər, XIX əsr və sovet dövrünün ilk illərində rayon mərkəzinin burda olduğu dövr.

1920-ci ildə Nəriman Nərimanov da bu kənddə beş gün qonaq olub.

Kənddəki məscid binasının yaşı 100-ü keçibdir. Ötən əsrin 50-ci illərində kəndə su çəkdirmiş kolxoz sədri Mahmud Hacıyev və partkom Mülkixan Abilovun adlarını hamı hörmətlə çəkir.

**Hil alimlər kəndi kimi də məşhurdur.** Burdan riyaziyyat elmləri doktoru, professor Kərim Kərimov, kimya elmləri doktoru, professor Meyvəddin Hacıyev, kimya elmləri doktoru Hacağa Əmirquluyev, riyaziyyat elmləri doktoru Əhmədbəy Məmmədov, elmlər namizədləri – Laçın Laçınov, Benyaməddin Davudov, Şafiddin Gərəyxanov, Mehdi Balayev, Rafiq Salahov, Mahir Mustafayev və başqaları çıxıb.

Hil həmçinin partiya və ictimai xadimləri, tanınmış hərbçiləri, hüquq – mühafizə orqanları əməkdaşları, eləcə də yaradıcı adamları ilə də tanınır.

Hil kəndindən tanıdığım ilk insan Əlisultan Quliyev olub (sözlər müəllifindir – E.Şahmar). Mən 1963-68-ci illərdə Azərbaycan Dövlət Universitetinin tələbəsi olduğum illərdə bizə «Partiya tarixi»ndən dərs deyən Əlisultan Yarəli oğlu Quliyev əslən Qusarın Hil kəndindən idi. Onun ailəsi sonralar Qubanın Digah kəndinə köçüb. O, bir sıra məsul vəzifələrdə çalışıb. Qusar rayon Partiya Komitəsinin katibi, Salyan və Şamxor (indiki Şəmkir) rayon partiya komitələrinin birinci katibi vəzifələrində çalışmış, 1939-1942-ci illərdə Azərbaycan SSR Ali məhkəməsinin sədri olmuşdur. Əlisultan Quliyev Azərbaycan KP MK-nın üzvü olmuş, iki dəfə Respublika Ali Sovetinin deputatı seçilmiş, Lenin ordeni və Qırmızı Əmək Bayrağı ordenləri ilə təltif olunub. O, uzun müddət elmi





fəaliyyətlə məşğul olmuş, 1948-ci ildə aspiranturanı bitirmiş, ilk əvvəl tarixdən namizədlik dissertasiyasını, 1965-ci ildə isə doktorluq dissertasiyasını müdafiə etmiş, uzun illər universitetin professoru kimi fəaliyyət göstərmişdir.

1901-ci ildə dağlar qoynunda dünyaya göz açan Əlisultan Quliyev 1980-cı ildə dünyasını dəyişib.

Əlisultan müəllimin özünə məxsus dərs demək metodu vardı. Mühazirələrdə keçdiyi mövzuya uyğun olan əhvalatlar, hadisələr, rəvayətlər, hətta lətifələr danışardı. Seminarlarda tələbəni lövhənin qarşısında yox, eləcə durduğu parta arxasında dinləyər və xüsusi bir vərəqdə biliyini qiymətləndirər, imtahan və zaçotlarda həmin qiymətləri nəzərə alardı.

Yaxşı yadımdadır, bir dəfə seminar zamanı heç birimizin cavabı müəllimimizi qane etmədi. Qayıdıb misal çəkdi: Deyirlər ki, bir nəfər kişinin boynun ardına çivan çıxmış imiş, kişi iki arvadından əvvəl birini, sonra da o birini çağırıb çivanın yetişib-yetişməməyini onlardan soruşur. Arvadlardan birincisi deyir ki, çivan hələ yetişməyib, ikincisi isə deyir ki, çivan yetişib, onu deşmək lazımdır. Kişi də yana-yana deyir ki, işə bax, iki arvadımdan biri boynumdan başıma xəbər verə bilmir. Əlisultan müəllim sonra da qayıdıb bunu əlavə etdi: indi də 25 nəfər tələbəmdən biri kitabdan mənə xəbər verə bilmir ki, bilmir.

Müəllimim məni nadinc, ipə-sapa yatmayan tələbə kimi tanıyırdı, ona görə də seminarlardakı cavablarımı da yetərincə dinləməz, eləcə əlini yelləyib narazılığını bildirərdi. Tək bir dəfə müəllimimi razı sala bildim. O gün seminarımız mövzuya uyğun olaraq müəllimimizin kitabından idi. Mən də mövzunu olduqca gözəl hazırla-

mışdım. Tələbələrin heç birinin cavabı müəllimi qane etmədi, ona görə də danışıqlarını yarı-yarımçıq kəsirdi. Sonda təkcə mən qalmışdım. Narazı və ümidsiz halda üzümə baxıb, hə, başla görək sən hansı dərənin suyunu qatıb-qarışdıracaqsan. Mən də çox aydın və məntiqli danışmaq üçün bütün bacarığımı, səriştəmi və bilgimi işə saldım. Yaxşı yadımdadır, müəllimimin üzərimdə olan heyrətedici baxışları. Mövzunu danışıb qurtarandan sonra Əlisultan müəllim mənə yaxınlaşıb əlini çiynimə qoydu və fəxrlə dedi - «çox sağ ol» və «məni bağışla ki, bu günə kimi səni birtərəfli tanımışam, sənin kamalını düzgün qiymətləndirməmişəm». O gündən müəllimin mənə olan münasibəti yaxşı mənada dəyişdi, imtahanda da, məndən heç nə soruşmadı, sadəcə imtahan vərəqimin nömrəsini soruşub, qiymət kitabçamda mənə kök bir əla yazdı.

## Hil kəndinin tanınmışları barədə daha bir neçə söz

**Müslüm Kürəbəy oğlu Murtuzayev** nəinki Hil kəndinin, Qusarın, eləcə də respublikamızın tanınmış simalarından biridir. Onun ürəyi həmişə qurub-yaratmaq yanğısı ilə döyündüyündən işlədiyi vəzifələrdə, eləcə də Qusarda bir çox tikinti-təmir işləri apartdırmış, böyük abadlıq işləri görmüşdür. O, bir neçə rayonlarda partiya işinə rəhbərlik etmişdir. Bu yöndə Qusarın, Gəncənin, Kəlbəcərin adını çəkmək olar. Eyni zamanda M.Murtuzayev Azərbaycan KP MK-da da məsul vəzifədə də çalışmışdır. Ən əvvəl Qusar rayon PK-də partiya kabinetinin müdiri, şöbə müdiri, ikinci katibi işləyən Müslüm Murtu-





zayev sonralar ayrı-ayrı zaman kəsiyində üç dəfə Qusar rayon Partiya Komitəsinin birinci katibi vəzifəsində çalışmış, rayon əhalisinin hörmət və ehtiramını qazanmışdır. Böyük inamla deyə bilərəm ki, ona olan hörmət və ehtiram onun vəfatından xeyli keçməsinə baxmayaraq bu gün də davam edir və nə vaxt söhbət düşürsə barəsində xoş söz deyib, rəhmət oxuyurlar. Bu isə Müslüm Murtuzayevin ikinci ömür yoludu – şərəfli ömür yolu.

* * *

**Zabit Sabir oğlu Xiyirbəyovun** soykökü rayonunun Hil kəndindəndir. O, 1968-ci ildə Qusar şəhərində anadan olub. Orta təhsilini doğma rayonunda alan Zabit hərbi xidmətini Gürcüstanda keçirib, 1992-ci ildə Ryazan Ali Hərbi Avtomobil Mühəndisliyi məktəbini bitirib. Əmək fəaliyyətinə Dağıstanın Buynaksk şəhərində başlayıb. Az vaxt ərzində leytenant, dörd ildən sonra mayor, 1999-cu ildə isə podpolkovnik rütbəsinə layiq görülür. O, yaşadığımız əsrin əvvəllərində Rusiya Federasiyası Silahlı Qüvvələri Ümümqoşun Akademiyasında da təhsil alır və təhsilini başa vurduğu ərəfədə polkovnik rütbəsinə layiq görülür.

Zabit Sabir oğlu təhsilini başa vurduqdan sonra Rusiyanın Amur vilayətinin Beloqorsk şəhərində hərbi xidmətini davam etdirir. Hazırda ordu komandanın müavini və silahlanma üzrə qərargah rəisi vəzifələrində çalışan Z.Xiyirbəyov çiyinlərində general-mayor rütbəsi gəzdirir.

* * *

**Ənvər Əkbər oğlu Mikayılov** 1938-ci ildə Hildə anadan olub. 2001-ci ildə dünyasını dəyişib. O, orta məktəbi

doğma kəndində bitirmiş və ali təhsilini M.F.Axundov adına Azərbaycan Dövlət Xarici Dillər institutunda alıb. Ə.Mikayılov Azərbaycan KP MK-da əmək fəaliyyətinə başlayıb. İngilis, rus, türk və ərəb dillərini yetərincə bilən Ə.Mikayılov 1970-ci ildə Moskvada, SSRİ XİN-nin Ali Diplomatiya Akademiyasını da bitirib, bir müddət SSRİ XİN-də məsul vəzifədə çalışıb, sonra Yəməndəki səfirlikdə ikinci katib, daha sonra isə birinci katib kimi fəaliyyət göstərib. 1985-ci ildə ona SSR səfirinin müşaviri dərəcəsi verilib. Ə.Mikayılov 1996-cı ildə Səudiyyə Ərəbistanında səfirin müşaviri təyin olunur, 1999-cu ildə Rusiya Federasiyasının səfiri diplomatik dərəcəsi alır və general-mayor rütbəsinə kimi yüksəlir.

Ömrünün çox payını vətəndən uzaqlarda yaşayıb - işləyən general-mayor Ənvər Mikayılovun son arzusu doğma Hil kəndində əbədiyyətə qovuşmaq olub və onun bu arzusu çin olub.

* * *

**Şair Ramaldan oğlu Ramaldanovun** atası Hil kəndindəndir və o sonralar Xaçmaz rayonunun Xudat yaşayış məkanına köçüb. Və Şair 1957-ci ildə Xudatda anadan olub. Şair Bakıda C.Naxçivanski adına hərbi, Bakı Ali Ümumqoşun Komandirləri məktəbini və Moskvada M.V.Frunze adına Hərbi Akademiyada təhsil alıb. O, 1993-cü ilin oktyabrında Respublikamızda briqada komandiri vəzifəsinə təyin olunub. 1994-cü ildə erməni təcavüzkarlarına qarşı vuruşda onun rəhbərlik etdiyi briqadanın xeyli uğurları olub. Onun məqsədyönlü hərbi əməliyyatlarının uğuru rəhbərlik tərəfindən yüksək dəyərləndirilmiş və o, polkovnik rütbəsinə yüksəlmiş, prezident fərmanı ilə iki dəfə «Azərbaycan Bayrağı» ordeni ilə təltif





olunmuş. Daha sonra o, Korpus komandiri vəzifəsinə təyin olunub. Bir müddət Müdafiə nazirliyində məsul vəzifələrdə işləyib, daha sonra o, Hərbi Akademiya rəisinin tədris işləri üzrə müavini kimi işini davam etdirir. Bu vaxta kimi Şair Ramaldanovun hərb sahəsində bir xeyli dərs vəsaiti çap olunub və onlar dəyərli dərslik kimi hərbi hissələrdə və hərbi tədris müəssisələrində tədris olunur. Demək olar ki, ramaldanovlar hərbçilər ailəsidir. Şair Ramaldanovun bacısı və iki qardaşı – İlhamla Elman da hərbçidir. Şairin oğlu Şıxbala da həmin ailə ənənəsini davam etdirir. O, hazırda bir Zabit kimi Prezident qvardiyasında xidmət etməkdədir.

* * *

**İskəndər Adışirin oğlu Quliyev** 1932-ci ildə Hildə anadan olub. Uşaqlıq və gənclik illəri çətinliklə keçən İskəndər kənddə orta məktəbi bitirdikdən sonra, Qubada müəllimlər institutunda oxuyub və müəllim kimi Salyanda əmək fəaliyyətinə başlayıb. O, Kalininqradda hərbi xidmətdə olan müddətdə hərbi məktəb bitirib, Zaqafqaziya hərbi dairəsinin zabiti olub. İ.Quliyev 1957-ci ildən respublikamızın bir neçə rayonlarının hərbi komissarlığında çalışıb, Fizuli və Qusar rayonlarında hərbi komissar kimi hərbi xidmətini davam etdirib. Daha sonra, o, üç il Zaqafqaziya hərbi dairəsində kursantlara dərs deyib. Polkovnik-leytenant rütbəsində olan İ.Quliyev 1985-ci ildən Qusarda Könüllü Hərbi Vətənpərvərlik Texniki İdman Cəmiyyətinin sədri kimi əmək fəaliyyətini davam etdirib. 1941-1945-ci illərdə, eləcə də Əfqanıstanda və son illərdə Azərbaycanımızın işğaldan azad olunması uğrunda döyüşlərdə xüsusi xidmətləri olan qusar-

lılar barədə topladıqları məlumatlar isə onun bir daha doğma respublikamızın möhkəm bağlılığını göstərir.

İskəndər Quliyev barədə olan bu qısa yazımda qeyd edim ki, bu fədakar insanı mən də yaxından tanıyıram. Hər ilin yayında Qusar şəhərində istirahət edəndə onunla dəfələrlə görüşmüş, həmsöhbət olmuşam.

* * *

**Əlibala Mirzə oğlu Yardumov** 1932-ci ildə Hildə anadan olub. O, kənddə orta məktəbi bitirəndən sonra, təhsilini Tiflisdə yerləşən Artilleriya məktəbində davam etdirib. Ə.Yardumov 1955-1963-cü illərdə Naxçıvan MR-da vzvod komandiri, qarnizon komendantının köməkçisi və Gəncədə reaktiv batareyanın komandiri kimi fəaliyyət göstərib. O, 1964-cü ildə ADR-da qvardiya əlahiddə diviziasında batareya komandiri, 1971-1975-ci illərdə Rostovun Kamensk-Şaxtinsk şəhərində hərbi hissənin komandiri vəzifələrində çalışıb. Bir müddət DDU-nun hərbi kafedrasında baş müəllim, daha sonra Dağıstan Dövlət Təchizat Komitəsi mülki müdafiə qərargahının rəisi kimi xidmət edib, 1995-ci ildə polkovnik rütbəsinə layiq görülüb və neçə illər Dağıstanda mülki müdafiə orqanlarında fəaliyyət göstərib.

**Salat Kələntər oğlu Saruxanov** 1921-ci ildə Hildə anadan olub. Qubada Kənd Təsərrüfatı texnikumunda təhsilini başa vurduqdan sonra 1943-cü ildə hərbi xidmətə çağırılıb və batalyon komandiri kimi hərbi xidmətə başlayıb, 1944-cü ildə mayor rütbəsinə layiq görülüb. Salat Saruxanov dəfələrlə yaralanıb, «Qırmızı ulduz» və «Aleksandr Nevski» ordenləri ilə təltif olunub. Müharibədən tərxis olunandan sonra kənd təsərrüfatı sahəsində çalışıb,





Yasab və Hil kənd məktəblərində hərbi işlərə rəhbərlik edib. Salat Kələntər oğlu 1985-ci ildə vəfat edib.

**Bir neçə kəlmə də Hilin yaradıcı adamlarından söz açmaq istərdim:**

Yusif Məhəmməd oğlu Hacıyev 1925-ci ildə həmin kənddə anadan olub. 1949-cu ildə Quba şəhərində Müəllimlər institutunu, 1955-ci ildə isə Azərbaycan DPİ-ni bitirib. Yusif Hacıyev uzun illər kəndində orta məktəbin müəllimi və direktoru olmuşdur. O, «Narahat vicdan», «Gül paylayan ana» və «Əbədi mayak» adlı kitabların müəllifidir. Onun Hindistanın baş naziri vəzifəsində çalışmış İ.Qandinin həyatından bəhs etdiyi «İndira Qandi» romanı böyük zəhmətin bəhrəsidir. Yusif Hacıyev «Hil kənd orta məktəbi - 70» və «Qan ləkəli daşlar» poetik toplusu da maraq doğurur. Azərbaycan Yazıçılar Birliyinin üzvü olan Yusif Hacıyev 2003-cü ildə vəfat edib.

* * *

**Vaqif Abdullah oğlu Hacağayev** 1952-ci ildə Bakıda anadan olub. 1955-ci ildə onun valideynləri doğma Hil kəndinə köçüb. Vaqif Azərbaycan Dövlət Pedaqoji Dillər İnstitutunu bitirmiş, Cəlilabadda müəllimlik etmiş, daha sonra Xudatda müəllimlik fəaliyyətini davam etdirmiş, 1993-1995-ci illərdə Xaçmaz rayon Müstəqil Teleradio Verilişləri Şirkətində ləzgi verilişləri redaksiyasının redaktoru kimi fəaliyyət göstərmişdir. O, ədəbi aləmdə Vaqif Müşkürvi imzası ilə tanınmış, 2008-ci ildə «Ürəyimin ağrıları» adlı kitabı işıq üzü görmüşdür. Dövrü mətbuatda müntəzəm olaraq bu gün də şeir və hekayələri çap olunur.

* * *

## Kəndin tanınmış idmançılarından bir nəfəri barədə

Ceyhun Adil oğlu Paşayev 1980-cı ildə Hildə dünyamıza göz açıb. Orta məktəbi kənddə bitirəndən sonra musiqiçi Arif Ağababayevin rəhbərliyi altında armrestlinqlə məşğul olub və idmanda ilk uğurunu 2003-cü ildə qazana bilib, respublika üzrə keçirilən yarışlarda 2-ci yerə çıxa bilib. Daha sonra o, 2004, 2005, 2006 və 2008-ci illərdə keçirilən çempionatda qalib olub. Hazırda öz kəndində armrestlinq idman növü ilə bir məşqiçi kimi fəaliyyət göstərir. Onun yetişdirmələrindən neçəsi Azərbaycan Silahlı Qüvvələrinin çempionatlarında qalib olub.

**«Alimlər həyatın yol göstərənidir»** Zərdüştün bu kəlamı min illərin sınağından keçib.

Azərbaycanımızda, eləcə də dağlar gözəli Qusarımızda, eyni zamanda onun ən böyük, ən qədim tarixə malik olan Hil kəndində – bu qədim odlar diyarımızda dünya üfüqlərinə çıxan görkəmli alimlər, mütəfəkkirlər olmuş və indi də vardır. Bu gün elmimizin müxtəlif sahələrində yüzlərlə istedadlı alimlər çalışır. Onların hər biri öz sahəsində böyük uğurlar qazanıb, elmimizə yeni-yeni töhfələr verib.

Təfəkkür sahibləri başqalarından fərqli olaraq dünyanı, cəmiyyət hadisələrini daha düzgün dərk edib düzgün dəyərləndirdikləri üçün müdriklik məqamına yüksəlir. Eyni zamanda insan təfəkkürün nuru ilə ictimai-siyasi həyatımızda haqsızlığa qarşı çıxır, öz iradəsini və elmi bar-bəhrəsini ona qarşı qoyur və getdikcə ətrafına işıqlı simalar toplaya bilir.





Şəxsiyyətin formalaşmasında bir sıra amillər – ilk növbədə onun təmiz mənəviyyatı, əxlaqı, idrakı və mübarizliyi önəmli rol oynayır. Nəzərə almaq zəruridir ki, şəxsiyyət müxtəlif hadisələr fonunda ictimai həyatda formalaşır və özü də ictimai həyata təsir göstərir.

O baxımdan hər bir dövrün, zamanın özünün sayılıb – seçilən tanınmış alimləri, qələm sahibləri olub. Şübhəsiz bütün dövrlərdə insan biliyə, öyrənməyə təşnədir və o təbiətin sirlərini əxz etməyə can atır. Bu amal yolunda hər kəs ömrü boyu zəhmətə qatlaşır, məqsədyönlü fəaliyyət göstərir. Xoşbəxt o kəsdir ki, öz məqsədi yönümündə istəyinə çata bilir, gördüyü işdən təkcə özü deyil, çoxları faydalanır. Ona görə ilk növbədə insandan böyük bacarıq, səriştə, əməksevərlik, elmi dərindən bilmək gücü tələb olunur.

Əgər həyata keçirmək istədiyin məqsəd möhkəm təməl üzərində qurulursa, uğur qazanacaqsan. Onu da deyim ki, möhkəm təməl üzərində qurulan sağlam düşüncə, aydın təfəkkür illərin, əsrlərin sınağından çıxa bilir.

İstedad Allah vergisidir və onu cilalayan da əmək, zəhmət, gördüyün işə inam və məhəbbətdir. Şübhəsiz heç kim böyük mütəfəkkir və müdrik doğulmur. İstər alim ol, istər böyük vəzifə sahibi, yaxud sadə peşə adamı, fərqi yoxdur, ürəyi el-obası, xalqı və vətəni ilə döyünsün, ya sözü, ya silahı, ya var-dövləti, ya da ki, qələmi ilə. Onda elə şəxslər el-oba gözündə uca olur, hər yerdə hörmət və ehtiramla qarşılanır.

Bu yöndə ilk öncə islam dininin yaradıcısı Məhəmməd peyğəmbərin dediklərini xatırladıram:

«Əgər islamı gözəl və möhtəşəm bir binaya oxşatsaq, alimlər o binanın sütunlarıdır. Bir alim dünyadan gedəndə bir sütun sınır və onu heç nə əvəz edə bilməz.»

Peyğəmbərlərdən sonra Allah-təala yanında alimlərdən fəzilətli adam yoxdur. Elmi məsələlər müzakirə olunan məclisdə bir saat oturmaq bir il gündüzlər oruc tutmaqdan, min nəfər şəhidin cənazəsinə hazır olmaqdan və hər birində min rükət namaz qılınan min gecəsindən, cihaddan və Quranı 12 min dəfə xətm etməkdən üstündür, irəlidir.

Alimləri eşidin, onlar dünyanın çırağı, axirətin nurudur. Elmi beşikdən qəbrədək öyrən, elmin fəziləti ibadətin fəzilətindən əfzəldir. İnsanlar elə bir sədəqə verə bilməzlər ki, öyrənilən, yayılan, elmdən üstün ola. Alim öldü, aləm öldü. Bir saatlıq elm öyrənmək 60 illik ibadətdən xeyirlidir.

Hər kəs evdən çıxıb elmdən bir qism öyrənmək üçün getsə, Allah-təala onun hər qədəmi üçün bir peyğəmbər savabı yazar. Elm dalınca gedən şəxsi Allah da, mələklər də, peyğəmbərlər də dost tutar. Alimin üzünə baxmaq, min qul azad etməkdən yaxşıdır.

Qiyamət günü alimlərin mürəkkəbi şəhidlərin qanı ilə tərəziyə qoyulub çəkilər və alimlərin mürəkkəbi şəhidlərin qanına nisbətən üstün olar.

Cahillərin arasında alimlər, ölülər arasında olan dirilər kimidir... Elm dalınca gedin, o, sizinlə Allah-təala arasında bir vasitədir...

Elm kimi şərafət yoxdur.

Allah bir bəndəni rəzil edəndə elmi ondan əsirgər.

Şeylərin ən şərafətlisi elmdir.

Allah özü alimdir, bütün alimləri dost tutur.

Elmi istəmək hər bir müsəlman kişi və qadının borcudur.

«Elm Çində də olsa onun dalınca get»





Bu baxımdan Həzrət Əlinin dedikləri də dəyərlidir: «Alimlər yer üzündə Allahın çırağıdır.»

Nadanlar alimlərə qarşı münasibətdə düşməndirlər.

Allah sevdiyi bəndələrə qabiliyyət bəxş edər.

Elmlə dirçəliş tapmayan ölüdür.»

Zərdüşt isə «Avesta»da deyir ki, alimlər həyatın yol göstərənidir.

Nizami Gnəcəvi isə deyirdi: -

*Alimdir gözümdə ən ali insan*
*Qüvvət elmdədir, başqa cür heç kəs,*
*Hər kəsə üstünlük eləyə bilməz.*
*Hər uca rütbədən biliniz fəqət.*
*Alimin rütbəsi ucadır, əlbət.*

Alimləri dəyərləndirmək baxımından iqtibas etdiklərimizi yetərli bilib mövzuya qayıdıram.

Yazıda qeyd etdiyim kimi Hil kəndindən elmin zirvəsinə yüksələn onlarca alim olub. Onlardan bir neçəsi barədə qısa da olsa məlumat verməyi zəruri bildim:

**Kərim Abdulxaliq oğlu Kərimov** nəinki Azərbaycanımızda, keçmiş SSRİ-də də adı hörmətlə çəkilən alimlərdəndir. O, 1917-ci ildə Hildə anadan olub, 1986-cı il dekabrın 29-da vəfat edib. Onun elmi təhqiqatları, kosmonavtika elminin inkişafında xidmətləri dəyərli olmuşdur. İxtira etdiyi «U-13» qurğusunun müsbət elmi nəticələri olub. O, 1965-ci ildə doktorluq dissertasiyası müdafiə edib və 1967-ci ildə professor vəzifəsinə layiq görülüb. K.Kərimov 100-dən çox elmi əsərlərin müəllifidir. Onun rəhbərliyi altında 8 nəfər elmlər doktoru və 47 nəfər elmlər namizədliyini müdafiə edib.

Onu da qeyd edim ki, Kərim Kərimov Zeynəddin Çələbovla gənclik illərindən dostluq etmiş və o dostluq onun ömrünün son dəqiqələrinə kimi davam etmişdir.

**Aleksandr Kərimov** alimin böyük oğludur. O, fizika-riyaziyyat elmləri doktoru, M.İ.Lomonosov adına Moskva Dövlət Universitetinin prorektoru, RF EA-nın həqiqi üzvüdür.

**Hacağa Cəfər oğlu Əmirquliyev** 1930-cu ildə Hildə anadan olub. 2005-ci ildə isə dünyasını dəyişib. O, bir çox xarici ölkələrin elmlər akademiyalarının həqiqi üzvü və qardaş Türkiyə respublikasının universitetlərində müəllim olmuşdur. H.Əmirquliyev 1967-ci ildə namizədlik və 1980-cı ildə «Azərbaycanda kimya sənayesinin tarixi» mövzusunda doktorluq dissertasiyasını müdafiə edib. O, 150-dən çox elmi əsərlərin və monoqrafiyaların müəllifidir.

**Mahmud Bayram oğlu Şəkinski** 1898-ci ildə Hildə anadan olub, uzun illər doğma kəndində məktəb müəllimi olmuş və rayonda təhsilin inkişafında danılmaz xidmətləri olmuşdur. Onun xidmətləri nəzərə alınmış və ölkə rəhbərliyi tərəfindən ona «Azərbaycanın əməkdar müəllimi» adı verilmişdir.

**Meyyədin Mahmud oğlu Hacıyev** də Hil kəndində dünyaya göz açmış, 1965-ci ildə ADU-(BDU)nu bitirmiş və pedaqoji fəaliyyət göstərməklə bərabər elmi araşdırmalarla da məşğul olmuşdur. O, 1973-cü ildə namizədlik və 1992-ci ildə doktorluq dissertasiyasını müdafiə edib. M.Hacıyev 2 monoqrafiyanın və 7 dərsliyin müəllifidir.

**Kəndin iki nəfər incəsənət adamlarından:**

**İmaməli Kəriməli oğlu İlyasov** 1927-ci ildə Hildə anadan olub. O, Qusar rayon mədəniyyət evində bədii rəhbər





işləyib, sazın və tarın gözəl ifaçısı olub və bir aktyor kimi də səhnədə çıxış etmişdir. Onun bədii rəhbəri olmuş kollektiv 1948-ci ildə Ümumittifaq İncəsənət festivalının laureatı, 1967-ci ildə isə kənd bədii özfəaliyyət kollektivlərinin I Respublika festivalında qalib olmuşdur.

İmaməli İlyasovun rəhbərliyi ilə 1978-ci ildə Hil kəndində bu günə kimi fəaliyyət göstərən «Mel» folklor ansamblı yaradılıb.

**Oqtay Səlimxan oğlu Əhmədov** da əslən Hil kəndindəndir. Bir vaxtlar toylarda, el şənliklərində məlahətli səslə Azərbaycan və ləzgi mahnıları oxumuş və ləzgi Oqtay kimi tanınmışdır. Təəssüflər olsun ki, onun səsi gözlənilmədən batmışdır. Nakam ömür yaşamış Oqtay Əhmədov gözəl mahnılar da bəstələmişdir. Bu baxımdan onun «Mənim doğma kəndim», «Hilin dağları», «Bakı» və «Cəmilə qızım» mahnıları daha çox könül oxşayandır.

Dünyada üç fəlakət var: yanğın, qadın, dəniz.

*Ezop*

Mən insanlar arasında münasibətdə həmişə dostluq və səmimiyyət axtarıram.

*M.Kazımbəy*

Ürək dərddən partlamazmı,
Dost çevrilib düşmən olsa.

*Rafiq Yusif oğlu*

Yaxşı dost böyük xəzinədir.

*«Qabusnamə»*

Şərin də xeyir kimi öz qəhrəmanları var.

*Laroşfuko*

Dünyada tez qocalan yaxşılıqdır.

*Aristotel*

Yaxşı əməllərin ən yaxşısı, ən gizli edilənlərdir.

*Fidayl Bin İyad*

Dəvəçi ilə dost olanın darvazası gen gərək.

*Azərbaycan atalar sözü*

Cahilin ibadətindən, alimin yuxusu yaxşıdır.

*Azərbaycan atalar sözü*

Dövlət iki şeydən sarsıla bilər: günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə.

*Heydər Əliyev*

# *Salam, Zeynəddin daxa!*

Zatı, südü təmiz, alnıaçıq, namuslu və mərd adam xalqını, elini sevməlidir. Ancaq şərəfsiz həyatla yaşayanlar ömürlərini kol dibində keçirənlər xalq qədrini bilməzlər.

*M.İbrahimov*

Əgər məndən soruşsaydılar ki, ən şərəfli sənət hansıdır? Mən o zaman iftixarla belə deyərdim – müəllimlik.

*H.B.Zərdabi*

Bizi ancaq məktəb nadanlıqdan xilas edər.

*N.Nərimanov*

Bütün dövlətin əsası gəncliyin tərbiyəsindən asılıdır.

*S.Diogen*

Suyun çoxluğu əkinə zərər verdiyi kimi, yeməyin də çoxluğu bədənə zərər verir.

*Əbül Fərəc*

Həzm olunmamış qida yeyən özünü yeyir, ona görə qaydasında ye ki, yaxşı həzm oluna bilsin.

*Əbül Fərəc*

Kölgədə yatanın kölgəsi olmaz.

*B.Vahabzadə*



# BİRİNCİ SÖHBƏT

## ZEYNƏDDİN DÜNYASINA SƏYAHƏT, YAXUD SÖZÜMÜZÜN QİBLƏSİ VƏTƏNDİR

Sual da bilgidən doğar, cavab da.

**Cəlaləddin Rumi**

Zəiflik və qorxaqlıq hələ heç kimi xilas etməyib.

**Şeyx Şamil**

«Burda əks olunur həyat və zaman,
Burda əks olunur müasir insan.»

**- Zeynəddin müəllim, bildiyiniz kimi 67 yaşındayam, onun tən yarısını hər yay ailəmlə birlikdə Qusarda istirahət edirəm. Ona görə ki, məni Qusara və qusarlılara bağlayan amillər var:** Ən əvvəl ona görə ki, 1941-45-ci illər müharibəsində həlak olmuş böyük qardaşım Yelmar Məmmədovun Qusardan beş nəfər cəbhə yoldaşı, cəbhə dostu olub. Bu yöndə Xuray kəndindən Məmmədyar Məmmədyarovun, Zal Zalovun, YuxarıLəyər kəndindən Şıxıyevin, Qazəhməd Pirəliyevin və Niyaz Hacıyevin adlarını ehtiramla çəkirəm.

Və bir də ötən əsrin 60-cı illərində Dövlət Universitetində oxuduğum illərdə müəllimim olmuş, Hil kəndində dünyamıza göz açmış, professor Əlisultan Quliyevin adını ehtiramla çəkirəm.

Uzun illər hüquq-mühafizə orqanlarında rəhbər vəzifədə işləyən, həmkarlarının fəxr etdiyi, barəsində «Fəxri-

miz Ərzuman» kitabını yazdığım 2009-cu ilin iyununda əbədiyyətə qovuşmuş Ərzuman Zülfüqarov Qusarın Böyük Muraq kəndindəndir. Onunla eyni vaxtda işlədiyim illər də olub. Təqaüddə olduğu müddətdə polis polkovniki Ərzuman Zülfüqarovla neçə illər dostluq etmişəm. Elə barəsində yazmış olduğum kitab da həm ona, həm də qusarlılara olan ehtiram və məhəbbətimin bar-bəhrəsidir.

Bu yöndə mən bir nəfərin də adını böyük iftixar hissi ilə çəkirəm. O, Vətən, Xalq işinə sonsuz nümunə olaraq, mərdlik, qorxmazlıq rəmzi kimi yaşlı həmkarlarının dilinin əzbəri olan, ağrı-acılı, eyni zamanda şərəfli bir yol keçmiş, general Arif Heydərovun həyatını xilas etmək üçün sinəsini güllə qabağına vermiş düztahirli podpolkovnik Əziz Əzəmət oğlu Səfixanovdu. Mən onun şərəfli həyat yolundan da «Kişi ömrü» adlı kitab yazıb çap etdirmişəm. Və bütün bunlara görə qürur duyuram. Bu yerdə Qarabağ savaşında şəhid olmuş avaranlı Mürsəl Fikrət oğlu barəsində çap etdirdiyim yazımı da ürək ağrısı ilə xatırlayıram.

Qusarda boy atıb pərvazlanan ləyaqətli insanlar yetərincədir. Təkcə ikisinin adını çəkirəm – general Mahmud Əbilov və sovet İttifaqı Qəhrəmanı Mirzə Vəliyev. Onlar ümumən Azərbaycanımızın baş ucalığıdır.

Məni Qusara bağlayan yarım əsr dostluq etdiyim tələbə yoldaşım, sadə peşə adamı, gicanlı Aslan Yahyayev və bir də Respublika Vəkillər Kollegiyasının üzvü, hazırda Qusar şəhərində vəkil kimi fəaliyyət göstərən tələbə yoldaşım və dostum Aşağı Ləyərli Zəfər Süleymanovdur.

Daha sonra dost-tanışlarımdan istefada olan polis polkovniki Ş.Şıxnəbiyevin, Müdafiə Nazirliyində məsul vəzifəli polkovnik Rauf Kişiyevin, bu yaxınlarda dünyasını dəyişmiş, yazıçı Əmir Mustafayevin, şair Kələntər Kələntərlinin, Fikrət Səfixanovun, eləcə də sizin, Zeynəddin Ramazan oğlu Çələbovun, «Qusar» qəzetinin baş redaktoru Vidadi müəllimin, əslən Yasab kəndindən olan Bakıda bank sahəsində çalışan Adiq Quliyevin, Nazir İsrafilovun, Fikrət Nurməmmədovun, Muxtar Qurbanovun, Əziz Qurbanovun, Teymurun, İslamın, Kuzma Nəriman oğlunun, müəllimlərdən Tofiqin, Cahangirin, İsam Balemetovun, rəhmətlik Hidayət Ciyərxanovun və onlarca başqalarının adını çəkə bilərəm.





Veteranlar evində çoxları ilə tanış olmuş, neçəsi ilə duz-çörək kəsmişəm. Onlardan biri də 80 yaşlı Abdul Qazəhməd oğlu Abduraxmanovdu.

Elə bilirəm ki, qələm dostum Sədaqət Kərimovanı tanımayan yoxdur. Bakıda çıxan «Samur» qəzetinin baş redaktoru olaraq bir jurnalist kimi fəaliyyət göstərən Sədaqət xanım həm şair, həm yazıçı, həm də tədqiqatçı və bəstəkardır.

Onun sayca 15-cı kitabı olan «Qusar, qusarlılar» kitabı xüsusi əhəmiyyət kəsb edir. Sədaqət xanımın həmin kitabı illərlə aparılan araşdırmaların, təhqiqatların, böyük zəhmətin və doğulub boya-başa çatdığı torpağa ülvi məhəbbətin bar-bəhrəsidir. Böyük əminliklə deyə bilərəm ki, Sədaqət xanım həmin şedevr əsəri ilə böyük bir institutun işini görüb. Ona görə o, böyük ehtirama və alqışa layiqdir. Onu da qeyd edim ki, bu kitabımda Qusarla bağlı verdiyim məlumatların çoxuna görə ona minnətdaram. Bir də qusarlılara bir dost kimi tövsiyə edərdim ki, qız ərə verəndə cehizinin üstə Sədaqət xanımın «Qusar, qusarlılar» kitabını qoymağı unutmasınlar.

Daha sonra Çingiz müəllimin, Eldarın, Qədirin, Rizvanın, Yusifin, Janın və bir də Cahangir müəllimin adlarını hörmətlə çəkirəm.

Cahangir müəllim hərbi vətənpərvərlik mövzusunda böyük ürəklə danışır. Deyir ki, biz müəllimlərin, eləcə də bütün ziyalılarımızın borcudur ki, çağdaş zamanəmizdə gənclərlə hərbi vətənpərvərlik mövzusunda maariflənmə işləri aparaq. Axı, biz görə bilmədiklərimizi gənclərimiz həyata keçirməlidirlər. Bir də təhsil ocaqlarında müxtəlif elmlərin tədrisilə bərabər, Təhsil nazirimiz dediyi kimi onları vətəndaş kimi də yetişdirmək biz müəllimlərin ümdə vəzifəsi və borcudur.

Doğurdan da düz deyirlər ki, vəzifə insanı deyil, insan vəzifəsini dəyərli edib gözəlləşdirə bilər. O mənada tutduğu vəzifə və peşəsini gözəlləşdirən bir nəfərin də adını çəkmək istərdim.

Həmin şəxs qusarlıların yaxşı tanıdığı Cavid Nizam oğlu Hacımuradovdu. Son dərəcə səmimi olan Cavid ATU-nun Əczaçılıq fakültəsini bitirib, şəhərdə yerləşən «OKİ» Tibb klinikasındakı aptekin müdiridi.

Son on ildə hər yay Tofiq İsmayılov küçəsi, 60 saylı evə qonaq düşürəm. Bütün ailə üzvlərim bu evin sahibəsi Şükufə Mustafayevadan gördüyümüz hörmət və qayğını da son dərəcə yüksək dəyərləndiririk.

Onu da deyim ki, ləzgilərlə aramda olan dostluğumu bu gün övladlarım da davam etdirir. Böyük oğlum Şahmar, əslən Qusarın Gican kəndindən olub, Bakı şəhərində yaşayan Elçin Şahnəzər oğlu ilə neçə illərdi ki, dostluq edir. Eləcə də, kiçik oğlum Yelmarın işlədiyi «Bakı polad əritmə şirkəti»ndə bir-birinə qarşı hörmət və ehtiramları olan milliyyətcə ləzgi rəhbər vəzifə sahibləri və iş yoldaşları var. Onları mən də tanıyıram və hər biri ilə də xoş münasibətim var. Bu yöndə mən əslən Oğuz rayonun Bayan kəndindən olan, adı çəkilən şirkətdə baş direktorun müavini işləyən Əvəz Süleymanovun, əslən Qəbələ rayonun Qəmərvan kəndindən olan, sex rəisi Ramazan Əsgər oğlunun və şəxsən mənimlə isti münasibətdə olan, Ramazanın Qəmərvanda yaşayan 80 yaşlı atası Əsgər müəllimin, Qusarın Mucuq kəndindən olan və şirkətdə rəhbər vəzifədə işləyən Namiq Əmirbəyovun adlarını da bir daha böyük hörmət və ehtiramla çəkirəm.





Onu da qeyd edim ki, Sədaqət Kərimovanın «Qusar, qusarlılar» kitabında Namiqin yaxın qohumları barədə də söz deyilib. Onlar elm adamları - Niyazi, Təhsin, Fikrət və Elxan Əmirbəyovlar, Kəmalə Burziyeva və bir də Fikrət Tayıb oğludur. Bir də Namiqin dayısı, adlı-sanlı dənizçi Rafiq Əfəndiyevdir.

«Xalqların canbirliyini görmək istəyən Qusara gəlsin!» Bu fikir ləzgi xalqının fəxri, Həsənbəy Zərdabinin, Cəlil Məmmədquluzadənin və Firudin bəy Köçərlinin yaxın dostu, «Əkinci» qəzetinin əməkdaşı, XIX əsrin görkəmli alimi, tarixçi və ədəbiyyatşünası, «Asari Dağıstan» əsərinin müəllifi Mirzə Həsən əfəndi Əlqədariyə mənsubdur. Rəhmətlik demək istəyib ki, bizim vahid Azərbaycan xalqı olduğumuzu görmək istəyənlər dağlar gözəli, ruha qida verən Qusara gəlsin. Mütəfəkkirin sözlərində böyük həqiqət var. Elə olmasaydı, barəsində «Kişi ömrü» kitabı yazdığım Qusarlı Əziz Səfixanov azərbaycanlı general Arif Heydərovun həyatını xilas etmək üçün sinəsini güllə qabağına verməzdi.

Azərbaycanlılarla ləzgilərin dostluğu möhkəmdir, sarsılmazdır, polad kimidir. Axı, adət-ənənələrimiz eyni,

din və imanımız birdir. Ermənilərin bizimlə olan savaşı da Qusardan yan keçməyib. İstər keçən əsrin əvvəllərində, istərsə də sonlarında, ermənilərin bizlə olan savaşında neçə-neçə şəhid verib Qusar.

Birliyimizlə, qarşılıqlı ehtiramımızla bağlı çox misal çəkmək olar. Elə «Qusar» qəzetinin iki dildə çap olunması fikrimin təsdiqi deyilmi?

Son illər Qusarda gedən abadlıq işləri olduqca könül açandır. Təkcə Heydər Əliyev adına parkın və muzeyin açılması, onun Qusarın ən görüntülü yerində qoyulmuş əzəmətli heykəli, yeni idman kompleksinin və şahmat evinin tikilməsi fikrinin təsdiqi üçün yetərlidir. Abadlıqdan söz açdım, yadıma xaricdə yaşayan qusarlı iş adamı, xeyriyyəçi Seyfəddin Rüstəmov düşdü. Seyfəddin vətəndən uzaqlarda olsa da, ürəyi Qusarla döyünür, onun təbiətinə və adamlarına olan qayğısını heç vaxt əsirgəmir. Bu baxımdan Seyfəddin atası Ziyəddin kişinin ruhu şərəfinə Nəriman Nərimanov adına parkda tikdirdiyi «Veteranlar evi», şəhər qəbiristanlığında apardığı abadlıq işləri və rayonun ayrı-ayrı məktəblərinə kompyuterlər bağışlaması təqdirə layiqdir.

El-obası üçün can yandıran, bu yöndə xeyirxah işlər görən bir nəfərin də adını çəkməsəm olmaz. O, Zindanmuruq kəndində anadan olmuş Teyfur Heybət oğlu Heybətovdur.

Bütün qusarlılara salamatlıq, dinc həyat arzulayıram. Qoy əsrarəngiz gözəlliklərlə dopdolu olan təbiətlərini qoruyub saxlaya bilsinlər. Arzu edirəm ki, dostluq və birliyimiz əbədi olsun. Ürəklərindən su içən «can qardaş» sözləri isə heç vaxt dillərindən əskik olmasın. Və bir də arzu edirəm ki, qusarlı dostlarımı yaxın zamanlarda indi





işğal altında olan doğma Qubadlıma qonaq dəvət edə bilim.

Deyirəm, təbiət o vaxt gözəl olur ki, onu dəyərləndirəsən, onun qədrini biləsən. Torpağımıza, təbiətimizə, dövlətçiliyimizə, ümumən vətənimizə bağlı olan qusarlıları həmişə nikbin, sağlam və gümrah görmək arzusu ilə onlara olan ehtiramımın bar-bəhrəsi kimi bir daha deyirəm, gəlin Allahın bəxş etdiyi bu gözəllikləri solub-soluxmağa qoymayaq, gəlin həmişə mehriban, səmimi və əməksevər olaq! Onda ömür uzanar, həyat daha da gözəlləşər!

Azərbaycanımızın dilbər guşələrindən biri olan Qusarın təbiəti füsunkar olduğu kimi, insanları da mərd və xoş xasiyyətlidirlər. Əhalisinin əksəri ləzgilərdən və qismən azərbaycanlılardan ibarət olan bu diyarda bir xalqın iki milləti canbir qəlbdə yaşayır, dərdləri və sevincləri də eynidir. Bizlər müstəqil Azərbaycan Respublikasının eyni taleli vətəndaşlarıyıq. Axı biz bir xalqıq – dinimiz bir, vətənimiz bir, adət-ənənəmiz bir, Allahımız bir, peyğəmbərimiz bir, müqəddəs kitabımız birdir.

Bu yerləri Ulu Tanrı xoş gündə, xoş saatda yaradıb. Allah bu diyardan heç bir gözəlliyini əsirgəməmişdir. Buz bulaqlar, şəlalələr, başı qarlı uca dağlar insanı yaşamağa səsləyir. Həmişəyaşar dağların zümrüd döşəkli yaylaqları, Şahdağ və Bazardüzü dağları göz oxşayır, ürək sərinlədir. Dağların hələ yüzlərlə dərdin dərmanı olan ətirli və məlhəmli gül-çiçəyini və bir də Xəzərə can atan çaylarını demirəm...

Qusarın bir-birindən qiymətli, bir-birindən dəyərli tarixi abidələri var. Ənix qalası, IV əsrin Şabran arxı, Şeyx Cüneydin XV əsr yadigarı olan müqəddəs türbəsi,

nəfis şəkildə inşa olunmuş Ənix və Hil kənd məscidləri bu diyarın qədimliyindən, ulu keçmişindən xəbər verir.

Yüzlərlə şanlı-şöhrətli elm adamları, ədəbi mühitdə ad-san çıxarmış yaradıcı adamları, dövlət və hökumət xadimləri, qəhrəman oğul və qızları var bu diyarın. Dişdırnağı ilə özünə gün-güzəran qazanmış, zəhməti və işgüzarlığı hesabına sayılıb-seçilən, hər yerdə adı ehtiramla çəkilən səxavətli və xeyirxah oğullardan da xali deyil Qusar. Yazımın əvvəlində onlardan biri, Seyfəddin Zeynəddin oğlunun adını çəkmişdim. İndilikdə isə neçə illər üzərində işlədiyim, iri həcmli «Ömürnamə» adlı kitabımı öz vəsaiti hesabına çap etdirən Sabir Fərzəliyev barədə söz demək istərdim.

Sabir Fərzəliyev ilə tanışlığıma və nəhayətdə dostluğuma görə qohumum, sözün həqiqi mənasında ağsaqqalımız olan professor Zahid Quliyevə öz dərin minnətdarlığımı və həmişəyaşarlı olan dərin ehtiramımı bildirirəm. Zahid müəllim bizi təxminən 2 il bundan əvvəl tanış edib. Və mən, Zahid müəllimin insanları düzgün tanımaq və doğru dəyərləndirmək bacarığına, səriştəsinə və fəhminə bir daha əmin olmuşam.

Yadıma Abbasqulu Ağa Bakıxanovun bir kəlamı düşür: «Bədbəxt o adamdır ki, başqasına yaxşılıq etməyi bacardığı halda, bunu etməsin». Rəhmətlik necə də təndürüst deyib. Axı insan öz ömrünü bağa kimi qınına çəkilmiş halda yaşamamalıdı. İnsanın ən başlıca xüsusiyyəti, insanlıq meyarı odur ki, imkanı dairəsində kimlərəsə əl tutsun, kömək etsin, xeyir əməl sahibi olsun, yaxşı söz danışsın, nəinki başqalarına yük olsun. Axı biz dünyaya yeyib-yatmaq üçün deyil, kimlərisə yaşatmaq üçün gəlmişik.







**Soldan Müslüm Murtuzayev, Kərim Kərimov, Mirzəmət Mirzəbəyov və Zeynəddin Çələbov**



**Soldan Z.Çələbov, 3-cü Kərim Kərimov, 4-cü Soltanməcid Hacıbalayev, 5-ci Nazir ağayev, 6-cı Sultanmurad Hacıbalayev**



Təbiətin qoynunda



Z.Çələbov, dostu akademik Hacıbəy Sultanov və onların həyat yoldaşları. Sağdan Aliq Abasov







Ortada Zeynəddin Çələbov



General-mayor Mahmud Əbilov, internat məktəbində görüş zamanı



**Zeynəddin Çələbov və dostu professor Kərim Kərimov**







**Soldan Z.Çələbov, SSRİ Elmlər Akademiyasının akademiki Xəlil Raxmatulin, prof. Kərim Kərimov və Az.Elmlər Akademiyasının prezidenti Zahid Xəlilov**



**Z.Çələbov, toy məclisində dostları ilə birlikdə**



Soldan, akademik Xəlil Raxmatulin, akademik Zahid Xəlilov, prof. Kərim Kərimov
və Zeynəddin Çələbov. Qusar internat məktəbinin həyətində







Z.Çələbov, prof. K.Kərimov, akademik X.Raxmatulin və akademik Z.Xəlilov.
Qusar internat məktəbinin şagirdləri arasında



İnternat məktəbinin şagirdləri Kiyev şəhərində ekskursiya zamanı. 1980





Mənim, xalqlarımız arasında dostluğumuza olan xoş münasibətim barədə dəfələrlə dövrü mətbuatda, eləcə də «Qusar» qəzetində yer verilib, eyni zamanda ayrı-ayrı söz adamlarının müxtəlif toplantılardakı çıxışlarında öz əksini tapıbdır. Bu baxımdan Sədaqət Kərimovanın 2011-ci ildə işıq üzü görmüş «Qusar, qusarlılar» 254-255-ci səhifəsində barəmdə verdiyi «İki xalqın dostluğuna ithaf» başlıqla yazı daha səciyyəvidir:

«Azərbaycan və ləzgi xalqlarını uzun əsrlərin sınağından çıxmış möhkəm dostluq və qardaşlıq telləri birləşdirir. Bu fikir yazıçı Elbrus Şahmarın əsərlərindən qırmızı xətt kimi keçir.

Tarixin müxtəlif dövrlərində bu iki xalq bir-birinə dayaq olmuşdur. Əsrlər boyu bir sıra ləzgi yazarının öz əsərlərini həm doğma dilində, həm də türk dilində qələmə alması bu dostluğa misaldır. Belə misallardan biri yazıçı Elbrus Şahmarın yaradıcılığıdır. 1945-ci ildə Qubadlı rayonunun Mahmudlu kəndində anadan olmuş Elbrus Şahmar oğlu Məmmədov Azərbaycan Dövlət Universitetinin kitabxanaçılıq və hüquq fakültələrini bitirmişdir. 1968-2000-ci illərdə daxili işlər orqanlarında bir sıra vəzifələrdə çalışmış polis polkovniki Elbrus Şahmar 31 kitabın müəllifidir.

25 il ərzində yay istirahətini hər il Qusar şəhərində keçirdən, ləzgilərin adət-ənənələrinə, qonaqpərvərliyinə, sadəliyinə, dosta sədaqətinə, mərdliyinə və sözübütövlüyünə heyran olan E.Şahmar yeri gəldikcə özünün hekayə, oçerk və povestlərində onların obrazlarını da yaratmışdır. Onun «Kişi ömrü» və «Fəxrimiz Arzuman» kitabları da bu məhəbbətdən yaranmışdır. «Kişi ömrü» əsəri general Arif Heydərovun həyatını xilas etmək üçün

sinəsini güllə qabağına vermiş podpolkovnik Əziz Əzəmət oğlu Səfixanovun həyat və fəaliyyətinə həsr olunmuşdur. Bu namuslu və cəsur insan haqqında məhəbbətlə yazan müəllif onu yetişdirmiş Qusar torpağına rəğbətini bildirməkdən çəkinmir.

Uzun illər respublikamızın hüquq-mühafizə orqanlarında rəhbər vəzifələrdə çalışmış, dərin biliyi, peşəkar xüsusiyyətləri, fenomenal yaddaşı olan polkovnik Arzuman Zülfüqarov haqqında qələmə aldığı «Fəxrimiz Arzuman» kitabı da qəhrəmanın mənsub olduğu ləzgi xalqına məhəbbətdən yaranıb. Qusarlı zəhmət adamlarının, namuslu insanların həyatından qələmə aldığı onlarca oçerklərində müəllif onların maraqlı obrazlarını yarada bilmişdir.

Elbrus Şahmar fəlsəfi düşüncələrindən yaranmış «Ömürnamə» kitabını azərbaycanlılarla ləzgilərin əsrlərin sınağından çıxmış dostluğuna və qardaşlığına ithaf etməsi kitabın sanbalını artırır, onun müəllifinin mənəvi dünyasının zənginliyini bir daha nəzərə çarpdırır.»

Zeynəddin müəllim bura qədər, mən, azərbaycanlılarla ləzgilərin dostluğuna əyani sübut kimi məni Qusara və qusarlılara bağlayan amillərdən söz saldım. Onu da deyim ki, aramızda olan bu dostluqdan xeyli danışa bilərəm, tarixi hadisələrdən söz aça bilərəm, ədəbi birliyimizdən danışa bilərəm. Ancaq dediklərimə burda xitam verib, sözü sizə verirəm, axı sual verən mən, cavab verən siz olmalısınız. Bir də çox yerdə eşitmişəm ki, siz, xalqlarımız arasında həmişə dostluq və qardaşlıq körpüsü olmusunuz və bu gün də həmin amala xidmət edirsiniz.

**- Zeynəddin müəllim, xahiş edirəm ki, siz, azərbaycanlılarla ləzgilərin tarixi dostluğundan, qardaşlığından söz açasınız.**





- Elbrus, qardaşım, ömrüm boyu mənim həyatımın bir mənası da o olub ki, azərbaycanlılarla ləzgilər arasında, dediyiniz kimi dostluq korpüsü olum. Bu mənim həyat amalımdı. Həmişə bu dostluğu pozmağa cəhd edənlərə qarşı çıxmışam, onlara qarşı mübarizə aparmışam. Axı, bizi bir-birimizdən kim ayıra bilər. Axı, bizlər ürək bir, dilək bir, din bir qardaşlarıq. Əti sümükdən ayırmaq mümkün olmadığı kimi, bizləri də bir-birimizdən ayırmaq olmaz. Mən, yeri gəldikcə, bu mövzuda olan ayrı-ayrı görüşlərimiz zamanı az da olsa söz demişəm. İndilikdə bir qədər geniş danışaram, bir tarixçi kimi, tarixi və ədəbi əlaqələrimizdən də, dostluq və qardaşlıq münasibətlərimizdən də söz aça bilərəm.

Ta dövrü qədimdən yadelli işğalçılara qarşı birlikdə vuruşmuşuq. Axı, biz sevinci də, kədəri də bir olan xalqlarıq. Heç vaxt düşmənə baş əymək istəməmişik, məğlub olsaq da, mərdliyimizi saxlaya bilmişik. Rəhmətlik Səməd Vurğun demişkən:

*Göydən başımıza odlar da yağsa,*
*Bu ellər baş əyib, xar ola bilməz.*

Əhməd bəy Cavanşir «Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair» əsərində deyir: «Dağıstandakı ləzgilərin İsveçrədəki kantonlar kimi, federativ cəmiyyət qurmaları və onların bərabərlik əsasında müstəqil olmaları yadların hücumunu ümumi qüvvələrlə birlikdə dəf etməyə kömək edirdi. Buna görə də nə Çingiz xanın, nə Teymurun, nə osmanlıların və nə də Nadirin qoşunları onları öz zülmünə tabe edə bilməmişlər.»

Daha sonra əsərin bir yerində göstərilir ki, Pənahəli xan Car-Balakən vilayətinə gedir və özünə ləzgilərdən ibarət böyük dəstələr düzəldir.

Əsərin başqa bir səhifəsində isə deyilir ki, İbrahim xanın Şuşada 3 min nəfər ləzgilərdən ibarət döyüşçüləri varmış. Bu baxımdan Mirzə Camal Cavanşir Qarabağinin «Qarabağ tarixi» əsərində də maraq doğuran faktlar vardı. O, göstərir ki, 1797-ci ildə Qacar Şuşada qətlə yetirilən zaman kəsiyində İbrahim xan Kür qırağında olur. Bu vaxt xanın qardaşı oğlu Məhəmməd bəy xanlıq iddiasına düşür. Ona görə İbrahim xan oğlu Məhəmmədhəsənin başçılığı ilə 500 nəfər ləzgi döyüşçüsünü Şuşaya göndərir.

Belə faktları çox çəkmək olar, ancaq xoş gündə də, ağır gündə də bir-birimizə arxa-dayaq olmaq baxımından dediklərimi indi haqq dünyasında olan xalq şairi Mirvarid Dilbazinin 14 yanvar 1999-cu ildə «Samur» qəzetində çap olunmuş bir yazısı daha səciyyəvidir. Həmin yazısından görünür ki, ruslar XIX əsrin əvvəllərində Gəncəyə hücum edən vaxt 15 nəfər ləzgi ticarət məqsədi ilə Gəncədə olur. Sisanovun hücumundan əvvəl onlar şəhərdən çıxa bilərmişlər. Lakin bunu qeyrətlərinə sığışdıra bilmir, qardaşlarını ölüm ayağında qoyub salamat qalmaqdansa şərəflə döyüşüb şəhid olmağı üstün tuturlar və bərabər olmayan bu döyüşdə də şəhid olurlar. Bu hadisəni Cavad xanın dostu, şair Əbdürrəhman ağayi Dilboz oğlu belə qələmə alıb:

*Guş qıl ey əhli aləm, qələdə on beş ləzgi var,*
*Andrey Yaxsay elindən kim gəlib etsin tücar,*
*Hər biri Dağıstan içrə mərdi-meydan-namidar,*





*Sübhüdən küffarə şəmşir vurdur kim, bərqərar,*
*Maşallah, dini-islam cəng edən aşıkardan.*

*Sübh açıldı, bir tamaşa qıldı meydan ləzgilər,*
*Etmədi hərgiz özün meydanda pünhan ləzgilər.*
*Pozdu küffar dəstəsin, etdi pərişan ləzgilər,*
*Qırdı rusun bər-səfin, xak ilə yeksan ləzgilər.*

*Ləzgilər topxanaya kim girdi, tufan etdilər,*
*Xəncəri xunriz ilə küffarı bican etdilər.*
*Eylə san kim, ol zaman bir qana yüz qan etdilər,*
*Durdu məscid qapısında sanasan bir şiri-nər,*
*İçdilər, şəhdi-şəhadət vəhy olan izharidən.*

*Durdu məscid qapusunda sanasan bir şiri-nər,*
*Etdilər yüz dürlü dəva, qıldılar olmaz hünər,*
*Gördü kafir kim, tüfəng, şəmşir ilə bulmaz zəfər,*
*Çəkdi toplar üstünə, gəl ey mədəd xeyrül-bəşər!*
*Sanasan od yağdı göydən, üstə atəş nardan.*

Azərbaycanda və Dağıstanda yaşayan bir çox şair və yazıçılar uzaq və yaxın keçmişimizdən çağdaş zəmanəmizə kimi həm ləzgi, həm də Azərbaycan dilində yazıb yaratmışlar.

Hələ XIV əsrdə yaşamış ləzgi Kürəli Məlikin yaradıcılığında Azərbaycan dilində yazdıqları daha geniş yer tutmuşdur. O, Teymurun hücumları zamanı həlak olub. Bu yöndə XVI əsrdən üzübəri yaşayanlardan milliyyətcə azərbaycanlı və ləzgi olan, hər iki dildə yazan Bayat Abbasın, Müşkürlü İbrahimin, Miskincəli Təqirin, Müşkülü Məhəmmədin, Müsürlü Əkbərin, Miskincəli Miski-

nin, Miskin Vəlinin, Səfillər Xəlilin, Səfillər Məhəmmədin, Silincli Bukanın, Müskürlü Mustafanın, Mirzə Əli Axtılının, Leyli Xanımın və Ləzgi Əhmədin adlarını çəkmək olar. Onu da deyim ki, Ləzgi Əhməd azərbaycanlı şair və aşıq Xəstə Qasımla yaxın dost olub, şeirlərində bir-birini tərənnüm ediblər.

Yuxarıdakı siyahını daha çox uzatmaq olardı. Ancaq dediklərimi də kifayət bilirəm. Bununla belə bir neçə söz ustadlarının adını çəkməsəm olmaz: Onlardan biri XVIII əsrin sonlarında və XIX əsrin birinci yarısında Dağıstan ədəbiyyatında müstəsna xidmətləri olan tahircanlı Əmir Əli, XIX əsrdə və XX əsrin birinci on illiyində yaşamış Həsən Əlqədari, XIX əsrdə yaşamış Yetim Əmin və bir də Süleyman Stallıdır.

Müasirimiz olan milliyyətcə ləzgi şair və yazıçıları da vardır ki, onların da yaradıcılığında Azərbaycan dili önəmli yer tutur. O baxımdan rəhmətlik Əmir Mustafayevin, daha sonra Kələntər Kələntərlinin, Sədaqət Kərimovanın, Şərafət Dağıstanlının və başqalarının da adlarını çəkmək olar. Vaxtı ilə Qusarın Xuluq kənd məktəbində müəllimlik fəaliyyəti ilə məşğul olarkən ləzgilərlə qaynayıb - qarışmış, daha yaxından dostlaşmış, poetik dünyasında bu yöndə sözünü demiş, ləzgilərin «Perizada» adlanan qədim xalq mahnısından duyğulanan Əhməd Cavadın «Pərizadə» adlı şeiri onun ləzgilərə olan ehtiram və məhəbbətindən yaranmışdır.

Bu yöndə Səməd Vurğunun da adını böyük fəxrlə çəkmək olar. Onun, bir neçə dəfə bizim Quba və Qusar rayonlarından SSRİ Ali Sovetinə deputatlığa namizədliyi verilib və seçilib. Səməd Vurğun bir ovçu, bir təbiət vurğunu kimi də Qusarı qarış-qarış gəzib, onun qənirsiz gözəlliyindən ilhamlanıb, duyğulanıb.





Qardaş, bu yöndə daha çox misallar çəkmək olar. Elə götürək yaxın keçmişimizi. Rəhmətlik Zeynalabdin Tağıyevin müəssisə və neft mədənlərində yüzlərlə ləzgilər işləyib, ailələrin ruzusunu qazanıb. Hacının bütün maliyyə və iqtisadi məsələlərinə baxan da milliyyətcə ləzgi olub.

Bizlər bütün savaşlarda, eləcə də erməni işğalçılarına qarşı birlikdə vuruşmuşuq, barmaqla saya gəlməyən şəhidlər vermişik.

Sözümü belə bir fikrimlə bitirirəm, bizim dostluğumuza inanmamaq göydə günəşi – ayı danmaq deməkdi. Ya da ki, gərək tam şüursuz olasan ki, buna inanmayasan.

**- Zeynəddin müəllim, biz neçə günlərdi ki, dərdləşirik, dirsək söhbəti eləyirik. Bu günlərdə nə siz darıxdınız, nə də mən təngidim. Söhbətlərimiz sübh tezdən, bu payız günlərinin qırovunda da olub, günorta çağı da, axşamın alatoranında da. İndilikdə isə bu günkü söhbətimizə qüruba yenən günəş dağların zirvəsində qızıl taca bənzədiyi zaman kəsiyində xitam verməzdən əvvəl bir şeyi də nəzərinizə çatdırmaq istərdim. Bəzən araqarışdıranlar da olur, aramızı vurmaq üçün dəridən-qabıqdan çıxanlar da. Deyirəm birdən...**

- Sözünüzü kəsdiyimə görə üzr istəyirəm.

Mən qəti əminəm ki, araqarışdıranlar nə qədər meydan sulamaq istəsələr də, onlar qol-qanad aça bilməzlər. Onu da deyim ki, mən fatalist deyiləm, inanıram ki, hər kəs öz alın yazısını yazır, kim nə eləsə, o da qabağına çıxacaq. Bilirsiniz bəzi-para adamların iddiası ona oxşayır ki, biri acgözlük edib ona verilən plovdan çox yeyib qarın ağrısına düşür, sonra da plovu bişirənin və payla-

yanın yaxasından yapışıb onları günahkar bilir, mühakimə etmək istəyir.

Elə bilirəm ki, elə bir ləzgi olmaz ki, onun azərbaycanlı dostu və qohumu olmasın. Eləcə də elə bir azərbaycanlı olmaz ki, onun ləzgi dostu, yaxud qohumu olmasın. Elə götürək bizim özümüzü. Siz nədən mənim barəmdə kitab yazırsınız, axı ona görə mən sizə heç nə vəd etməmişəm, axı Sizin bu yöndə heç bir maddi marağınız yoxdur. Demək Sizi bu addım atmağa şövq edən sizin təkcə mənimlə deyil, ümumən ləzgilərə olan, dost münasibətinizdir. Üstəlik onu da deyim ki, siz qusarlı olan və respublikamızda ad-san çıxartmış Ərzuman Zülfüqarov və Əziz Səfixanov barədə də kitablar yazmısınız.

Bütün bunlar bizim dostluqdan irəli gəlmirmi?

Ona əminəm və siz də əmin olun ki, bizim uzaq keçmişdən yol alıb gələn bu dostluğumuza, qardaşlığımıza heç kim mane ola bilməz. Fikrimi müqəddəs kitabımız «Quran»ın 35-ci surəsinin 10-cu ayəsi ilə bitirirəm: «O kəslər ki, hiylə qurub pis işlər törədərlər, şiddətli bir əzab gözləyir onları. Boşa çıxar hiylələri.»



# Hildən başlanan ömür yolu

Zahiri süni nəzakət əslində nəzakət deyildir, üstü pərdələnmiş təhqirdir?

*Baltasar Qrasian*

Qonşu haqqı – Tanrı haqqı.

*Kitabi Dədə Qorqud*

Dilənçi var, yüz dilənçi saxlayar.

*Şıxəli Qurbanov*

Abırsızdan abırını saxla.

*Azərbaycanın atalar sözü*

Hərbiçiləri və rəiyyəti ümid və qorxu arasında saxlamışam.

*Əmir Teymur*

Sən öz yolunla get, qoy adamlar nə deyirlər desinlər.

*Dantel*

Kommunistlərə gündə 24 saat, həftədə 7 gün, ildə 52 həftə göz qoymalıyıq.

*D.D.Eyzenhauer*
*Sabiq ABŞ prezidenti*

Bizdən bu dünyada hünər qalacaq!

*Səməd Vurğun*

İnsan zamanın tələb etdiyi kimi olmalıdır.

*V.Şekspir*



# İKİNCİ SÖHBƏT

Dünya az yetirər belə adamı,
Dəryadan dərindir eşqi, ilhamı.
Hikmətli sözləri, şirin kəlamı
Zehnimi gün kimi gülgün edibdir.
**Süleyman Stallı**

## «Məktəb həyat üçün hazırlıq deyil, həyatın özüdür.»

**– Zeynəddin müəllim mən sizinlə bir daha üz-üzə, göz-gözə dayanıb söhbətləşmək, dərdləşmək istəyirəm. Burda oxucu bir daha sizinlə yaxından tanış olacaq, sizin keçdiyiniz ömür yolunu izləyəcək, bu yolun eniş-yoxuşları, ağrı-acıları və sevinci ilə, eləcə də həyata baxışlarınızla tanış olacaq. Onu da deyim ki, cavab həsrətində olan həmin suallar sizin insanlıq dünyanızı gözlərimiz qarşısında canlandıracaq.**

**Bildiyiniz kimi Sizə ehtiramım, hörmətim və sayqılarım çoxdur. Çünki Siz özünüz üçün yaşayan, təkcə öz xeyrini güdən kişilərdən deyilsiniz. Axı, Siz mərd kişilərdənsiniz, xeyirxah və səxavətlisiniz. Olduqca qonaqpərvərsiniz. Bu yöndə ömür-gün yoldaşınız Şərqiyyə xanımın da adını əminliklə çəkirəm. Mənə elə gəlir ki, qonağınız olmadığı günü nigarançılıq keçirirsiniz, sanki həmin günü ömrünüzdən saymırsınız. Onu da bilirəm ki, tamah deyilən şey sizdən uzaqdı və siz nəfs qulu olanlardan zəndeyi-zəhləniz**

**gedir. Allahı tanıyanlardan biri də, elə tamahı olmayanlardı. Bax, digər müsbət insanı keyfiyyətlərinizə görə də barənizdə kitab yazmaq arzusunda oldum.**

**Kitabın ayrı-ayrı fəsillərində, bölmələrində dönə-dönə barənizdə dediyim fikirlərim Sizə təkrar kimi görsənməsin. İnanın ki, mən özümü həmin fikirlərimi yazmaqdan çəkindirə bilmirəm.**

**Zeynəddin müəllim, indilikdə Sizə olan növbəti sualım belədir: Deyirlər ki, kəndinin qədrini bilməyən paytaxtının da qədrini bilməz. Adam var ki, evi onun vətəni, ailəsi isə onun xalqıdır. Xahiş edirəm bu fikirlər ətrafında söz açasınız.**

- Elbrus, qardaşım, bildiyimiz kimi nə qədər Adəm övladı varsa, bir o qədər də xarakterlər, fərdi xüsusiyyətlər vardı. Sualınıza rəğmən onu deyə bilərəm ki, dünyamızda kimisi vətənpərvərdi, kimisi də qarınpərvər, cibpərvər. Bax, indi biz qızıl payız günlərində, ömrümüzün qızıl çağında yaşayırıq. Əminəm ki, bu çağımızda suallarınızın da, ona verilən cavablarımın da, əyarı, düz ölçülü, düz çəkili olacaq, çalışacağam ki, cavablarımın məna dərinliyini təmtəraqlı sözlərdə deyil, ürəyimdən su içən sadə sözlərimdə tapım. Həyatda elə hisslər, elə düşüncələr var ki, onları yalnız yaşamaq, duymaq olar, onlar çox vaxt nə dilə gəlir, nə də ki, qələmə. Onu da deyim ki, həyat nə qədər məşəqqətli və ağrılı olsa da, o yenə də gözəldir.

Şeyx Şamilin belə bir müdrik kəlamı var: «Gələcək haqqında fikirləşəndə heç vaxt keçmişi unutmayaq». Bizlər isə çox zaman unutduq keçmişimizi, keçmişimizdə baş verən qanlı-qadalı hadisələri, bizlərə qurulan tələləri, tariximizi saxtalaşdıran faktları. Dedik, dözümlü xalqıq,





geniş ürəyimiz var, bağışlamağı bacarırıq. Və keçmişimizdə olan haqsızlıqları unutmaqla sanki babalarımız bizləri, bizlər isə nəvələrimizin aqibətini unutduq. Bu yöndə Hüseyn Arif deyir:

*«Ata yurdumuzdan ilham almasaq,*
*Zaman ağac kimi qurudar bizi,*
*Bu gün babaları yada salmasaq,*
*Sabah nəvələr də unudar bizi.»*

**- Zeynəddin müəllim, bəlkə bu yöndə daha ətraflı söhbət edək, bir daha yaxın-uzaq keçmişimizə səyahət edək?**

- Mən elə sizin kitablarınızdan bu yöndə oxuduqlarımla sualınıza cavab vermək istərdim:

Bütün məqamlarda «Allah kərimdi», «Allaha təvəkkül» dedik. Allah isə deyir ki, səndən hərəkət, məndən bərəkət. Çox vaxt mühafizə edə bilmədik, ehtiyatlılığımızı, sayıqlığımızı itirdik. Və itirə-itirə kiçildik, talan, qarət olduq. Hər şeyi tale və alın yazısı bildik. Dedik ki, Allah yaratdığını özü də hifz edər. Unutduq, peyğəmbərimizin bu sözünü: «Allaha güvənin, ancaq dəvəni bağlamağı unutmayın.» Bir tərəfdən də gəlişi gözəl sözlərin, yalançı nəvazişlərin və saxta məhəbbətin hesabına murdar niyyətlər, pis işlər də həyata keçirilir. Bu isə bizim mənəvi məğlubiyyətimiz və tənəzzülümüzdü. Bir tərəfdən də suyumu, niyyəti pis olan bəzi qələm sahibləri Əlinin papağını Vəlinin və Vəlinin papağını Əlinin başına keçirməklə başımızın altına yastıq qoydular. Həzrət Əli demişkən: «Zatı pak olan şəxsin ağzından pis söz çıxmaz». Qəvi düşmənlərimizdən başqa bizə doğma olanlar da bir tərəfdən qənim kəsildi ata ocağımıza, ana yurdu-

muza, küll halında Azərbaycanımıza. V.Şekspir demişkən: «Qanımıza ən çox həris olanlar qanımıza ən çox yaxın olanlardı. Xainlərin qanını tökmək isə ədalətdir.»

Həqiqətin inkaredilməz hökm dairəsi var. Vətən məhəbbəti insanın doğulduğu dam-daşdan başlayır. Ü.Hacıbəyli deyirdi: «Binanın son daşı heç vaxt bünövrə daşını inkar edə bilməz, etsə özü yuxarılarda dayana bilməz».

Son 20 ildə neçə-neçə ahılımız, cavanımız torpaq həsrətilə dünyalarını dəyişdi.

Böyüklərin ətəyindən tutan şərəfsiz adamlardan nə qədər zəhləm gedirsə, bir o qədər də şərəfsizlərin tərəfini saxlayan böyüklərdən gedir. Bizim arxalandığımız haqqımız və həqiqətimizdi. Düşmənlərimizin isə güvəndiyi zordu, yalandı, iftira və böhtandı, qarayaxmadı, yalına yalmandığı ruslardı. Zaman keçər zor qüvvədən düşər, it sahibinin itə acığı tutar, yalını, sümüyünü verməz. Bax, onda həqiqət öz yerini tapar, ədalət öz sözünü deyər, mizan-tərəzi öz ölçüsünə düşər.

Sultan Məcid Qənizadə yazılarının birində göstərir ki, İvan Qroznı belə deyirmiş: - Tatarlar, türk, pers (fars), çeçen və sairə gərəksiz zir-zibillərin əlindən biz rus milləti çox qanlar udmuşuq. İndi böyük Rusiyada onlar üçün yer yoxdur... Haydı! Hara gedirsiniz, gediniz – yol açıqdır, Tursiyaya, Persiyaya. Nu...»

Budur, rus çarlarının zaman-zaman bizlərə olan münasibəti, baxışı və niyyəti. Ədəb-ərkandan çox-çox uzaq olan bu sözlərin içində ermənilərin adını hallandırmayan çar bizə yol göstərir, ancaq Pyotr kimi o da gözlərini bizim münbit, eyni zamanda strateji cəhətdən sərfəli olan torpaqlarımızdan çəkmir.





İndisə vaxtilə şərəfinə heykəllər ucaltdığımız, xiyabanlar, şəhərlər saldığımız, bütün ali məclislərdə adlarını ehtiramla çəkdiyimiz, bolşeviklərin mənəvi atası sayılan Leninin yaxın silahdaşlarından biri, az qala ətəyində namaz qılınan Şaumyanın Andronikdən aldığı teleqrama cavab olaraq ünvanladığı teleqrama nəzər salaq.

«Xalqın rəhbəri Andronikə!

Sizin teleqramı aldım. Mətni bütünlükdə Moskvaya, mərkəzi hökumətə çatdırdım. Öz tərəfimdən Sizin şəxsinizdə əsl xalq qəhrəmanını salamlayıram. Əgər Kaçaznuni (daşnak hökumətinin ilk başçısı olub) və başqaları da Sizin kimi olsaydılar, erməni kəndliləri indiki faciəni yaşamalı olmazdı. Sizin bayrağınız altında döyüşən bütün igid əsgərlərə və bütün zəhmətkeş əhaliyə salam söyləyin.

Stepan Şaumyan».

Bu da lənətullah Şaumyan, vaxtilə adını fəxrlə çəkdiyimiz, ehtiram əlaməti olaraq ayağa durduğumuz, alqışladığımız, şəkillərini iş otaqlarımızda asdığımız (hansı ki, özü boğazdan asılmağa layiq idi), guya sümüklərini silahdaşlarının sümükləri ilə Bakımızın mərkəzində müqəddəs torpağımıza tapşırdığımız, toy-düyündə, bayram günlərində, onun doğum günündə, «qətlə yetirildiyi gündə» üstünə gül-çiçək qoyduğumuz, şəninə qiymətli sözlər dediyimiz, adını şəhərimizdə, rayonlarımızda, kolxoz və sovxozlarımızda, küçələrimizdə əbədiləşdirdiyimiz, şərəfinə heykəllər ucaltdığımız Şaumyan – yırtıcı canavar, xalqımızın qanına yerikləyən vəhşi köpək.

Şərq və Qərbin ən böyük simalarından biri, elm fədaisi, professor Mirzə Kazımbəylə bağlı bir əhvalatı xatırladım. Mirzə Kazımbəy ömrünün sonlarında səfərdə olarkən London şəhərində yerləşən Asiya muzeyində

Nizami Gəncəvinin əlyazması olan nadir nüsxəsinə rast gəlir və o, bu tapıntıdan sevindiyi qədər də qəmlənir və fikrə dalır. Bu vaxt muzeyin işçisi, onu «bizə satıblar» deyir. Sonra da əlavə edir ki, əgər satmasaydılar, yəqin ki, indi it-bata düşərdi. Mirzə Kazımbəy də köks ötürüb acıqlı-acıqlı deyir: «İxtiyarım olsaydı, bu əlyazmalar üçün sizdən pul alan o adamın əllərini kəsərdim.»

Məndə belə bir inam var ki, Nizaminin həmin əlyazması da erməni əli ilə xaricə satılıb.

**- Zeynəddin müəllim, türk dünyasının, eləcə də azərbaycanlıların və ləzgilərin rəzil düşmənləri olan erməni vəhşiliyini, erməni faşistliyini, onların öz sözləri ilə yada salmaq istərdim. Erməni yazıçı və publisisti David Xerdiyanın (lənətullah) «Xaç uğrunda» kitabının bir səhifəsində görün nə yazır: «Səhərin soyuğunda biz Daşbulaq yaxınlığındakı bataqlıqdan keçmək üçün ölülərdən körpü düzəltməli olduq. Mən ölülərin üstündən getmək istəmədim. Bunu görən podpolkovnik Seyran Ohanyan (sonradan Ermənistanın müdafiə naziri oldu) mənə işarə etdi ki, qorxmayın. Mən ayağımı 9-11 yaşlı qızın meyidinin sinəsinə basıb addımlamağa başladım. Mənim ayaqlarım və şalvarım qan içində idi və beləcə 1200 meyidin üstündən keçdim. Martın 2-də «Qaflan» erməni qrupu (onları meyidləri yandırmaqla məşğul olan xüsusi bir dəstədir) 2000-ə yaxın alçaq müsəlmanların cəsədlərini toplayıb ayrı-ayrı hissələrlə Xocalının 1 kilometrliyində yandırdı. Axırıncı yük maşınında mən başından və qollarından yaralanmış 10 yaşlı bir qız uşağını gördüm. Diqqətlə baxanda gördüm ki, o yavaş-yavaş nəfəs alır. Soyuqdan titrəyən, ac və susuz olan ağır yaralanmış həmin qız hələ də sağ qalmışdı. Ölümlə mübarizə aparan bu qızın gözlərini heç vaxt yaddan çıxartmayacağam. Sonra Tiqranyan familyalı bir əsgər onun qulaqlarından tutub üzərinə mazut tökülmüş cəsədlərin içərisinə atdı. Daha sonra onları yandırdılar. Tonqaldan gələn inilti və ağlamaq səsləri isə hələ də kəsilməmişdir.»**





- Elbrus, qardaşım, dediklərin məni son dərəcə mütəəssir etdi. Dədə-baba düşmənlərimiz erməniləri vəhşilikləri, qaniçənlikləri, müsəlman qanına yerikləmələri bir daha məni varımdan yox etdi. Onlar düzələn deyil. Atalar yaxşı deyib ki, qozbeli qəbir düzəldər. Onu da mən əlavə etdim ki, qozbelin də elə duzəlməsinin nə özunə, nə də başqalarına heç bir xeyri olmaz.

Sözünüzün qüvvəti olaraq deyim ki, Quba rayonu ərazisində vaxtı ilə erməni silahlıları tərəfindən silahsız olan dədə-babalarımızın qətlə yetirilib, üst-üstə qalanıb qaldığı sümükləri bu gün də gözdağı kimi durur, hər görənin qəlbində qaniçən ermənilərə qarşı nifrət tonqalı yandırır.

**- Xahiş edirəm ki, bir tarixçi və bir qusarlı kimi, onun tarixindən, dünənindən, bu günündən bir daha söz açasınız, qısaca olsa da qusarlılar barədə söz deyəsiniz. Bu yöndə sizin fikiriniz daha maraqlı olardı. Bir də qısa cavab verməyinizi ona görə zəruri bilirəm ki, bu yöndə mən də bir çox qaynaqlara istinad edib yetərincə söz demişəm.**

- Ən əvvəl onu deyim ki, Qusar Azərbaycanımızın şimal bölgəsində həm sahəsinə, həm də əhalisinə görə iri rayonlardan biridir. Azərbaycanımızın uğuru da, ağrıacıları da Qusara doğma olub. Biz canbir qəlbdə zaman-zaman birlikdə yaşamışıq və aramızda heç bir ayrıseçkilik görməmişik. Düzdü keçən əsrimizin sonlarında bəzi təxribatçı qüvvələr bu birliyi pozmağa can atsa da, onlar elə qusarlıların özləri tərəfindən yerlərində otuzdurdular.

Qusar Azərbaycanımızın qədim diyarlarından biridir. O, mənim ana beşiyim, könül həmdəmim, təsəllim, fəxrim, fəxarətimdir. Qusardan dünyamıza göz açıb aləmə səs salan bir çox övladları var. Mən onların adlarını iki səbəbdən çəkmirəm. Ona görə ki, kimlərinsə adı yadımdan çıxar, həm də ona görə ki, bu barədə sizin yetərincə söz deməyinizə əminəm.

Qusarın tarixindən bildiklərimi sizin diqqətinizə çatdırıram.

A.A.Bestiyev – Marlinski 1834-cü ildə Qusarda qonaq olub. Bu barədə o, «Qubaya yol» yazısında məlumat verib.

1866-cı ildə Qusarda dövlət tərəfindən ilk dəfə məktəb açılıb.

1920-ci illərdə Quba qəzası tərkibində olan Qusar rayonunun ərazisində 3 dairə olub: Qusar, Həzzə və Əniğ.

1925-ci ildə rayonda ilk dəfə olaraq qadınlar klubu yaranır.

1926-cı ildə Hilin əhalisi 3744 nəfər imiş.

1928-ci ildə rayonda artellər yaradılır və sonralar isə kolxozlara çevrilir.

1930-cu ilin iyulunda müstəqil rayon olur və ilk dəfə mərkəzi Həzrə, az sonra isə mərkəz Hilə köçürülür. Rayon Partiya Komitəsinin 1-ci katibi Məhəmməd Cəfərov və katibi isə Talib Talıbov olub.

1930-cu ilin sentyabrında Hildə «Qadınlar şurası» yaradılır və Güllü Şahmərdanova onun ilk rəhbəri olur.

1931-ci ilin yanvarında Hil rayonun 1-ci Şuralar qurultayı Nurəddin Şərifovu rayon İcraiyyə Komitəsinin sədri seçir.





1934-cü ilin dekabrından rayon mərkəzi Qusara köçürülür və 1938-ci ilin noyabrından Qusara şəhər adı verilib.

Qusar toponimi barədə «Azərbaycan toponimləri» kitabında göstərilir ki, ona 1918-ci il sənədlərində Qusarqala adında rast gəlinir. «Dərbəndnamə» kitabında isə həmin toponim Kusayr kimi qeyd olunur. Bu ad isə kosar və ya kusar tayfasının adı ilə bağlanır.

Qusarın göz oxşayan, könüllər duyğulandıran gözəl bir təbiəti var. Onun göylərə meydan oxuyan Bazardüzü dağı, Şahdağı və başqa dağları, can dərmanı bitkiləri, suları var. Onu da deyim ki, Qusarda 3 minə yaxın olan bitki dünyası, Samur çayı, Uğurçayı və Qusarçayı, Tufan gölü və Şıxmirzə gölü var. Qusarın zümrüd meşələri bir də yeraltı təbii sərvətləri var. Təkcə mənim anadan olduğum Hil kəndində yaşı 500-600 illə ölçülən fıstıq ağacları da vardır.

**- Zeynəddin müəllim, bəzi qaynaqlardan oxuduğuma və eşitdiklərimə görə sizin Hil kəndindən igid oğullar çox olub və onlar bu gün də var. Ancaq onlardan üç nəfərin cəsurluğu, igidlikləri dastanlaşıb, igidləri əfsanələşib.**

- Elbrus müəllim, bildim söhbət kimlərdən gedir. Onlar VIII əsrdə yaşamış pəhləvan Şuvul, XVI əsrdə yaşamış Abdullah və XIX əsrdə yaşamış Yarəlidir. Şuvul yaşadığı zaman dönəmində Hil kəndinin hakimi olub. O, az bir canlı qüvvə ilə iki il ərəb döyüşçülərinə qarşı vuruşub, onları Hilə buraxmayıb. Ərəb döyüşçüləri ancaq Şuvul igidliklə həlak olandan sonra kəndə girə bilib.

Nadir şah biz tərəflərə hücum edəndə ona qarşı çıxan minlərlə ləzgiyə divan edir. O vaxt onun qarşısını kəsən

və kəndlərimizə buraxmayan Müşkür Sərfinatla hilli Abdullahın döyüşçüləri olub.

XIX əsrin birinci yarısında yaşamış hilli Yarəli isə oğlu Rəcəblə və bir də hilli Yunusla özlərinin çox da böyük olmayan canlı qüvvələri ilə (bir çoxu da balta ilə, yaba və ağacla) vuruşub və dönə-dönə igidliklər göstəriblər.

**- Sizi 60-70 il əvvələ qaytarmaq istərdim. Deyin, kənd məktəbində oxuduğunuz, şagird olduğunuz illərdə müəllimlərinizdən kimləri xatırlayırsınız?**

- Mənə dərs deyən, hərf öyrədən, elm haqqında anlayış və bilik verən müəllimlərimin hamısını xatırlayıram, indi onlar haqq dünyasındadır. Allah onlara rəhmət eləsin, onların hamısının boynumda haqqı var. İndilikdə onlardan bir neçəsinin adını çəkirəm – milliyyətcə yəhudi olan Nixama İsakova bizə «Rus dili»ndən dərs deyərdi. O, şagirdləri ilə həmişə iltifatlı olar, hər birimizin qayğısını çəkərdi. Mənə qarşı da çox diqqətli idi, mənə həmişə nəvaziş göstərib deyərdi ki, sənin gələcəyinə inamım var.

Bu yöndə «Kimya» və «Biologiya» fənlərindən dərs deyən, sonralar «Əməkdar müəllim» adına layiq görülmüş Zeyfulla Zöhrabovun və «Tarix»i tədris edən və mənimlə fəxr edən, həmişə səni mən yetişdirmişəm deyən Burhaddin Bədirxan oğlu Ədilxanovun adlarını böyük ehtiramla çəkir və bir daha deyirəm ki, Allah onlara qəni-qəni rəhmət eləsin.

**- Zeynəddin müəllim, bəs o vaxt sizinlə oxuyan şagirdlərdən kimləri xatırlayırsınız?**

- Şagird yoldaşlarımdan da çoxları dünyalarını dəyişib, az-az sağ qalanları da var. Onu deyim ki, bizim kənd məktəbini bitirən şagirdlərin bir çoxu sonralar təhsillərini





davam etdirmiş, müxtəlif vəzifələrdə işləmişlər. Onlardan neçəsi də kənddə qalıb yaşayan sadə peşə adamları olub.

Məktəbli yoldaşlarımdan ikisinin adını çəkirəm – onlar hərbiçi polkovnik İsgəndər Quliyev və bir də Maxaçqala şəhərində məskunlaşmış hərbiçi polkovnik Anibala Mirzə oğlu Yardumovdur. Onun 2007-ci ildə Maxaçqalada çap olunmuş «Yarıməsr hərbiçilər sırasında» adlı kitabı maraqla oxunan kitablardandır. Onu da deyim ki, həmin kitabda biz şagird yoldaşları da xatırlanırıq.

**- Bəlkə deyəsiniz, ömrünüzün ən çətin məqamları, günləri və ayları nə vaxt olub?**

- Əlbətdə ki, uşaqlıq illərim – atasız günlərim, ömrümün 1941-1945-ci illərinə düşən zaman kəsiyi ömrümün olduqca çətin, ağrı-acılı illəri olub. Düzdür, sonralar da ömrümün çətin vaxtları olub, ancaq onların heç biri uşaqlıq illərimdə keçirdiyim çətinliklərlə, əzab-əziyyətlə müqayisəyə gələ bilməz. O illər gözüm görə-görə neçə nəfərin acından öldüyünü də görmüşəm.

Yadımdadı, kolxoz işimə getmişdim, Rəhim adlı bir kişinin yerdə uzanalı halda zarıdığını gördüm. O zarıyazarıya «fu-fu», yəni, «çörək-çörək» deyirdi. Bacım məni çörək gətirmək üçün evə göndərdi. Mən əlimdə çörək qayıdan vaxt kişinin son nəfəsi idi. Bacım əlimdəki çörəyin bir parçasını xırdalayıb həmin kişinin ağzına qoydu, o bədbəxt də bir-iki dəfə çörəyi çeynəyəndən sonra canını tapşırdı. Bu vaxta kimi həmin hadisəni, həmin görüntüləri unuda bilmirəm, onu indi də ürək ağrısı ilə xatırlayıram.

O illər qapı-qapı gəzib çörək dilənən körpələrin acından arıqlayıb çöpə dönmüş sir-sifətlərini də bu günkü

kimi xatırlayıram. Hökumətdən, hərbi xidmətdən qaçaq düşüb çörək üçün evlərə soxulan qaçaqlarını da yaxşı xatırlayıram.

Görünür ki, ona görə də Allah bizi aclıqla imtahana çəkməsin, yaxud da ac qılınca çapar demişik.

**- Və bu yöndə Məhəmməd Peyğəmbərin (ə.s.) belə bir fikri də var: «Yoxsulluq aparıb axırda dinsizliyə çıxara bilər.» Bir də Zeynəddin müəllim, Sizin aclıqla bağlı xatirələriniz yadıma olmuş bir əhvalat salır. Sovet dönəmində Bakıda oxuyan bir tələbə pulsuzluqdan üç gün ac qalır və yolla gedərkən yaşlı bir dilənçi qadının qabağındakı xırda pulları götürüb qaçır. Həmin pulla aldığına özünü doyuzdurur. Həmin günü axşam kənddən pul alan tələbə pullarını götürdüyü dilənçiyə yaxınlaşır. Dilənçi qarı onu görən kimi yır-yığış edir. Tələbə dilənçinin qabağında əyilib ona 5 manat pul uzadıb deyir ki, xala, bağışla məni bir kasıb tələbəyəm, üç gün idi ac idim, sənin xırda pullarını götürüb qaçmağa məcbur oldum. Səndən götürdüyüm pullar 3 manat 60 qəpik idi, indi onları günahımı yumaq üçün artıqlaması ilə qaytarıram.**

**Dilənçi qadın gözləri yaşla dolmuş halda ona deyir ki, oğul sən də məni bağışla, dilim-ağzım qurusun, dünən sənə qarğış eləmişdim. Bir də xalan sənə qurban olsun, nə vaxt pulun qurtarsa, yanıma gələrsən, olanımdan sənə əl tutaram.**

- Elədi dostum, Allah bizləri aclıqla imtahana çəkməsin.

**- Zeynəddin müəllim, yaxşı olardı ki, ömrünüzün uşaqlıq illərini, Hilli günlərini bir daha yada salasınız.**

- Bildiyiniz kimi, mən Hil kəndində, sadə bir ailədə anadan olmuşam. O vaxt bizim kənd rayon mərkəzi





olub. Ailədə atam Ramazan, anam Cağa, beş bacı və üç qardaş idik. Böyük qardaşım Mövlüd 1941-ci ildə zabit kimi cəbhəyə gedib, 1943-cü ildə həlak olub. Elə həmin ildə atam da vəfat elədi. Onsuz da çətinliklə yaşadığımız bir zaman kəsiyində vəziyyətimiz, gün-güzaranımız olduqca ağırlaşdı. O vaxt 10 yaşım vardı. Ancaq anama və bacılarıma təsəlli verirdim ki, heç də narahat olub qorxuya düşməyin, mən sizi dolandıracam, atamı, qardaşımı əvəz edəcəm, axı balaca olsam da mən də kişiyəm.

O vaxt anam evdə iş bölgüsü yaratmışdı. Birimiz odun, birimiz ot-ələf, birimiz əkin və sair işlərə baxırdıq. Mənsə ancaq oxumaqla məşğul idim. Lampanın şüşəsi sındığından bir müddət çıraq işığında dərslərimi hazırladım.

Onu da deyim ki, o illər qardaşım Mövlüdün anama çatan pul məbləği dolanışığımıza az da olsa köməklik idi. Yaşımın üstə yaş gəldikcə mən ev işlərinə köməklik etməyə başladım, meşədən odun, biçənəkdən ot gətirirdim. Atamın «dilbilən» bir atı vardı, meylimi o ata salmışdım, hara getsəm onunla gedərdim. Bir az da böyüyəndən sonra meşədən araba ilə odun gətirərdim. O vaxt inəyimiz, toyuq-cücəmiz də vardı, inəyin ağartısı, toyuğun yumurtası və əti bizi ac qalmaqdan qurtardı. Sonralar bacılarım da kolxozda işləməyə başladılar. Kiçik qardaşım Muzafəddin də həmişə yanımda olardı, məndən ayrılmazdı. Onun da bəxti qara oldu, ömrünün gənclik çağında – 1959-cu ildə dünyasını dəyişdi.

Göründüyü kimi uşaqlıq illərim də, gənclik illərim də ürəkaçan olmayıb. Bununla belə heç kimin qabağında sınıb-əyilməmişəm, həmişə özümü tox tutmuşam. Şair Əliağa Kürçaylı demişkən – bizim yaşıdlarımız konfet

yerinə barmaq sorub. Onu da deyim ki, insanın xəmri halallıqdan və zəhmətdən yoğrulanda, o, daha dəyərli insan olur, həm özü üçün, həm də ətrafdakılar üçün.

**- Zeynəddin müəllim, bəlkə bir qədər də tələbəlik həyatınızdan danışasınız, o illərə qayıdasınız.**

- Mən, 1952-ci ildə orta təhsilimi başa vurandan sonra Bakıya üz tutdum. Sənədlərimi Bədən tərbiyəsi institutuna verdim və yüksək balla ora daxil oldum və yataqxanada yerlə təmin olundum. Bir müddət oxuya-oxuya «Maşın təmiri zavod»unda işlədim, ancaq bir ermənini döydüyümə görə, orda işləməkdən məhrəm oldum.

Oxuduğum o illərdə dostluq etdiyim tələbə yoldaşlarımı yaxşı xatırlayıram, onlardan sağ qalanları da var, dünyasını dəyişənlər də var. Onların adlarını çəkirəm – Aydın Babayev, Akif Novruzov, Baba Babayev, gəncəli Ənvər, gədəbəyli Məmməd və Şəki Namazov, həmkəndlim Ağabala Ağababayev.

O illər bizə dərs deyən müəllimləri də xatırlayır və onların bir neçəsinin adını çəkirəm – rektor Ənvər Babayev, prorektor Əmikişi Kişiyev, dekan İvan Batyakin, Baba Musayev (o, güləş üzrə dünya çempionu idi) boksdan dərs deyən müəllimlərdən – Odinov və Ağalarov.

Ehtiyac içində olduğumdan çətinliklərim çox olub, aldığım təqaüdün və anamın Böyük Vətən müharibəsində həlak olmuş qardaşım Mövluda görə aldığı təqaüddən göndərdiyi cüzi məbləğ hesabına dolanırdım.

1962-1967-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) tarix fakültəsində isə ikinci ali təhsil almışam.





Rektorumuz Mehdi Əliyevi, dekanımız Səidə İmanovanı, müəllimlərimizdən Aslan Atakişiyevi, Qəmbər Hüseynovu, Xəlil Əlmirzəyevi, «Azərbaycan tarixi»ndən dərs deyən Lətif müəllimi, daha sonra Asiya Rəhimova və Tamella Qurbanovanı bugünkü kimi xatırlayıram. Və hər biri barəsində böyük ehtiramla, saatlarla danışa bilərəm.

Mən, Universitetin «Tarix» fakültəsində, əvvəl «Bədən tərbiyəsi» institutunda oxuduğum tələbə yoldaşım Aydın Babayevlə ikinci dəfə birlikdə oxuyası oldum. Bir də Sizin həmyerliniz Qubadlı rayonunun Mahmudlu kəndindən olan pəhləvan cüssəli, qollu-qanadı, həyatı zəhmətdən yoğrulmuş Əmikişini də bu gün gözəl xatırlayıram. Allah Aydın Babayevə can sağlığı versin, Əmikişiyə də rəhmət eləsin.

**- Zeynəddin müəllim bir daha sizi sorğu-suala çəkmək istəyəndə mərhum şairimiz Garay Fəzlidən bir bənd şeir yadıma düşdü:**

***Sahibsiz dənizdə bir adayam mən,***
***Gəl çəkmə sorğuya-suala məni.***
***Bir şirin, bir dadlı röyadayam mən,***
***Qorxuram sel gələ, su ala məni,***
***Gəl çəkmə sorğuya, suala məni.***

**Dediyim kimi bu Garay Fəzlinin fikirləridir. Ancaq elə bilirəm ki, Sizin bu yöndə sözünüz başqadı. Axı, Siz heç vaxt ümidsiz olmamısınız, heç vaxt özünüzü sahibsiz bilməmisiniz, heç vaxt özünüzü röyada görməmisiniz. Bir də Siz bu vaxta kimi nə sel-sudan qorxmusunuz, nə oddan-alovdan, nə daşqından, nə də ki, çovğundan. Axı, Sizin**

**ömrünüz mübarizələrdə keçib, axı, Siz bütünlüklə Azərbaycanı sevmisiniz, anadan olduğumuz torpağı müqəddəs bilib əzizləmisiniz, Qusarı beşiyiniz bilib, onun dağlarını, könüloxşayan təbiətinin vurğunu olmusunuz.**

**Zeynəddin müəllim, axı, Qusar dağlarının ballı çiçəklərinin gözü yollarda qalıb, neçə aydıkı Zeynəddin nəfəsi, Zeynəddin hənri üçün darıxıb. Deyirəm, bəlkə bir qədər göz rahatlayan, könül oxşayan Qusar dağlarına səyahətə çıxaq, onun gözəlliyindən, can dərmanı sularından söz açaq?**

- Elbrus, qardaşım, sözlərinizlə məni kövrəltdiniz, ürəyimdə, könlümdə xoş duyğular oyatdınız, məni gənclik illərimə və yaxın ötən günlərimə qaytardınız. Onu da deyim ki, mən də, həyat yoldaşım Şərqiyyə xanım da təbiət vurğunuyuq. Vaxt tapan kimi özümüzü dağlarımıza çatdırmışıq, çiçəyindən dərib, can dərmanı olan dupduru sularından sirab olmuşuq. Vaxt olub dağlarımızı gəzərkən dağ günəşindən yandığımız məqamda dolu başımızın üstünü alıb, daldalanmağa qaya axtarmışıq, ağac oğuşu axtarmışıq.

Dağlarımızın hamısı gözəldir, hansını deyim, bir deyil, beş deyil. Hər halda bir neçəsinin adını çəkirəm: Şahdağ, Yaru dağı, Kabaş dağı, Tufan dağı, Nisen dağı, Marğu dağı, Silibir yaylaqları, Bazardüzü dağı, Bazaryurd dağı. Çaylarımızdan - Samur çayı, Qusarçay, Ukurçay, Şahnabat çayı. Şəlalərimizdən – Şahdağ şəlaləsi, Qoşa şəlalə, göllərimizdən Tufan gölü, Şıxmirzə gölü. Bu sadaladıqlarım hamısı deyil, onları gəzib-tanımaq üçün nə göz doyur, nə ürək, nə də ki, bir ömür yetər.

**- Ömürlük yaşamaq üçün uzaq-uzaq məmləkətlərə üz tutanlar bu barədə fikrinizi bilmək istərdim.**





- Ana vətəni, ana yurdu, ata ocaqlarını göz bəbəyi kimi qorumaq, onun ağrısı ilə ağrımaq, sevinci ilə sevinmək hər birimizin müqəddəs borcudu. Heç vaxt fikirləşməyək ki, o, bizə nə verib (əslində çox şey verib, onu sadalamağa ehtiyac görmürəm). Götür-qoy edək ki, biz ona nə vermişik. Zərurət olmadan xoş gün-güzəran üçün, başqa məmləkətlərə ömürlük yaşamaq üçün üz tutmaq ən azı böyük günahdır. Elə bilirəm ki, mənim fikir və düşüncələrimə şərik olasınız.

Belə bir təmsil var. Deyirlər, uçan bir bayquşdan göyərçin hara üz tutduğunu soruşar. O da cavab verir ki, qərbə uçur. Göyərçin soruşur, niyə öz doğma yerlərini atıb qürbət yerlərə uçursan? Bayquş cavab verir:

- Ona görə ki, burda məni sevmirlər, bəyliyimə şübhə edirlər ki, səsim zəhlətökəndir.

Göyərçin də ona cavab verir:

- A bayquş, sən doğma yerləri yox, öz səsini dəyişməlisən. O səs ki, səndədi, heç qürbətdə də səndən xoşu gələn olmayacaq.

Onu da deyim ki, dolanışıqla bağlı bir müddət xaricə üz tutmaq, orda hansısa bir yararlı iş görmək, yaxud təşkil etmək, yeri gələndə Azərbaycanımızı müsbət mənada tanıtdırmaq, əlbətdə alqışa layiqdir. Ancaq heç bir məcburiyyət olmadan Vətəni atıb getmək, bayaq dediyim kimi, böyük günahdı, böyük də cinayətdir.

**- Zeynəddin müəllim, Sizin dəfələrlə ana haqqında böyük məhəbbət və ehtiramla danışmağınızın şahidi olmuşam. Əslində sizin anaya olan bu pak duyğularınız özünü insan adlandıran hər bir kəsin duyğusudu, məhəbbətidir. Gəlin etiraf edək ki, ana məhəbbətini uca tutmayanlar da vardı. Elələrinin barəsində nə deyə bilərsiniz?**

- Çox təəssüf ki, bizimlə birlikdə bu dünyamızı yaşayan, ana məhəbbətini uca tutmayan, anasını itirib-axtarmayan, onun yaşam tərzi ilə maraqlanmayan, hətta anasını təhqir edib ona əl qaldıranlar da var. Eləəri ən böyük kürsülərdə əyləşən, əli pulla oynayan olsa belə, o, şəxsiyyət kimi, bir insan kimi heçdir, cılızdır, nankordur, köksündə döyünən isə ürək deyil, yumruğu boyda ət parçasıdır. Mənə görə onlar yaşamırlar, sadəcə olaraq mövcuddurlar.

Deyirlər ki, Mustafa Kamal Atatürk yüksək çinli məmurlarla doğulduğu şəhərdə toplantıya gedərkən ən əvvəl orda yaşayan anasının görüşünə gedir və onu qarşılayan anasının qarşısında dizlərini yerə qoyub əlindən öpür. Bunu seyr edənlərin hər birinin ürəyindən, Allah – Allah Atatürk də dizlərini yerə qoyarmış fikri keçir. Daha sonra Atatürk ayağa duranda, anası gözlənilmədən onun əllərindən öpür, Atatürk isə buna mane ola bilmir. Və ana bu mənzərədən çaşanlara üz tutub deyir: - Nə vaxt ki, əllərim öpüldü, bu mənim analıq haqq-sayım idi. Ona görə də mən buna mane olmadım, axı, həmin vaxt o, mənim üçün sadəcə oğlum Mustafa idi. Onun əllərindən öpmək isə oğlumun haqqı idi. Həmin vaxt, o mənim üçün Türkiyədə yeni bir dünya yaradan, yenilməz insan Mustafa Kamal Atatürk idi.

Cavan çağlarından ərini və iki oğlunu itirən, məni və beş qız övladını min bir əzab-əziyyətlə böyüdən, 100 yaşında dünyasını dəyişən anam Cağa mənim üçün fədakarlıq və müqəddəslik rəmzi idi. Həmişə onun qulluğunda durmağı fəxarət bilmişəm, onun xeyir-duası ilə evdən çıxmışam, hər hansı bir işə onun xeyir-duası ilə başlamışam. Nə qədər ki, anam sağ idi arxalı dağ





timsalında idim. Bir vaxtlar uşaq olanda atadan yetim qalmışdım, ömrümün ahıl çağlarında isə anadan yetim qaldım. Allah dünyamızı anasız qoymasın.

**- Bəlkə deyəsiniz, nədən qorxmusunuz?**

- Dost xəyanətindən, inandığın adamın yalan deməsindən, xeyirxahı olduğun adamın dönüklüyündən, insanların biganəliyindən, bir də özünə yaxın bildiyin adamdan şübhələnməkdən, həmişə, hər an qorxmuşam. Başqa hallarda qorxu nə olduğunu bilməmişəm.

**- Zeynəddin müəllim, deyin qayğısız günləriniz nə vaxt olub?**

- Heç vaxt qayğısız günlər yaşamamışam. Həmişə kimlərinsə qayğısını çəkmişəm? Eləcə də mənim qayğımı çəkiblər. Bir də mən hazırına nazir olanlardan olmamışam. Əldə etdiklərimi öz alın tərimlə, zehnimlə qazanmışam. Yuxarıda dediyim kimi, tək öz qayğım olsaydı nə vardı xoş yaşamağa. Axı, mən tabeçiliyimdə olanların da qayğısını bir ağsaqqal kimi, bir qardaş kimi, bir vətəndaş kimi və bir insan kimi çəkməkdə özümü borclu bilmişəm. Eləcə də ətrafımda ehtiyac içində yaşayanların, qohum-əqrəbanın, ağbirçək anamın, həyat yoldaşımın da qayğısını böyük məhəbbətlə çəkmişəm. Başqa cür, mən — mən olmazdım. Bir də ki, insan bağa deyil ki, öz qınına çəkilib ömür sürsün.

İnsanların bir-birinə qayğı göstərməsi onun saflığından, xeyirxahlığından və mərdliyindən irəli gəlir. Ancaq münasibətdə olduğu adamların qayğısına qalmayanlar bu dünyamızda qayğısız ömür sürə bilər. Şəxsən mən elə ömrü insan ömrü adlandırmıram. Axı, «Mən salim olum, cümlə-cahan batsa da batsın» əqidəsi ilə bu dünyamızda yaşamaq olmaz, ən azı ona görə ki, bizim adımız insandı.

Deyirlər ki, makedoniyalı İsgəndərin qələbələrinin əsas səbəblərindən biri də onun döyüşçülərinə olan qayğısı və bir də döyüşçülərin ona inamı olub.

Belə rəvayət edirlər ki, bir dəfə makedoniyalı İsgəndər döyüşdə fərqlənən əsgərlərinə çox şey bağışlayır. Ondan soruşanda ki, bəs sizə nə qaldı, o da cavab verir ki, ümidlərim.

**- Zeynəddin müəllim uzun illər internat məktəbində direktor olduğunuzdan heç şübhəsiz onun tarixi barədə kifayət qədər məlumatlısınız. Xahiş edirəm bu yöndə bildiklərinizdən söz açasınız.**

Qusar şəhər internat məktəbi Qusar rayonun xalq maarifinin inkişafı tarixində mühüm rol oynayıb.

Qusarda ilk dövlət məktəbinin açılması 1866-cı ilə təsadüf edir. Bu məktəbdə təhsilin tədrisi rus dilində aparılan bir sinifli ibtidai məktəb olub.

1896-cı ildə A.İ.Pobedonosetsin xüsusi proqimnaziyası əsasında yaranmış III Aleksandr adına Bakı oğlan klassik gimnaziyası müdavimlərinin yay mövsümündə istirahətin təşkili və onların kənd təsərrüfatı işləri üzrə təcrübə keçirmələri üçün indiki internat məktəbi ərazisində dayaq məntəqəsi hesab edilən koloniya yaradılmışdı. (Koloniya hər hansı bir məqsədlə yaşamaq üçün bir yerdən başqa yerə köçürülmüş adamların yaşadığı yer mənasındadı)

Koloniya Bakı quberniyası Quba qəzasının Qusar nahiyəsində, Bakıdan 180km. məsafədə olan ərazidə yerləşib.

O, təbii cəhətdən zəngin dövlət hesabında olan 30 desyatinlik, olduqca gözəl mənzərəli, əla iqlimə malik,





dəniz səviyyəsindən xeyli yüksəklikdə olan bir ərazidə yerləşir.

Koloniya 1896-cı ildən mövcud olsa da, əsas işlər 1898-ci ilin aprelindən başlayıb.

Kaloniya bir növ özünümaliyyələşdirmə prinsipi üzrə fəaliyyət göstərib. Onun indiki Qusar rayonu ərazisində meyvə bağları, yardımçı təsərrüfatı, kiçik quşçuluq, arıçılıq fermaları, kartof, əkin sahələri olub. Buna baxmayaraq, koloniyaya imkanlı şəxslər də maddi cəhətdən kömək edib. Bu yardımlar, ianələr, kolonistlərin əməyi sayəsində əldə olunmuş və kənd təsərrüfatı məhsulları koloniyanın ilboyu fəaliyyət göstərməsinə şərait yaradıb.

İlk illərdə kolonistlərin sakinləri sayca azlıq təşkil edirdilər, lakin təsərrüfatdaxili işlərin, təhsil sisteminin nizama salınmasından sonra koloniyanın kontingenti 1000 nəfərdən artıq olmuşdur.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra indiki məktəbin ərazisində fəaliyyət göstərmiş koloniyanın bazasında 1920-ci illərin əvvəllərində respublikada savadsızlığı ləğv etmək şüarı adı altında müəllim kadrları hazırlayan kurslar təşkil edilir.

Bakıda, Şamaxıda, Şuşada, Qusarda və respublikamızın digər 5 məntəqəsində 1920-ci ilin yayında pedaqoji kurslar açılır.

1931-ci ildən internat məktəbi ərazisində əmək koloniyası yerləşmiş binada Aqro pedtexnikumu açılır. Bu, milli ucqarlarda savadsızlığın ləğvi, müəllim kadrlarının hazırlanması sahəsində respublika hökumətinin mühüm tədbirlərindən biri idi.

1932-ci ildən sonra Aqropedtexnikum Qusar Dövlət Pedaqoji məktəbi kimi fəaliyyət göstərmişdir.

Qusar Dövlət Pedaqoji məktəbinin ilk direktoru Hacıbaba Rzayev olmuşdur.

1940-cı ildə Qusar Dövlət Pedaqoji məktəbi Quba şəhərinə köçürülüb.

Avropada müharibə təhlükəsinin artması və Böyük Vətən müharibəsi ərəfəsində, 1940-41-ci illərdə indiki internat məktəbin ərazisində hərbi polk yerləşib. Müharibənin başlanması ilə əlaqədar olaraq polkun heyəti bütünlükdə cəbhəyə getdiyi üçün həmin binalarda uşaq evi yaradılıb.

Bu, 1942-ci ildə müharibə ilə əlaqədar respublikada valideynlərini itirmiş kimsəsiz uşaqların Dövlət himayəsində olan uşaq evlərinin yaradılması ilə bağlı idi.

Qusar şəhər internat məktəbi ərazisində 1942-ci ildə 1 və 2 saylı uşaq evləri təşkil edilib.

Qusar uşaq evi 1957-ci illədək fəaliyyət göstərib. Sov.İKP XX qurultayında yeni tipli politexnik təhsil verən qapalı internat məktəblərin yaradılması haqqında qərar qəbul edilir. Bununla əlaqədar uşaq evi öz fəaliyyətini dayandırır. Ordakı uşaqlar respublikamızın müxtəlif şəhərlərində olan uşaq evlərinə köçürülür.

1956-cı ilin sentyabrında Sov.İKP MK Nazirlər Soveti internat məktəblərinin yaradılması haqqında qərar qəbul edib.

1956-57-ci illərdə SSRİ-də 300-dən çox internat məktəbi təşkil olunub.

Azərbaycan SSR Nazirlər Sovetinin 3 iyul 1956-cı il tarixli qərarına əsasən respublikada 1956-57-ci tədris ilində 4 internat məktəbi açılıb.

Bunlardan ikisi Bakı şəhərində, digərləri Ağdam və Quba şəhərlərində idi. Sonrakı tədris ilində Azərbaycanda







İnternat şagirdləri Lvov şəhərində ekskursiya zamanı. 1985



**İnternat şagirdləri Moskva şəhərində ekskursiyada. 1987**







**Şərqiyyə müəllimə Hil kənd orta məktəbinin şagirdləri arasında. 1984**



Öndə Z.Çələbov, sağda bacısı əri İ.İslamov, bacası qızı Əmənti, bacısı oğlu Yaşar və onun qızları Tayifə və Fəridə



İsgəndər Quliyev. Z.Çələbovun həmkəndlisi və məktəb yoldaşı







Hil kəndində məscid



Hil kəndindən bir görünüş



Z.Çələbov qohumu Dövlət və onun oğlu Sərvət



İki şöhrət ordenli Hil kənd sakini Nurbala Rzaxanov







Hilin "Mel" ansanblı el şənliyində



Hilin "Mel" ansanblı bayram şənliyində



**Şərqiyyə xanımın qardaşı oğlu Roman və onun oğlu Danil**



**Şərqiyyə xanım və qardaşı Vacib Qayıtmazov**





930 nəfər şagirdi əhatə edən 7 internat məktəbi təşkil edilir. O cümlədən, 1956-cı ildə aparılmış əsaslı təmirdən sonra 1957-58-ci tədris ilində uşaq evi bazasında 5 saylı Qusar şəhər internat məktəbi yaradılır.

1958-ci ilin dekabrında SSRİ Ali Soveti «Məktəbin həyatla əlaqəsini möhkəmlətmək və ölkədə xalq maarifi sistemini daha da inkişaf etdirmək haqqında» qanun qəbul edib. Qanunda internat məktəbləri natamam orta (8 illik) tipində və ya istehsalat təlimi verən orta ümumtəhsil əmək politexnik məktəbləri tipində təşkil olunurdu.

1957-ci ilin sentyabrın 1-də məktəbin idman meydançasının yaxınlığında iki mərtəbəli binanın qarşısında Qusar şəhər 5 saylı internat məktəbinin açılışı olub. Açılışda rayon partiya komitəsindən, icraiyyə komitəsindən, hərbi hissədən, maarif şöbəsindən və digər təşkilatlardan rəsmi şəxslər və qonaqlar iştirak edib.

İnternat məktəbinin ilk direktoru Əsgər Əliyev açılışı elan etdi. Rayon partiya komitəsinin birinci katibi Səlim Səlimov internat məktəbinin ilk müəllim və şagird kollektivinə təhsildə, təlim-tərbiyədə böyük uğurlar arzuladı o gün.

**- Zeynəddin müəllim, internat məzunlarından sizdən xəbər tutanlar varmı?**

- Əlbətdə, var. Mənimlə telefon əlaqəsi saxlayanlar da var, görüşümə gələnlər də. Onlardan neçəsi sadə peşə adamlarıdı, neçəsi yüksək vəzifələrdədir, aralarında hakimlər, müəllimlər, müxtəlif peşə sahibləri var. Mən onların uğurları ilə fəxr edirəm.

**- Bilirəm ki, şeirləriniz də var, bəlkə onların bir neçəsi ilə bizləri tanış edəsiniz.**

- Onu da deyim ki, belə gözəlliklər diyarında yaşayan hər bir kəsin öz poetik dünyası var, çox az adam olar ki, bir-iki bənd şeiri olmasın. Mən də eləcə, hərdən şeir deməyim olur və dediyim şeirləri heç bir vərəqə də yazmıram, sonradan bir çoxu yadımdan çıxır. İndilikdə yadımda olanlardan bir neçə misra deyərəm:

*Vurulmuşam vüqarına,*
*Mərdlər təkin duran dağlar.*
*De, nədəndi sinəndəki*
*Belə boran, duman, dağlar.*

*Ağır illər gəlib keçdi,*
*Yaxşı-yaman seçib keçdi.*
*Neçə mərdi biçib keçdi,*
*Sən oldun haqq soran, dağlar.*

*Söyləyirəm, inan gerçək,*
*Qonağınam, suyun içək.*
*Çiçəklərdən ləçək-ləçək*
*Məhəbbətin hörən dağlar.*

*Sən gəl dostun üzünə bax,*
*Namərd kəsin gözünə bax.*
*Zeynəddinin sözünə bax,*
*Ürəyim tək vuran dağlar.*

**Belə bir şeir də demişəm nə vaxtsa:**

*Nə qədər taleyim olsa da acı,*
*Həyatdan küsməyim yaraşmaz mənə.*
*Zəhmətdir insanın ən yüksək tacı,*
*Zəhmətsiz yaşamaq yaraşmaz mənə.*





Nə vaxtsa belə bir bənd şeir də demişəm:

*Vədlərimiz düz olmazsa,*
*Düzələrmi zəmanəmiz?*
*Sözlə əməl tərs gələrsə,*
*Təmizlənməz əqidəmiz.*

«Nazlı ceyran» adlı üç bənd şeirimin iki bəndi yadımdadı:

*Məhəbbətin diyarında,*
*Gəl barışaq nazlı yarım.*
*Düşüb eşqin alovuna*
*Gəl alışaq, nazlı ceyran.*

*Eşq nəğməmiz sevgidəndi,*
*Qismətimiz xudadandı.*
*Küsməyimiz fitnədəndi,*
*Gəl barışaq, nazlı yarım.*

**- Zeynəddin müəllim, yaxın keçmişə qayıdıb Sizi yenidən vəzifə sahibi eləmək istəyimdən belə bir sual vermək istəyirəm. Elə bilirəm ki, sizin vaxtı ilə apardığınız yüksək vəzifənizin havası, hökmünüzün qaya ovxarlayan kəsəri heç vaxt müəllimlik adınıza xələl gətirməyib. İlkin əmək fəaliyyətinə müəllim kimi başlayan Zeynəddin Çələbov sonralar hansı vəzifələrdə işləsə də müəllimlik peşəsinə, amalına və psixologiyasına doğma olub, əqidəsini, insanlara münasibətini dəyişməyib.**

- Dostum, elə bilirəm ki, verdiyiniz suala hardasa özünüz qismən də olsa cavab verirsiniz. Ən əvvəl onu deyim ki, vəzifə insana təkcə tabeçiliyində olanlara rəh-

bərlik etmək, işin uğuru üçün onlara qarşı tələbkar olmaq üçün verilmir.

Vəzifə sahibi təkcə rəhbərlik etməklə kifayətlənməməli, o həm də kollektivin xidmətçisi olmalı, onların qayğısına qalmalı, gün-güzaranları ilə maraqlanmalıdır. Ona görə müəllimlik peşəm həmişə qolumdan tutub, mənə düzgün yol göstərib.

Makedoniyalı İsgəndər deyərmiş ki, həyata gəlməyimə görə atam Filipə, ləyaqətli həyat sürməyimə görə isə müəllimim Aristotelə borcluyam. O baxımdan hansı vəzifələrdə işləmişəmsə bizlərə ləyaqətli həyat sürməyi öyrədən müəllimlərə böyük ehtiramım olub və özüm də müəllim olduğumdan müəllimlik psixologiyama ögey olmamışam. Həmişə əmək mənim həyatım, fədakarlıq isə dünyam olub. Başqası üzərində nəzarəti itirmədiyim kimi öz üzərimdə də nəzarəti itirməmişəm. Onu da deyim ki, mən müəllim olanda mənə vəzifə adamı kimi, vəzifədə olanda da eyni zamanda müəllim kimi baxıblar və mən bunu məğbul bilmişəm.

Bir dəfə Qazı Məhəmməd Şeyx Şamilə deyir ki, dostum, səni and verirəm Allaha, nə vaxtsa müqəddəs borcuma xəyanət etsəm məni öldürərsən.

Həmin fikrin qüvvəti olaraq deyim ki, mən də heç vaxt müqəddəs borcuma xəyanət etməmişəm, nə müəllimlik peşəmə, nə vəzifə borcuma, nə də vətəndaşlıq və bir ləyaqətli insan kimi yaşamaq borcuma.

**- Zeynəddin müəllim internatda direktor olduğunuz illərdə internatda rəsmi və qeyri-rəsmi qonaqların kimlər olub, xahiş edirəm onlardan yadında qalanların adlarını çəkəsiniz.**

- Direktor olduğum illərdə internatda rəsmi və qeyri-rəsmi qonaqlar çox olub. Onlardan yadımda qalan rəsmi





iş üçün gəlmiş qonaqlar bunlardı. Kamran Hüseynov, Mehdi Mehdizadə, general Mahmud Əbilov, Rəfiqə Hüseynova, Elmira xanım, Qurban Məmmədov, Haşım Ağayev, Xəlil Axmedoviç Raxmatulin, Tofiq İsmayılov, Zahid Xəlilov və qeyri-rəsmi qonaqlardan - Fərəməz Maqsudov, Rafiq Zəka Xəndan, Viktor Kuzmiç Siderenko (Qazağıstanın Maarif nazirinin 1-ci müavini) Məcid Hüseynzadə, dostum Kərim Kərimov, Səttar Bəhlulzadə, Şəmistan Nəzirli, Oqtay Rza, Bəxtiyar Vahabzadə, Mirzə Bağırov, həmkəndlim general Ənvər Əkbər oğlu Mikayılov.

**- Eşitdiyimə görə, siz internatda direktor olduğunuz zaman, Sizi o vaxt Maarif naziri işləyən Kamran Rəhimov qəbuluna çağırtdırıb və siz də...**

- Elbrus, qardaşım, sözünüzü kəsdiyimə görə üzr istəyirəm, ona görə ki, verəcəyiniz sualı havada tutdum.

Bir gün Qusar rayon maarif şöbəsinin müdiri mənə xəbər verdi ki, sabah filan saat, filan dəqiqədə Maarif naziri Kamran Rəhimovun qəbulunda olmalıyam. Və mən də deyilən vaxtda nazirin qəbulunda oldum. Nazir iş otağında tək olsa da məni gözlədəsi oldu. Görünür bununla da öz vəzifə böyüklüyünü nümayiş etdirmək və məni təsir altına salmaq istəyirdi. Ancaq mən 40 dəqiqədən artıq gözləməyib onun qəbul otağını tərk elədim.

Sabahısı gün məni yenidən nazirin yanına çağırdılar. Bu dəfə məni gözlətməyən nazir məni çox ciddi, bir qədər də qaş-qabaqlı qarşıladı və məni təkəbbürlü olmaqda ittiham etdi. Mən də, özüməməxsus ötkəmliklə nazirə cavab verdim. Sözümü kəsmədi, fikrimi axıra qədər dinlədi və sonra gülümsünüb mənimlə razılaşmalı oldu.

**- Barənizdə söhbət etdiyim Zəmirə Qədiyevanın dediyinə görə internatda işləyən qadın müəllimlər, rus deyişkən 3 manatdan «soobrazim» eləyib kişi müəllimlərə «23 fevral» münasibətilə bayram süfrəsi açıb və siz məclisin sonunda cibinizdə olan pullarla qadın müəllimlərin pullarını özünə qaytarmısınız.**

**Mən, Sizin təmiz və halal adam olmağınıza inanıram. Ancaq ola bilər ki, üzərində işlədiyim, barənizdə olan bu kitabın həmin səhifəsini oxuyan bəzi ağzıgöyçəklər barənizdə şəkk-şübhəyə düşüb desin ki, görəsən Zeynəddin müəllim cibindən verdiyi həmin pulları hansı hesabdan və necə qazanıb.**

**Xahiş edirəm ki, bu fikrimə açıqlama verəsiniz.**

- Sualınız ürəyimdən oldu. Bilirsiniz, o illər mənim özümün yetərincə şəxsi təsərrüfatım, mal-qaram, əkin sahəm vardı. İmkan olan kimi satış üçün respublikamızdan kənara da kənd təsərrüfatı məhsulları yollayırdım. Bir sözlə dolanışığım, günüm-güzəranım çox yaxşı idi, ailədə isə xərcim az idi. Ailədə üç nəfər idik, anam, mən və həyat yoldaşım. Anam vəfat edəndən sonra isə ailədə iki nəfər qaldıq. Ona görə də pul xərcləməyə yer axtarırdım. Məni yaxından tanıyanlar yaxşı bilirdilər ki, xərclədiklərim halalca zəhmətimdən olan qazancımdan idi. Onlar çox gözəl bilirdilər ki, mən heç vaxt internata məxsus olan heç nəyə tamah salmamışam, rüşvət nə olduğunu bilməmişəm, internat direktorluğundan sonra işlədiyim daha böyük vəzifələrdə də heç vaxt əqidəmə, məsləkimə xəyanət etməmişəm.

Qonşularım və qohumlarım yaxşı bilirdilər ki, bu yaxın çağlara kimi həyatımda iki-üç baş sağmal inəyim





olub. Ona görə də onun ağartısından nəinki mən və həyat yoldaşım, eləcə də çoxları yeyib-içib.

**- Mənə bir şey də məlumdur ki, Siz internatda direktor işləyən zaman kəsiyinin birində işdən azad edilmisiniz və sonra işdən kənarlaşdırılmağınızın qanunsuz olduğunu sübut edib, yenidən öz vəzifənizə bərpa olunmusunuz. Bu həqiqətənmi belə olub?**

- 1986-cı ilin yanvarında RPK-nin birinci katibi Hacıbalayev vəzifəsindən azad edildi və onun yerinə Ramazan Bədirov təyin olundu. Və o, vəzifəsinin icrasına başlayandan bir neçə gün sonra məni yanına çağırıb bildirdi ki, işdən azad olunmağım barədə ərizə yazım. Razılaşmadım. Onun əlinin üstəki «nakolka»nı görüb dedim. Necə olur ki, bəzi cinayətkar adamlar kimi əlində «nakolka» olanın biri yüksək vəzifə postu tuta bilir, ancaq mənim kimi vəzifəsini düzgün icra edib, peşəsini bilən, iki ali təhsili olan bir pedaqoq internat direktoru ola bilmir. O, sözlərimdən alındı və «nakolka»lı əlini gizlədəsi oldu. Bu söz-söhbətimizdən sonra internata dəfələrlə yoxlama yolladı. Ancaq heç bir əyər-əskik tapılmasa da məsələni PK-nin bürosunda müzakirəyə qoydu və büro üzvlərindən heç biri mənim nə lehimə, nə də əleyhimə danışmadı.

Buna baxmayaraq, büronun əvvəlcədən yazılıb hazırlanmış qərarı ilə işdən azad olundum. Mən də qayıdıb katibə dedim, gec-tez haqlı olduğumu sizə sübut edəcəm. Əgər mən sizin bu saxta qərarınızı ləğv etdirməsəm heç kişi deyiləm.

Bundan bir neçə gün sonra dostum Kərimi müalicə etdirmək üçün Moskvaya apardım. Və mən «Sosialistiçeskiy industriya» qəzetinin redaksiyasında oldum, iş-

dən qanunsuz azad olunmağım barədə redaksiyaya rəsmi muraciət etdim. Qəzetin baş redaktoru redaksiyanın milliyyətcə azərbaycanlı olan əməkdaşı Cavanşir Məlikovu mənimlə tanış etdi. Belə oldu ki, Cavanşir məndən əvvəl Bakıya gələsi oldu. O, əvvəl Azərbaycan PK MK-da olur və oranın ikinci bir göstərişi ilə Qusara, mənim işimlə bağlı araşdırmaya gedir. Mən Qusara qayıdanda orda görüşdük. Biz birlikdə katibin yanında olduq. O apardığı araşdırma ilə bağlı fikrini belə ifadə elədi. Zeynəddin Çələbovun istər pedaqoji işində, istərsə də digər təsərrüfat işlərində, istərsə də internatda olan nizam-intizamda, təlim-tərbiyədə, təhsilin tədrisində heç bir nöqsan görmədim. Və apardığım araşdırmada o qənaətə gəldim ki, Zeynəddin Çələbovun fəaliyyəti bir örnək, bir nümunə kimi respublikada olan başqa internatlarda da təbliğ olunmalıdır. Ancaq bir məsələ mənə qaranlıq qaldı, o da ondan ibarətdir ki, internatda olan təsərrüfat məhsulları və kəsilən heyvanlar Maarif nazirliyinin deyil, məhz internatın direktoru Zeynəddin Çələbovun öz əmri, öz göstərişi və imzası ilə həyata keçirilməsidir. Bu vaxt sanki katibin çiçəyi çırtladı, bir qədər məmnun halda dedi ki, artıq burda cinayət var, ona görə də bu işlə prokurorluq məşğul olmalıdır.

Mən də işimi bilən idim, bilirdim ki, onu mənə irad tuta bilərlər. Ona görə də SSRİ Maarif nazirliyinin təlimatını da özümlə götürmüşdüm. Və mən həmin təlimatı açıb uyğun olan maddəni onlara göstərdim ki, belə işlər nazirliyin deyil, məhz internat direktorunun səlahiyyətində olan məsələdi.

Katib işin nə yerdə olduğunu görüb, mənə daha böyük bir vəzifə – rayon maarif şöbəsinin müdiri vəzifəsini





təklif etdi. Mən də etiraz edib bildirdim ki, mənə böyük vəzifə lazım deyil, ən azı ona görə ki, siz məni qanunsuz olaraq işdən azad edəndə mən demişdim ki, sizin qərarı ləğv etdirib vəzifəmə qayıtmasam heç kişi deyiləm.

Sabahısı gün MK-da olduq, mənim məsələmə orda da baxıldı və haqlı olaraq rayon PK bürosunun qərarı ləğv edildi və mən yenidən internatın direktoru vəzifəsinə təyin olundum.

Katiblə aramızda olan narazılıqdan bir müddət sonra, o, məndən üzürxahlıq edib dedi ki, işə başlayan məqamda ona barəmdə düzgün məlumat verməyiblər.

Vəzifə məhək daşıdır, insanların kamilliyi, naqisliyi burada sınanır.

*Mirvarid Dilbazi*

Haqsız bəraət cinayətdən ağırdır.

*Kürd atalar sözü*

Hökmdar gərək öz sözünün ağası olsun, bildiyi işin dalınca getsin.

*Əmir Teymur*

Hakim naqis olsa qanunlarda ədalətsizliyə yol verilər, ədalətsizlik özünə yol tapdısa, ölkənin gözəlliyi gedər.

*N.Tusi*

Xalqın etimadını doğrultmaq, öz şərəfli adını daim uca tutmaq, hər bir milis (polis) işçisinin müqəddəs borcu, doğma işidir.

*General-leytenant*
*Arif Heydərov*

Mənim sərvətim məndə olanlar deyil, etdiklərimdir.

*Sokrat*

Rahatlıq zəhmətdədir.

*Azərbaycan atalar sözü*

O dövlət yaxşıdır ki, orada natiqlərdən daha çox qanuna qulaq asırlar.

*Xilton*

# Həyatla üz-üzə

Qüvvəsiz ədalət şikəstdir.

*Paskal*

Ehtiyat igidin yaraşığıdır.

*Azərbaycan atalar sözü*

Yaxşıya körpü oldum,
Yaman da keçdi məndən.

*Sarı Aşıq*

Namərddən kişi olmaz,
Yetişsə ərşə başı.

*Sarı Aşıq*

Çalış öz xalqının işinə yara
Geysin əməlinlə dünya zərxarə.

*Nizami Gəncəvi*

Hər bir insanın dəyəri yaxşı əməl sahibi olmasındadır.

*Həzrət Əli*

Qurd qonşusunu yeməz.

*«Oğuznamə»*

Həqiqi ləyaqət təsvirə sığmaz.

*Höte «Faust»*

Ya olduğun kimi görün, ya göründüyün kimi ol.

*Cəlaləddin Rumi*



# ÜÇÜNCÜ SÖHBƏT

Kim istəyirsə, qoy haqq yoluna gəlsin, kim istəmirsə, qoy üz döndərsin.

**Şeyx Şamil**

«Vəzifə atından düşmək ar deyil,
Kişilik atından kişi düşməsin.»

**- Zeynəddin müəllim, xahiş edirəm ki, keçən günlərdən yadınızda qalan səciyyəvi əhvalatlardan da bir qədər söz açasınız. Rəhmətlik Üzeyir Hacıbəyli demişkən «Ordan-burdan».**

- Elbrus, maşallah suallarınızı adamın üstünə yaz yağışı kimi yağdırırsınız. Bir sualınızın cavabını qurtarar-qurtarmaz başqa bir sualla adamı düşündürürsünüz. İndilikdə bir balaca hövsələ etsəniz yaddaşıma üz tutardım. Hə, qardaş, 1970-ci ildə RPK-nin birinci katibi Müslüm Murtuzayevin yanında olub, ondan xahiş etdim ki, internatın həyətini asvaltlaşdırmaqda köməklik göstərsin. O da qayıdıb dedi ki, düzdür, internatın həyətini asvaltlaşdırmaq lazımdır, ancaq imkan olanda, onun vaxtı çatanda. İndi internatdan da vacib olan yerlər asvaltlaşdırılır.

Bununla da söhbətimiz qurtardı və o, Bakıya gedəsi oldu. Mən də üz tutdum avtovağzala, orda asvalt çəkmək üçün hazırlıq işi gedirdi. Mən iş icraçısını görüb Müslüm Murtuzayevin adından dedim ki, bu gündən internatın həyətində işə başlamalı və bir neçə günə oranı asvaltlaşdırmalısınız, ona görə ki, Bakıdan internata

yüksək vəzifəli bir şəxs gəlməlidir. İcraçı ən əvvəl tərəddüd elədi, ancaq mənim ciddi və ötkəm danışığımı görüb razılaşdı və beləliklə də bir neçə gün ərzində internatın həyəti asvaltlaşdı.

Müslüm Murtuzayev Bakıdan qayıdandan sonra məni yanına çağırıb danladı, belə hərəkətin kommunistə yaraşmayan hərəkət olduğunu dedi və onu da əlavə etdi ki, belə getsə tutduğun vəzifədən uzaqlaşmalı olacaqsan.

Ancaq bir neçə gündən sonra, o vaxt Respublikada Nazirlər Sovetinin sədr müavini işləyən Kamran Hüseynovun internata gəlməsi və işimizdən, eləcə də internatın həyətindəki səliqə-səhmanından razı qalması qanımın arasına girdi. Ona görə də Müslüm Murtuzayevin mənə olan qəzəbi soyudu.

Mən, 1992-ci ilin iyul ayında (Rayon İcra Hakimiyyətinin Qusar şəhəri üzrə nümayəndəsi işlədiyim zaman) Bakıya çağrıldım, Prezident Əbülfəz Elçibəy məni qəbul etdi və məni Qusar Rayon İcra Hakimiyyətinin başçısı təyin olunmağım barədə fərmanla tanış etdi. Mən də etimadına görə ona minnətdarlığımı bildirib, həmin vəzifəni tutmaqdan imtina etdim. Ondan sonra məndən əvvəlki icra başçısı iki ay həmin vəzifəni icra edəsi oldu.

O aylar çox qarışıq zaman idi. Respublikada, eləcə də Qusarın özündə qarışıqlıq idi, getdikcə ara qarışdıranların sayı payız göbələyi kimi artırdı, meydan sulayıb vəzifə iddiasında olanlar da saysız-hesabsız idi. Ona görə də belə bir vəziyyətdə rayona rəhbərlik etməkdə ehtiyatlanırdım. Sentyabrın 3-də yenidən Prezidentin yanına çağırıldım, əvvəki fərman təzələndi. Bu dəfə Əbülfəz Elçibəyin sözündən, mən deyərdim ki, xahişindən imtina edə bilmədim və Qusarın sağlam qüvvələrinə inanıb





1992-ci il sentyabrın 3-dən Qusar Rayon İcra Hakimiyyətinin başçısı kimi işə başladım.

Bir müddət sonra respublikanın rəhbər işçilərinin iştirakı ilə Xızıda keçirilən müşavirəyə mən də dəvət olundum. Müşavirədə müzakirə olunan əsas məsələlərdən biri ölkədə olan hərc-mərcliyə qarşı mübarizə və bir də, ölkədə olan çörək qıtlığının aradan qaldırılması yollarının araşdırılması idi. Müşavirədə mən də öz sözümü dedim və bildirdim ki, bu yöndə öz köməkliyimi edəcəm. Və müşavirədən sonra, mən Dağıstana getdim. Qol kənddə, Məhərrəmkənddə və Dərbənddə olub, sözüm keçən vəzifə sahibləri ilə, dost-tanışım olan iş adamları ilə görüşdüm. Onlara dedim ki, vaxtı ilə Hacı Zeynalabdin Tağıyev nə qədər dağıstanlılara köməklik edib, aclıqdan qurtarıb. İndi də onun vətəni çörəkdən korluq çəkir. Bu hal bir dost, bir qardaş kimi sizləri də narahat etməlidir.

Qusara qayıtdım və az müddətdən sonra Dağıstandan münasib qiymətə respublikamıza min tondan yuxarı taxıl göndərildi.

1994-cü ilin isti aylarının birində Qusarın Piral kəndində qarışıqlıq vardı. Belə ki, kimlikləri bilinməyən bəzi araqarışdıranlar Piralda olur, kənd camaatı arasında dövlət əleyhinə təbliğatlar aparır. Ona görə kəndə gedən rayon polis əməkdaşları ilə təxribatçılar arasında qarşıdurma yarandığından atışma olur. Bu atışmada 2 nəfər öldürülür.

Onu da deyim ki, mən həmin vaxt rayon icra hakimiyyətinin başçısı vəzifəsindən azad edilmişdim və heç bir yerdə işləmirdim.

Kənd camaatı öldürülmüş iki nəfərin meyidini maşında Qusar şəhərinə gətirib, icra hakimiyyətinin qarşı-

sındakı meydanda mitinq keçirir və həmin 2 nəfərin meydini meydançada dəfn etmək istəyirdilər.

Bununla əlaqədar Bakıdan – Prezident aparatından Hidayət Orucov, Milli Təhlükəsizlik nazirliyindən Namiq Abbasov və Daxili İşlər nazirliyindən polkovnik Fətulla Hüseynov da gəlmişdi. Onlar məni yanlarına dəvət etdilər və bildirdilər ki, belə vəziyyətdən bəzi təxribatçı qüvvələr də istifadə edə bilər, bu isə daha böyük hadisələrə gətirib çıxardar.

Belə bir vəziyyətin yaranmaması üçün ola bilsin ki, tərəfimizdən silah da tətbiq edilsin. Mən onlara qəti olaraq etirazımı bildirdim və dedim, ümidvaram ki, onların qarşısında çıxış etsəm məni eşidərlər və hər şey yaxşılıqla həll olunar.

Ən əvvəl toplantıda olanların arasında olub onlarla söhbət etdim, onlara iradlarımı bildirdim. Mənə dedilər ki, müəllim, sən də onların tərəfini saxlayırsan? Dedim, onların yox, sizlərin, camaatın tərəfini saxlayıram. Deyin silahınız var? Dedilər ki, yox. Dedim ki, qarşı tərəfdəkilər dövlətin zor qüvvələridir, özləri də silahlı. Deyirsiniz qırğın olsun, arvad-uşaq ayaq altında qalsın?

Sonra hamının qarşısında çıxış etdim. Dedim ki, fitvaya getməyin, çaşmayın, Bakıdan gələnlər dövlət adamlarıdır, onlar dövlətimizin, dövlətçiliyin, eləcə də ölkədə sabitliyin qoruyucularıdır. Onlar dövlət adından söz deyir, dövlət adından hərəkət edir. Bir də hansı müsəlmanlar yaşayan məmləkətdə görünüb ki, meyidi meydanda dəfn etsinlər. Axı, belə hərəkətlər islamda günahdı. Gəlin qanunlarımıza hörmət edək, islam qaydalarına əməl edək.





Mənim çıxışım təsirsiz qalmadı, tezliklə meydan boşaldı, meyidləri də dəfn etmək üçün kəndə apardılar.

Rəhmətlik Fətulla Hüseynov mənə dedi ki, Zeynəddin müəllim, belə halın baş verməsi rayon polis rəisinin səriştəsizliyindən yaranmış, yaxşı ki, siz onun səhvinə görə baş verə biləcək hadisələrin qarşısını el arasında olan nüfuzunuzla ala bildiniz. Ona görə çox sağ olun.

Hidayət Orucov da qayıdıb belə bir söz dedi, «mən inanıram ki, əgər Zeynəddin Çələbov indi rayonda başçı olsaydı belə bir hadisə baş verməzdi.»

**- Bildiyimə görə, siz icra başçısı olduğunuz vaxt internatın boşaldılıb hərbçilərə verilməsi barədə olan Prezident fərmanının icra olunmasına mane olmusunuz və sonda...**

- Sizi başa düşdüm, sualınızın əvvəlinə də, sonuna da cavab verərəm. 1992-ci ilin noyabr ayı idi. Prezidentin hərbi işlər üzrə köməkçisi Fəhmin Hacıyev Əbülfəz Elçibəyin fərmanı ilə yanıma gəlib dedi ki, elə bu gün Qusar şəhərində olan internat boşaldılıb, hərbiçilərə təhvil verilməlidir. Mən onun sözlərindən və əlindəki prezident fərmanının mətnindən təəccübləndim. Və dedim ki, belə hal qətiyyən ola bilməz. Fəhmin Əbülfəz Elçibəylə telefon əlaqəsi saxlayıb, ona dedi ki, icra başçısı Sizin fərmanınıza əməl etməkdən boyun qaçırır.

O gün Prezidentin qəbuluna gedəsi olduq. Əbülfəz Elçibəy məni qaş-qabaqla qarşıladı, bir az da hündür səslə dedi ki, siz nə haqla mənim fərmanıma əməl etmirsiniz, mənim imzama nədən hörmətsizlik eləyirsiniz? Mən də qayıdıb dedim ki, cənab Prezident, Siz məni bura ona görə çağırmısınız ki, məsələyə aydınlıq gətirəsiniz, yoxsa məni qorxudasınız. Dedi ki, əlbətdə məsələyə aydınlıq gətirmək üçün. Dedim eləsə məni axıra kimi dinləyin.

Onu bilin ki, inkişaf etmiş ölkələrin heç birində şəhər mərkəzində hərbi hissələr olmur. Bir də ki, Qusar şəhərinin özündə minlərlə əsgəri olan hərbi hissə mövcuddur, ona görə də yenisinə ehtiyac da qalmır. Bir də ki, internat boşaldılsa sakinlər arasında böyük narahatlıq olar, yüzlərlə yetim ləzgi uşaqları bir daha yetimləşər, təhsildən, dolanışıqdan, yaşamaq üçün ev-eşikdən məhrum olar. Belə hal isə nə Allaha xoş gedər, nə bəndəyə, elə sizin kimi demokratik ruhlu Prezidentə də xoş gəlməz. Siz deyin cənab Prezident, mən bu fikirimdə haqlı deyiləmmi? Bir də mən məsləhət bilərdim ki, hərbi hissə üçün sərhəd yaxınlığındakı Samur körpüsü olan sahədəki tikintidə daha yararlı və məntiqə uyğun olardı. Mən danışdıqca rəhmətlik Elçibəyin çöhrəsindəki razılıq əlamətlərini görürdüm. O, sonda gülümsünüb mənimlə razılaşdığını bidirdi və qayıdıb belə bir söz də dedi:

- Bəy, belə şeyləri bizə mütləq deyin, indilikdə isə Qusara qayıdıb fəaliyyətinizi davam etdirin.

**- Zeynəddin müəllim, Siz cəbhəçi olmasanız da, o illərdə rayona rəhbərlik etmisiniz. Xahiş edirəm deyəsiniz, fəaliyyətiniz dövründə rayon cəbhəçiləri ilə münasibətiniz necə olub?**

- Elbrus müəllim, sualınıza 1992-ci ilin oktyabrında rayon cəbhəçiləri ilə aramda olan bir əhvalatla cavab vermək istərdim. O vaxt Prezident aparatından mənə dedilər ki, rayon cəbhəçilərini qəbul edim. O gün 22 nəfər cəbhəçini qəbul edəsi oldum. Onlar mənimlə çox iddialı danışmaq istədi, ancaq mən onlara imkan vermədim. Bir çoxu səviyyəcə bəsit olan həmin cəbhəçilər məndən bacarıq və təhsillərindən çox-çox yuxarı olan vəzifələr istədilər. Ona görə də mən onları iş otağımdan çıxardası oldum.





Təxminən 3-4 saat keçəndən sonra Arif Hacıyev Bakıdan zəng edib, dedi ki, Prezident Əbülfəz Elçibəyin yanında olmalıyam, özü də həmin gün. Mən məsələnin nə yerdə olduğunu bildiyimdən ona cavab verdim ki, bu gün rayondan çıxa bilmərəm, ona görə də Prezidentin qəbuluna ancaq sabah gələ bilərəm.

Dediyim kimi, sabahısı günü Prezidentin qəbulunda oldum. Prezidentlə olan söhbətimizdə Pənah Hüseynov, Arif Hacıyev və bir də həmin cəbhəçilər də iştirak edirdi. Rəhmətlik Əbülfəz Elçibəy mənə bildirdi ki, cəbhəçilər sizdən narazıdır, deyirlər ki, onları qəbul edən vaxt təhqir eləmisiniz, kabinetdən qovmusunuz. Mən də cavab verdim ki, düz deyiblər, həqiqətən mən onları iş otağımdan qovmuşam. Prezident də təəccüblə: «niyə?» dedi. Dedim ona görə ki, heç birinin yetərincə təhsili olmayan, vəzifələr görməyən, beş nəfərə də rəhbərlik etməyən, Qusarda böyük nüfuzları olmayan bu adamlar rayonda ən yüksək vəzifələri tutmaq istəyir. Axı, bu keçid dövründə naşı adamlara məsuliyyətli vəzifələr tapşırmaq olmaz. Axı, Qusar respublikamızın şimaldan qapısıdır. Ona görə də orda səriştəli və xüsusi təhsil görmüş adamlar vəzifə sahibi olmalıdır.

Sonra da qayıdıb soruşdum – indi siz deyin, cənab Prezident, mən düz eləmişəm ya yox?

Rəhmətlik də cavab verdi ki, çox düz eləmisiniz. Biz sizə inanırıq, ona görə də istədiyiniz kimi də vəzifənizi icra edə bilərsiniz.

Prezidentin sözlərindən sonra cəbhəçilər suyu süzülə-süzülə Prezident aparatından çıxmalı oldu.

**- Bəs, axar sularımızın bulandığı və durulduğu bir zamanda - 1992-1993-cü illərdə Azərbaycanımızda at oyna-**

**dan, meydan sulayan silahlı dəstələr, eləcə də silahlı cinayətkarların fəaliyyəti, yüzlərlə vətəndaşlarımızın həmin qüvvələr tərəfindən qətlə yetirilməsi, mal-mülklərinin qarət olunması, fiziki və mənəvi təqiblərə məruz qalmaları barədə nə deyə bilərsiniz?**

- Həmin dövr keçid dövrü idi. Belə hallar müstəqilliyə çatan bütün ölkələrin keçdiyi yoldu. Onu da deyim ki, adını hallandırdığınız həmin qüvvələr az bir vaxtda zərərsizləşdirilmiş və həmin arzu olunmaz zaman kəsiyi artıq geridə qalmışdır.

Onu da deyim ki, sualınızla bağlı ayrı-ayrı vaxtlarda söhbətimiz əsnasında açıqlamalar vermişəm və bundan sonra da məqamı gələndə cavab verəcəm. Ona görə də indilikdə sualınızla bağlı verdiyim qısa cavabımla kifayətlənirəm.

**- Eşitdiyimə görə, 1992-ci ilin oktyabrında Quba şəhərində keçirilən arzuolunmaz bir mitinqdə həmin regionun rəhbər işçilərindən təkcə Siz mitinqçilərlə görüşüb, onların qarşısında məntiqli çıxış etmisiniz və sonda hər şey öz müsbət həllini tapıb. Bəlkə o günləri xatırlayasınız, bu yöndə söz deyəsiniz.**

- 1992-ci ilin oktyabrı idi, axşam saat 8.00-da olardı, Prezident aparatından zəng edib bildirdilər ki, Quba şəhərində «ÇP» var, polis işçiləri ilə birlikdə ora gedim. Ancaq mən tək getdim. Quba rayon İcra Hakimiyyətinə çatanda gördüm ki, binanın qabağına xeyli adam toplanıb. Dəvəçi, (Şabran) Xaçmaz və Qubanın polis işçiləri də orda idilər.

Bakıdan Arif Hacıyevlə birlikdə Milli Təhlükəsizlik nazirinin müavini Sülhəddin Əkbərov da gəlmişdi. Onlar məndən soruşdular ki, bəs, Qusar rayon polis əməkdaşları hardadı. Dedim ki, biz bura davaya gəlməmişik, söz deməyə, bir-birimizi anlamağa gəlmişik. Ona görə də onların gəlməsini zəruri bilmədim.





Mitinqçilər Quba rayon İcra Hakimiyyəti binasının yaxınlığında olan «dəmir körpüsü» deyilən yerə toplaşmışdılar. Tələbləri də Quba rayon İcra başçısı Sübhanverdiyevin vəzifədən azad edilməsi idi.

Mən Quba İcra Hakimiyyətində olan vəzifəli şəxslərə dedim ki, mitinq işçiləri olan yerə məndən başqa heç kim getməsin, mən özüm onlarla danışıb razılığa gələrəm. Elə də oldu. Mitinqçilər qarşısında olub sözümü deyəndən sonra, dedilər ki, dağılışırıq, ancaq iki şərtimiz var, birincisi odur ki, aramızdan 10 nəfər tutulub saxlanılıb, onlar azad edilsin, ikincisi də ki, sabah, siz Zeynəddin Çələbov bizim nümayəndəmizi Qusar rayon icra hakimiyyətində, Arif Hacıyevin və Sülhəddin Əkbərovun iştirakı ilə qəbul edib, bizi dinləyəsiniz. Mən onlara kişi sözü verdim, tutulub saxlanılmış 10 nəfəri azad etdirdim və sabahısı gün, deyilən şərtlə onların nümayəndəsini qəbul etdim. Ancaq adları çəkilən vəzifəli şəxslərlə onları iş otağımda qoyub, başqa yerə keçdim, ona görə ki, özümü o söhbətdə artıq bildim.

**- Bildiyimə görə 1993-cü ilin yaz aylarının bir günü qardaş Dağıstandan, o zamanın ifadəsilə desək, bir qrup ekstremistlər, yaxud sadvalçılar və ya onların təsiri altına düşmüş ipə-sapa yatmayan böyük bir insan axını Samur çayındakı sərhəd körpüsündən keçib iğtişaş salmaq niyyətində olduqları bir məqamda ən əvvəl onları qarşılayan və yetərli söz deyən siz olmusunuz.**

**Zeynəddin müəllim, xahiş edirəm ki, o hadisəyə açıqlama verəsiniz.**

- 1993-cü ilin may ayı idi. İşdə idim. Prezident aparatından zəng edib böyük bir narahatçılıqla baş verə biləcək hadisəni mənə xəbər verdilər. Və biz dörd rayonun - Qusar, Quba, Xaçmaz, Dəvəçi (Şabran) icra hakimiyyəti işçiləri, hüquq-mühafizə orqan əməkdaşları, adı çəkilən sərhədə getdik. Ən əvvəl sərhəddə yaxın təpələrin birinin arxasından sərhəddi müşahidə etdik və gördük ki, «Sadval»çı general Mühiddin Qəhrəmanov başda olmaqla, təxminən üç min insan axını sərhəddi keçməkdədir. Onların arxalarınca da maşın karvanı gəlirdi. Bizsə cəmi 250-300 nəfər olardıq. Mən üzümü özümüzünkülərə tutub fikirlərini soruşdum. Bayaq adlarını çəkdiyim rayonarın icra başçılarından biri və başqa bir neçə nəfər dedi ki, onlara atəş açaq. Ən azı ona görə ki, dövlət sərhədi pozulur. Mən acı-acı gülümsəyib bizimkilərdən soruşdum, deyin sizlərdə nə qədər silah var? Hesablayıb dedilər ki, cəmi 14-15 dənə, onun da-çoxu tapançadı. Dedim ki, ən əvvəl biz bura savaşa gəlməmişik, gəlmişik sülh edək, aramızda barışıq olsun, gəlmişik ki, onları başa salaq ki, düzgün yolda deyillər. Ona görə təklif edirəm ki, onları birlikdə qarşılayaq. Elə bu vaxt gördük ki, Dağıstandan gələn insan axının qabağında gələn bir maşın sərhəd darvazalarını vurub keçdi. Həmin vaxt dönüb yan-yörəmə baxanda heç kimi görmədim. Ona görə təpədən enib, özüm onların qabağına çıxdım. Onlardan məni tanıyanlar da vardı. İlk öncə general Qəhrəmanov mənə yaxınlaşdı. Onu da deyim ki, biz bir-birimizi tanıyırdıq. Belə ki, bir neçə ay əvvəl mənə xəbər vermişdilər ki, Dağıstandan Qəhrəmanov soyadlı bir nəfər Qubada və Qusarda təxribat xarakterli söhbətlər aparır. Ona görə də, mən onu Quba rayon milli təhlükəsizlik əməkdaşlarının vasitəsilə yanıma gətizdirib danlamış, ona iradlar tutmuş və ciddi xəbərdarlıq etmişdim.





İndilikdə isə üzümü generala tutub rus dilində onu söydüm. Dedim nə istəyirsiniz bizlərdən, niyə imkan vermirsiniz ki, qansız-qadasız yaşayaq. Axı, biz ləzgiləri azərbaycanlılarla heç kim ayıra bilməz, axı, bizlər dini bir, imanı bir, diləyi bir, ürəyi bir xalqıq. Axı, bizləri bir-birimizə bağlayan qırılmaz köklər var. Dedim, bəsdirin, bu insanları qırğına verməyin. Deyirsiniz ki, Beşbarmağa kimi gedəcəksiniz. Bəs, sonra nə olacağını bilirsiniz? Bizim döyüşçülər Beşbarmaq tərəfdən atacaq, sizinkilər də Dağıstan tərəfdən. Bununla da arada qırılanlar yenə də azərbaycanlılarla bərabər ləzgilər olacaq. Siz bunumu istəyirsiniz? Onu da deyim ki, gördüyünüz bu təpənin arxasında mülkü adamlarla bərabər həm də hərbiçilər var. Gəlin bir-birimizi qırğına verməyək.

Mənim sözlərim təsirsiz olmadı. General dedi ki, elə sə sizin mülkü adamlar da gəlsinlər, elə buradaca mitinqimiz olsun, sözümüzü deyək. Dedim, olsun, ancaq burda, biz tərəfdə yox, keçək sərhədin Siz tərəf olan sahəsinə. Razılaşdıq. Üzümü bizimkilər tərəfə tutub dedim ki, bizim rayonların nümayəndələri bura gəlsin.

Onlar da səsimi eşidib gəldilər. Dediyim kimi, sərhəddən Dağıstan tərəfə keçdik və mən də onların qarşısında generala dediyim sözləri təkrar etməkdən başqa bu fikirlərimi də dedim: Ay bəylər, ay yoldaşlar, sizlər bilin ki, pis millətlər yoxdur, pis rəhbərlər var. Elə bu günkü vəziyyət də rəhbərlik etməyi bacarmayanların məntiqi nəticəsidir. Axı, biz ləzgilərlə azərbaycanlıların xəmiri bir yerdə yoğrulub, mayası bir yerdə tutulub. Azərbaycanda heç vaxt azərbaycanlı – ləzgi ayrıseçkiliyi olmayıb. Axı,

bizlər hamımız qohumlaşmışıq, on minlərlə oğul evləndirib, qız ərə vermişik. Axı, hansı qeyrətli oğul öz dayısına, qohum-əqrəbəsinə güllə ata bilər. Şəxsən biz ləzgilər həmişə, hər zaman, hər yerdə, bir çox məqamlarda azərbaycanlılara «can qardaş» demişik. Əgər «Qarabağnamə»ləri oxusanız görərsiniz ki, Qarabağ xanlarının ən çox güvəndikləri həm də milliyyətcə ləzgi olan döyüşçülər olub. Ata-babalarımızın bir çoxu rəhmətlik Hacı Zeynalabdin Tağıyevin neft mədənlərində, zavod və fabriklərində işləməklə ailəsinin ruzusunu qazanıb. Bunları unutmaqmı olar?

Bu vaxt toplantıda olan kimsə dedi:

- Sən də, Elçibəy də rüşvətxorsunuz.

Mən də qayıdıb belə dedim: - Əgər bu vaxta kimi rüşvət almışamsa Allah mənim balamı versin, yoxsa sənin kimi böhtançıları belə-belə olsun. Və bir də bilin ki, Elçibəyin əli də, ürəyi də təmiz adamdı. Heç, onun yaşaması üçün münasib evi də yoxdur.

Bir də «Samur çayı»ndan Azərbaycana su verməyək deyirsiniz. Deyirsiniz ki, o çay Dağıstanındı. Səhviniz var, əvvəla o çayın 60 faizdən çoxu Azərbaycanın sahəsindən keçir. Bir də onun suyundan içən və istifadə edən təkcə milliyyətcə azərbaycanlı olanlar deyil, Sumqayıtda və qeyri məkanlarda yaşayan yüz minlərlə ləzgilər və qeyri millətlərdir.

Bir də deyirsiniz ki, Azəbaycanda yaşayan ləzgilərin məktəbləri ancaq ləzgi dilində olsun. İndi Siz deyin ləzgi dili ilə hara çıxmaq olar, hansı vəzifələri tutmaq olar. Bir də ki, dilimizi bizim əlimizdən alan yoxdur. Hər bir ləzgi uşağına oxuduğu məktəbdə Azərbaycan dili ilə yanaşı ləzgi dili də tədris olunur.





Gəlin cavanları 100 qram içirdib, onları qızışdırıb araya salmayaq, ölümə verməyək. Elə olsa gələcəkdə onların övladlarından heç biri bizim nəsli nəinki, bağışlamaz, həm də lənətləyər.

Bu vaxt məni alqışlayanlar da oldu. Və sonda hər kəs öz ev-eşiyinə getdi. Hətta toplantıda olan və məni tanıyan bəzi vəzifə sahibləri məni çaya da qonaq etdilər. Və bildirdilər ki, mənim çıxışım, mənim fikirlərim sülh amalı ilə yaşayan böyük bir diplomat dəstəsinin işini gördü.

**- Zeynəddin müəllim, əmək fəaliyyətiniz dönəmində hansı rayon rəhbərləri ilə və nazirlərlə işləməli olmusunuz. Xahiş edirəm onları yad edəsiniz.**

- Dediyiniz vəzifə sahiblərindən bir çoxu dünyasını dəyişib, sağ qalanlar da var. İlk öncə yadıma RPK-nın 1-ci katiblərindən Səlim Səlimov düşür, rəhmətlik ideal insan idi. Daha sonra həmkəndlim Müslüm Murtuzayevin vaxtında işləmişəm. Onunla həmkəndli olmağımla bərabər həm də qohumluğumuz da vardır. Fasilələrlə üç dəfə rayon partiya komitəsinə rəhbərlik edən Müslüm Murtuzayev rayonun iqtisadi vəziyyətini xeyli yaxşılaşdırıb. O rəhmətliyin vaxtında Qusarda xeyli binalar tikildi, yollar abadlaşdı, rayonumuzu Respublikamızın qabaqcıl rayonları səviyyəsinə qaldırdı. O, təvazökar insan olsa da, sözünün kəsəri vardı və hamıya da qayğı göstərərdi.

Sultan Hacıbalayev Qusarın Qrik kəndindən idi, 15 il rayon PK-nin 1-ci katibi oldu. Özü işgüzar olduğundan işgüzar və qoçaq adamları xoşlardı. Onun vaxtında Qusarın meyvə bağları xeyli genişləndi.

Ramazan Bədirov Dağıstan ləzgisi idi. Üç ilə yaxın rayona rəhbərlik elədi və işini bilən adam idi.

Asya Manafova savadlı və işgüzar adam idi, yerli adam olduğundan rayonu da əla tanıyırdı.

Milliyyətcə ləzgi olan Nizami Süleymanov qusarlı deyildi, cəmi altı ay işləyə bildi. Ondan sonra rayona icra başçısı kimi mən rəhbərlik etdim.

Maarif sahəsində işlədiyim illərdə isə aşağıda adlarını çəkəcəyim şəxslər ayrı-ayrı vaxtlarda respublikamızın Maarif naziri vəzifələrində çalışıb.

Mən, 1956-cı ildə bir müəllim kimi fəaliyyətə başlayanda Maarif naziri Mehdi Mehdizadə idi. Rəhmətlik gözəl insan idi, haqq-ədalət mücəssəməsi idi, tamahsız adam idi, peyğəmbər timsalında olan adam idi. Bir sözlə bizlər ondan insanlıq dərsi almışıq. Sonra Elmira Qafarova nazir oldu. Humanist adam idi, kadr seçilməsində çox diqqətli idi. Daha sonra Kamran Rəhimov nazir kimi fəaliyyət göstərdi. Ziyalı adam idi, işini bilən, rəhbərlik etməyi bacaran idi. İşlədiyim zamanda sonuncu nazir isə Rafiq Babaş oğlu oldu. O, cəmi iki il nazir vəzifəsində işlədi. Elmli adam idi, riyaziyyat elmləri doktoru idi. Müxtəlif elm sahələrinin düzgün tədris olunmasına ciddi fikir verərdi.



# Axar sudu bu dünya

- Sağ əl boş olsa, sol əldən ona dost olmayacaq.
- Yaxşı qonşu pis qardaşdan yaxşıdır.
- Qonşu ilə mehriban dolanmaq istəyirsənsə ondan borc alma.
- Qorxaq həmişə daşın böyüyündən yapışar.
- Qabağa keçirsən başına vururlar, dala qalırsan dabanına.
- Qonşuyla dostluq elə, amma çəpəri götürmə.
- Kasıblayanı dostları da unudar.
- Qapağan itə ya sümük gərək, ya da çomaq.
- İt sahibini unutmaz, pişik evi.
- Ölsun o dost ki, axır tikəni necə bölüşdüyünü yadından çıxarıb.
- Dərdini dərdçəkmişə de.
- Axmaq dediyini deyir, eşidən ağıllı olsun.

*Ləzgi atalar sözü və məsəlləri*

- Ağlıma gəlməz ki, üstündə bığlar burulan ağızdan yalan sözlər çıxa bilsin.

*Şeyx Şamil*

- Kim öz vətənini sevmirsə, heç nəyi sevə bilməz.

*C.Bayron*



# DÖRDÜNCÜ SÖHBƏT

Haqq-hesabı düz olanın, hesab verməkdən nə qorxusu.

**Sədi Şirazi**

Yoldan çıxmaq üçün min yol vardır, həqiqətin isə yolu birdir.

**C.Rossini**

**- Son illər gənclərin davranışında, böyüyə-kiçiyə münasibətində, bir sözlə etik normaların həyata keçirilməsində mənfi çalarlar tez-tez nəzər-diqqəti cəlb edir. Bəzən danışıqlarını, oturub-durmaqlarını, başqalarına qarşı rəftarlarını bilmirlər. Axı biz yaşda olanlar gənclik illərimizdə elə olmamışıq. Vaxtilə N.Çernışevski insanlar arasında olan belə davranışı ictimai mühitlə bağlayıb. Sizin buna münasibətiniz?**

- Fikrimcə bunu mühitlə bağlamaq olmaz. Mühitin müəyyən mənada təsiri ola bilər, mütləq mənada yox. Tərbiyəli, etikalı, ədəb-ərkan gözləyən adam bütün ictimai mühitlərdə öz mənəvi keyfiyyətlərini itirməyiblər. Burada ailə tərbiyəsini, genin, soykökün böyük rolu var. Yaxşı hər yerdə yaxşıdır. Pis isə hər yerdə pisdir. Atababadan gözəl adətlərimiz var. Bu gün də onlar yaşayır: kiçik qardaşın böyük qardaşı yanında siqaret çəkməməsi, övladın valideynlə birlikdə spirtli içki içməməsi, danışıqlarını ölçüb-biçməsi, kiçiyin böyüyün üzünə ağ olmaması, oturuşunu-duruşunu bilməsi və s. Bir də atalarda gözəl misal var: «Gədədən bəy olmaz». Kimin ki, canında

insanlıq yoxdur, hansı yüksək mərtəbəyə qaldırsan da öz nadanlığını göstərəcək. Həmçinin əxlaqın formalaşmasında ailə tərbiyəsini, məktəb təlim-tərbiyəsini, mühitin rolunu da tam inkar etmək olmaz.

Onu da deyim ki, həmişə belə olub, ömrünün ahıl vaxtını yaşayan kəs gəncliyi bəyənməyib. Bu dövr qədimdən belədi. Bir sözlə hər dövrün öz gəncliyi var. İnanıram ki, indiki gənclik, zaman keçəndən sonra özlərindən sonrakı gənclərin davranışından razı qalmayacaq. Onu da deyim ki, gənclərimizin xoşagəlməz hərəkətlərinə görə onlara kin bəsləmirəm, ancaq ona görə ürəyim yanır, təəssüflənirəm.

**- Dinə münasibətiniz?**

- İnsan dinsiz-imansız, inamsız yaşaya bilməz. Əqli, şüuru yerində olan hər kəsdə tutduğu mövqeyindən, təhsilindən, soykökündən asılı olmayaraq yuxarıda göstərdiyim keyfiyyətlər olmalıdır. Ümumiyyətlə, vicdan azadlığıdır. Dinə münasibətdə heç bir məhdudiyyət yoxdur. Ancaq dinlə mövhumatı, fanatikliyi qarışdırmaq düz deyil. Hər deyilən söz-söhbətə inanmaq olmaz. Deyiləni ağıl süzgəcindən keçirmək lazımdır. Bir də Məhəmməd Peyğəmbər səlavatullah başda olmaqla aqillər bu fikirdə olub ki, əsl ibadət xalqa xidmət etmək, savab işlər görməkdir. Əməlisalehlər hər yerdə, hər zaman böyük hörmətə və ehtirama layiqdir.

Onu da deyim ki, islam dininə mənsub olmağımla da fəxr edirəm. Tarixən yeni yaranmış bu dinin başqa dinlərin fövqündə dayanır deyərdim.

Rus ədəbiyyatının güzgüsü adlandırılan Lev Tolstoyun belə bir etirafı var: «Dövlət adamları məni inqilabçı, provoslavlar isə iblis hesab edirlər. Etiraf edirəm ki, bu





mənim üçün ağırdır və buna görə xahiş edirəm mənə xeyirxah müsəlman kimi baxasınız, onda hər şey yaxşı olacaq.» Elə bilirəm ki, Tolstoyun fikirlərini açıqlamağa, şərh etməyə ehtiyac duyulmaz.

Bu yöndə başqa dinə qail olan bir çox görkəmli adamların da islam dini barədə dəyərli fikirləri vardı. Onlardan bir neçəsinin dediklərini nəzərinizə çatdırmaq istərdim.

Ən əvvəl Hötenin islamla bağlı fikirlərini xatırlayıram. O, deyir ki, hamımız müsəlmanlıqla yaşayırıq. Axı, islamiyyət Allaha təslim olmaqdı. Demək hamımız islamiyyətdə yaşayırıq. «Quran» böyükdür, ehtişamlıdır, başdan-başa həqiqətdir. «Quran» öz lətafəti ilə adamı özünə cəzb edir və gözəlliyi ilə özünə bağlayır. İsanın sözlərindən o qədər toxam ki, artıq özü də gəlsə, başqa kimsədən onu dinləmək istəmərəm.

Volter isə deyirdi ki, Məhəmməd peyğəmbərin qurduğu din daha kamildir, bu din Asiyanı bütpərəstlikdən xilas elədi, Allahın vahid olmasını öyrətdi.

Bismark isə deyirdi, mən «Quran»ın hər kəlməsində böyük bir hikmət gördüm. Məhəmməd peyğəmbər mümtaz bir simadır. Bundan sonra belə bir şəxsiyyəti dünyamız görməyəcək. Mən onun məhəbbəti qarşısında böyük ehtiramla baş əyirəm.

**- Zeynəddin müəllim, maşallah, əla yaddaşınız var.**

- Elbrus, qardaşım, axı mən tarixçiyəm və tarixin belə səhifələrini öyrənməyə həmişə, hər zaman maraq göstərmişəm. İndilikdə isə xahiş edirəm məni tərifləməkdənsə, mənə qulaq asın, axı, fikirimi tamamlamamışam.

**- Buyurun, Zeynəddin daxa, meydan sizindir.**

- Fransız şairi Lamartin «Türk tarixi» əsərində göstərir ki, heç bir böyük insan Həzrəti Məhəmməd ucalığına çata bilməz.

Con Davenpordun bu fikirləri də maraq doğurur – xristianlar Məhəmməd peyğəmbərə qarşı çıxarkən, onun bir daxmada yaşamasını unutmasınlar. «Quran» siyasi bir sistemdir, çünki dövlətin bütün qanunları ona istinad edir, həyat və mal-mülk məsələləri də onun hökmilə həllini tapır.

Albay Rokvell (Amerika) «Müsəlmançılığı niyə qəbul etdim» yazısında göstərir ki, islamiyyət təkcə ruhun deyil, bədənin də təmiz saxlanılmasına hökm edir. O dində bərabərlik var, böyük vəzifə sahibi ilə yoxsul bir adam Allahın hüzurunda bərabər tutulur.

General La Fayyet Məhəmməd peyğəmbər barədə isə deyir ki, o, ədalətin dost-doğma özüdür.

Sosioloq Eratsonun belə bir fikri də bu yöndə dəyərlidir. O, deyir ki, insanları dinsizlikdən və kommunizm bəlasından ancaq Həzrəti Məhəmmədin prinsipləri ilə xilas etmək olar.

Bernard Şou isə deyib ki, Məhəmməd peyğəmbər indiki dünyamızda hökm edən olsaydı, heç şübhəsiz ki, bütün hərc-mərcliyə, qarmaqarışıqlığa son qoyulardı, hər yerdə sülh və ədalət olardı və o, xoşbəxtliyin nə olduğunu insan övladına daddıra bilərdi.

**- Zeynəddin müəllim dediklərinizə mən də əlavə etmək istərdim: Dostoyevskinin qardaşına ünvanladığı məktubda yazır ki, mənə «Quran»ı və Kantın «Saf ağlın tənqidi»ni göndərərsən. Bundan sonra, o, «Ölülər evindən xatirələr» romanını yazır və orada müsbət obraz kimi Əli obrazını yaradır.**







**Zeynəddin Çələbovun böyük bacısı Şəkər Paşayeva**



**Z.Çələbov Şahdağın ətəyində**



**Soldan Zeynəb müəllimə, Şərqiyyə müəllimə və Firəngiz xanım internat şagirdləri arasında**



Şərqiyyə xanım qardaşı qızı Mariya və bacısı qızı Mərcan



Soldan Şərqiyyə Çələbova, Umli müəllimə,
Yelena müəllimə və Gülbacı müəllimə







Zeynəddin müəllim, Şərqiyyə xanım və Xonça Nağıyeva



Z.Çələbov və Şərqiyyə xanım



Z.Çələbov dostu Yaşar
Kərimovla



Z.Çələbov həmyerlisi hərbi polkovnik Şair Ramaldanov
və onun nəvəsi Mehriban



Z.Çələbov, dostu Sabir Fərzəliyev, onun
nəvəsi Viktoriya və Şərqiyyə xanım







Soldan - Şərqiyyə xanım, Z.Çələbov, Elbrus Şahmar
və onun ömür yoldaşı Raya xanım



Şərqiyyə xanım yaylaqda



Z.Çələbov və Zəmirə Qədiyeva



Z.Çələbovun bacısı oğlu Fayəddin Paşayev qızı Vüsalənin toy məclisində ailə üzvləri ilə birlikdə







Sağdan - Şərqiyyə xanım, Z.Çələbov, Rəcəb kişi, Məmməd Aslan, Eyyub və anası Fatimə xanım



Öndə Zəmirə Qədiyeva



Z.Çələbov 70 yaşın zirvəsində



Şərqiyyə xanım və bacısı Sveta ailə üzvləri ilə birlikdə





**Puşkin isə «Quran»ın təsiri altında» adlı mənzum əsərini 1824-cü ildə Mixaylovskdə sürgündə olarkən yazıb. Həmin əsərdən yadımda qalan iki bənd belədir:**

***Sənsən, sənsən, ey Rəhman,***
***Qula sultanlıq verən.***
***Və nur saçan «Quran»ı***
***Məhəmmədə göndərən.***

***Divarlar parçalansın,***
***Qalxsın siyah pərdələr!..***
***Gəl, ey «Quran»! Yetiş bizə,***
***Ruhumuza işıq ver!..***

**Zeynəddin müəllim növbəti sualım da elə bir az əvvəl verdiyim sualın davamıdı deyərdim.**

**Bildiyimiz kimi son illər müqəddəs yerlərə, xüsusən Həcc ziyarətinə getmək geniş vüsət alıb, sanki bu yöndə müsəlmanlar arasında bir yarış hökm sürür. Hətta onu da eşidirik ki, bir nəfər 15-20 dəfə Məkkədə olub, Kəbəni ziyarət edib. Mən bu yöndə də sizin fikrinizi bilmək istərdim.**

- Allah, Ziyarətə gedənlərin ziyarətini və diləklərini qəbul eləsin. Mən buna pis baxmıram. Onu da deyim ki, o adam ki, xeyirxah hisslərlə yaşamır, onun ibadəti də, etiqadı da bir qara qəpiyə dəyməz. Ancaq elə insanlar var ki, onun hər bir işi, hər bir hərəkəti, nəinki müqəddəs yerləri ziyarət etməyə bərabərdir, hətta əməlinin kamilliyinə, xeyirxahlığına və insanpərvərliyinə görə həmin ziyarətlərdən də yüksəkdir. Həmin fikir müqəddəs kitabımız «Quran»da da, peyğəmbərimizin hədislərində, kə-

lamlarında, eləcə də müqəddəs sayılan müdriklərin kəlamlarında da öz əksini tapıb.

Həmin fikirlərin təsdiqi olaraq tarixi bir hadisədən söz açmaq istərdim:

15-ci əsrdə yaşamış böyük türk (özbək) şairi, mütəfəkkiri və dövlət xadimi Əlişir Nəvai məktəb yoldaşı və dostu Hüseyn Beykaranın hökmranlığı illərində bir sıra yüksək vəzifələrdə çalışmış və baş vəzir olmuşdur. Əlişir Nəvai həmişə dövrünün alimlərinə, şairlərinə, musiqiçilərinə, xəttatlarına, rəssamlarına və eləcə də ehtiyac içində olanlara himayədarlıq edib. O, hökmdara müsbət təsir göstərib, karvansaralar tikdirib, kanallar çəkdirib.

Rəvayət edirlər ki, Əlişir Nəvai ömrünün ahıl çağında Həcc ziyarətinə getmək istəyir. Ona görə hökmdardan icazə almaq üçün dalbadal iki il ona üz tutur, nəhayət üçüncü il onun razılığını ala bilir. Şair yola düşmək üçün hazırlıq görməyə başlayır. Bunu eşidən camaat onun qapısına yığışır, kimisi ağlayır, kimisi ah-nalə edir.

Bu hal Nəvaini təəccübləndirir, heyrətə gətirir. Camaat isə bir ağızdan «Ey bizim pənahımız, ümidimiz, xeyirxahımız, - deyir, - eşitmişik bizi həyansız qoyub Həcc ziyarətinə getmək istəyirsən. Sən gəl bu fikirdən daşın, daşı ətəyindən tök, bizi gözü yaşlı qoyub ziyarətə getmə. Sən getsən bizim halımız fəna olar. Hər yerdə dinclik pozular, nahaq qan dizə çıxar. Axi sən Həcc ziyarətinə getməsən də olar, sən onsuz da onun savabını burda etdiyin saysız-hesabsız xeyirxah işlərinlə qazanmısan».

Və camaatın bu münasibətindən mütəəssir olan şair onlarla razılaşmalı olur.

Deyirlər ki, bir nəfər Həcc ziyarətinə hazırlaşdığı vaxt öyrənib bilir ki, qonşusu aclıqdan pis vəziyyətdədi. Onun





evinə gedib görür ki, qazanda leş əti qaynadılır. Ona görə cibindəki ziyarət üçün saxladığı pulları, uşaqların ərsiz olan analarına verib, evdən çıxandan sonra üzünü yuxarı tutub deyir: - Ya Rəbbim, Həcc ziyarətimi qəbul et. Allahdan da səda gəlir ki, ziyarəti qəbul olundu.

Rəvayətdən göründüyü kimi imkansız adamlara əl tutmaq, xeyirəməl sahibi olmaq, yetim sevindirmək Allah dərgahında daha uca tutulur.

**- Zeynəddin müəllim, mən də Cəlaləddin Rumidən oxuduğum bir rəvayəti danışım Sizə:**

**Bir nəfər ağsaqqal başqa birindən hara getdiyini soruşduqda, o da qayıdıb deyir ki, Həcc ziyarətinə gedir. Ağsaqqal da ona belə deyir: - Ey şəxs pullarının bir miqdarını Allah yolunda ehtiyacı olanlara xərclə, onların könlünü al. Onda ilk dəfə olaraq könlünü ziyarətə göndərmiş olarsan. Bütün bunlardan sonra rahat bir könüllə Həcc ziyarətinə gedərsən.**

**Göründüyü kimi bizim söylədiklərimiz məna və məntiqinə görə üst-üstə düşür.**

**Bir də Cəlaləddin Ruminin bu baxımdan belə bir dəyərli fikiri də var: «Əgər bir könülü incitsən, qırsan, Kəbəyə piyada getsən belə qazandığın savab könül qırmağının günahını ödəməz.»**

**Bu söhbətimizin sonunda onu da deyim ki, dinimizin bəşəri dəyərlərindən faydalanmağa və onun bütün müsbət keyfiyyətlərini əqidəmizdə, ruhumuzda və əməllərimizdə yaşatmağa bir əhli müsəlman kimi borcluyuq.**

- Gəl bir qədər də həqiqətdən, ədalətdən söz açaq

Əqidəmiz, məqsəd və məramımız gərək insanlığımıza, əxlaqımıza üstün gəlməsin. Bəzən əxlaqım, ədəbim və bir də ağsaqqallığım yol vermir ki, bəzi nadanlara özünəla-

yiq söz deyib, yerində otuzdurum. Közü öz qabağına çəkənlərdən zəndeyi-zəhləm gedib. Elə adam tanıyıram ki, ağlayanda gülməyim gəlir, elə adam da tanıyıram ki, o güləndə ağlamağım gəlir. Heç vaxt haqsızlıq qarşısında susmamışam, məqamında ona qarşı çıxmışam. İnandığım həqiqəti heç kimə güzəştə getməmişəm. Bu fikrim Həzrət Əlinin belə bir kəlamını mənə xatırladıb həmişə: «Haqsızlıq önündə susanlar dilsiz şeytanlardı.»

Onu da deyim ki, haqsızlığa qarşı çıxmaq, bildiyin həqiqətdən dönməmək hər kişinin işi deyil. Bu yöndə adamın başı bəlalar çəkir, varını, vəzifəsini itirir. Ancaq insan bu sadaladıqlarımı itirsə də, varlığını itirmir, vicdanı qarşısında günahsız olur. Bu yöndə Əlibəy Hüseynzadə deyir:

*«Ucundadır dilimin, həqiqətin böyüyü,*
*Nə qoyurlar deyəyim, nə kəsirlər dilimi.*

Yar-yoldaşına edilən haqsızlığa qarşı gücün olduğu halda çıxmasan, gec-tez özün haqsızlıqla üzləşməli olacaqsan və onda sənə də havadarlıq edən olmayacaq.

Elə adamlar var ki, səhər və axşam çağı üstünə düşən günəşin şüalarından boy atan, kölgəsinin böyüklüyünə baxıb özlərini böyük, əzəmətli və yenilməz sayıblar. Elələri vəzifə kürsüsündə olanda daha çox dəhşətli olur, daha çox haqsızlıqların meydan sulamasına rəvac verir. Böyük yazıçı Balzak demişkən: - elə adamlar sıfır timsalındadır, qabağında bir rəqəm olmasa heç nədir.

Onu da deyim ki, Adəm övladı bütün zamanlarda həqiqət və ədavət axtarışında olub. Ancaq nə fayda Şekspir demişkən: Həqiqət vəfalı köpək kimidir. Onu qamçılaya-qamçılaya it damına qovurlar, əl tulasını isə





buxarı başında qızdırıb əzizləyirlər, o da yavaş-yavaş evin havasını xarab eləyər.

**- Daxa, deyin, siz kişidə hansı xüsusiyyətə üstünlük verirsiniz?**

- Mərdliyinə, dözümlülüyünə, ədalətinə, sözünün ağası olmasına, işgüzarlığına, mübarizliyinə, ehtiyacı olanlara imkanı daxilində arxa durmasına, tamahsızlığına və sairə ...

Kişinin ailəsi təmiz, əl-ayağı düz olmalıdır. Kişilər tutduğu işə, əmələ görə heç kimlərin yanında başıaşağı gəzməz, həmişə alnıaçıq, üzüağ olar. Koroğlunun belə bir sözü var: «Kişi bir qarın çörəkdən ötrü ayağa düşməz.»

Mircəfər Bağırovun mühakiməsində Rudenko ona deyir ki, «respublikada səni kişi adlandırırlar, əgər kişiliyin çatırsa hər şeyi etiraf et.»

M.C.Bağırov da qayıdıb belə cavab verir: «Mənim indiki vəziyyətimdə olan kişiliyin heç mində biri qədər sənin bütün ömrün boyu kişiliyin olmayıb.»

Kişilər heç düşmənləri ilə münasibətdə də öz adlarına, şərəflərinə xələl gətirən hərəkətlərə yol verməyiblər, heç vaxt düşməninin əhli-əyalına sataşmayıb, onlara zərər yetirməyiblər.

Ancaq, təəssüflər olsun son illər elə hadisələrin şahidi oluruq ki, adamın onu deməyə də, yazmağa da nə əli, nə dili gəlir.

Bəzən mavi ekrandan elə hadisələr eşidirik ki, o, heç bir bəşər övladına layiq görülməz. Onu da deyim ki, elə hallar və hadisələr bizim xalqımıza, nə azərbaycanlılara, nə də ki, ləzgilərə aid olan səciyyəvi xüsusiyyət deyildir. Ancaq bununla belə meşə çaqqalsız da olmur.

İran şahı Daraya deyirlər ki, onun əsir düşən əhli-əyalı İsgəndərin göstərişi ilə şahanə yaşayır və hamısının ismət və abır-həyaları da gözlənilir. Dara da qayıdıb deyir ki, kaş əvvəlki imkanım özümə qayıdaydı və mən İsgəndərin bu kişiliyinə və mərdliyinə görə onun yaxşılığından çıxa biləydim. Yox, əgər tamam məğlub olsam, onda Tanrıdan arzu edərdim ki, taxt-tacım elə İsgəndərin özünə qismət olaydı.

Onu da deyim ki, çox zaman kişilər də layiq olduqları kimi yaşaya bilmir, bəziləri layiq olduğundan daha yüksək, bəziləri isə layiq olduğundan daha aşağı səviyyədə yaşamalı olur. Nə etmək olar, bu da həyatın sərt qanunlarından biridir.

**- Dostum, deyin güvəndiyiniz dağlara çoxmu qar yağıb?**

- O qədər! Ancaq onu açıqlamaq mənim təbiətimə yaddır.

**- Bəs, sizinlə çörək kəsib, sizə qarşı dönük çıxanlar necə, eləəri də çox olub, yoxsa...**

- Əzizim, elə bilirəm bu sualınız da əvvəlki sualınızla üst-üstə düşür və mən qısa olsa da ona cavab vermişəm. İndi də cavabım eynidir, çox təəccüb ki, olub, ancaq qədərini, sayını deməyə ehtiyac görmürəm.

**- Bəlkə deyəsiniz, ürəyinizdə qatı açılmamış sözləriniz varmı?**

- Əlbət də var, elə söz dəyərəm ki, bəzilərinin yeddi qatından keçərdi. Ancaq bu ahıl çağımda abrımı gözləyirəm, kimlərinsə səviyyəsinə enmək istəmirəm.

**- Zeynəddin müəllim, Sizi tanıdığımdan bilirəm ki, çoxlarına yaxşılıq etmisiniz, xeyirxahlıq göstərmisiniz, bütün etdiklərinizin müqabilində bəs, umacağınız nə olub?**





- Əlbətdə ki, səmimiyyət və etibar.

Bir də əsil xeyirxahlıq odur ki, etdiklərinə görə yuxarıda göstərdiyimdən başqa umacağı olmasın.

Əgər birinə hər hansı marağına görə xeyirxahlıq eləyirsən, əl tutursansa, demək, o yaxşılığın, o xeyirxahlığın başqası üçün deyil, elə özün üçündür. Bəziləri reklam xatirinə 5 manatlıq kimə, yaxud kimlərəsə xeyirxahlıq göstərirsə, onun üstünə də olduğundan yüz qat, min qat artıq qoyub mavi ekrana, dövrü mətbuata çıxır. Eləəri yaddan çıxartmasın ki, müqəddəs kitabımız «Quran» elə halları haram buyurub. Belə bir fikir peyğəmbərimizlə bağlı hədislərdə də öz əksini tapıb: Gərək sağ əlin verdiyini sol əl bilməsin.

Axı, Allah bir nəfəri var-dövlət sahibi edirsə bu o demək deyil ki, onda olanlar hamısı ona məxsusdur. Bəs valideynlər, qohum-əqrəba, dost-tanış, bəs qonşular, bəs ehtiyac içində yaşayanlar? Eləəri bilsin ki, Allah ona verdiklərini ətrafındakılara kömək etmək üçün verib. Vəzifədə olduğum zaman kəsiyində dolanışığım üçün böyük imkanlarım olub, ancaq həmişə, hər zaman, hər an vicdanımın səsinə qulaq asdığımdan, yaşamaqda həyatımın mənasını xoş gün-güzəranımda deyil, başqaları üçün faydalı ola bilməyimdə görmüşəm. El-obası üçün, insanlıq üçün şam kimi yanmayan kəsin, ömrü də, elə şamın bir dəfə yanıb yox olması timsalındadır.

Vaxtı ilə mənə də pisliyi keçənlər olub. Ancaq ona normal baxmışam. Təki adamın dostu, doğma adamı pislik etməsin. Qorxu odur ki, xalqın, el-obanın gözündən düşməyəsən, əgər düşsən çətin ki, özünü düzəldə biləsən, çətin ki, nüfuz sahibi olasan. Kim ki, el-oba gözündə ucalır, adı ehtiramla çəkilir, ömrü də uzun olur.

İnsan şəxsiyyətinin dəyəri, onun əməliylə ölçülər. Çox mal-dövlət yığanın artığı çıxmaz, eləcə də az yığanın da əskiyi. Heç şübhəsiz kasıb olmaq şərəfsiz ömür sürməkdən yüz dəfə yaxşıdır.

**- Zeynəddin müəllim, neçə müddətdir ki, bir-birimizlə dostluq ünsiyyətindəyik, çörək kəsib şirin-şirin söhbət edirik, dərdləşirik, olanlardan-keçənlərdən söz salırıq, aranı-dağa, dağı da arana aparırıq və sözlərimizin səmimiyyətinə əmin olmuşuq və bu əminlikdən ürəklərimiz də fərəh hissi ilə dolub. Sizdən eşitdiklərimi duyub dərk etdiyim kimi qələmə almağa çalışmışam. Və hər görüşümüzdə sanki daha da nəcibləşmişəm, yüksək amallar uğrunda mübariz olmağa çalışmışam və qələmimə daha da ürəkdən sarılmışam. Hər söhbətlərimizdə cavablarınızın kamilliyinə və ürəyinizin böyüklüyünə inanmışam. Dərk etmişəm ki, dağın böyüklüyünü görmək üçün gərək ona uzaqdan baxasan, insanın böyüklüyünü görmək üçün, onu olduğu kimi duyub-tanımaq üçün, gərək ona yaxın olasan, onunla çörək kəsdiyin kimi söz də kəsəsən.**

**Hörmətli dost, suallar sual verənin arşını ilə ölçüldüyü kimi, heç şübhəsiz ki, cavablar da cavab verənin qayçısı ilə biçilir. Onu da etiraf edim ki, sizin biçiminiz məni təmin edir, ancaq mənim arşınımın sizi təmin edib-etməməsini isə bilmirəm.**

- Dostum, əgər sizin arşınınız məni razı salmasaydı, onda ömür yolumun tərənnümünü sizə etibar etməzdim.

**Sizcə bədbəxt adam kimdir?**

- Bədbəxt o adamdır ki, onun üçün həyatda müqəddəs olan heç nə yoxdur.

**- Bəs, rahat yaşamağı nədə görürsünüz?**





- Öz içində azad və sərbəst olmaqda, vicdanlı yaşamaqda və bir də olduğuna qane olub var-dövlət hərisi olmamaqda.

**- Zeynəddin müəllim həyatınızla tanış olduğumdan bilirəm ki, haqsızlığın sərt üzünü gördüyünüz vaxtlar çox olub, elə məqamlarda qorxub mövqeyinizi dəyişməmisiniz ki?**

- Dəfələrlə taleyin zərbələrinə məruz qaldığım vaxtlar olub. Ancaq heç vaxt öz yolumdan dönüb mövqeyimi dəyişməmişəm, haqsızlığa qarşı həmişə mübariz olmuşam. Nə vaxt məğlub olsam da naümid olmamışam, sabaha ümidlə baxmışam. Ağac gövdəsinə və kökünə güvəndiyi kimi mən də dostlara, vicdanlı və işgüzar adamlara güvənmişəm və inanmışam ki, dünyamız yaxşılardan xali deyil.

**- İnsanda olan hansı naqis xüsusiyyəti islah etmək çətindir?**

Xudbinliyi, özündən müştəbehliyi islah etmək mümkün deyil. Kimin ki qəlbində xeyirxahlıq deyil, mərdiməzarlıq kök salıb, kim ki yalanı özünə peşə edib, kim ki qorxaqdır, kimin ki canında qeyrət damarı yoxdur, çətin ki, onlar islah olunsun. Ancaq adamlarda elə çatışmayan xüsusiyyətlər olur ki, onu düzəltmək olur. Səhvsiz insan yoxdur. Hamı səhv edir, ancaq hamı səhvini başa düşmür. Xoş o adamın halına ki, səhvini başa düşür. Bir də onu deyim ki, insanda olan nadanlıq xüsusiyyəti də müalicəsizdir.

**- Sizcə savab iş nədir?**

İmkan daxilində ehtiyacı olanlara əl tutmaq, ümidsizliyə qapılanlara ümid, inam vermək. Eyni zamanda şər işlərin qarşısını almaq, kimisə təhlükədən sovuşdurmaq

və sair. Yuxarıda sadaladıqlarımı artırmaq da olar. Ancaq elə bilirəm ki, sualınıza qısa da olsa kifayət qədər cavab verdim.

**- Ömrünüzün 79 yaşı sizi qorxutmur ki?**

- Sualınıza Zəlimxanın iki misrası ilə cavab verim:

Neçə ağır sınaqdan, imtahandan çıxmışam,
Dizimi qatlamağa yaşın hünəri çatmaz.

**- Ağsaqqal sözü nədir?**

- Ağsaqqal sözü sözlərin şahıdır. Hər birimizin o sözə, ağsaqqal tənbehinə ehtiyacımız var. Xoşbəxt o adamdır ki, ağsaqqalı var, böyüyü var. Atalar təsadüfi yerə demir ki, Allahsız yerdə otur, böyüksüz yerdə oturma. Bir də bəziləri elə başa düşür ki, ağsaqqal saç-saqqalı ağarmış, ən azı yaşı yetmişi keçmiş adamlar olmalıdır. Bu əsla belə deyil. Ağsaqqallıq yaşda deyil, əməllərə görədir. Adam var otuz yaşında ağsaqqal adı qazanır. Adam da var, səksən yaşında ona bu söz yaraşmır. Ta dövri qədimdən ağsaqqallar el arasında sözü keçən, düşmənçiliyə son qoyan, küsənləri barışdıran olublar. Vaxt olub hakimlərin, hökmdarların sözü keçməyən yerdə ağsaqqal sözü keçib. Həyat belədir ki, ağsaqqalın özünün də ağsaqqal sözünə, ağsaqqal məsləhətinə ehtiyacı olur.

Ümumiyyətlə, ağsaqqal olmaq şərəfli olduğu qədər də son dərəcə məsuliyyətlidir. Adətən ağsaqqal adamlar mərd, sözünün ağası olan müdrik adamlar olur. Bu da təhsil, savad, vəzifə əsas rol oynamır.



# *Yaxşılar əbədi yaşayır*

Ermənilər Azərbaycanda və Gürcüstanda vəhşi irqi ayrı seçkilik obyektləridir.
*A.D.Saxarov*

Ermənilər heç vaxt küll halında yaşamayıblar, dünyanın hər yerinə səpələniblər.
*S.İ.Vruq*

**Ermənilər gəldi, təzə bəla gətirdi.**
***Gürcü atalar sözü***

**Bütün erməniləri bir alman əsgərinə dəyişmərəm.**
***Bismark***

**Belə fərz elə, ermənilər hamısı çönüb müsəlman oldu, onda, cəhənnəmi, Allah kimdən ötrü xəlq edib və kimi ora göndərəcək.**
***C.Məmmədquluzadə***

**Kişi dostluq üçün uzanan əli kəsməz.**
***Koroğlu***

**Mərdin əskik olmaz başından qada.**
***Koroğlu***

**Saf dilək, yanan qəlbin haqq səsidir.**
***Süleyman Rəhimov***

**Kim mənim eşqimə haqq versə, əgər düysa məni,**
**Çəkərəm minnətini gündə onun min dəfə mən.**
***Məcnun (Qeys)***



# BEŞİNCİ SÖHBƏT

Məhəbbət əbədi bir ehtiyacdır.
**Səməd Vurğun**

Məhəbbət danışanda idrak susmalıdır.
**Hafiz Şirvani**

**- Zeynəddin müəllim, dəb və gözəlliyə münasibətiniz necədir?**

- İstər dəb, istər adət və zövqlər mühitə görə, zamana görə dəyişir. Dünən dəbdə olan hansısa geyim-kecim, çox vaxt bu gün dəbdən düşür, zövqləri oxşamır. Dəb, insanın xarici görkəmini dəyişir, onu başqalarının gözündə ya xoşagəlimli, ya da arzuolunmaz edir. Gərək dəbdə ifratçılığa varmayasan, geyim-kecimdə milli xüsusiyyətləri, seçdiyin peşəni, tutduğun vəzifəni, yaşını, mövsümü unutmayasan. Şərt aslan dərisindən paltar geymək deyil, gərək ürəyin də aslan ürəyi olsun. Atalar deyir ki, gözəllik ondur, doqquzu dondu. Adamlar var həmişə son dəbdə geyinir, səliqə və sahmanına müntəzəm diqqət yetirir. Adam da var ki, öz kəşfləri ilə dünyaya səs salır, yaradıcılığı ilə şöhrət zirvəsinə yüksəlir, ancaq geyim-keciminə fikir vermir, zövqsüz və səliqəsiz geyinir.

Deyirlər, Eynşteyn Nyu-Yorkda olarkən həmyerlilərindən biri ona rast gəlir və irad tutur ki, niyə belə köhnə və səliqəsiz paltar geyinib. O da qayıdıb deyir ki, axı məni burda kimdi tanıyan? Onlar iki aydan sonra yenə Nyu-Yorkun küçələrinin birində rastlaşır. Bu dəfə də

Eynşteynə irad tutulduqda deyir ki, yaxşı-pis geyinməyimin elə bir əhəmiyyəti yoxdur, onsuz da indi məni burada hamı tanıyır...

İnsanda gərək hər şey gözəl olsun və insanı əhatə edən bütün canlı və cansız varlıq da gözəl olanda əlayüləla olur. Düzdür gözəllik duyumu nisbi və fərdi xüsusiyyət daşıyır. Ola bilsin ki, sənə görə gözəl olan, mənə görə çirkin olsun. Gözəllik insanın nitqində də təzahür edir, özünü büruzə verir. Quranda deyilir: «Bəndələrinə de ki, danışarkən bir-birilərinə gözəl-gözəl sözlər desinlər».

Gözəlliyi duymaq üçün heç də baxmaq, eşitmək kifayət etmir, onu qavramaq, dərk etmək, qiymətləndirmək lazımdır. Cismani gözəllik də, mənəvi gözəllik də zəruridi. Onlar bir-birini tamamlayanda isə bütövlük yaranır, mütləq gözəllik doğulur. Əgər onlardan birini atıb, birini saxlamaq lazım gəlsə, onda mənəvi gözəlliyi saxlamaq zəruridir.

Biz baharın ən qaynar çağında, təbiətin axarlı-baxarlı qoynunda olub, gözəlliyini seyr edəndə sanki gözlərimiz dincəlir, istirahət edir. Nizami Gəncəvinin hansı əsərindəsə göstərilir ki, adamlar bir yerdən keçəndə burunlarını tutub tez ötürmüşlər. Lakin başqa bir nəfər həmin yerə yaxınlaşanda dayanır, yaxınlıqda olan, iylənib eybəcər hala düşmüş it cəsədini görüb onun dişlərinə diqqət yetirir və deyir:

- Nə gözəl inci kimi dişləri var.

Bununla da şair demək istəyir ki, gözəllik elə bir qüvvədir, elə bir cazibədir ki, yüz çirkinliyin içindən özünü göstərir, qəlb oxşayır, göz oxşayır. Dünya var olandan insan gözəllik sorağında olub, bu da yaradıcı adamların əsərlərində öz əksini dönə-dönə tapıb.





Ümumiyyətlə, gözəllik elə bir mövzudur ki, onun barəsində nə qədər danışsan da qurtaran deyil. Bu, bəşər övladı yaşadıqca var olan bir duyğudur.

Bir dəfə universitetdə Hüseyn Cavidə imtahan verən son dərəcə gözəl bir qız sualı yaxşı bilmədiyindən şairdən xahiş edir ki, ona aşağı qiymət verməsin. Şair də qayıdıb deyir ki, qızım, sənin qiymətini Tanrı əla verib, mən nəkarəyəm ki, onun verdiyi qiyməti aşağı salım.

Hüseyn Cavid bu sözləri deyib qızın qiymət vərəqəsinə «əla» yazır.

**- Zeynəddin müəllim, bəlkə deyəsiniz gün-güzaranınız necədi, nəyəsə ehtiyacınız, kimdənsə umacağınız varmı?**

- Sözünüz yadıma qədim yunan filosofu Demokritin belə bir fikrini saldı: «Xoşbəxt adam, var-dövləti olan deyil, dövlətə ehtiyacı olmayandı. Hal-hazırda təqaüddə olsam da, insanlıq vəzifəmdən və məsləkimdən təqaüdə çıxmamışam. Bildiyiniz kimi harda, hansı vəzifədə işləmişəmsə xalqa məxsus olan nəyisə mənimsəməyə həvəs göstərməmişəm. Mənimlə işləyənlər və qeyriləri çox gözəl bilirlər ki, rüşvət adında olan heç nəyi yaxına buraxmamışam və aldığım məvaciblə dolanmışam. Hardasa oxumuşam ki, Almaniya kralı Böyük Karl (742-814) ailəsini öz əmək haqqı və bir də arvadı ilə qızının toxuduqları parçanı satmaq hesabına dolanıb.

Onu da deyim ki, belə tale yüzdə bir liderlərin alın yazısı olub və həmin yazı onların həm yaşadığı zaman kəsiyində, həm də sonralar böyük şərəflə tarixdə yaşadıb.

**- Təqaüddə olan adamın yaşamağı o vaxt xoş olur ki, ömrünün imkanlı çağlarında çoxlarına, eyni zamanda doğmalarına, dost-tanışına, el-obasına xeyir verən fəaliyyəti olub. Elə olanda həmin kəs dünyada əbəs yerə yaşama-**

**dığını dərk edir və bir rahatlıq və könül xoşluğu tapır. Elə insanları mən xoşbəxt sanıram. Bu baxımdan siz də istisna deyilsiniz, eləmi?**

- Bəli, sözünüzdəki həqiqəti dana bilmərəm.

**- Zeynəddin müəllim, bəlkə televiziya verilişlərimiz barədə fikrinizi bildirəsiniz.**

- Televiziya kanallarımız tamaşaçısını və dinləyicisini razı salan verilişlərdən xali deyildi. Ancaq bir çox şou verilişlərində səslənən bayağı mahnıların və onların ifaçılarının şit hərəkətlərini, açıq-saçıq geyim-keçimləri məndə həmişə ikrah hissi oyadıb. Bunu qədim tarixi olan musiqimizə, ümumən incəsənətimizə təhqir hesab edirəm.

**- Şair deyir, kim ki, yüz il yaşamasa günah onun özündədir. Mənə elə gəlir ki, çoxları həmin ömrü də insan üçün çox az bilir. Zeynəddin müəllim, Siz uzunömürlülər diyarında yaşayırsınız. İnanıram ki, 100 ilin kürəyini yerə vuracaqsınız. Və siz yüz ildən də artıq ömür sürməyə haqqı olan insansınız. Əlişir Nəvai də deyir ki, yüz il yaşamaq üçün, yüz illik də səbrin və dözümün olmalıdır. O mənada da mən sizi səbirli və dözümlü insan kimi tanıyıram, elə deyilmi?**

- Bizim ulu dağlarımız - Şahdağı, Bazardüzü dağı naz-qəmzəli gəlinə bənzəyir, ağ örpəyi heç zaman üzündən əskik olmur, hər kəsə qaş-qabaq açmır. Qismət ilahidən. Nazını çəkmək, pişvazında durub dodaqlarımla dodaqlarından süzülən, dişgöynədən sularını içmək həsrəti ilə bu fələyin acığına hələ yaşamaq və doğmalarımla, el-obamla birlikdə nəfəs almaq istəyim məndə olduqca güclüdür.

**- Deyin, humanizm baxımından, insanlıq naminə qanunlarımızın yanından keçdiyiniz hallar olub?**





- Təxminən 1973-cü ilin may ayının bir səhəri mənə xəbər verdilər ki, internatın anbarından oğurluq olub. Onu da deyim ki, gözətçi yaşlı və kasıb bir kişi idi, günü internatda keçərdi, orda yeyib-içərdi, heç evinə də getmək istəmirdi. Mən internata çatan kimi anbardar da, müavinim də qayıdıb dedilər ki, milisə xəbər vermək lazımdı. Razı olmadım, dedim hələlik anbardar özü anbara baxsın görək nəyi oğurlanıb. O da baxıb dedi ki, təxminən 100 manatlıq ərzaq oğurlanıb, sonra qayıdıb dedi ki, onu da «oxrannik» ödəyər, axı, hadisə onun səhlənkarlığından olub. Mən də ona dedim ki, heç oxrannikin 2 biti də yoxdur, o, 100 manatı hardan ödəyə bilər. Yenə də az-çox sənin imkanın olar, özün bu kəsiri ödəyərsən.

Bir də yadıma 1980-cı ildə Qusarda olan bir maşın qəzası düşür. O vaxt maşında olan ailə başçıları ər-arvad həlak olmuşdu, onların azyaşlı üç qızları isə baxımsız qalmışdı. Həmin qızlar Şəki şəhərində olan «Uşaq evi»nə verildi. O hadisədən bir neçə il sonra rayon icra komitəsinin yanına çağrıldım. Gördüm ki, Şəki uşaq evinin müdiri Hüsniyyə xanım (mən onu iclaslardan tanıyırdım) həmin qızlarla ordadı. Məlum oldu ki, qızların yaşları ötdüyündən uşaq evində saxlamaq olmur. Hüsniyyə xanım onu da qeyd etdi ki, qızların üçünü də evimdə saxlamaq istədim, ancaq razı olmadılar, Qusar üçün darıxdıqlarını bildirdilər. O qızlardan ikisini şagird kimi internata qəbul etdirdim, böyük qızı da işlə təmin etdim və hər üçünə yaşamaq üçün ayrıca bir otaq da ayırdım. Bir neçə il sonra onları ev növbəsinə saldırdım və müəyyən vaxtdan sonra RPK-nin birinci katibi Hacıbalayevin köməkliyi ilə onları yaşamaq üçün evlə də təmin etdirə bildim. Sonradan o qızların üçü də ərə getdi, ailə qurdu və onlardan biri də mənimlə qonşuluqda yaşayır.

**- Özünüzü başqasının yerinə qoyduğunuz məqamlar çoxmu olub?**

- Çox olub. Xüsusən icra başçısı işlədiyim illərdə. O vaxtlar yanıma min bir ümidlə gələn kimsəsiz, haqqı tapdalanan, ehtiyac içində yaşayan adamları görəndə, özümü unutmuşam, özümü onların yerində görmüşəm. Heç şübhəsiz ki, mənə üz tutanların hamısının işini, problemini məndən asılı olmayan səbəblər ucbatından ürəyimcə həll edə bilmədiyim vaxtlar da olub. Belə məqamlarda onunla təsəlli tapmışam ki, mən bacardığımı, imkanım dairəsində, vəzifə səlahiyyətlərim həddində edə bilmişəm. Belə bir deyim var, - deyirlər ki, birinə köməklik məqsədilə gündə bir balıq verincə, eləcə ona bir tor ver, qoy gedib özü balıq tutub dolansın.

Yadımdadır, başçı işlədiyim zaman kəsiyində həmişə Allaha üz tutub deyirdim ki, ay Allah sən mənə tamah vermə, əgər tamahım varsa da onu məndən al, elə olsun ki, camaat üçün arzuolunası başçı olum. Mən ona görə tamah deyirəm ki, elə bütün bəlalarımızın kökündə tamah dayanır. Tamah olmayan yerdə haqq-ədalət də olar, heç kim heç kimin haqqını yeməz və insanlar bir-birinin göz yaşlarını silər, bir-birinin ağrısına da, sevincinə də şərik olar.

**- Ağsaqqal, bəlkə polisə olan münasibətinizdən söz açasınız, onlar barədə ürək sözlərinizi deyəsiniz.**

- Polis dövlətin, hökumətin bel sütunlarından biri, bəlkə də birincisidir. Bu yöndə Nobel mükafatı laureatı Qabriel Markesin gözəl bir fikri var. O deyir: «Ədəbiyyat yerli – dibli olmasaydı dünya zərrəcə də dəyişməzdi, amma polis olmasaydı, dünya tamam başqa cür olardı.»

Sovet dönəmində deyirdik ki, mənim milisim məni qoruyur. İndi də böyük inamla deyirik ki, bizim polisimiz





bizi qoruyur. Mən dövləti polissiz təsəvvür edə bilmirəm. Əgər polis olmasa heç bir ölkənin uğurlarından, əmin-amanlığından, sabitlikdən və vətəndaşların təhlükəsizliyindən söhbət açmaq olmaz. Mən özüm rayona rəhbərlik etdiyim zaman kəsiyində də həmişə polisə və əhalimizin sağlam qüvvələrinə güvənmişəm. Bütün bunları ona görə demirəm ki, siz polis polkovnikisiniz, mənim dostumsunuz və barəmdə kitab yazırsınız. Mən həqiqəti deyirəm.

Onu da deyim ki, hər bir peşə sahibləri arasında işini zərgər dəqiqliyi ilə bilən və vəzifəsini yüksək səviyyədə icra edənlər olduğu kimi onun öhtəsindən gəlməyənlər də var. O baxımdan polis də istisna deyil.

Bəzən orda da təsadüfi adamlar olur. Elələri uzun ömür sürmür, gec-tez cəzalarını alır. Ancaq küll halında götürəndə onların xalq qarşısında xidmətləri dərin ehtirama və alqışa layiqdir və mən də özümü o alqışlayanların sırasında görürəm.

**- Hörmətli dost, həyatda çox şey olur, bəzən uduzmamaq üçün sözünü udmaq məcburiyyətində olursan. Sizdə necə, buna oxşar hallar olub?**

- Yadıma gəlmir.

**- Deyin, kimlərdən zəhləniz gedir?**

- Öz xeyiri, öz qazancı üçün şeytana səcdə edənlərə, xəyanət edənlərə, sözünün ağası olmayanlara, zalımlara, valideyn haqq-sayını itirənlərə, dosta dönük çıxanlara, vəzifə kürsüsünə qalxandan sonra sadə insanlara xor baxanlara.

Qardaş bu siyahını bir az da uzatmaq olardı, ancaq elə bilirəm ki, dediklərim də kifayət edər.

**- Bəs, birdən uzaq səfərə çıxmış olsaydınız, ən yaxın dostunuza kimi və nəyi tapşırardınız?**

- Əlbəttə, həyatda ləyaqətlə yaşamağımda pərvanə timsalında canyanğısı ilə fədakarım olan Şərqiyyəmi – o böyük məhəbbətimi. Başqa heç kimi, heç nəyi.

**- Sizin ömür yolunuza bələd olduğum üçün bu fikirdəyəm ki, Sizdə rəhbər işçiyə məxsus olan təhsil, ağıl, istedad, işgüzarlıq, tələbkarlıq, verdiyiniz göstərişlərə nəzarət edə bilmək xüsusiyyəti və sağlam düşüncə tərzi var. Elə bilirəm ki, bu keyfiyyətlər Sizin uğurunuz olmaqla bərabər həm də sonda məğlubiyyətiniz olub.**

**Xahiş edirəm ki, bu fikrimə öz münasibətinizi bildirəsiniz.**

- Dövr və tarix çox vaxt kar, kor və lal olur. Üstündən zaman keçəndən sonra onun qulaqları da, gözü də, dili də açılır. Elə şeylər var ki, onu bu gün deyə bilmirsən, sonraya qalır. Və sizin sualınız Esxilin bu sözlərini yadıma saldı: Qəribə taleyim var, qəribə qismətim var, sussam qəlbim qan olar, danışsam dilim yanar.

**- Birindən hər hansı qəbahətli bir işə, əmələ görə üzr istəməyə necə baxırsınız?**

- Bilirsiniz üzr istəmək də iki cür olur. Birincisi sözün müstəqim mənasında üzr istəməkdir. Əlbətdə bu alqışa layiqdir. Ona görə ki, nə səhfsiz, nə də ki, ideal adam yoxdur. Bir də var ki, üzrü «günah»ından da betər olanlar.

**- O necə olur elə?**

- Bu saat, misallarla deyərəm. Deyirlər ki, C.Məmmədquluzadə «Molla Nəsrəddin» jurnalında belə bir elan verir ki, bəs filan nazir başını itirib, kim tapsa ona mükafat veriləcək.

Ona görə Mirzəni Mərkəzi komitəyə çağırıb deyirlər ki, düzgün iş görməyib, hökumətin üzvünü, partiyaçını





təhqir edib, ona görə jurnalın növbəti sayında təkzib versin. Mirzə də jurnalın növbəti sayında oxuculardan üzürxahlıq edib yazır ki, səhv edib, nazirin başını heç kim axtarmasın, ona görə ki, sən demə həmin nazirin heç başı yox imiş.

Mark Tven isə qəzetdə belə bir yazı verir ki, filankəs üzünə tüpürülməyə də layiq adam deyil.

Həmin şəxs məhkəmə vasitəsi ilə Mark Tvenin öz fikirini dəyişməsinə nail olur. Ona görə də yazıçı növbəti yazıda belə deyir ki, səhv edib, sən demə həmin adam üzünə tüpürülməyə layiq adamdır.

**- Zeynəddin müəllim, inanıram ki, Sizin ən böyük mənəvi gözəlliyiniz, xüsusiyyətləriniz və məziyyətləriniz, vətənpərvərliyiniz, idrakınız, seçdiyiniz peşənizi dərindən bilməyiniz, el-obaya bağlılığınız, münasibətlərdə səmimiyyətiniz, tamahsız olmağınız, bütün işlərinizdə ədalət adlı əlahəzrətə üz tutmağınız, haqqı nahaqqa verməməyiniz, mərdliyiniz, qonaqpərvərliyiniz, vəzifəli şəxslərin qarşısında əyilməməyiniz, təvazökarlığınız, xalqımızın milli və mənəvi dəyərlərinə söykənməklə bəşəri hisslərlə yaşayıb xeyir əməl sahibi olmağınız və bir də sevib-seçdiyiniz, könül verdiyiniz Şərqiyyə xanıma dağlardan uca, dəryalardan dərin olan məhəbbətinizdir. Bu yerdə onu da deyim ki, gözəl xislətli və gözəl surətli qadın, kişi üçün onun qədirqiymətini bilən üçün haqdan gələn nurdur, həyatdır.**

**Bir də, Siz bu vaxta kimi gördüyünüz işlərə görə nə Allah yanında günahkarsınız, nə bəndə yanında xəcalətlisiniz. Mənim bu inamıma münasibətinizi bilmək istərdim.**

- Qardaş, sözlərində həqiqət var. Ancaq məni bu boyda təriflənməyə nə ehtiyac var. Bilirəm mən Sizin xətrinizi istədiyim kimi, Siz də mənim xətrimi istəyirsiniz.

Ona görə də barəmdəki sözlərinizin ürəyinizdən su içdiyini də bilirəm. Sizə bir ağsaqqal dost kimi tövsiyəm odur ki, bundan sonra tərifə az yer verəsiniz və sözünüzün doğru olub-olmamasını məni tanıyanlardan soruşasınız, bir də özünüzdən.

Ancaq bir fikirinizin ürəyimə yağ kimi yayıldığını da etiraf edirəm. Bu da mənim ömür-gün yoldaşım Şərqiyyə xanıma dağlardan uca, dəryalardan dərin olan məhəbbətimin, olmasını deməyinizdi.

Qaldı mənim Allah və bəndə yanında günahsızlığıma, bu da mənim tamahsızlıqdan, yurd sevgimdən və xeyirxah duyğularımdan irəli gəlir.

**- Həyatı necə görürsünüz, yaxud necə görmək istərdiniz?**

**İnsanın maddi ehtiyacları olduğu kimi mənəvi ehtiyacları da olur. Həyat üçün onların hər ikisi vacibdir. İnsan kimi yaşamağa o vaxt haqqınız olur ki, bir-birimizin qayğısına qalır, bir-birimizlə ünsiyyət yaradıb, dostluq edə bilirik. Məlum həqiqətdir ki, fərd halında dünyanın ən ləziz yeməkləri və məişət üçün zəruri olan hər şeylə təmin olunan adam heç vaxt xoşbəxt ola bilməz. Məhəmməd peyğəmbər deyir: «Ey insanlar, ey mənim ümmətim, birlikdə olun, əl-ələ verib aranızda möhkəm bir ittifaq yaradın. Allah yolunda addımlarkən sıralarınızda səf-səf durun. Aranızda nifaq salınmasına imkan verməməli və birlikdə hərəkət etməlisiniz.»**

**Bildiyimiz kimi ömür insana tək bircə dəfə verilir. Ötən günün bir anını belə heç vaxt yenidən yaşamaq mümkün deyildir. Ona görə həm özünə, ailənə və mənsub olduğun el-obaya, xalqa yararlı ola bilmək ovqatında olmalısan.**

**Qismətimizə düşən ömür payımızı xeyirxah duyğu və əməllərlə, saflıq və düzlüklə, heç kimə baş əymədən, heç kimin minnətin və tənəsin götürmədən, şəxsiyyətinə, soykökünə xələl gələ bilən hərəkətlərə yol vermədən yaşamalıyıq. Bir də mənsub olduğumuz ölkənin layiqli övladı olmağı gördüyümüz işimizlə sübut etməli xoşbəxtliyi vətənə, xalqa sədaqətlə xidmət etməkdə, ömrü vətəndaşlıq və insanlıq ləyaqəti ilə başa vurmaqda tapmalıyıq. Elə deyilmi?**





- Cəmiyyət həmişə təzadlı olub güclü-gücsüz, varlı-kasıb… Elə ki, sən o güclülərin qabağından qaçdın, onların əlində əsir-yesir olacaqsan, qova-qova namərd edəcəklər səni, alıb-satacaqlar, çeynəyib udacaqlar, o hala salacaqlar ki, gücsüzü, kasıbı yox, güclünü, varlını müdafiə edəcəksən və sənin bir fərd, bir vəzifəli şəxs kimi faciən də ondan başlayacaq və sən dönüb şəxsiyyət ola bilməyəcəksən. Elə ki, vəzifə kürsüsündən düşdün, bax onda da heç harada, heç kimin yanında yerin olmayacaq. Onu da deyim ki, mən heç vaxt vicdanıma ləkə düşməyə, adıma söz gəlməyə yol verməmişəm, kişi kimi yaşamağa üstünlük vermişəm.

**- Zeynəddin daxa, zər və kəramət sahibləri barədə nə deyə bilərsiniz?**

- Hərdən fikirləşirəm ki, bəzilərimizin boyuna biçilən mənəvi kasıblıq ucbatından bir çoxumuz cəhənnəmliyik. Cənnətə getmək üçünsə, zər sahibi olmaq yox, kəramət sahibi olmaq gərəkdir. Kəramət sahibi, yəni var-dövləti olmaqla mənəvi sərvət sahibi, ünsiyyət, heysiyyat və xeyirxahlıq sahibi olmaq. İnsanlara, insanlığa xidmət etmək, onların salamatlığını qorumaq, kimsəsizlərə, ehtiyac içində olanlara əl tutmaq, ümid vermək, kömək etmək hər birimizin bəşər övladı qarşısında ən böyük xidmətimiz, əzəli borcumuzdur. Yuxarıda sadaladığım keyfiyyətlər insanın canında, qanında, əqidəsində olma-

lıdır. O, nə qonşudan alınır, nə dost-tanışdan, nə də ki, yaddan. Elə keyfiyyətləri hər kəs peşəsinə, vəzifəsinə və imkanına görə qazanır.

**- Zeynəddin müəllim, Siz bir vətəndaş kimi hakimiyyət uğrunda mübarizə aparan qüvvələr barədə nə deyə bilərdiniz?**

- 20 ildən artıqdır ki, biz müstəqilliyimizi qoruya bilmişik. Bu illərdə elə bir adam tapılmaz ki, müstəqilliyimiz və torpaqlarımızın bütövlüyü uğrunda doğmalarından, qohumlarından, dost-tanışlarından kimsə şəhid olmasın. Bunu unutmağa heç birimizin haqqı yoxdur. Mən, bu gün hakimiyyətə can atan bütün qüvvələrə, həyatın isti-soyuğunu görmüş bir ağsaqqal tövsiyyəsi edərdim, həmin qüvvələr özlərinin siyasi əqidələrindən qabaq dövlətimizin, dövlətçiliyimizin, küll halında xalqımızın taleyini, gəncliyimizin gələcəyini düşünsünlər və mübarizələrini sivil demokratik yollar və əsaslarla aparsınlar.

Yüksək əxlaqa və təfəkkürə malik olan şəxslər xalq arasında, el-obasında işləməyi, ali mənsəb sahiblərinin yanında buyuruqçu olub, firavan yaşamaqdan üstün tutublar. Elələrinin yolu min bir çətinlikdən keçsə də bu yol onları insanlığın ucalıq zirvəsinə qaldırıb.

Adətən işıqlı təfəkkür sahibləri son dərəcə işgüzar, ədalətli, yeri gələndə güzəşt etməyi bacaran, lakin prinsipial məsələlərdə heç kimə güzəşt etməyən şəxsiyyətlər olur. Bu şəxsiyyətlər hər bir məsələyə düzgün qiymət verir, heç vaxt hissə qapılmır, tərəfkeşlik, yerlibazlıq, dostbazlıq etmədən yaxşını yaxşı, pisi pis görür. Onlar çox zaman özlərindən çox başqalarını düşünür, Vətənə, xalqa xidmət etməyi ən ali insanlıq borcu, vətəndaşlıq





borcu bilir. Bax, belə şəxslər heç vaxt hakimiyyət uğrunda pis niyyətlər üçün dəridən-qabıqdan çıxmaz, yüksək vəzifələrə can atmazlar.

**- İnsan həyatında elə səhvlər olur ki, adi olduğu üçün keçici və unudulan olur, ancaq səhv də olur ki, ömrün boyu onun ağrı-acısını və iztirabını çəkirsən. Sizin həyat yollarınızda buna oxşar halların da olması heç şübhəsiz istisna deyildir. Elə deyilmi?**

- Həyatda hər bir insan kimi heç şübhəsiz mənim də səhvlərim olub, ancaq Sizin dediyiniz birinci anlamda. Axı, həyatda səhv etməyən adam yoxdu. Əsası odur ki, o səhvini vaxtında görüb-anlayasan, onu düzəltmək yönümündə hərəkət edə biləsən, zəruri məqamlarda o səhvini etiraf edə biləsən. Məhəmməd peyğəmbər demişkən: «Etiraf vicdan sabunudur.»

İnsan həyatında bir çox səhvlər var ki, onlardan biri də başqasının səhvini bağışlamamaqdır. Belə bir kəlam da var – dost səhvini bağışlamayan illərlə dostsuz qalar. O da bir həqiqətdir ki, səhvlərini dərk etməyəndən xeyir də gəlməz. Onlar etdiyi bir səhvi düzəltmədən başqa səhvlərə də yol verər.

Fikrimi peyğəmbərimizin bu kəlamı ilə tamamlamaq istərdim:

«Bir işə görə peşman olmaq, əslində tövbə etmək deməkdir.»

Bizim zəmanədə namuslu olmaq on min nəfərdən seçilmiş deməkdir.

*V.Şekspir*

Qızıla tutulan günah ən sərt hakimlərin də silahını sındırır. Cındır paltarlı günahı, cırtdan, saman çöpü ilə yıxar.

*V.Şekspir*

Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır.

***Heydər Əliyev***

Hansı hökmdarın hökmünün təsiri dəyənəyinin təsirindən zəifdirsə, o, hökmdarlığa layiq deyil.

***Əmir Teymur***

İnsan gərək yaşına görə gözəl olmağa çalışsın.

***Əfqan***

İt var ki, qulaqları kəsiləndə daha qəşəng görünür.

***Əfqan***

Kişiyə çətinlik üz verəndə, onun əzabını ən çox ürəyi çəkir, bir də ona vəfalı olan qadın.

***Əli İldırımoğlu***

Tanınıb seçilən hər kəsin arxasında ağıllı bir qadın durur.

***Bayram Məmmədov***

Hər yerin öz torpağı, hər torpağın öz adamı.

***Bayram Məmmədov***



# *Allah dərgahına gedən bu yolda*

Eşq haqqın sifətidir.

*Cəlaləddin Rumi*

Məhəbbət Allahın əmanətidir.

*Güneyd Bağdadi*

Ürək yandığı, beyin qandığı, insan inandığı, eşq çalxalandığı anda gözəldir.

*Məsud Əlioğlu*

Könül sevən göyçək olar.

*Azərbaycan atalar sözü*

Nicat məhəbbətdədir.

*Əlibəy Hüseynzadə*

Kim bir zalıma yardım edirsə, Allah həmin zalımı ona qənim kəsir.

*Məhəmməd Peyğəmbər*

Kişilərin qiyməti çətin məqamda bilinər.

*Həzrət Əli*

Vətən gözdür, biz kirpik,
Gözümüzün keşiyini çəkirik!

*Məmməd Aslan*

Dost-düşmən seçilər, Vətən seçilməz.

*Məmməd İsmayıl*

Səndən başqa, Azərbaycan,
Nə var mənim ürəyimdə!

*Məmməd Aslan*



# ALTINCI SÖHBƏT

Dostları sayanda çox olur, ancaq onlara ehtiyacın olanda azalırlar.

**Həzrət Əli**

Ürək yandığı, beyin qandığı, eşq çalxalandığı anda gözəldir.

**Məsud Əlioğlu**

**- Zeynəddin müəllim, mən ürəkdən inanıram ki, Siz bundan sonra da böyük məhəbbət və ürək yanğısı ilə öz xeyirxah əməllərinizlə dostlarınızı, doğmalarınızı, Sizə üz tutan hər kəsi sevindirəcəksiniz.**

- Elbrus, sizin barəmdə sadaladıqlarınız, ta gənclik illərindən mənimlə bir olan, səciyyəvi xüsusiyyətlərim mənim qanımda, canımdadır. Deyilənlər mənim həyat amalımdı. Və mən heç vaxt nə keçmişimdən, nə bu günümdən, nə də amalımdan əl çəkə bilmərəm. El arasında deyildiyi kimi, kişinin sözü bir olar.

Mən gəcnlik illərimdən həyatın çox üzünü görmüşəm, onun hadisələri arasında baş sındırmışam, sinə gərmişəm, mübarizə aparmışam. Eyni zamanda ümid və arzularımın, istək və məhəbbətimin, sevinc və kədərimin sahibi olmuşam. Əmək sahəsində alın təri ilə ailəmi dolandırmışam və həmin qəbildən olanlara da həyan olmuşam. Həyatda nailiyyətlərim də çox olub. Dəfələrlə boz üzlər görüb, boz sifətlərlə də qarşılaşmışam. Ancaq ümidsiz olmamışam, sınıb-əyilməmişəm, öz əqidəmdən dönməmişəm, bütün hadisələrin və mücaidələrin sonunda haqqa üz tutduğumu, haqlı olduğumu sübut etmişəm.

Deyirlər ki, rastlaşan dostlardan biri, o biri dostunun başında olduğu papağına maraqla baxdığını görüb deyir: «Dostum, bu başımdakı papağı həyatda özüm qazanmışam, ancaq həyatda uduzduqlarımı yəqin ki, qırx dəvəyə yükləsən də çəkə bilməz.»

Hər kim olsan da özünə kənardan baxmağı, özünə nəzarəti, özünü idarə etməyi gərək ömrün bütün məqamları bacarasan. Onda adamın cibi boş olsa da, başındakı papaq gözoxşayan olar. Hamımız bir ocağın başına toplaşmışıq, o ocağı sönməyə, öləziməyə qoymamalı, papağımızı boş yerə günə yandırmamalıyıq.

Bu məqamda şair Vaqif İbrahimin iki misra şeirini xatırladım:

*Həyat bir qığılcım, ömür bir andır,*
*Çalış qığılcımdan alovlar yandır.*

**- Zeynəddin müəllim, bilirəm ki, bütün müsbət mənəvi keyfiyyətlərinizlə yanaşı dostcanlı olmusunuz, onların yolunda heç bir çətinlikdən qorxub çəkinməmisiniz, onların uğrunda ölümə belə getməkdən çəkinməmisiniz. Ancaq onu da deyim ki, sizdə qaldığım bu bir ay müddətində dostlarınızın sizdən uzaq durmağa daha çox meyilli olmalarını hiss etmişəm. Nədənsə vəzifələrdə olduğunuz çağlarda, gəlhagəl gününüzdə Sizə can-can deyən, sizi özlərinin ağsaqqalı kimi tanıyan bir çox dostlarınızın Sizdən xəbər tutmamağını görürəm. Axı, Siz son aylarda bir neçə ağır cərrahiyyə əməliyyatı keçirmisiniz. Necə də tən-dürüst deyilib: «Dostları sayanda çox olur, ancaq onlara ehtiyacın olanda azalırlar.» Ancaq onu da deyim ki, bizim dostluq duyğularımızın qəlbimizdə əbədi yaşayacaq və heç zaman bakirəliyini və saflığını itirməyəcək.**





- Elbrus, əzizim, burda qeyri-adi heç nə yoxdur. Ta dövrü qədimdən belə olub. Mən, nə deyə bilərəm, Allah hamısının canını sağ-salamat eləsin. Görünür bu baxımdan indi haqq dünyasında olan Məmməd Araz da dərd çəkirmiş. Görün bir şeirində nə deyir:

*«Seçirəm fikrimin aynasında mən,*
*Vəfalı vəfasız olan dostları.*
*Adını dilimdən salıb itirdim,*
*Qonanda dilinə yalan dostları.*

*Həyat yollarında tanınır insan,*
*Zaman arayır da, seçir də asan.*
*İtir sən daldada rəddini qazan*
*Üzdəsə üzünə gülən dostları.*

*Sev könül dostunu gözündən artıq,*
*Sözünə məna ver sözündən artıq.*
*Deyirəm, əzizlə özündən artıq,*
*Dərdini öz dərdi bilən dostları».*

**- Dostluq hissi insanda olan ən ali hisslərdən biridir. Kimdə ki, bu hiss yoxdur, demək olar ki, o çox şeydən, çox duyğulardan uzaqdır. Dostluq xalqlar arasında da, cəmiyyətdə də, kollektivdə də, təhsildə də, qohumluqda da, ailədə də vacibdir. Mütəfəkkirlərin, yaradıcı adamların bir çoxu dostluq haqqında öz sözlərini deyib. Dostluq haqqında bir çox atalar sözləri də var. «Dostunu mənə göstər, sənin kim olduğunu deyim», «Dost dosta tən gərək, tən olmasa gen gərək», «Dostları dar ayaqda sınarlar» və s. Böyük alim, şərqşünas M.Kazımbəy deyib: «Mən insanlar arasında**

**həmişə dostluq və səmimiyyət axtarmışam». Professor Cəfər Xəndan isə belə deyib:**

*«Dostlarla yad eldə qalmağa nə var,*
*Dostlarsız vətənsə bir doğma qürbət».*

Yaxud Nəsrəddin Tusi: «Güzəşt etməyi bacarmayanlar, dost qədrini bilməz, axır tək qalar».

Müciəddin Beyləqani isə deyir: «Vəfasız dost kölgə kimi olar. İşıqlı günündə hər addımda səni izləyər, elə ki, günün bir qədər buludlu oldu gözdən itər». Dostluq barədə belə misallar saysız-hesabsızdır. Ona görə mən bu siyahını uzatmaq istəmirəm. Ancaq dostluq barədə şairlərimizin bir neçəsinin də şeirlərini xatırlamaq istəyirəm. Şeyx Nizami dostluq haqqında deyir:

*«Yaxşı ad qazanmış gözəl dost ara,*
*Onda yetişərsən ağ günə, vara».*

Həyatda bir ürək dostu, bir əqidə dostu, bir də çörək dostu var. Tikə dostları yal otu kimi bir şeydi, külək hansı səmtə əsdi, o tərəfə əyiləcək. Əqidə dostlarını isə müəyyən amal, məqsəd birləşdirir. Ola bilsin ki, onlar haçansa düşmən mövqeyində dayansın. Ancaq ürək dostları yolu axıra kimi gedir. Dostlardan biri o birindən əvvəl həyatla vidalaşanda ikincisinin ürəyi onun doğmaları üstə nanə yarpağı tək əsir. Bax, budur dostluğun mayasında duran qüdrət.

Heç vaxt dar günümüz olmasın, elə ki, oldu dostları sınamaq imkanını əldən verməyək. Elə ki, dostlar bir-birini inandırmaq üçün yerli-yersiz and içdi, demək







Sadiq Xəliliov
Zeynəddin müəllimin
həmkəndlisi



Müslüm Murtuzayev



**Hil kənd sakinləri, sağdan səkkiz oğlunu cəbhəyə yollayan Mite Məhsimov**







**Hil kəndinin veteranları**



Z.Çələbov, müğənni Zöhra Abdullayeva ilə







Soldan Fatimə xanım, oğlu Eyyub, gəlini Lyudmila və nəvəsi Ruslan



Z.Çələbov və Şərqiyyə xanım



**Vacib Qayıtmazov ailəsi ilə birlikdə**



**Zeynəddin müəllimin bacısı Tayifə İslamova**



**Zəmirə Qədiyeva**







**Qusar internat məktəbindən bir görünüş. tablo Səttar Bəhlulzadənindir**



Qusar internat məktəbinin kitabxanasından bir görnüş. Rəsm Səttar Bəhlulzadənindir





onların arasında olan inam və etibar öləziyib. Dost dostun qapısını ürəknən açar. Deyirlər ki, dost açmayan qapını düşmən açar. Dostluqda sədaqət, vəfa, etibar, ilqar, ülfət və bir-birinə ehtiram və məhəbbət olmalıdır. Elə ona görə də elə mənəvi keyfiyyətləri özlərində gəzdirən şəxs adlarımız da yetərincədir. Bir də həqiqi dostlar eyiblərini bir-birindən gizlətməz, üzə deyər.

Belə bir həqiqət də var: Əgər birindən soruşsan ki, neçə qoyunun var, o dəqiqə sayını deyər. Birdən həmin adamdan soruşsan ki, neçə dostun var, duruxub deyər – qoyun fikirləşim.

- Elbrus, əzizim, mənim hörmət bəslədiyim dostlarım, sədaqətli tanış-bilişlərim çoxdur. Beləlləri təkcə Qusar və onun kəndlərində deyil, respublikamızın bütün bölgələrində vardır. Dostlar insanın mənəvi sərvəti, başucalığıdır. El arasında deyirlər ki, dostunun dostu, düşməninin düşməni də sənin dostundur. İnsanın dost və tanışlarının sayı nə qədər çox olsa da, ancaq bir və ya iki ürək dostu ola bilər. Dostluq etmək göründüyü qədər də asan deyil. Əsl dostluq axıra qədər kimlərə nəsib olubsa, mən onları xoşbəxt adam hesab edirəm.

Ağıllı adamlar üçün etibarlı dostu heç bir var-dövlət əvəz edə bilməz. Yaxşı dost yaxın qohumdan əzizdir. Sədaqətli dostları olan ən kasıb adamlar əslində böyük var-dövlət sahibləridir.

Eyni zamanda, illər boyu dostluq etdiyin adamların içərisində sonradan dönük çıxanlar da olur. Belə etibarsız adamları vaxtında tanıya bilmədiyinə görə məyus olub təəssüflənirsən. Bunun səbəbini soruşan dost-tanışların suallarına cavab tapmayıb, belə dönüklərə görə xəcalət çəkirsən. Ona görə də dost seçməkdə daha ehtiyatlı olmaq məsləhətdir.

Sözümün qüvvəti olaraq onu da deyim ki, mənim də elə dost-tanışım var ki, indi məni onlara bağlayan olub keçmişlərdi.

**- Zeynəddin müəllim, bu yöndə nə vaxtsa yazdığım iki misra şeirimi xatırladım:**

***Sayı çox vəfasız olan dostlardan,***
***Çobanın vəfalı iti yaxşıdır.***

**Bu baxımdan yadıma bir rəvayət də düşdü; Deyirlər ki, keşmiş əyyamda sövcəsi ilə baş-başa verib yaşayan səxavətli və qonaqpərvər bir tacir yaşayırmış. Elə gün olmazdı ki, dostlar onun süfrəsi ətrafında olmasın. Onlardan hansı dara düşərdisə tacir dostuna üz tutar, ondan yardım alardılar. Dostların əhli-əyalı da həftələrlə, aylarla o tacirin qonağı olar, gen-bol yeyib-içərdilər. Ancaq tacirin xanımının ürəyində bir nisgil yaşayırdı – övladsızlıq nisgili. Hər dəfə arvadını qəm-qüssəli görən tacir qayıdıb bir bunu deyərmiş; - Ay mənim könül həmdəmim, mən sənin qüssəni başa düşürəm. Ancaq kədərlənməyə dəyməz, onu bil ki, mənim nə qədər dostlarım varsa, onların övladları elə bizim də övladlarımız sayılır. Özün görürsən ki, o uşaqlar bizi nə qədər çox istəyir.**

**Bir zaman iş elə gətirir ki, tacir müflis olur. Üstəlik də mərəz tapır. Elə o gündən dostların ayağı kəsilir tacirin qapısından. Tacirin xanımı hansı dosta üz tutursa, onlardan heç bir köməklik ala bilmir və sonda üzünü onlara tutub bircə bunu deyir – ərimin sizə verdiyi çörək burnunuzdan gəlsin.**

**Az sonra ataların bir sözü həqiqət olur. «Su gələn arxa bir də su gələr». Tacir şəfa tapıb ayağa durur, yenidən ticarətə başlayır və yenidən ələ gətirir. Bununla da bir müddət quruduğu arxına yenidən su gəlir. Ancaq bu dəfə ora gəlməyən üzü olmayan «dost»ları olur.**





- Elburus, əzizim, sizin şeirinizdə də, söylədiyiniz rəvayətdə də həqiqət vardı. O da bir həqiqətdir ki, dostluq etmək üçün bütün ali keyfiyyətlərə malik olan, səhvsiz insan axtarıb tapmaq mümkün deyil. Ona görə də, adi nöqsanları bəhanə gətirib dostlardan uzaqlaşmaq əvəzinə, az-çox yaxşı xüsusiyyətlərə görə yaxınlıq etmək daha vacibdir. Dostluqda «bir şirinin xatirinə min acıya dözmək lazımdır». Təbiidir ki, əsl dostların qiyməti yaman gündə, çətin məqamda bilinir, süfrə başında hamı dost görünər. Adətən, vəzifədə olan vaxt dost seçməyin müəyyən çətinlikləri olsa da, ətrafıma pərvanə tək yığışıb, özünü dost kimi qələmə verənlərə, mənimlə nəfəs aldıqlarını deyənlərin bir çoxlarına inanmırdım. Odur ki, bu gün elə «kişiləri» itirdiyimə təəssüflənmirəm. «Valideynlərdi, əmidi, dayıdı, başqa yaxın qohumlardı ki, biz onu seçmirik. O bizim iradəmizdən asılı olmayaraq yaranıb. Ancaq bizim qazandığımız qəlbimizə yaxın olan dostlarımızdır. Bu alın yazısını özümüz yazırıq».

Həqiqi dostun qəlbi geniş olar, o, dostunu özündən üstün tutar, onu bircə kəlmə sözündən başa düşər. Dost-dostun dərd-qəmini gözlərindən oxuyar. Deyirəm ki, torpaqlarımız işğal altında olduğundan adamın ürəyi çatladığı belə bir zamanda dostlar olmasa çiyəri kəpənək bağlar, ürəyi nəm çəkmiş divar kimi yüz yerdən çat verər.

**- Zeynəddin müəllim, xahiş edirəm ki, dostluq etdiyiniz alimlərin və yaradıcı adamların adlarını çəkəsiniz.**

- Elə dostlarımın çoxu dünyasını dəyişib, sağ olanları da var. Onların xətri dünən də mənim yanımda əziz olub,

bu gün də əzizdir. İndilikdə onların adlarını çəkirəm: akademiklərdən Zahid Xəlilov, Həsən Abdullayev, Fərəməz Maqsudov, Abdullah Muxtarov, elmlər doktorları – ən yaxın dostum Kərim Kərimov, Haşım Ağayev, Moskvadakı Qupkin adına Neft və kimya institutunun sabiq rektoru Məcid Hüseynov, Zal Xeyirov, Tofiq İsmayılov, Aleksandr Kərimov. Yaradıcı adamlardan - Məmməd Aslanın, Oqtay Rzanın, Ramiz Qusarçaylının, Bəxtiyar Vahabzadənin, Yusif Hüseynin, Yasin Qarayevin və bir də Sizin özünüzün – Elbrus Şahmarın adını çəkə bilərəm.

Bayaq məndən dostlarım olan elm və yaradıcı adamların adlarını çəkməyimi dediniz. Axı, mənim başqa peşə sahibləri olan dostlarım da var.

**- Eləsə onlardan tək bir nəfərin adını çəkməyimizi istərdim.**

- Rayonumuzda bir sıra rəhbər vəzifələrdə işləmiş, indi haq dünyasında olan İsmayıl Kişiyevin də adını böyük ehtiramla çəkirəm. Allah ona rəhmət eləsin!

**- Zeynəddin müəllim, son aylar, Sizi yaxından tanıyandan sonra belə bir qənaətə gəlmişəm ki, Siz dostluqda sədaqətli insansınız, dost yolunda hər çətinliyə sinə gərənsiniz, bu yöndə hər bir təhlükəyə hazırsınız. Ona görə də atalar deyib ki, dost yolunda boran olar, qar olar. Şübhəsiz bütün dostlarımızdan ətraflı söz açsanız, onda bu ayrıca bir kitabın mövzusu olardı. Xahiş edirəm ki, bu yöndə dostunuz və həmkəndliniz, dünya şöhrətli alim Kərim Kərimovdan söz açasınız.**

- Bildiyiniz kimi biz həmkəndliyik, hər ikimiz Qusarın Hil kəndində dünyaya göz açmışıq, uşaqlığımız o kənddə keçib, hər ikimiz ilk təhsilimizi eyni məktəbdə almışıq,





eyni bulaqların suyundan içib, eyni ab-havada böyümüşük. Hər ikimiz sadə kəndli ailəsində tərbiyə almışıq və heç vaxt kəndli təbiətimizi itirməmişik, sonralar harda olsaq da həmişə o kəndə üz tutmuşuq, oranı müqəddəs məkan və qiblə bilmişik. O, məndən 16 yaş böyük olduğundan kənddə yaxınlığımız olmayıb, sonralar da bir-birimizi uzaqdan-uzağa tanımışıq.

Bizim dostluğumuz 1959-cu ildən başlayıb. Bu, belə olub: Kərim müəllim iki nəfərlə Qusara gəlmişdi. O vaxt rayon icra komitəsinin sədri Mirzəmməd Mirzəbəyov idi. Kərimgil də bir qohum kimi onun qanadlarıydı. Kərimlə gələnlərdən biri əməkdar elm xadimi, professor Məcid Hüseynzadə və biri də SSRİ Rəssamlar İttifaqının sədri idi. Adı yadımda deyil, Kərim ona İvanoviç deyə müraciət edirdi.

O gün idarə etdiyim «Moskviç» markalı maşında Mirzəmməd Mirzəbəyovun evinin yanından keçərkən, onu görüb maşının əyləcini basdım. Mirzəmməd mənə dedi ki, filankəslər qonağıdı və süfrəyə qoymağa elə bir fərli yeyib-içmək yoxdur. Və mən ilk dəfə Kərimlə yaxından tanış oldum o gün, onları evimə aparıb qonaqpərvərlik göstərdim. Onlar 5 gün bizdə qaldılar. O günlərdən də Kərimlə qardaşlıq timsalında olan ailəvi dostluğumuz başladı, evini evim bildim, eləcə də o da mənim evimi öz evi bildi. O gündən ömür yollarımızda bir-birimizə arxadayaq olduq və bu dostluğumuz onun ölümünə kimi davam etdi.

1964-cü ildə mənim təşəbbüsümlə Kərim müəllim üçün Qusar şəhərinin özündə torpaq sahəsi götürüb orada ev tikdirdik. Əqidəmə uyğun olmasa da deyim ki, evin tikintisinin xərcini özüm çəkdim, işin üstə özüm

dayandım. Təkcə evin üstü Kərimin xərci ilə örtüldü. Çox təəssüf ki, Kərimin ölümündən sonra mənim xəbərim olmadan Kərimin qızı həmin mülkü satdı.

Yadıma düşmüşkən onu da deyim ki, ikinci ali təhsilimi Kərimin təkidi ilə almışam.

**- Zeynəddin müəllim, bildiyimə görə Kərim müəllim nə vaxtsa böhtan nəticəsində həbs olunub və onun həbsdən azad olunması məhz Sizin fədakarlığınız, onun təqsirsiz olmaması yönümündə gördüyünüz işinizin nəticəsində olub. Xahiş edirəm ki, bir qədər də bu yöndə danışasınız.**

- 1975-ci ilin sentyabr ayı idi, gecə olduğundan yatmışdım. Kərimin oğlu bizə gəldi. Onun vaxtsız gəlişindən narahat oldum. O, mənə xəbər verdi ki, Kərim böhtan nəticəsində həbs olunub. Onu da qayıdıb dedi ki, əmi, özün bilirsən ki, atam heç vaxt, heç kimdən rüşvət almayıb. Məsələdən hali olan anam ağladığından hövsələm lap təlx oldu. Paltarımı geyə-geyə anama dedim ki, ana, ağlama, sənin oğlun, qardaşını orda qalmağa çox qoymayacaq, buna görə kişi kimi söz verirəm.

Bakıya getdim, Akademiyanın prezidenti Həsən Abdullayevlə görüşüb, onu məsələdən agah elədim. Onu da deyim ki, Həsən müəllimlə Kərim dost idilər, dəfələrlə birlikdə, özü də ailəliklə mənim qonağım olublar. Həsən müəllim mənə dedi ki, bundan xəbəri olmayıb, mən Kərimin təmiz adam olmağına əminəm, yəqin ki, üç günə onu həbsdən azad etdirərəm. Ancaq bizim söhbətimizdən bir həftə keçsə də Həsən Abdullayevdən bir xəbər olmadı. O vaxt Kərim Bayıl türməsində yatırdı. Çox çətinliklə onunla görüşə bildim. Kərim mənə dedi ki, «Zeynəddin, yalan deyirəmsə anamızın halal çörəyi mənə haram olsun, mən heç kimdən rüşvət almamışam, mənə böhtan atıblar.»





**- Zeynəddin müəllim, üzr istəyirəm, axı, Siz həmin vaxt internatın direktoru idiniz. Bəs, rəhbərliyə demədən Bakıya getməyinizdən ehtiyatlanmırdınız?**

- Hə, onu deməyi unutmuşam. O vaxt Bakıya getməmişdən əvvəl işdən azad olmağım barədə ərizə ilə rayon PK-nin birinci katibi Sultanməcid Hacıbalayevin yanında oldum, ərizəni oxuyub təəccüblə üzümə baxdı, sizi başa düşmədim, dedi. Onu məsələdən hali elədim. O da kişilik elədi, dedi ki, ərizəni götür, ancaq yerini bacarıqlı bir müəllimə tapşır, heç kimə heç nə demədən Bakıya get. Ancaq bu işin müsbət həlli çox çətin olacaq. Dedim ki, onu bilirəm, ancaq Kərim müəllimin təmizliyinə də arxayınam, öz gücümə də.

Hə, qardaş, türmədə Kərimə tapşırdım ki, heç kimə ifadə verməsin, belə hərəkət sənin hüququndu, mən sənin işinlə məşğul olacam, inanıram və əminəm ki, bu yaxın günlərdə səni həbsdən azad etdirəcəm.

Elə həmin gün Moskvaya getdim. Kərimin dostu, SSRİ-də böyük şöhrəti olan akademik Xəlil Əhmədoviç Raxmatulinlə görüşüb, onu məsələdən agah elədim. Onu da deyim ki, o, Kərimlə Qusarda, həm internatda, həm də evimdə qonağım olmuşdu, məni yaxşı tanıyırdı. Onunla SSRİ Elmlər Akademiyasının prezidenti, akademik Keldişin yanında olduq və nəticədə akademik Keldişin, akademiklərdən Raxmatulinin, Sidrovun, Leysanski və İlyuşinin imzası ilə Azərbaycan KP-sı MK-nin birinci katibi Heydər Əliyevin adına teleqram vurulub, xahiş olundu ki, istintaqın gedişatına nəzarət etsin. Onu da qeyd etmişlər ki, Kərim Kərimov həm böyük alimdir, həm də təmiz insandı. Ona görə də onun səhhətinə də qayğı göstərilməlidir.

Ondan sonra Bakıya qayıtdım, Kərim Kərimov səhhəti ilə əlaqədar türmənin xəstəxanasında yatası oldu. Və rəhmətlik Heydər Əliyevin işə qarışması ilə bağlı, hər şey yaxşı həll olundu və Kərim müəllim bəraət qazandı. Onu da deyim ki, o vaxt Heydər Əliyev, Akademiyanın prezidentini yanına çağırıb ona iradını bildirib ki, nəyə görə Kərim Kərimovun həbs olunması barədə ona xəbər verilməyib. Onu da deyib ki, Kərim Kərimov kimi alimlərə qayğı göstərilməsə ölkə elmində bir şikəstlik olardı.

Kərim azad olunandan sonra öz vəzifəsinə qayıtdı və həbs olunduğu ayların məvacibini də aldı.

**- Zeynəddin müəllim, Sizin üçün nə qədər ağır olsa da, xahiş edirəm ki, Kərim müəllimin vəfatı və dəfni barədə danışasınız.**

- Kərimi əbədi itirməyim mənim əbədi şikəst olmağım idi. Onun yoxluğu ürəyimdə ağır yük oldu, o kədərin böyüklüyünü bu gün də, dünən olmuş hadisə kimi qəlbimə həkk eləmişəm.

Kərim 1986-cı ilin iyul ayında Qusara, yanıma gəldi, rəngi-ruhu özündə deyildi. Sanki, gözlərindəki həyat eşqi öləzimiş, sönmüş, soluxmuşdu. Həmişə qaynar bir adam olan Kərim, o gün əldən düşmüş yüz yaşlı bir qocanı mənə xatırlatdı. Varımdan yox oldum o gün. Bakıya gətirdim, bir müddət xəstəxanada müalicə olundu. Sonda həkimi mənə dedi ki, onu Moskvaya aparaq. Elə də oldu. Moskvada da dedilər ki, artıq gecdi, xəstəlik öz işini görüb. Və biz Bakıya qayıtdıq. 1986-cı il, dekabrın 28-də Kərimin ölüm xəbərini mənə verdilər. O, canını tapşıran məqamda ailə üzvlərinə vəsiyyət eləyib ki, mənim Zeynəddindən başqa güvəndiyim və yaxınım yoxdur, mənim yas və dəfn mərasimim onun dediyi kimi olmalıdır.





Həmin gün Kərimin meyidini Bakıdan Qusara gətizdirdim və Qusar şəhər qəbiristanlığında torpağa tapşırdıq, üstündən zaman keçəndən sonra anamı da Kərimin yanında dəfn elədim. Kərimin dəfn zamanı, məzarı önündə mitinq oldu. O mitinqdə Kərimin alim yoldaşları, Qusar rayon PK-nin birinci katibi Ramazan Bədirov və bir də mən danışdım.

**- Zeynəddin müəllim, eşitdiyimə görə Kərim müəllimin məzarını öz hesabına düzəltmisiniz, onun üçünü, yeddisini, qırxını və ilini də öz şəxsi vəsaitiniz hesabına vermisiniz.**

- O, mənim dostluq və qardaşlıq borcum idi. Onu etməyimi həm də əziz dostumun özü vəsiyyətində demişdi axı. Nə etmişəmsə halal xoşu olsun.

**- Zeynəddin müəllim, rəhmətlik Tofiq İsmayılovla olan münasibətlərinizdən danışardınız, Tofiqli günlərinizə qayıdardınız.**

- 1984-cü ildən internatın sahəsində yerləşən köhnə uşaq evinin 5 binası Tofiq İsmayılovun rəhbərlik etdiyi «Elmi-istehsal Birliyinin kosmik tədqiqatlar zavodu»nun sərəncamına verildi və orada onun «Xəzri» adlı filialı açıldı. Bir neçə il sonra, 1991-ci ilin əvvəllərində mənim razılığımı belə almayan Tofiq İsmayılov məni həmin filialın baş direktoru təyin etdi. Şübhəsiz ki, internatın direktoru vəzifəsində qalmaqla. Və bizim sonradan dostluğa çevrilən tanışlığımız da o vaxtdan başladı.

Sahədə olan binaların beşi də söküldü və yerində müasir qaydada, müəssisə üçün yararlı ola bilən bir şəkildə yenidən tikildi. Elə ilk tanışlıqdan Tofiq İsmayılovla aramızda narazılıqlar və mübahisələr də olmuşdur. Onu da deyim ki, dostlarımın bir çoxu ilə ilk görüşümüz elə mübahisə ilə başlayıb.

Mən işə başlamamışdan əvvəl Tofiq müəllimdən xahiş etmişdim ki, sökülən binaların yararlı olan tikinti materialları internata verilsin. O da etiraz etmədi. Mən də həmin tikinti materiallarından internat üçün yardımçı təsərrüfat binaları – qoyunlar və mal-qaralar üçün tövlələr, arıxana, anbar və uzaqda yaşayan işçilər üçün yaşayış evi tikdirdim. Özü də dediklərim tikintiləri iməcilik yolu ilə başa çatdırdım və bu yöndə 1 qəpik olsun belə dövlət vəsaiti sərf olunmadı. Onu da deyim ki, mən direktor kimi işə başlayanda bir neçə artıq olan ştatları ixtisara saldım. Onların arasında Tofiq müəllimin qohumlarından və ona yaxın olanlar da vardı. Ancaq o apardığım ixtisarların qanuni olduğunu görüb mənə razılığını bildirdi.

1991-ci ilin payızında Tofiq İsmayılovun anası vəfat etdi. Mən onun dəfnində də, üçündə də iştirak etdim. Tofiq müəllim anasına verdiyi üç məclisində mənə dedi ki, sabah Ağdama gedəcək və ordan gələn kimi, mənim özümə şəxsi maşın bağışlayacaq, eləcə də filial üçün xidməti avtomaşın verəcək.

Təəssüflər olsun ki, Tofiq müəllim Ağdamda vertalyotla havaya qalxarkən Azərbaycanımızın bir çox qeyrətli oğulları ilə düşmənlərimiz tərəfindən güllə-baran olundular, ürəklərində min bir arzular dünyalarını dəyişdilər.

**- Deyin, kimlər evinizdə qonaq olub və kimləri təbiətin qoynunda, bulaq üstə qonaq eləmisiniz?**

- Mənim qonaqlarım saya gəlməzdi. Onları sadalasam uzun bir siyahı alınar. Ancaq bir neçəsinin adını çəkməsəm də olmaz. Təxminən 1964-cü ilin yay vaxtı idi. Azərbaycan Elmlər Akademiyasının prezidenti Zahid





Xəlilov, Azərbaycan Pedaqoji institutunun rektoru, professor Haşım Ağayev, yaxın dostum professor Kərim Kərimov, MK-nın sabiq katibi Qəzənfər Cəfərli ailələri ilə birlikdə evimin qonaqları idi. Bir gün, ailə üzvlərimiz evdə qaldı, biz kişilər isə Qusarın «Qazanbulaq» deyilən axarlı-baxarlı yerinə getdik. Bulağın suyundan içib, əl-üzümüzü yuduq. Daha sonra kabab tədarükünə başladım. Gördüm ki, hərə bir tərəfə çəkilib, heç kim mənə kömək etmək fikirində deyil.

Ona görə üzümü onlara tutub, yarıciddi, yarızarafat dedim ki, bəyəm mən Sizin atanızın nökəriyəm, burda hamımız bərabərik, ayağa durun, hərəniz bir işin qulpundan yapışın. Onlar da gülə-gülə ayağa durub bu işdə hər biri mənə köməkçi oldu. Elə ki, kabab hazır oldu, baxdıq gördük ki, boşqab götürməmişik. Dedilər bəs necə olacaq. Dedim narahat olmayın, hər şeyin bir çarəsi var. Bu sözü deməyimlə də maşınımın disk qapaqlarının dördünü də çıxardıb bulaq suyunda yaxşı-yaxşı yuyub-quruladım, sonra hazır olan kababları onların içinə çəkdim. Mənim bu «kəşfim» həm təəccübə, həm də gülüşə səbəb oldu. Zahid Xəlilov da qayıdıb dedi ki, belə bir şey bizim heç birimizin ağlına gəlməzdi.

1964-cü ildə Bəxtiyar Vahabzadəni də «Qazanbulaq»da qonaq eləmişəm, hər ikimiz təbiətin gözəlliyini seyr edib onun sehrinə düşmüşük. O gün yaxşı-yaxşı yeyib içdik, o da bir, iki bənd şeir dedi, mən də. Sonra qayıdıb bunu da dedi Bəxtiyar müəllim: - «şair olub bu füsunkar gözəlliyin qoynunda şeir deməmək böyük günah olardı.»

Şair bu sözündən sonra yenə bir-iki bənd şeir dedi. Onu da əlavə etdi ki, yazdığı şeirləri yaddaşında az

qaldığı üçün çox şeir deyə bilmir. O gün mən də bir bənd dedim:

*Dörd yanımız allı çiçək,*
*Badələri doldur içək.*
*Hərəmiz öz yarımızın,*
*Dağlarda da nazın çəkək.*

**- Zeynəddin müəllim, bəlkə deyəsiniz, hansı alimimizin və yaradıcı adamların ölümü sizi daha çox kədərləndirib?**

- Ən yaxın dostum, professor Kərim Kərimovun, akademiklərdən – Heydər Hüseynovun, Zahid Xəlilovun, Ziya Bünyadovun, professorlardan – Haşım Ağayevin, Xəlil Əlmirzəyevin, Qəzənfər Cəfərlinin, İbrahim Qorçubaşovun, Əli Əliyevin, daha sonra söz adamlarından – Səməd Vurğunun, Şıxəli Qurbanovun, Bəxtiyar Vahabzadənin və bir də Məmməd Arazın ölümləri məni varımdan yox eləyib. Allah hamısına rəhmət eləsin. Əslində adlarını çəkdiyim simalar dünyalarını cismən dəyişib, ruhən onlar bizimlədi. Onların qoyduğu böyük irs onları əbədiyaşar eləyib. Onların həyatda qoyduqları iz silinməz izlərdir.

**- Bildiyimə görə ov həvəskarı olmusunuz, bəlkə bu yöndə söhbətləşək?**

- Cavan vaxtlarımda ov həvəskarı olmuşam, Qusarın göylərə meydan oxuyan dağlarında, qayalıqlarında, meşələrində ov ovlayıb, quş quşlamağım çox olubdur.

1982-ci ilin dekabrın 31-də, bir neçə dost-tanışla «Qazanbulaq» tərəfə üz tutduq, «Villis» markalı maşınla dolanbac yollar keçib, nəzərdə tutduğumuz yerə çatıb maşından düşdük. Mən Dunay adlı tulamı da götürmüşdüm. Biz maşından düşər-düşməz sürətlə, özü də lopa-





lopa qar yağmağa başladı. Yüngülvari quş ovladıq, sonra odun yığıb, tonqal yandırıb başında cəm olmaq istədik. Yaman şaxta idi, soyuq adamın iliyinə kimi işləyirdi. Artıq gecə düşmüşdü, maşın da ki, yerində elə durmuşdu ki, nə illah etsək də onu yerindən tərpədə bilmirdik. Ona görə də yığdığımız odunları dairəvi yandırdıq, özümüz də dairənin ortasında oturduq ki, soyuq bizi əldən salmasın. Səhəri dirigözlü açdıq. Səhər açılan kimi üz tutduq bizim Hil kəndinə. Təxminən 17-18km gedəndən sonra kəndə çatdıq. Üst-başımız, sir-sifətimiz hisli olduğundan dost-tanış, qohum-əqraba da bizi tanıya bilmirdi. Tanıyanlar da bu halımıza təəccüblənirdilər. Sonra kənddən göndərdiyimiz bir traktorla maşını kəndə gətizdirə bildik.

Bir dəfə Bakıda olarkən dostum Kərimin qızı paltosunun yaxalığı üçün məndən tülkü dərisi istədi və mən də ona söz verdim. Qusara qayıdandan sonra bir neçə nəfərlə ova getdik və mən onlardan xahiş etdim ki, tülkü kimə rast gəlsə, ancaq ayaqlarından vursunlar, dərisini korlamasınlar. Onlar da dedilər ki, bu çox müşkül məsələdir. Ovda biz bir-birimizdən ayrıldıq. Mən bir dalda yer qaralayıb oturdum və bir müddət sonra gördüm ki, bir tülkü qarşı tərəfimdən qaça-qaça keçir. Tüfəngi üzümə tütdum, tülkü bir maneəni atlanıb keçmək istərkən arxa ayaqlarını nişan aldım və gülləm hədəfə dəydi. Biz tülkünü diri tutduq. Yoldaşlarım mənim ovçuluq məharətimi tərifləyəndə mən də bir xeyli qürrələndim.

Bir dəfə də ovda olarkən bir ceyranın yazıq-yazıq mənə baxa-baxa qaçdığnı gördüm, istədim ona atəş açım, ancaq iki səbəbdən ata bilmədim, birinci onun mənə yazıq-yazıq baxması oldusa, ikinci səbəb isə rəhmətlik Səməd Vurğunun yazdığı «Ceyran» şeirinin misralarının

yadıma düşməsi oldu: - «Qıyma öz qanına boyana ceyran...» O da yadımdadır ki, ceyran uzaqlaşandan sonra bir daha dönüb mənə baxdı. Sanki bununla da mənə öz minnətdarlığını bildirmək istəyirdi. Mən də ürəyimdə, səni Səməd Vurğunun şeirinə bağışladım, dedim.



# Ürək qocalmayanda

Arif olanın sevgili-cananı Vətəndir,
Həm namusu, həm qeyrəti, vicdanı Vətəndir.

*Nacı Mail*

Biz Azərbaycan deyəndə Qafqazı görürük,
Qafqaz dedikdə həmişə günəşi görürük.

*M.Tank. Belarus şairi*

Hər xalqın dili o xalqın ruhudur.

*B.Vahabzadə*

Vətənim qalsa əgər cəhlidə yansın bu tənim.

*Sona xanım Qarayeva*

Ana vətən – ulu Tanrı qucağı.

*M.Ə.Rəsulzadə*

Ey haqq, yaşa! Ey sevgili millət, yaşa! Var ol!

*Tofiq Fikrət*

İbadət – xalqa xidmət etməkdir.

*Cəlaləddin Rumi*

Əgər insan ancaq özü üçün işləsə bəlkə də məşhur alim, dahi mütəfəkkir, böyük şair ola bilər, lakin o heç vaxt həqiqətən kamil və həqiqətən böyük insan ola bilməz.

*K.Marks*

Yer üzündə mövcud olan bütün sərvətlər qadına olan məhəbbətin gücü ilə yaranmışdır.

M.Qorki



# YEDDİNCİ SÖHBƏT

Müəllim adı dünyada ən yüksək addır.

**Heydər Əliyev**

Adamları öyrətmək, adamları öyrənməkdən asandır.

**Laroşfuko – filosof**

**- Zeynəddin müəllim, xahiş edirəm ki, Sizə verəcəyim bir neçə suala qısa cavab verəsiniz.**

- Qardaş, Sizi eşidirəm.

**- Bütün hallarda, bütün məqamlarda azadlıq əsrlikdən haqlı olaraq üstün tutulub. Ancaq təkcə bir haldan başqa. Sizcə, o nədir?**

- Əlbətdə ki, məhəbbətin əsiri olmaq!

Mən özüm Şərqiyyə ilə ailə həyatı qurduğum bu 25-26 ildə onun sehrindən, əsirliyindən qutarmır və bu əsirliyimə də güvənirəm.

**- Sizcə müqəddəs olan kimlər və nələrdir?**

- Məhəbbət, Allah, valideynlər, ailə və bir də Vətən.

**- Sizcə qocaları və gəncləri necə dəyərləndirmək daha düz olardı?**

- Əlbətdə, qocaları keçmişinə, gəncləri isə bugünkü işinə görə.

**- Elə bilirəm ki, bəzən kimlə bostan əkdiyinizi də bilməmisiniz.**

- Hər kəsin həyatında belə hallar olub. Bir də insanlara inanmaq vacibdi. Düzdür inamımızı doğrultmayanlar da yox deyildi. Ancaq biz əqidəmizə sadiq olmalı, öz yolumuzla getməliyik. Şair Şuruyə demişkən:

Bu fələklə nərd atasan
Şeş-beş verən zərin ola.

**- Zeynəddin müəllim, həyatda nəyin qədrini bilməmisiniz?**

- Gəncliyin, cavanlığın.

**- İşinizdə yorulduğunuz, yaxud bezdiyiniz vaxtlar olub?**

- Yorulduğum vaxtlar olsa da işimdə bezikdiyim heç vaxt olmayıb, işləmək isə mənim yaşamağım olub.

**- Sizcə adamı həm ucaldan, həm də çirkaba salan nədir?**

- Söz və əməl!

**- Bəlkə deyəsiniz, həyata ağlının gözü ilə baxanlar çoxdur, yoxsa qarnının?**

- Elə bilirəm ki, qarnının gözü ilə baxanlar daha çoxdur.

**- Həyatda sizin üçün vacib olan nədir?**

- Kişi kimi yaşamaq və dünyamızı imanla dəyişmək.

**- Bəzən suda boğulanı xilas edən adam öz həyatını da təhlükədə qoymuş olur. Sizin həyatınızda buna bənzər hadisələr olubmu?**

- Olub, çox olub, ancaq açıqlamağı lüzum bilmirəm.

**- Rəhbərlik etdiyiniz kollektivdə sizə etiraz edənlər olubdur? Əgər olubsa siz buna necə baxmısınız?**

- Çox təəssüf ki, rəhbərlik etdiyim kollektivdə heç kim mənə nə irad tutub, nə də etiraz edib. Ancaq olmuş olsaydı mən ona yaxşı baxardım. Axı, səhfsiz rəhbər işçi olmur. Eləcə də hamının səhvi olur. Şübhəsiz ki, kimlərsə mənə də irad tutmaq fikirində olub, ancaq onu ya çəkinib deməyiblər, ya da ki, hansı səbəbdənsə. Onu da deyim ki, mən özüm tabeçiliyində olduğum bir çox rəhbər işçilərə çəkinmədən cavab qaytarmışam, onların





səhv göstərişlərinə iradlarımı və narazılığımı bildirmişəm. Bu da bəzən mənə uğur gətirsə də, bir çox hallarda əngəllər törədib.

**- Zeynəddin müəllim, ən çox xoşladığınız və sizin əqidənizə uyğun olan fikir, yaxud ibrətamiz söz hansıdır?**

- Sualınıza fikirləşmədən, götür-qoy etmədən cavab verirəm. Ürəyimə yatan ibrətamiz söz və fikir çoxdur. Ancaq onların içərisində ürəyimcə, əqidəmcə daha çox xoş olan Cəlaləddin Ruminin belə bir fikridir: «Ən böyük ibadət xalqa xidmət etməkdir.»

**- Zeynəddin müəllim, muğamlarımıza necə tərif verərdiniz?**

- Muğamlarımız ulu keçmişimizin yadigarı xalçalarımıza bənzəyir, min bir çalarlı, min bir rəngli, min bir çeşidli, əriş-arxaşlı, əlvan naxışlı, könül oxşayan, duyğuları dilə gətirən xalçalarımıza.

**Sizcə bədbəxt adam kimdir?**

- Bədbəxt o adamdır ki, həyatda onun üçün müqəddəs olan heç nə yoxdur.

**- Nə vaxtsa gördüyünüz, yaxud görmədiyiniz işdə özünüzü günahkar bilirsiniz?**

- Sizə çox qısa cavab vermək istərdim. Heç bir günah etməmək, yalnız, Allahımıza və mələklərə məxsusdur.

**- Zeynəddin müəllim, elə bilirəm ki, yaltaqlığı bacarmayanların yolu ağrı-acılı və daş-kəsəkli olur, elə deyilmi?**

- Elədi. Ancaq etiraf etmək lazımdır ki, onu bacarmayanlar ləyaqətli bir ömür – kişi ömrü, əsil insan ömrü yaşayır.

**- Sizə görə ən dəyərli sevinc hansıdır?**

- İlk öncə başqasının sevincinə ürəkdən şərik olmaq.

**- Sizcə ilahi nemətlərin ən dəyərlisi nədir?**

- Birmənalı şəkildə cavab verirəm ki, ilahi nemətlərin ən dəyərlisi azadlıq, məhəbbət, səmimiyyət sağlamlıq və işgüzarlıqdı.

**- Həyatda Sizin üçün vacib olan nədir?**

- Məqsədyönlü fəaliyyət.

Sizin sualınıza cavab baxımından yadıma dünyamızdan nakam getmiş şairimiz Vaqif İbrahimin bu sözləri düşdü:

*Vaxt var ikən,*
*Elə yaşa, elə çalış.*
*Bir gün sən olmayanda,*
*Hər kəsə aydın görünsün*
*Yerində qalan boşluq.*

**- Hörmətli dost, bəlkə deyəsiniz, bu vaxta kimi Şeksprin qəhrəmanı Hamlet kimi «ölüm ya olum» seçimi qarşısında qalmamısınız ki?**

- O qədər!

**- Sizcə ana dilini bilməyənlər kimlərdi?**

- Ana qədrini bilməyənlər!

**- Zeynəddin müəllim, sizcə kişilərin sayı çoxdur, yoxsa papaqların?**

- Qardaş, elə bilirəm ki, bu yöndə ikimiz də eyni fikirdə olarıq.

**- Sizinlə razıyam. Onu da deyim ki, bu yöndə yadıma Davud Ordubadlının bir bənd şeiri düşdü:**

***Səni gördüm bir namərdin başında,***
***Mərd ərləri xatırladım, ay papaq.***
***Nəbilərin torpağında, daşında,***
***Yaraşığı günəş papaq, ay papaq!***





- Elbrus, qardaşım, o baxımdan mənim də yadıma şeirləri ilə qəlbimizi ovsunlayan mərhum şairimiz Məmməd Arazdan bir bənd şeir düşdü:

*Çiçəyindən alağı çox,*
*Kişisindən papağı çox.*
*Köpəyindən yalağı çox,*
*Bu üzün olmaya, dünya.*

**- Zeynəddin müəllim, neçə gündü söhbətləşirik, dərdləşirik, sanki mən müəllim olmuşam, siz tələbə. Elə hey suallar verirəm və məni razı salan cavablar alıram. Axı, bütün bu sorğu-suallar Sizin həyatınıza, ömür yolunuza işıq salmağa xidmət edir. Şübhəsiz, bunu siz də gözəl bilirsiniz. Şair demişkən:**

*Sormayın bu qədər suallar nədir,*
*Hər sual bir cavab həsrətindədir.*

Bir də Şahmar Ələkbərzadə demişkən:

*Çoxdandır burnunun ucu göynəyir,*
*Şirin söhbətindən, sözündən ötrü.*
*Söhbət bəhanədir, vallah ay dədə,*
*Özüm darıxmışam, özündən ötrü.*

**- Zeynəddin müəllim, deyin, həmişə kimlərin arasında olmaq istərdiniz?**

- Qardaş, sualınıza Səməd Vurğunun iki misrası ilə cavab vermək istərdim:

*Qananlar məclisindən keç ki, feyz al sözlə-söhbətdən,*
*Fəqət qanmazlar ağzında düşər loğman da qiymətdən.*

**- Bəs arxalıya arxa duran, arxasızı yerə vuran, zəri zərgərə verməyən bu dünyamızdan umacağınız? Mümkündürsə bir sözlə cavab verərdiniz.**

- Unudulmamağım.

**- Zeynəddin müəllim, bütün suallara səmimi cavab verməyinizə əmin olduğumdan, bu sualıma da xas cavab verəcəyinizə inanıram. Deyin, sizdə pambıq dolu açılmamış sandıq varmı?**

- Var, ancaq o sandığın ağzına qırx qıfıl vurub açarını Qusarçaya atmışam.

**- Zeynəddin müəllim, çağdaş zəmanəmizdə müxtəlif partiyalar vardı, siz onların hansının tərəfindəsiniz?**

- Canqardaş, xeyirlə şər həmişə mübarizədə olub və mən də həmişə xeyirin tərəfində olmuşam.

**- Başqalarına nə kimi arzunuz var?**

- Birlik və xoşbəxtlik.

**- Zeynəddin daxa, sizcə tariximizin hələ də cavabsız qalan sualı hansıdır?**

- Sizin sualınıza birmənalı şəkildə deyə bilərəm ki, o, dünyamızda ədalətin nə vaxt bərqərar olmasıdır. Bəşər övladı ömrüboyu ədalət sorağında olub «ədalət heyy» deyib, xeyirin şər üzərində qələbəsini, təntənəsini görməyə can atıb. Təəssüflər olsun ki, bu, istək və arzu olaraq hələ də milyonların ürəyində qalıb, özünə yurd-yuva eləyib.?

**- Heç vaxt bağışlaya bilmədiyiniz kimsə var?**

- Var, əlbətdə var, ancaq açıqlamağı lüzum bilmirəm.

**- Etibarsız adamlarla çoxmu rastlaşmısınız?**

- Olub, çox olub, hətta onların say-hesabını da unutmuşam. Onları xatırlamaq mənə həmişə əzab verib.





**- Zeynəddin müəllim, Sizi həyatda nələr və kimlər hövsələdən çıxardıb?**

- Bir çox insanların ehtiyac içində yaşaması, cavanların işsiz qalması, torpaqlarımızın hələ də işğal altında olması, bəzi adamların layiq olmadığı vəzifə kürsüsündə mənəm-mənəmliyi, bəzi ləyaqətli adamların ailəsini dolandırmaq məcburiyyətində olduğuna görə elələrinin qapısında buyuruqçu olması, bəzi kişilərin verdiyi sözə sahiblik etməməsi, kimlərinsə haqq-say itirməsi, xəyanət etməsi, övladların valideynlərinə qarşı etinasız olması və sair və ilaxır, bütün bunlar məni həm hövsələdən çıxardır, həm də günün çox hissəsini - ovqatımı təlx edir, səhhətimi korlayır.

Bir də məni hövsələdən çıxardan, dünən də, bu gün də ayaq tutub yeriyən bir hal da var. Yaxşısı budur ki, onu Məmməd Arazın bir misrası ilə cavablandırım: «Gedir yal davası, sümük davası».

Elə bilirəm ki, o misranın tərəfimdən açıqlanmasına da ehtiyac yoxdur.

**- Sizi bezdirənlər olubmu?**

- Olub. Öz xeyirini güdən nadan adamların yerli-yersiz müraciətlərindən, münasibətlərindən, vəzifə tutmaq xatirinə rüşvət verməyə cəhd edənlərdən bezikdiyim anların ağrısını sanki indi də çəkirəm.

**- Xalq musiqisinə münasibətinizi bilmək maraqlı olardı.**

- Ümumiyyətlə, xalqın adı ilə bağlı olan hər şey gözəl və dəyərlidir. O da ki, ola ruhumuzun qidası musiqi. Xalq musiqisinə xor baxanın gözlərinə qara su gələr. Axı, musiqi hər şeydən öncə ana laylamızdı.

Hər şeyin öz xiridarı, öz aşiqi var. Ola bilsin ki, mənə xoş gələn hansısa musiqi əsəri başqası üçün yad olsun,

ögey olsun. Yaxud, əksinə. Bəzən təəssüf hissi də keçirirəm. Əvvəllər daha çox müğənniləri dinləyərdilər, indisə çox halda onlara baxırıq.

Musiqisiz həyat dumanlı-çiskinli bir günə bənzər. Musiqi ən böyük mənəvi qidadı. Yaşamaq üçün yeməyə möhtac olduğumuz kimi musiqiyə də ehtiyacımız böyükdür. Bir də insanı başqa canlılardan fərqləndirən onun hisslər aləmi olduğu kimi, musiqi duyumu da əsas meyar sayılır. Qaldı mənim hansı musiqini sevməyimə, onu da deyim ki, könlümü oxşayan qəlbimi ehtizaza gətirən, məni düşündürən, məni əyləndirən hər bir musiqi mənə doğmadır. Xüsusən muğamlarımız və xalq mahnılarımız mənim qəlbimin məlhəmi, ruhumun aynasıdır. O kəslərə yazığım gəlir ki, onların qəlbində musiqi xoş duyğular yaratmır.

**- Nə vaxtsa kimdənsə, nədənsə qorxduğunuz, yaxud qarşısında acizləşdiyiniz məqamlar necə, olub?**

- Sualınıza Şeyx Şamilin bir fikri ilə cavab vermək istərdim: «Zəiflik və qorxaqlıq hələ heç kimi xilas etməyib».

**- Bəlkə deyəsiniz nələrdən doymamısınız?**

- İnsan nədən doysa da həyatdan, yaşamaqdan heç vaxt doymur. Mən də elə. Bir də həyat yoldaşım Şərqiyyə xanımla birgə həyatımızdan, mənə sədaqətli olan dostlarımın, qohumlarımın, tanışlarımın xoş münasibətlərindən. Doymamışam Azərbaycanımızdan, ana yurdum və ana beşiyim olan Hilimdən, Qusarımdan, onun könül oxşayan mənzərələrindən. Doymamışam ağıllı adamların söz-söhbətindən...



# Zeynəddinin ömür çırağı

Neçə yaşa çatsan da, ilk növbədə anadan olduğun yerlər, ordakı insanlar sənə hər şeydən əzizdir.

*Kamran Hüseynov*

Bu ermənilərin başında xruş qurdu var. Qurdlar tərpənəndə ermənilər də tərpənirlər, yeni-yeni ərazi iddiası irəli sürürlər.

*Məmməd İskəndərov*

Mənim əsas səhvim ondadır ki, Qriqoryana, Markaryana göz yummuşam... onlara etibar etmişəm.

*M.C.Bağırov*

Müsəlman öz ruhunun xilası naminə su quyusu qazır. Yaxşı olar ki, rus da özündən sonra dünyada bu sayaq xeyirxah bir iz, əməl qoyub gedəydi.

*A.P.Çexov*

Bu qədər çox günah ilə yer üzündə gəzə biliriksə, bundan böyük kəramət olurmu.

*Ö.Ş.Nəqşibənd*

Həyat gözəl məktəbdir. Əgər biz onun ötən günlərindən lazımi dərs almış olsaq, gələcəkdə özümüzü çox təhlükələrdən xilas edib, böyük, xeyirli işlər görə bilərik.

*Nurəddin Babayev*



## SƏKKİZİNCİ SÖHBƏT

Qadınların ən yaxşısı baxdıqca səni sevindirən, sənin səsini eşidən, sənin şərəfini, namusunu qoruyan qadındır.

**Məhəmməd peyğəmbər (ə.s.)**

Qonağı gəlməyən böyük evlər yıxılsa yaxşıdır.

**Dədə Qorqud**

**- Zeynəddin müəllim, məhəbbət barədə nə deyə bilərsiniz?**

- Bütün mənəvi dəyərlərimizin önündə məhəbbət dayanır. Həyatı məhəbbətsiz dərk etmək olmaz. Bütün insani keyfiyyətlərin, bütün uğurların fövqündə dayanan məhəbbətdir, eşqdir. Böyük söz ustası Şeyx Nizami «Eşqdir mehrabı uca göylərin» misrası ilə nəinki yeri, hətta bütün planetləri, qalaktikamızı, səmanın belə, məhəbbətə xidmət etdiyini və varlıqlarını məhəbbət anlamında yaşatdıqlarını deyir. Mehrab məsciddə elə bir yerdir ki, ibadətə oturanlar üzlərini qibləyə çevirərkən mütləq üzü həmin mehraba tərəf olur. Bildiyiniz kimi dünya cahangirləri, dünyaya meydan oxuyan sərkərdələr belə məhəbbət qarşısında həm qüdrətli, həm də aciz olub. Məhəbbətsiz yaranan bir şey heç vaxt ürəkaçan olmur, heç vaxt gözəl olmur. olsa da ömrü qısa və gözaldadan olur. O şeyin ki, mayasında halallıqla bərabər məhəbbət yoxdur, demək o şey insanlığa, bəşər övladına xidmət etmir.

Məhəbbətlə yaranan hər şey əbədi və yaddançıxmazdır. Sizin bu sualınızın cavabını da bir rəvayətlə sona yetirirəm.

«Bir kasıb kişi oğlunu evləndirmək istəyirmiş. Amma onun evi ikimərtəbəli şəhər imarətlərinin cərgəsində daxmaya oxşayırmış. Belə evi-eşiyi olan kişinin də oğluna kim qız verərdi?

Kişi gecə-gündüzə salır, çaylardan xurcun-xurcun ağlı-qaralı daşlar daşıyır, tığ vurur. Onun-bunun küllüyündən kül yığıb toplayır, öz qapısında yeri iki bel ağzı qazır, qara torpağı qırağa atır, gilliyə çıxanda əl saxlayır, axtardığının birini də tapdığına sevinir. Sonra meşəyə ayaq açır, hər gün çiynində bir tir gətirir, qabığını alıb çardağın altına yığır ki, yağış vurub çürütməsin, gün döyüb çatlatmasın. Axırda işini heç kimin bəyənmədiyi bir usta tapır ki, onun haqqını-muzdunu verməyə gücü çatsın.

Və ustaya deyir:

- Mənə birmərtəbəli ev tikərsən.

Usta da «kim nə verər-verər»ə işləyən adam olur. Ölçür, biçir, bünövrə qazır, gilə kül qatır, qarışdırıb palçıq tutur, kişinin ağlı-qaralı daşlarını hamarlaya-hamarlaya bir iparası hörür, baxır ki, minagərdən bir mələk gəlir, şəvə hörükləri topuqlarını döyür, hər yanağı bir lalə, dodaqları qızılgül ləçəyi, buxağı Şahdağın qarı, boynu şirmayı, ala gözlərinin hər çaxımında bir can itər, vüsal həsrətində qərq olar. Elə gözəldir ki, küçə ondan nur alıb işıqlanır, hansı ağacın kölgəsindən keçirsə yarpaqlar şölə saçır, havanı da müşk-ənbər nəfəsi tutub, doyurub. Adam bircə çəkimi sinəsinə sorub onun ətri ilə bütün ömrü boyu yaşamaq istər, ürəkdən «oxqay» deyər,





belə bir bəxtiyarlığa qoşulmaqdan savayı dünyada heç bir arzusu olmaz.

Bu mələk nədənsə bir az ayaq saxlayır, hörgüyə baxır. Usta onun gözlərində heyrət görür, məstanə təbəssümündə vurğunluq duyur, amma inanmır ki, onun heç kimin bəyənmədiyi işində bir yaxşılıq olsun. O mələk ötəndən sonra kənara çəkilir, hörgüyə göz qoyur, görür ki, ağlı-qaralı daşlar təsbeh muncuqları təki elə bil sapa düzülüb, özü də ağlar bir cərgədə, qaralar da başqa sırada.

Usta evin küçə tərəfdəki divarını yarımçıq qoyur, ön tərəfdəkini hörməyə başlayır ki, buranı da qaldırsın, o mələk qayıdıb keçəndə onu bir də görə bilsin.

Usta onun getdiyi yola baxa-baxa gah palçıq daşıyıb təknəyə yığır, gah ayaqaltının üstünü daşla doldurub ora çıxır ki, gündə yüz dəfə görsə az hesab elədiyi camala bir də nəzər salsın.

Qız yenə də sallana-sallana geri dönür, küçədə ağacların kölgəsində elə bir oğlan qalmır ki, çevrilib onun arxasınca boylanmasın. Lakin o qız təkcə bu usta tərəfə mehriban göz yetirir, gülümsünüb keçir.

Usta hər səhər hamıdan qabaq durur, tezdən işə elə tez başlayır ki, ev yiyəsi durub görür o, hər dəm-dəstgahı hazırlayıb, yığıb yanına, özü də bir yerə azı on daş qoyub götürür, heç birinin yatımı-tutumu xoşuna gəlmir, öz seçməsi özünü razı salanacan əlləşir.

Usta görür ki, qız həmin sallanışla bir də gəlir. O, dayanıb qıza məftunluqla baxır, qız isə yenə də məhrəm nəzərlərini dolandırır, gülümsünüb ötür.

Usta hardan biləydi ki, bu qızın toyuna az qalıb, o, bir başqasına nişanlıdır, hər gün zərgər yanına gedib gəlir ki, barmağına taxılan nişan üzüyünün əlindən düşəndə

sınmış firuzə qaşını düzəltdirsin, usta da onun işini özü qəsdən ləng görür ki, o camala doyunca baxsın.

Bənna, o qıza vurulur. O qızın eşqilə əlləşir, divarı necə hördüyündən, binanı necə ucaltdığından xəbəri olmur.

Bir gün şəhərin adlı-sanlı, bunu öz yanlarına fəhləliyə də götürməyən tərifli ustalarının da yığışıb o qız keçən küçədə boy-boya verib onun tikdiyi binaya altdan-yuxarı heyrətlə baxdıqlarını görür, elə bilir əlindən çıxan sarsaq işə tamaşa eləyirlər, onu danlayacaqlar, onu biabır eləyəcəklər, döyəcəklər, bacardığın işin qulpundan yapış deyəcəklər. Lakin baxır ki, onların da baxışlarında o qızın gözlərindəki heyrət var, məftunluq var, onların dodaqlarında o mələyin çöhrəsini bəzəyən təbəssüm var.

Bənna binanın son daşını qoyub yerə enir, həmin küçəyə gəlir, görür ki, tikdiyi binanın ayna qapıları tağbəndlidir, damı qülləlidir, minarəlidir, divarlarda ağ göllər və yaşıllıqlar qərar tutub. Ağ bulaqlar yaşıllıqlardan keçib ağ göllərə tökülür».

Bax, belə bir gözəl binanın inşası məhəbbətin gücünə yaranmışdı, ona görə də ürəkaçan, könül oxşayan idi.

**- Daxa, deyin, hamıdan yaxşı kimi tanıyırsınız və Sizi hamıdan tən-dürüst tanıyan kimdir?**

- Əlbətdə, hamıdan yaxşı, hamıdan düz tanıdığım, xasiyyətinə, dünya görüşünə, əqidəsinə, sevinc və kədərinə, həyata baxışlarına, maraq dünyasına, zövqünə, istək və arzularına böyük əminliklə bələd olduğum ömür-gün yoldaşım Şərqiyyə xanımdır. Məni yaxından, məni olduğum kimi tanıyan, zaman-zaman bütün ağrı-acılarımı çəkən, məni olduğum kimi tanıyıb dəyərləndirən Şərqiyyə xanımdır. Bizim xoş və çətin günlərimiz birlikdə olub,





həmişə bir-birimizə arxa-dayaq olmuşuq. Həyatda məni dost-tanış yanında başıuca edən, abır-həyamı gözləyən, evimi qonaqlı-qaralı edən də Şərqiyyə xanım olub. Mən vəzifədə olanda da, olmayanda da münasibətlərimiz dəyişməyib. Ona görə də böyük inamla deyirəm ki, biz bir-birimizi tamamlayırıq, biz bir-birimizin əyarı və məhək daşıyıq. Belə bir münasibətimizin ömrümüz boyu da davam edəcəyinə inamlıyam. Bu sözləri deyərkən «Kitabi-Dədə Qorqud»dan «...Dəli Domrul boyu» yadıma düşdü. Boyda göstərilir ki, Əzrayıl Dəli Domrula deyir ki, mən sənin canını almalıyam, ancaq canının yerinə can tapsan sağ qalarsan. Dəli Domrul atasına, anasına üz tutur, onları məsələdən agah edir, ancaq heç biri oğluna görə canlarından keçmir. Əli valideynlərindən üzülən Domrul halallaşmaq üçün arvadının yanına gəlib onu məsələdən agah edir, ona öz vəsiyyətini söyləyir, işin nə yerdə olduğunu bilən arvadı da ona deyir:

*Nə deyirsən, nə ötürsən,*
*Göz açaraq gördüyüm!*
*Könül verib sevdiyim!*
*Qoç igidim, şah igidim...*
*Qarşı yatan uca dağları*
*Səndən sonra mən neylərəm?*
*Yaylayarsam, gorum olsun!*
*Soyuq-soyuq sularını mən içərsəm,*
*mənim qanım olsun!*
*Qızılını-gümüşünü xərcləsəm,*
*kəfənim olsun...*
*Can nədir ki, sənə qıya bilməmişlər?*
*Yer şahid olsun, göy şahid olsun,*

*Qüdrətli tanrı şahid olsun.*
*Mənim canım sənin canına qurban olsun!*

Daha sonra boyda göstərilir ki, Allah qadının ərinə olan böyük sevgisinin mükafatı kimi onlara 140 il ömr verir və Domrulun can əvəzinə isə Əzrayıl Allahın əmri ilə onun atasının, anasının canlarını alır.

O baxımdan mən də inanıram ki, Allah bizim məhəbbətimizi də uzun ömürlü və yaşarlı edəcək.

**- Zeynəddin müəllim, deyin həyata bir də yenidən gəlmiş olsaydınız onu necə yaşayardınız?**

- Dostum Elbrus, mən bu günümə də, keçmişimə də ehtiramla baxıram. Onu deyim ki, keçən aylarım, illərim əyri-əskiynən, sevinci və kədəriynən mənə doğmadı, mənim həyatımdı, ömrümdü. Siz demişkən elə bir hal olmuş olsaydı bu vaxta kimi həyatımı necə yaşamışdımsa, həmin həyatı olduğu kimi yenidən elə də yaşayardım. Onu da deyim ki, keçmişim mənim cavanlığımdı, çılğınlığımdır, bu günümsə ahıllığım, yəni ömrümün kamillik dövrü, kamillik çağıdı. Ona görə də bu günümü keçmişimə dəyişmərəm. Bir də onu da Sizə bildirirəm ki, yenidən keçmişimə qayıtsaydım, yenə də könül həmdəmim, ömür-gün yoldaşım, sevib-seçdiyim Şərqiyyə xanım olardı.

**- Bəlkə deyəsiniz, ağladığınız məqamlar olubdur?**

- Dostlarımı, doğmalarımı itirəndə için-için ağladığım az olmayıb. Zəlimxan Yaqub demişkə:

*Üzdən ağladığım yadıma gəlmir,*
*Ağlasam, göz yaşım ürəkdən gəlib.*
*Sevgim də, sözüm də, məhəbbətim də,*
*Nə varsa beşikdən, bələkdən gəlib.*







Soldan Məhəmməd Eldarov, Zeynəddin Çələbov, Məmməd Aslan və Qəmbər Bəybalayev



Soldan Munis bəy, Ramiz Qusarçaylı, Z.Çələbov, Məmməd Aslan, Qəmbər Bəybalayev, Məhəmməd Eldarov və Hüseyn







Şərqiyyə xanım atası Rəcəb Qayıtmazovla



Şərqiyyə xanım və qardaşı qızı Klara



Soldan Zeynəddin çələbov, Məmməd Aslan, Qəmbər Bəybalayev və Məhəmməd Eldarov







Z.Çələbov, Şərqiyyə xanım, Nizami Rüstəmov və onun ailəsi



Z.Çələbov və Şərqiyyə xanım doğmaları arasında



Z.Çələbov: - Hər gülün öz ətri var



Şərqiyyə xanım Çələbova







Şərqiyyə xanım və Mətanət İsgəndərli



Z.Çələbov, Şərqiyyə xanım və bacısı Elyana xanım ailə üzvləri arasında



Şərqiyyə xanım, bacıları Simnarə İlyasova və Sveta Əliyeva



Z.Çələbov və
Şərqiyyə xanım



Z.Çələbov və dostu
Səfər Bağırov





**- Həyatda elə insan olur ki, sən öz ömür yolunu o insanın varlığı olmadan təsəvvür edə bilmirsən, sənə elə gəlir ki, ağlın kəsəndən onu tanıyırsan. Bəs, sizin üçün elə doğma insan kimdir?**

- Həyatda məni yaşadan, mənə təsəlli olan, hər ağrı-acımı çəkənim, sevincimə də, kədərimə də ortaq çıxanım, ağır günlərimdə həyanım, qulluğumda duranım, hər sözümə can deyən istəklim - həyat yoldaşım Şərqiyyə xanımdı.

**- Zeynəddin müəllim, Sizin ciddiyyətinizi və eyni zamanda təvazökarlığınızı və səmimiyyətinizi, ilk sözdən müsahibinizi duymağınızı, onun ürəyindən keçənləri gözlərindən oxumağınızı tanışlığımız müddətində dönə-dönə hiss etmiş, duyub-dərk etmişəm və bu fikirimdə yanılmadığıma əminəm. Sizin, ətrafda olanlarla münasibətinizin və çoxlarının arasında böyük hörmətiniz olduğunun şahidi olmuşam. Onu da bilirəm ki, Sizin dostlarınız arasında böyük vəzifə sahibləri, iş adamları, yaradıcı adamlar olmaqla bərabər sadə peşə adamları arasında da xeyli dostlarınız, tanışlarınız var. Bu isə ondan irəli gəlir ki, Siz dostluğu vəzifələrdə, şan-şöhrətdə deyil, insanlıqda axtarırsınız. Və bir də bu onu göstərir ki, sizin ömrünüz halallıqdan yoğrulub, gözü-könlü tox adamsınız, insanlara qarşı xeyirxahlıq hissləri ilə yaşayırsınız.**

**Zeynəddin müəllim, siz canında həyat cövhəri, ürəyində gələcəyə tükənməz inam olan nurlu el ağsaqqalısınız. Siz sədaqətli dostlarınıza, həmkarlarınıza, qohum-əqrəbanıza, el-obanıza və ən nəhayət ömür yoldaşınız Şərqiyyə xanıma bundan sonra da hələ çox gərəksiniz.**

- Sözlərində həqiqət çalarları yetərincə var. Heç sorğunuzu cavablandırmaq üçün mənim sözlərimə də

ehtiyac qalmadı. Ona görə ki, elə sorğunuzun özündə mənim verəcəyim cavablar da öz əksini tapıb. Təkcə onu deyə bilərəm ki, insan gərəksiz olduğu çağları onun cismən də, ruhən də məhvi deməkdir. Allaha şükürlər ki, dost-tanışlarımın sayı azalsa da, hələ ki, var. Qohum-əqrəbəm və qonşularım arasında da ağsaqqal kimi tanınıram. Bəzən məndən məsləhət almağa gəlir, nədəsə köməklik umurlar. Mən də bacardıqlarımı edirəm. Elə məni həyata bağlayan da odur, bir də həmişə mənə vəfalı olan və qayğımı çəkən Şərqiyyəmdi.



# Kişiləri qoru, dünya

Nə əldə etmişəmsə, yuxarıda Allahın, yer üzündə gözəl, xeyirxah insanların köməyi ilə əldə etmişəm.

*Əlibala Hacızadə*

Müqəddəs yerlərə ziyarətə getmək Allaha yaxınlaşmaqdır, ondan da vacibi insanlara xeyirxahlıq, xalqa xidmət etməkdir.

*Hacı Tofiq Hüseynli*

İnsan ayırmazdı dostu, düşməni,
Həyatın çətini, darı olmasa.

*Mürvət Qədimoğlu*

Bizi bizdən olanlar yıxdı.

*Əhməd Cavad*

Ən çox sevdiyim şair Azərbaycan torpağıdır. Bu torpağın yaratdığını hələ heç bir sənətkar yaratmamışdır.

*Gülruxsor. Tacik şairi*

Bayrakları bayrak yapan üstündeki kandır.
Topraq uğrunda ölən varsa, Vatandır.

*Gamal Kuntay*

Tarixi kökdən məhrum olanlar xalq deyil, kütlədir.

*Murad Adcı*



# DOQQUZUNCU SÖHBƏT

Ey insanlar! Ey müsəlmanlar! Ey mənim hümmətim! Birlikdə olun! Əl-ələ verərək, aranızda möhkəm bir ittifaq yaradın! Allah yolunda addımlarkən aralarınızda səf-səf durun!... Aranıza nifaq salınmasına imkan verməməli, birlikdə hərəkət etməlisiniz.

**Məhəmməd peyğəmbər (ə.s.)**

Boş sinə, boş ürək – balsız bir pətək.

**Ramiz Qusarçaylı**

**- Zeynəddin müəllim, Siz 2000-ci ildə öz namizədliyinizi Milli Məclisə verəndə hansı amalla, hansı arzu və istəklə deputat olmaq istəyirdiniz? Xahiş edirəm ki, bu yöndə öz fikrinizi bildirəsiniz.**

- Mən Azərbaycan xalqının, o cümlədən Qusar camaatının başlıca problemi olan, onu inkişafından, müasir cəmiyyətdən geridə qoyan, ölkəni bataqlığa sürüyən korrupsiyaya, rüşvətxorluğa, yerlibazlığa qarşı səlahiyyətli şəxs kimi kəskin, ardıcıl mübarizə aparmaq istəyirdim.

Ən başlıca problemlərimizdən olan təhsil, səhiyyə sahələrinin inkişafına zəmin yaradan real qanunların parlamentdə qəbul edilməsində fəal iştirak etməklə yanaşı, həmin qəbul edilmiş qanunların işləmə mexanizmini hazırlamaq arzusunda idim.

Konkret olaraq Qusar ərazisində məmur özbaşınalığına, rüşvətxorluğa qarşı əhalinin fəallığını artırmağa

real şərait yaratmaq, rayon ziyalılarını bu mübarizəyə qoşmaq mənim arzum, istək və məqsədim idi.

**- Zeynəddin müəllim, deyin, XXI əsrə düşən ömür payınızı necə yaşayırsınız?**

- Guşənişin həyat sürürəm, həmişə məsuliyyətli vəzifələrdə işləyən, gecənin-gündüzün nə olduğunu bilməyən, istirahət nə olduğunu yetərincə eləyə bilmədiyim haldı, XXI əsri istirahətdə keçirirəm. Əslində ona istirahət də demək olmaz, ona görə ki, əsil istirahət, zəhmətdən, əməkdən, görülən işdən sonra olur. Ancaq mən «Kitabi-Dədə Qorqud»da Qazan xanın dediyi kimi yata-yata yanımız ağrıdı, dura-dura belimiz. Üstəlik bir neçə dəfə üzərimdə cərrahiyyə əməliyyatı aparılıb. Bununla bərabər həyat inamım, yaşamaq yanğım sozalmayıb. Düzdür dostlarımın sırası seyrəlib yaşadığımız bu yeni əsrimizdə. Onların bir çoxu dünyalarını dəyişib, bəziləri də etibarsız çıxıb mənə. Ancaq nə etmək olar, bu həyatdı, onun çox üzü var. Əlbətdə, dediyim hallar mənə ağır gəlir, nə yaxşı ki, mənə sadiq olan həyat yoldaşım və az da olsa hələ də münasibətini dəyişməyən dostlarım var. Yoxsa dərddən, fikirdən adamın ciyərləri də xəfənək bağlayar, suçəkən kağızlara bənzər.

Hələ ki, bu da bir ömürdü, yaşayıram, təki sağlıq olsun, təki tezliklə torpaqlarımız işğaldan azad olsun, yurd həsrətində olan yüz minlərlə insan kimi mənim dostum Elbrus Şahmar da ata ocağına, ana yurduna ziyarətə gedə bilsin.

**- Allah arzularınızı çin eləsin. Kaş, o gün tez olaydı. Zeynəddin müəllim, bəlkə deyəsiniz, ömrünüzün hansı çağında özünüz barədə yüksək fikirdə olmusunuz?**





- Mən ümumiyyətlə özüm barədə yüksək fikirdə olmamışam. İstər dövlətimiz üçün, istər dövlətçiliyimiz üçün, istər işlədiyim kollektiv üçün, yaxud ayrı-ayrı adamlar üçün nə etmişəmsə özümün vətəndaşlıq və insanlıq borcum bilmişəm. Bununla belə deyim ki, internatda direktor olduğum illərdə, özümə çox inanır, çox güvənirdim. Mən öz peşəkarlığımla, bacarığımla, idarə edə bilmək səriştəmlə insanlarla tez dil tapa bilirdim. O vaxt yüksək vəzifələrdə işləyə bilmək bacarığıma daha çox inanırdım. Vaxt gəldi inamım özünü doğrultdu və mən Qusar Rayon İcra Hakimiyyətinin başçısı kimi fəaliyyət göstərdim.

**- Ancaq siz həmin vəzifədə çox yox, bir ilə yaxın işlədiniz.**

- Düz deyirsiniz. Bu ondan irəli gəldi ki, məni gözü götürməyənlər yuxarılara mənim barəmdə yalan məlumatlar verirdilər. Sonda həmin yalan, reallıqdan uzaq olan məlumatlar da kimlərisə inandıra bildi və mən vəzifəmlə xudahafizləşməli oldun. Görün bu yöndə, təxminən iki yüz il bundan əvvəl Mirzə Şəfi Vazeh nə deyib:

*Nüfuzlu bir şəxs idim,*
*Bir böyük ölkədə mən.*
*Şah ilə canbir idim,*
*Deyirəm bəlkə də mən.*

*Şah cana doymuş idi,*
*Yaltaqların əlindən.*
*Həqiqəti deyən kəs,*
*Gəlsin gözləyirəm mən!*

*Tutqun bir təbəssümlə,*
*Belə dedi hökmdar.*
*Bu vaxt açdım qəlbimi,*
*Dedim fikrimdə nə var.*

*Dedim həqiqətləri,*
*Etmədən əyər-əskik.*
*Bununla da saraydan*
*Qovuldum həmişəlik.*

**- Zeynəddin müəllim, hər birimiz Allahın bizə verdiyi ömür payını yaşayırıq. O ömür bəzən çox qısa olur, bəzən də yüzü ötür. Mən Sizə uzun ömür arzulayıram. Allahdan dilək diləyirəm ki, 100 yaşınızın tamamında barənizdə söz söyləyim, təbrik yazım. Ya qismət!**

**İndilikdə, müsahibəmizin sonlarında Sizə belə bir sualla müraciət edirəm. Deyin, bu həyatdan nə kimi istəyiniz var?**

- Əziz dost, bildiyiniz kimi insan öz ömrünün bütün çağlarında, bütün məqamlarında arzularla yaşayır. Arzular sona yetəndə ömür də tamamlanır. Əlbətdə, ömrün qışında mənim də istək və arzularım var. Onlardan bəziləri öz əksini cənubi Azərbaycan şairi Behcət Kamalın bir bənd şeirində tapıb:

*Bir qadın istəyirəm, ruhumu soymaq üçün,*
*Bir cüt diz istəyirəm, başımı qoymaq üçün.*
*Bir ana istəyirəm, üstündə ağlamağa,*
*Bir iman istəyirəm, uğrunda baş qoymağa.*

Onu da deyim ki, xoş və xeyirxah əməllər insan ömrünün bəzəyidir. Elə əməllərin uzunluğu, elə, insan ömrünün uzunluğu deməkdir. Bir də şərt ömrünü ibadətdə keçirmək deyil, yuxarıda dediyim kimi insanlığın ən böyük ölçüsü xeyir əməllərlə yaşamaq, bəd işlərdən uzaq durmaqdır. O mənada mən bu vaxta kimi sürdüyüm ömür payımdan narazı deyiləm və Allahdan da diləyim odur ki, bundan sonra nə qədər ömrüm varsa əvvəlki kimi yaşaya bilim, kimlərə əl tuta bilməsəm də, bəd işlərdən uzaq olum. O mənada Mirzə Şəfi Vazeh insanın böyüklüyünü onun el qayğısı çəkməsində və bir də sınıq ürəkləri tikməsində görürdü.





**- Zeynəddin müəllim, hansı şair və yazıçıları oxumağı xoşlayırsınız?**

Orta məktəb illərindən mütaliəni xoşlayıram. Dünya ədəbiyyatı və eləcə də rus ədəbiyyatı klassiklərinin çoxu ilə tanışam. Daha çox Şərq ədəbiyyatı və doğma Azərbaycan ədəbiyyatımızla təsirlənib sehrlənmişəm. Elə bilirəm, dəyərli şair və yazıçılar ordusu ilə Azərbaycan dünya ölkələri arasında əvvəlinci yerlərdən birini tutur. Hələ XII əsrdə öz qüdrətli qələmi ilə Xaqani və Nizami Gəncəvi öz fəlsəfi fikirlərini poetik bir dillə nəzmə çəkəndə indi mənəm-mənəm deyən bir çox xalqların heç nələri yox idi, olanlar da, ağla sığmayan, məntiqə uyğun olmayan söz yığını idi.

«Kitabi-Dədə Qorqud»dan üzü bu tərəfə yazılmış əsərləri, klassiklərimizi dönə-dönə oxumuşam və hər oxuduqca ədəbiyyatımıza heyran olmuşam. Eləcə də yola salmaqda olduğumuz XX əsr ədəbiyyatımız öz zənginliyi və mənəvi dəyərləri ilə öz sözünü deyib. Mən Hüseyn Cavidi, Səməd Vurğunu, Süleyman Rəhimov, Rəsul Rzanı, Əliağa Vahidi, Mirzə İbrahimovu, Əli Vəliyevi, Müşfiqi, Bəxtiyar Vahabzadəni, Məmməd Rahimi, Əli

Kərimi, Qasım Qasımzadəni, Hüseyn Arifi, Məmməd Arazı, dostlarım Məmməd Aslanı, Oqtay Rzanı, Ramiz Qusarçaylını və onlarca başqalarını oxumaqdan mənəvi zövq almışam.

Ömrünün və yaradıcığının çiçəklənən bir çağında repressiya güdazına getmiş Müşfiqin «Həyat sevgisi» şeirini 79 yaşda olduğum bu çağımda hər dəfə yadıma salanda həmişə varımdan yox olmuşam:

*Ah, mən gündən-günə bu gözəlləşən*
*İşıqlı dünyadan necə əl çəkim?*
*Bu yerlə çarpışan, göylə əlləşən*
*Dostdan, aşinadan necə əl çəkim?*

*Dönmə bir şəbnəmə yaz səhərində,*
*Könül, günəş kimi parla yerində!*
*Göylərin lacivərd ətəklərində*
*Gedən bu qovğadan necə əl çəkim?*

*Baxınız, dan yeri sökülmüş kimi,*
*Dostlar bir cəbhəyə tökülmüş kimi.*
*Uzaqdan-uzağa xam gümüş kimi,*
*Ağaran səhradan necə əl çəkim?*

*Təbiət varlıdır, təbiət xəsis,*
*İşlədərkən onu, sən ey mühəndis.*
*Mən də qart daşlara verdiyim bu hiss,*
*Bu incə mənadan necə əl çəkim?*

*Bir yanda tərlanlar, dumanlı dağlar,*
*Bir yanda kəkliklər, ayna bulaqlar.*





*Bir yanda bülbüllər, çiçəkli bağlar,*
*Mən bu tamaşadan necə əl çəkim?*

*Həyat dedikləri bu kəşməkeşdən,*
*Qəlbimdə, qanımda yanan atəşdən.*
*Gecədən, gündüzdən, aydan, günəşdən,*
*Bu əngin fəzadan necə əl çəkim?*

*Qarşımda dalğalı, dərin bir ümman,*
*Ümmanı sarsıdır bir acı tufan.*
*Bəyaz köpükləri bir çiçək yapan,*
*Şeirdən, xülyadan necə əl çəkim?*

*Ulduzlar fikrimin çırağbanıdır,*
*Bulud xəyalımın karivanıdır.*
*Səma ki, hissimin aşiyanıdır,*
*Böylə bir səmadan necə əl çəkim?*

*Mehriban sevgilim qarşımda durdu,*
*Yenə şairliyim başıma vurdu..*
*Məndən Məcnun könlüm maraqla sordu:*
*Bu saçı leyladan necə əl çəkim?*

*Xəzan acısına edib təhəmmül,*
*Gülün kölgəsində ötəndə bülbül.*
*Həyat, həyat! – deyə çırpınır könül,*
*Könüldən, sevdadan necə əl çəkim?*

*Sən aldın aşını yeni hisslərdən,*
*Ey cavan qələmim, düşmə bəhərdən.*
*A dostlar, söyləyin, mən bu hünərdən,*
*Bu təbi valadan necə əl çəkim?*

**- Zeynəddin müəllim, mənim yaradıcılığımda əsasən dörd mövzu qırmızı xətlə keçir desəm, elə bilirəm ki, yanılmaram, bu yöndə doğulub boya-başa çatdığım, ana beşiyim, ata ocağım Qubadlı və qubadlılar, üzdəniraq qonşularımızla məlum savaşdakı itkilərimiz, polisin tarixi və onun görkəmli adamları, bir də Qusar və qusarlılar barədə silsilə yazılarımı vurğulardım. O baxımdan oxucu mühakiməsinə verməyə çalışdığım bu kitabım da qusarlılara yeni bir töhfəm olsun. İnanıram ki, qusarlılar bu kitabı oxuduqca Sizin qayğılı gözlərinizi, nurlu simanızı, ciddi çöhrənizi görəcək və Sizin simanızda xalqımıza, dövlət və dövlətçiliyimizə sədaqət rəmzi olan ürəyinizin döyüntülərini eşidəcək və bir daha Qusarla doğmalaşacaq, dostluqda sədaqət nümunəsi göstərəcək, Vətənə – Azərbaycan adlı möhtəşəm məmləkətimizə məhəbbət yanğısı ilə bağlanacaq, vəzifə kürsüsündə, tutduğu peşədə daha çox xeyirəməl sahibi olacaqlar.**

**Əziz dost, bu fikrimə münasibətiniz maraqlı olardı.**

- Elbrus, əzizim mən Sizin səmimiyyətinizə də inanıram, qələminizin qüdrətinə də, həmçinin həmyerlilərimin nəyin pis, nəyin yaxşı olmasını saf-çürük etmək bacarığına da, qaranı ağdan seçə bilmək fəhminə və bir də hər hansı məsələdən düzgün nəticə çıxarda bilmək qabiliyyətinə də.

**- Zeynəddin müəllim, siz tarixçi olmağınızla bərabər mən deyərdim ki, həm də ədəbiyyatçısınız. Yaddaşınıza da söz ola bilməz.**

**Onu da qeyd edim ki, hər şeyin əvvəli kimi, sonu da olur. İndilikdə bizim aramızda olan müsahibəmiz də, söz-söhbətimiz də sona yetir. Və mən söhbətlərimiz zamanı dəfələrlə vurğuladığım kimi Sizə ilahidən 100 il ömür diləyi**





**ilə müsahibəmə nöqtə qoyub, sizin həyatınızı işıqlandırmağa xidmət edən başqa yazılarıma keçirəm. Və mənimlə mehriban, faktlara və tarixə istinad edən səmimi məntiqli söhbətinizə görə sizə öz minnətdarlığımı bildirirəm.**

**Onu da dyim ki, hər bir vəzifə kürsüsü zaman keçəndən sonra «eks», yəni sabiq adlanır. Təkcə kişi olan kəslərin əvvəlində heç vaxt «eks» deyilmir. Ona görə ki, kişilər bütün məqamlarda həmin sözün daşıyıcısı olur. O baxımdan siz də kişi adını hər zaman uca tutmusunuz. Ona xələl gətirməmisiniz. Axı, Siz Zeynəddin Çələbovsunuz – heç vaxt sınmayan, əyilməyən, gözü-konlu tox, sözübütöv Zeynəddin Çələbov!**

- Çox sağ olun, qardaşım, mən də sizin mənə qarşı olan ehtiramınıza, məhəbbətinizə və səmimi dostluq münasibətinizə görə öz təşəkkürümü bildirirəm. Allah bizlərə ömür versin ki, son aylarda yaranmış, örnək ola bilən dostluğumuzun ab-havasını, şirinliyini yaşaya bilək!

Mülayim ol, ancaq dəyənəyi əlindən yerə qoyma.

*Teodor Ruzvelt*
*ABŞ-ın sadiq Prezidenti*

Vəzifə dəyişdikcə vəzifə dostları da dəyişir, yenilәşir.

*Bayram Məmmədov*

Vay o kitabın halına ki, nə yazandan yarıyır, nə də ki, yozandan.

*Əli İldırımoğlu*

Bilməlisən gədalar nə etdilər Vətənə,
Nə qoydular uyuya, nə qoydular oyana.

*Əlibəy Hüseynzadə*

Bizdən də bir söz qalacaq, ay aman!
Kimlər bizdən söz salacaq, ay aman!

*M.Şəhriyar*

Dərdin əlacını qanandan istə.

*Şamil Dəlidağ*

Oxumayan üçün heç bir şey yazılmamışdır.

*Cəlaləddin Rumi*

Söz danışan ol, söz güləşdirən yox.

*Azərbaycan atalar sözü*

İşin rəzil adama düşsə özünü yazıqlar cərgəsində hesab et.

*«Qabusnamə»*

Daxması olanın yaxası əldə,
Elə milyonçu var mülkü görünmür.

*Musa Yaqub*

# Bir könülün harayı

Bir adamı həmişə aldatmaq olar, bəzi adamları müəyyən vaxt aldatmaq olar, lakin xalqı daim aldatmaq olmaz.

*A.Linkoln*

Ata yurdumuzdan ilham almasaq,
Zaman ağac kimi qurudar bizi.

*Hüseyn Arif*

Evdə arvadına sözü keçməyən,
İndi koxa olub, el dolandırır.

*Aşıq Alı*

Nə tirəbəxt olduq bu Qarabağda.

Q.Zakir

Mən həyatda yanız yaradanıma, zəhmətimə və bir də xalqıma arxalanmışam.

*Heydər Əliyev*

Kim müxalifətdə durursa dursun, ancaq vətəninə, mənəviyyatına, məsləkinə müxalifətdə durmasın.

*Heydər Əliyev*

Biz bu aləmə bir eşq üçün ah etməyə gəldik.

*Cəlaləddin Rumi*

Allahım, səndən başqa heç nəyi olmayan mən, səndən başqa hər şeyi olanlara yazığım gəlir.

*Konfutsi*



# İKİ KÖNÜL BİR OLSA...

Kim mənim eşqimə haqq versə, əgər duysa məni
Çəkərəm minnətini gündə onun min dəfə mən.

Yar ilə olduğum anlar mənə dünyadan əziz,
Ey könül, dərdin əzizdir, tut əziz sən də onu.

**Qeys ibn Müləvvəh (Məcnun)**

Tanınıb seçilən hər bir kişinin arxasında ağıllı bir qadın durur.

**Bayram Məmmədov**

Başlıqda verdiyim bu misra bir mahnının sözlərindəndir. Yəni önəmli odur ki, iki könül bir olsa, bir-birinin gözü və duyğuları ilə ətrafa baxsa, bir-birini ürəkdən sevsə, onlara heç kim, heç nə deyə bilməz. Birdən deyən olarsa, deməк həmin adam duyğusuz və qəlbsiz adamdı. Heç şübhəsiz sevənlər, istək və məhəbbətin nə olduğunu bilənlər elə adamların sözlərini qəbul etməzlər.

Mən kitab üzərində işləyərkən həyat yoldaşım Raya xanım Musa qızı ilə qırx gündən çox Zeynəddin müəllimin evində olduq, çörək kəsib, söhbət etdik. O günlər mən Zeynəddin müəllimlə ömür yoldaşı Şərqiyyə xanımın münasibətlərində, aralarında olan yaş fərqlərini sezdirməyən böyük bir sevginin və məhəbbətin şahidi oldum. Və başqa bir mahnının sözləri yadıma düşdü: «Yaşın nə fərqi var». Bəli təki ürək sevsin: təki könüllər bir

olsun. İlk öncə Şərqiyyə xanımın tərcümeyi-halı ilə tanış olaq, daha sonra onun özünü dinləyək.

Çələbova Şərqiyyə Rəcəb qızı, 19 yanvar 1960-cı ildə Qusar rayonun Hil kəndində anadan olub.

Atası Qayıtmazov Rəcəb Eyyub oğlu ömrüboyu dülgər işləyib. Hazırda təqaüdçüdür, həmin kənddə yaşayır.

Anası – Qayıtmazova Fatimə Fərəməz qızı, evdar qadın olub, 2002-ci ildə vəfat edib.

Ailədə 3 qardaş, dörd bacı olublar.

Böyük bacısı İlyasova Simnarə ailəlidir, üç övladı var. O, Qazaxıstanın Oktai şəhərində yaşayır.

Böyük qardaşı Qayıtmazov Eyyub ailəlidir, altı övlad atasıdır. Hil kəndində atası ilə birlikdə yaşayır.

Qardaşı Qayıtmazov Rahib, Oktai şəhərində yaşayır, ailəlidir, üç övladı var.

Bacısı Bədəlova Elyana Oktaida yaşayıb, ağır xəstəlikdən sonra 1999-cu ildə dünyasını dəyişib. Onun həyat yoldaşı Bədəlov Ədalət və qızı Mərcan hal-hazırda Qazaxıstanın Oktai şəhərində yaşayır. Şərqiyyə xanımın kiçik qardaşı Vacib Qusar şəhərində yaşayır, ailəlidir, bir qızı, bir oğlu var. Kiçik bacısı Sveta da ailəlidir. İki övladı var, Qusarın köhnə Xudat kəndində yaşayır.

Bir daha qeyd edim ki, o günlər doğma bir ailənin üzvü kimi doğmalaşdıq, bir-birimizi daha yaxından tanıdıq. Mən Zeynəddin müəllimlə Şərqiyyə xanımın münasibətlərində böyük bir səmimiyyət və baxışlarında pak bir məhəbbətin yanğısını görüb-duydum. Nə vaxt Zeynəddin müəllimlə söhbət etdimsə sədaqətli bir ər gözümdə canlandı. Nə vaxt Şərqiyyə xanımla həmsöhbətdə oldumsa ərinə vəfalı və məhəbbət yanğısına pərvanə olan bir xanım gözlərimdə və qəlbimdə müqəddəsləşdi. Dönə-dönə





ömür yolları və ailə həyatı ilə bağlı sorğularımı cavablandırdı Şərqiyyə xanım. Gəlin onun ürək çırpıntıları, könül harayı ilə tanış olaq: «Ailəmiz çox böyük olsa da, mehriban dolanırdıq. Yaxşı oxuyurduq. Təsərrüfat və ev işlərində valideynlərimizə kömək göstərirdik. Atam bizimlə fəxr eləyirdi. O, elmə və təhsilə böyük önəm verirdi. Deyirdi ki, uşaqlıq və gənclik illərim müharibə dövrünə düşdü, bir tikə çörək dalınca dəridən-qabıqdan çıxmışıq, oxumaq imkanımız olmayıb, heç olmasa, siz oxuyun. O, hər şeydən əvvəl, dərslərimizlə bağlı çalışqanlığımızı qiymətləndirirdi. Kasıb dolanmağımıza baxmayaraq biz xoşbəxt idik. Ata-anamız həmişə bizimlə idi. Onlar bir-birlərini çox sevirdilər. Anamın atama olan böyük ehtiramı bizə də siyarət etmişdi. Atam mənim gözümdə əsil kişi idi. O, evimizin böyüyü, başçısı idi. Anam çox cazibədar qadın olub. Onun oturuşundan, duruşundan, yerişindən əsil-nəcabətlilik, xanımlıq yağardı. O, özünə hörmət qoyan və hörmət uman qadın idi. Atama çox sadiq idi. Onun hər sözü, hər hərəkəti biz qızlara bir örnək, bir nümunə idi.

Ailəmizdə hər kəsin öz yeri, öz vəzifəsi var idi. Böyüklər kiçiklərə hamilik edir, dərslərində köməklik göstərirdi. Böyük bacımın bizə danışdığı nağılları dinləyə-dinləyə yuxulayardıq. Hər birimiz mütaliəni çox sevirdik. Uzun qış gecələrində ailəmiz soba ətrafına yığışar, atamın danışdığı hekayət və rəvayətlərə qulaq asardıq. Və yaxud bizlərdən birimizə kitab oxutdurar, kiçiklərə tərcümə və izah eləyərdi. Beləcə, mən hələ uşaq ikən kitabı sevdim və mütaliəyə böyük həvəs göstərdim. Hələ kiçik yaşlarımdan yaxşı oxu qabiliyyətim var idi. Ona görə də, axşamlar ailə bir yerə yığışanda oxumaq vəzifəsi

mənə keçdi. O vaxt televizorumuz yox idi. Dahi Nizaminin «Xəmsə»si, Şota Rustavellinin «Pələng dərisi geymiş pəhləvan»ı, bir çox romanlar və başqa-başqa əsərlər bizdə sevilə-sevilə oxunur və dinlənilirdi. Həyatda ilk müəllimim atam olub. Hələ məktəbə getməmişdən o, mənə yazmağı, oxumağı, mütaliə edib fikir yürütməyi öyrətmişdi.

1967-ci ildə Hil Sirt kənd səkkizillik məktəbinin birinci sinfinə getmişəm. Məktəbdə əlaçı idim. Müəllim sarıdan da bəxtim yaman gətirib. İbtidai siniflərdə bizə Camal müəllim dərs deyirdi. Camal müəllim çox humanist, xeyirxah və sadə bir insan idi. O sözün əsl mənasında müəllim idi. Onun həyatımda mühüm rolu olub. Peşəsini dərindən sevməsi məni də müəllim peşəsini seçməyə həvəsləndirdi. Ona Allahdan rəhmət diləyirəm!

Sonralar da, istər orta məktəbdə, istərsə də ali məktəbdə oxuyanda tale rastıma gözəl müəllimlər çıxartdı. Dahilərdən birinin fikrincə, insanın bəxti üç şeydə gətirir: əsilli, nəcabətli ailədə doğulur, gözəl müəllimlərdən dərs alır və sədaqətli həyat yoldaşı ilə ömür sürür. O mənada bəxtim gətirib deyərdim.

Beşinci sinifi Hil Sirt səkkizillik məktəbində bitirdikdən sonra, Qusar şəhər internat məktəbin altıncı sinfinə daxil olmuşam. O zaman məktəbin direktoru Çələbov Zeynəddin Ramazan oğlu idi. O, bizə tarixdən dərs deyirdi. Uşaqlar onu çox sevirdi. Dərsi o qədər maraqlı keçirdi ki, zəngin tənəffüsə çıxmaq üçün nə vaxt çalınmağından xəbərimiz olmazdı. Heç vaxt, heç kimə «2» qiymət verməzdi. Deyərdi ki, sizin Zeynəddin müəllimin dərsini dinləməyiniz artıq «3»-ə layiqdir. Dərsə girən kimi, məni çağırıb dərsi soruşardı. Ondan həmişə «5»





alırdım. Ən zəif oxuyan şagirdlər belə ondan yaxşı qiymət almaq üçün, dərsini mütləq öyrənərdi. Onun məktəbə hər gəlişi uşaqları sevindirərdi. Maşınının yanına qaçar, onu dövrəyə alardılar. Hamı çalışardı ki, ona daha yaxın olsun, onunla danışsın. Uşaqların əhatəsində o zəhmli direktordan əsər-əlamət qalmazdı. Birinin başını tumarlayar, o birindən hal-əhval tutardı. Həmişə uşaqlardan ac qalıb-qalmadıqlarını, nədən şikayətləndiklərini soruşardı. Vaxtının çoxunu məktəbdə uşaqlarla keçirirdi. Dərsi tez oxuyub öyrənən şagirdlərlə dama və şahmat oynayardı. Əksər uşaqları üzdən, adbaad tanıyardı. Onun hər uşağın ailə vəziyyəti barədə də yaxşı məlumatı vardı. Qışda gecələr gözünə yuxu getməzdi. Hərdən gecə yarısı, ocaqçının yatıb-yatmadığını yoxlamaq üçün məktəbdə də olardı. Zeynəddin müəllim şagirdlərin gündəlik yeməklərinə ciddi nəzarət edərdi. Uşaqların yeməyindən kəsən aşpazı işdə saxlamazdı.

Yüzlərlə uşağın qayğısı ona övladsızlıq dərdini unutdurmuşdu. Bəlkə də, bu barədə onun düşünməyə belə vaxtı olmazdı. İllər bir-birini qovduqca, qayğıları da çoxalırdı. O böyük bir çalışqanlıqla məktəbin yardımçı təsərrüfatını da yarada bildi. İnternatın 150-dən çox arı ailəsi olan arıxanası, xeyli sayda qoyun sürüsü oldu. Uşaqlar təzə balla, ətlə, meyvə - tərəvəzlə, bostan məhsulları ilə təmin olundu. Şəxsən həmin təsərrüfatda əlləri qabar olunca özü də işləyirdi. Beləliklə, Qusar şəhər internat məktəbi respublikada nümunəvi yardımçı təsərrüfatı və yüksək təlim-tərbiyəsi olan bir məktəbə çevrildi. Düz 24 ilə yaxın beləcə yorulmadan çalışdı Zeynəddin müəllim həmin vəzifədə.

Biz onunla yenidən görüşəndə, mən artıq Azərbaycan Pedaqoji İnstitutunun riyaziyyat fakultəsini bitirib, Hil kənd orta məktəbində müəllimlik edirdim...

Biz evlənməyə qərar verdik. Bütün tanış-bilişim, qohum-əqrəbam məni bu fikirdən döndərmək istədi. Ailə üzvlərimiz də bu izdivacın əleyhinə oldu. Ona könül verib sevdiyimə, onunla evlənməyimə görə heç vaxt peşiman olmamışam. Əksinə, əgər yenidən doğulsaydım, yenə də onu seçər, ömrümü onunla bağlamaq istəyərdim. Onunla birlikdə sürdüyüm ömrümün hər anı mənim üçün maraqlı və mənalı olub. İstər evin təsərrüfat işlərində, istərsə də istirahətdə və gəzintilərdə bir yerdə olmuşuq, bir-birimizə dayaq durmuşuq. Yaxşı günlərimiz də olub, çətin günlərimiz də. Heç kəsin minnətini götürməmişik, heç kəsdən asılı vəziyyətə düşməmişik. Əlimizin zəhmətilə dolanmışıq, işləməkdən həzz almışıq. Xoşbəxtliyi, səadəti halal zəhmətdə, bircə əməkdə tapmışıq. Ondakı yaşamaq eşqi, ruh yüksəkliyi, həyat eşqi hər zaman məni də nikbin olmağa vadar edib, məni bədbin olmağa, həyatdan küsməyə qoymayıb. O, əlində olanlara görə şükür edən, onlardan həzz alandır. Zərrə qədər də paxıllığı yoxdur. Aza qane olan, əlinin zəhmətilə dolananlara rəğbət bəsləyən, rüşvətxorlara, mala-pula hərislərə nifrət edəndir.

Mən özümü onunla hər zaman bəxtiyar sanmışam. Bir-birimizdən ayrı qaldığımız günlərimizi barmaqla saymaq olar. O mənim yanımda olmayanda özümü tənha hiss edirəm, hər yer mənə darıxdırıcı və maraqsız görünür. Bizim aramıza girib, bizi ayırmaq istəyənlər də olub. Amma niyyətləri baş tutmayıb. Biz bir-birimizi yaxşı tamamlayırıq, bir-birimizdən ayrı özümüzü yarımçıq hiss





edirik. Biz iki bədəndə bir can kimiyik. Birimizin kədəri o birinizi də kədərləndirər, sevinci isə o birimizi də fərəhləndirər.

Aramızdakı yaş fərqimizi heç vaxt duymamışam. İllər ötsə də onun bahar duyğulu qəlbi daima gənclik şövqi ilə alışıb yanmaqdadır. Gənclərə məxsus coşqun təbiətinin nəticəsidir ki, onun əksər dostları özündən qat-qat cavan adamlardır. O dostcanlı, dostluqda sədaqətlidir. Qapısı daima dost-tanışlarının üzünə açıqdır. Axırıncı tikəni də onlarla bölüşər, köməyini onlardan əsirgəməz. Dost yolunda ölümə belə gedər. Belələri haqqında deyirlər: «Ona güvənmək olar». Nə qədər zəhmli görünsə də, qəlbi uşaq qəlbi kimi təmiz, kövrəkdir. Ona qarşı pislik edənlərə belə kin saxlamaz, onların səviyəsinə enib əvəz çıxmaz.

Zeynəddin müəllim dostlarına, qohumlarına, qonşularına qarşı mehribandır, onların xeyir və şərində yaxından iştirak edər, sevinc və kədərlərinə şərik olar. O, həmişə haqq-ədalət tərəfdarı olur, zəiflərin, arxasızların, haqqı tapdananların tərəfini saxlayır, onların haqlarının müdafiəçisi olur. Heç vaxt özünü düşünməz, başqalarının harayına, köməyinə qaçan, yetimə əl tutan, kimsəsizə qahmar çıxandı. Bunlar gəlişi gözəl sözlər deyil. Birgə yaşadığımız illərdə şahidi olduğum, iştirak və müşahidə etdiyim belə hadisələrdən nə qədər desəniz misal gətirə bilərəm.

Mən Zeynəddin müəllimin elədiyi yaxşılıqları bir-bir sadalamağı lüzum bilmirəm. Bu, başlara qaxınc olardı. Ancaq yaxşı olardı ki, bəziləri özlərindən soruşaydı ki, bəs biz Zeynəddin müəllimin yaxşılıqlarına necə cavab vermişik? Onun işləmədiyi, fəaliyyətdə olmadığı bu son illərdə ondan necə hal-əhval tutmuşuqmu?

Dünya heç zaman yaxşılardan, qədirbilənlərdən xali deyil. İllər məhək daşı kimi sadiq dostları, yaxınları tanımaqda bizə köməklik edir. Zaman saxtaları, vəzifə, süfrə dostlarını bizdən uzaqlaşdırdı. Və bizi təmənnasız sevənləri bizə daha da yaxınlaşdırdı. Allaha çox-çox şükürlər olsun ki, Zeynəddin müəllimin heç kimə ehtiyacı yoxdur, o heç kəsə möhtac deyil. Onu həmişə olduğu kimi, indi də, sədaqətli dostları və mənim kimi vəfalı həyat yoldaşı var.

Biz Zeynəddin müəllimlə səyahət etməyi də çox sevirik. Moskva şəhərinə toy səyahətinə getmişik. Bir insanı yaxşı tanımaq istəyirsənsə, onunla yol-yoldaşı ol, deyiblər. Zeynəddin müəllimlə səyahətdə olanlar yaxşı bilir ki, çox səxavətli, deyib - gülən, yaxşı yumor hissinə malik olub, səyahətdən zövq almağı bacarandır. Lvova, Kiyevə, Mahaçqalaya, Dərbəndə internat məktəbinin müəllim və şagird kollektivləri ilə görüşə getmişik. İndi də, əgər ömür vəfa eləsə, ikilikdə dünya səyahətinə çıxmaq arzusundayıq. İnşallah!

Təbiət qoynuna gəzintilərə çıxmağı çox sevirik. Yaz gələndən meşələri, çölləri, dağları gəzməkdən yorulmarıq. İkimiz də Qusarın füsunkar təbiətinin vurğunuyuq. Zeynəddin müəllimlə birlikdə Qusarın demək olar ki, bütün kəndlərini gəzmişik. Ləzə kəndinin camaatının, demək olar ki, hamısını tanıyırıq, toy-bayramlarında iştirak edirik. Oradakı hər qaya, şəlalə, bulaq bizə tanışdır, doğmadır.

Biz «Suval»ı da çox sevirik. Oranın hər kolu, ağacı, çiçəyi, xüsusilə də, «Qazan bulağ»ı bizə doğmadır, əzizdir.





Zeynəddin müəllim də mənim qədər təbiətsevəndir, romantikdir. Yağış sehrindən, qar möcüzəsindən, dağların böyüklüyə səsləyən əzəmətindən qəlblərimiz riqqətə gəlib, vücudumuz uçunub. Ulduzlu göyləri birlikdə seyr edib, kainatın sonsuzluğundan heyrətə gəlmişik. Onu da deyim ki, bircə işarədən, bir sözdən bir-birimizi başa düşürük.

Tale elə gətirdi ki, Zeynəddin müəllimlə evlənəndən sonra, mən də onun direktor işlədiyi doğma məktəbdə müəllim kimi fəaliyyət göstərməyə başladım. O, evdə nə qədər mehriban olsa da, işdə ondan çəkinərdim. Çox ciddi və tələbkar idi, davranışımızdan tutmuş geyim - keçimimizə qədər hər şeyin müəllimə uyğun olmasını tələb edirdi. Yadımdadır, bir dəfə məktəbə qolları şifon parçadan olan paltar geymişdim. Tənəffüs zamanı müəllimlər otağında onunla rastlaşdım. Hamının qarşısında mənə dedi ki, bu nə geyimdir, məktəbə geymisən? Dərs zamanı şagirdlərin fikri dərsdə yox, paltarının qollarında olacaq. Get, müəllim kimi geyinib gələrsən. Mən pərt olub qızardım. Tez evə gəldim və paltarımı dəyişib yenidən məktəbə qayıtdım.

Bir dəfə pedaqoji şuranın iclası idi. Mənim fənnimdən iki şagird «2» qiyməti aldığını görüb, bərk acıqlandı və soruşdu ki, niyə şagirdlərin «2» alıb. Cavab verdim ki, dərslərini bilmir.

- Onda sizin işiniz nədən ibarətdir? 24 saat müəllim, tərbiyəçi nəzarətində olan uşaq «2» alırsa, bəs sizin işinizin adı nədir?

Dərs hissə müdiri Malik Ataşova tapşırdı ki, sabahdan «2» alan şagirdlərlə əlavə məşğul olmaq üçün cədvəl tutulsun, müəllimlər onlarla dərsdən əlavə məşğul olsun.

Bir dəfə də bir şagirdin yazdığı tapşırığa «2» qiyməti verdim, o da öz dəftərini cırıb atdı. Mən onu dərsimdən qovdum. Dəhlizdə həmin şagirdlə rastlaşan Zeynəddin müəllim onu müəllimlər otağına aparıb sorğu-sual edir. Tənəffüsdə məni çağırtdırıb soruşdu ki, şagirdi dərsdən nə haqla qovmusan? Hadisəni danışdım. Dedi ki, şagirdi dərsdən qovmaq tərbiyə metodu deyil. Bununla problemi həll etmək olmaz. Yalnız səriştəsiz müəllimlər belə hərəkətə yol verir. Mən ağladım. Onda o, həmin şagirdə tərəf dönərək: «Müəllimən niyə ağlayır? Sən dəftəri cırmaqla çox pis iş tutmusan. Get, müəllimindən üzr istə» – dedi.

Şagird də ağladı və məndən üzr istədi. O şagird Qusar rayonun Yasab kəndindən Aydəmirov Nəbi Həsrət oğlu idi. Həmin hadisədən sonra, o mənim dərsimdən həmişə «5» qiymət alırdı. Məktəbi «5» və «4» qiymətlərlə bitirdi. Bizim ən nümunəvi şagirdlərimizdən biri oldu. O, hal-hazırda da Zeynəddin müəllimi bir oğul məhəbbəti ilə sevir və bizdən tez-tez xəbər tutur.

Üstündən illər keçəndən sonra pedaqoji təcrübəm, müəllimlik səriştəm artdıqca Zeynəddin müəllimin məni haqlı olaraq danladığını anladım. O, biz müəllimləri yığaraq deyirdi: «Kim ki, hər bir şagirdə öz balası kimi münasibət bəsləmirsə, xahiş edirəm, sabahdan işə çıxmasın, maaşınızı da evinizə göndərərik. Təki sizin mənfi münasibətiniz uşaqların tərbiyəsini korlamasın». Şəxsən özü tez-tez uşaqların əyin-başlarını, hətta, dırnaqlarını yoxlayırdı. Uşaqlar yemək yeyərkən qəfildən yeməkxanaya gələr, onlarla oturub xörəklərindən dadar, keyfiyyəti yoxlayardı. Onun kabinetdə oturduğu vaxtlar az olurdu. Həmişə şagirdlərin arasında, kollektivlə birlikdə olardı. Onun olduğu yerdə həmişə qaynar həyat hökm sürürdü.





Zeynəddin müəllim bir ər kimi, ömür-gün yoldaşı kimi də mənim gözümdə öz böyüklüyünü, əzəmətini qoruyub saxlayıb. O heç zaman, heç nədən şikayət etməz, hər bir çətinliyi soyuqqanlılıqla qarşılayar, problemləri özünəməxsus ciddiyyət və yumorla həll etməyə çalışardı. Heç vaxt ağrıdığını deməyən, xəstəliklərindən danışıb başqalarını bezdirməyəndi Zeynəddin müəllim.

Bu yaxınlarda üzərində cərrahiyyə əməliyyatı aparılıb, böyrəyinin birini götürüblər. Əməliyyata gedərkən həkimə dedi ki, səndən bir xahişim var, o böyrəyimi çıxardanda ona tüpürüb, sonra atarsınız, o mənə xəyanət etdi. Bax, belə adamdır Zeynəddin müəllim, əməliyyata da gülə-gülə getdi, həkimləri də güldürdü. O həyatın bütün zərbələrini mətanətlə, ah-uf etmədən dəf etməyi bacarır. Ondakı iradəyə, dözümə heyran olmaya bilmirsən. Onunla bir yerdə yaşayandan sonra həyata nikbin baxmağı öyrəndim. Həyatı gözəllikləri, çirkinlikləri ilə, olduğu kimi sevməyi bacardım. İnsanlarda yaxşı məziyyətlər axtarıb tapmağı öyrəndim. Hər dəfə o yeni-yeni tanışlar, dostlar tapdıqca, yeni bir dünya kəşf etmiş kimi sevinir. Dost-tanışları ilə fəxr edir, öyünür. Dostları özünün var-dövləti bilir.

O məndən heç nəyi əsirgəməz, arzularımı həyata keçirməyə çalışar, heç vaxt mənimlə umu-küsü etməz, tez acıqlandığı kimi, tez də hirsi soyuyar. O, həmişə məktəbdəki işimlə maraqlanar, məsləhət və köməyini məndən əsirgəməz. Şagirdlərim müvəffəqiyyət qazananda, ali məktəblərə qəbul olunanda məndən çox sevinər və mənim də sevincimə şərik olar.

Biz ər-arvad olmaqdan əvvəl dostuq. Həmişə hər şeyi onunla bölüşürəm və ondan yaxın dostum – sirdaşım

yoxdur. Zeynəddin müəllimlə evlənənə qədər öz kədərimi, sevincimi, duyğu və düşüncələrimi gündəliyimə etibar edirdim. Əvvəllər özümü ruhən tənha hiss etmişəm. Adamların əhatəsində tək-tənha olmuşam. Hisslərimi, duyğu və düşüncələrimi qəlbimin dərinliklərində gizlətmişəm, özümə qapılıb ətrafdakıların məni başa düşməyəcəklərindən qorxmuşam. Bu da əsassız deyildi. Bəzən elə ruhsuz adamların mühitinə düşürdüm ki.

Bir dəfə qonşu qız-gəlinləri ilə moruq yığıb evə qayıdırdıq. Axşam çağı idi. Üzü, batan günəşə, kəndə tərəf gəlirdik. Batmaqda olan günəşin fonunda, dağların əhatəsində, yaşıllığa qərq olmuş kəndimizin heyrətamiz gözəlliyi göz qamaşdırırdı. Bu füsunkar mənzərədən vəcdə gələrək öz vurğunluğumu yanımdakı gəlinə bildirmək ehtiyacı duydum. O qəhqəhə çəkərək güldü və yanındakılarla məni məsxərəyə qoydu. «Bu da vurulmağa yer tapdı da. Bir şəhərə, zada vurula bilməzdin?» dedi. Onlar ruhumu, zövqümü, təbiətə vurğunluğumu dəyərləndirmədiklərindən, dediyim sözə görə məni peşman etdilər.

O vaxt mən təbiətin möcüzəli gözəlliklərindən duyğulananda onlar kiminsə qiybətini eləyir, başlarını qaldırıb bu sehirli mənzərəyə baxmır, baxsalar da görmürdülər. Mən gənclik illərimdə ən çox tənhalıqdan əzab çəkmişəm. Tənhalıqdan qurtulmağın yolunu mənəvi qovuşmada görmüşəm.

Məhz, Zeynəddin müəllimin simasında o duyğulu adamı gördüm, tanıdım, onu özümə dost, sirdaş, ömür yollarını birgə addımlamağa yoldaş gördüm. Mənən qovuşan insanlar, mənən zənginləşər, onların arasında daxili vəhdət, daxili birlik, əsil insanlıq münasibəti yaranar. Mən, onun üçün yaşayanda – özüm üçün yaşayıram. Bizim üçün birlikdə duyulmayan sevinc, sevinc deyildir.





Bəs ömrümdən keçən hansı günlərin geri qayıtmağını istərdim?

Əlbəttə ki, gənclik illərimi, tələbəlik illərimi! Həyəcanlı, duyğulu, arzulu günlərimi! Mənə elə gəlir ki, tələbəlik illərini yaşamayan insan, həyatda çox şey itirir. Mən əsl dostlarımı tələbəlikdə qazanmışam. Gənc yaşlarında insan təmənnasız olacaq qarşılığında heç nə gözləmədən dostlaşır. Həm də gənclərin mənən qovuşmağa daha çox ehtiyacı olur.

Taleyimdən razıyammı?

Həm hə, həm də yox.

Hə, ona görə ki, ta uşaqlıqdan ailədə, oxuduğum təhsil ocaqlarında və həyat yoldaşım tərəfindən sevimli və gərəkli olmuşam. Ona görə məni bir daha sayıblar, hörmət ediblər. Həyatımda heç zaman alçaldıcı vəziyyətə düşməmişəm. Alnıaçıq, üzüağ yaşamışam.

Ətraf mühiti qavramağa başlayandan duyğularımı, düşüncələrimi olduğu kimi kiminləsə bölüşmək, kiməsə etibar etmək ehtiyacı duymuşam. Məncə, heç kim başqaları ilə tam səmimi ola bilmir, hər kəsin qəlbinin dərinliklərində elə bir guşə olur ki, ora heç günəş işığı da düşə bilmir.

Ən dəruni və pünhan hisslərimi, duyğularımı özümdən başqa birisinə etibar etməmişəm. Bundan irəli gələn ehtiyacı ödəmək üçün ilk gənclik illərimdən gündəlik yazmağa başladım. Bu bir növ öz-özümlə söhbətə oxşayır. Lap uşaq yaşlarımda tək qalmağı sevirdim. Öz-özümlə dostluq edirdim. İçimdə ikinci bir «mən» varmış kimi, onunla danışar, onunla bölüşüb, dərdləşərdim. Adı gündəlik olsa da, bəzən günlərlə üzünü açmıram. Elə yazmaq xatirinə heç nə yazmıram. Yalnız ehtiyac duyandan

– duyana yazıram. Yazdıqlarım heç bir əhəmiyyət kəsb etməsə də, həmin anda mənəvi rahatlıq tapıram. Həyəcanlı vaxtlarımda məni sakitləşdirir, dərdli vaxtlarımda, müəyyən mənada təsəllim olur.

Gündəliyimi hələ heç kim oxumayıb. Ondan bir neçə yazımı nümunə üçün qeyd edirəm.

1 may 1980-cı il: Bayrama kəndə gəlmişəm. Bu gün evimizdə də əsil bayramdır. Qardaşımın bir oğlu da bu gün dünyaya göz açdı. Kəndimiz lalə bayramı keçirir elə bil. Hər yan qırmızıya çalır. Hər il olduğu kimi, bir qucaq lalə dərib gətirmişəm. Evimizin künc-bucağını lalələrlə bəzəmişəm.

7 dekabr 1981-ci il: M.F.Axundov adına kitabxana... Musiqi zalı. Mən çox kədərliyəm. Musiqi dinləyirəm, həm də yazıram. Qəlbimin naləsini, şikayətini segahın naləsinə qatıram. Habilin kamançası insan kimi dil açıb böyük bir qəmdən danışır, adi dillə deyilməsi mümkün olmayan şeyləri anladır...

Mən çox utanıram. Cılız duyğularımdan utanıram. Bu böyük qəmin yanında öz kədərim mənə çox kiçik, mənasız görünür...

«Bayatı Şiraz» sonra da «Çoban bayatı» Soltan Hacıbəyovun «Karvan»ı məni ağuşuna alıb uzaqlara, çox uzaqlara aparır. Musiqinin qüdrəti böyükdür! Adi halımda ucala bilmədiyim yüksəkliklərə, mən musiqi qanadlarında yüksəlirəm...

13 dekabr 1982-ci il: Ey mənim sirdaşım, ey mənim keçən günlərimin yadigarı! Hər səhifəsində ürəyim döyünən gündəliyim! Neçə vaxtdır sənin üzünü açmıram. Bəzən insanın deməyə sözü olmadığından susursa, bəzən də sözün çoxluğundan susur...





Bu günlər mənim həyatımda çox məhsuldar olub. Özümə əqidəli dostlar tapdığım, sənətimin sirlərinə yiyələndiyim günlərdir, bu günlər.

İndi 111 saylı orta məktəbdə pedaqoji praktika keçirəm. Bu gün VIII sinifdə «Cəbr»dən dərs keçmişəm. Dərsim əla keçib. Praktika rəhbəri metodist Sadıq Sadıqov məni çox təriflədi, dedi ki, mən bilikdə birinci olmasam da, metodikada birinci yerdə olacağam. Doğrudan da, məndə auditoriyanı tez ələ almaq qabiliyyəti var. Qəlbim fərəhdən qanadlanıb uçmaq istəyir. Mən bu peşəni çox sevirəm. Görəsən, dərs deməkdən, öyrətməkdən usanacağammı? Mən artıq öz uşaqlıq arzuma çatmaq üzrəyəm, müəllim olacağam!

Gör mən nə qədər məsul, müqəddəs bir sənətin sahibi olacağam. Mənə gələcəyimiz olacaq uşaqların təlim-tərbiyəsi tapşırılacaq. Bunun öhdəsindən gələcəyəmmi, bacaracağammı?

Yox, mən hələ çox oxumalı, çox öyrənməliyəm. Bunun üçün gecə-gündüz çalışmalıyam.

İlahi, ona görə mənə güc, qüvvət və öyrənmək yanğısı ver!..

17 mart 1982-ci il: Bu gün təyinat bölgüsü idi. Qusara, bir yer də yoxdur. Qusarlı uşaqlardan biri atasını gətirib, birisi dayısını. Mənim dalımca gələnim yoxdur. Yalnız ümidim Allahdır, sakitcə öz növbəmi gözlədim. Növbəm gələndə isə nazirliyin nümayəndəsi Nəcəf müəllim məni gah Zərdaba göndərirdi, gah da Kəlbəcərə. Mən isə dedim ki, mənim üçün fərqi yoxdur, onsuz da atam məni başqa rayonlara buraxmayacaq. Heç gözləmədiyim halda rektorumuz Afat Qurbanov sənəd qovluğunun üstünə «Qusar» yazdı. Nəcəf müəllim çaşdı, «axı

orada boş yer də yoxdur» – dedi. Afat müəllim amiranə bir səslə: «qız Qusara gedəcək» - dedi. Nə baş verdi? Bu vaxta qədər mənim üçün heç bir əhəmiyyət kəsb etməyən, yalnız rektor kimi tanıdığım bir insan mənim gözümdə birdən-birə ucaldı. İnsan ədalətlə rastlaşanda, təmənnasız yaxşılıq görəndə, xeyirxahlığın yer üzünü hələ də tərk etmədiyinə inanır...

Allah Afat Qurbanova rəhmət eləsin!

25-26 sentyabr 1982-ci il: gecədir. Bəyaz bir gecə. Aylı-ulduzlu, nurlu bir gecə. Bu gecə qədər də əsrarəngiz olan, ruha qanad verən musiqi dinləyirəm. Bütün bu sirli-sehirli heyət məndə pünhan duyğular yaradır.

Fikirlərim, düşüncələrim yuvalarından perik düşmüş quş kimidir. Pərakəndə düşüncələrimi tutub bir cığıra sala bilmirəm...

Doğma kəndimin gözəlliyinə söz ola bilməz. Demək olar ki, darıxmağa vaxtım da yoxdur. Sevdiyim işlə məşğulam. Çoxlu mütaliə eləyirəm. Lakin elə bir an yoxdur ki, əziz dostlarım üçün darıxmayım, onları xatırlamayım. Onlarla olduğum zaman bu bağlılığı belə dərindən duymamışam. Ayrılıq onlara olan məhəbbətimi, sevgimi daha da alovlandırdı. Sevincli anlarımda istəyirəm yanımda olasınız, sevincimə şərik çıxasınız. Kədərli vaxtlarımda sizi arzulayıram, qaçıb yanınıza gəlmək istəyirəm. Sizinlə olub qəlbimi ovundurmaq istəyirəm. Hələ də inana bilmirəm ki, həmişəlik ayrılmışıq, hərəmiz bir rayona düşmüşük. Elə bilirəm, bir gün hamımız Bakıya, elm-sənət ocağımıza, bizi birləşdirən əziz şəhərimizə dönəcəyik, bir yerdə olacayıq. Yeganəm, təkcəm, bircəm! Sonra da Tamam, heyrət ediləcək qədər saf, təmiz, əqidəli bir insan! Mehparəm, Sədayəm, İradəm,...







**Z.Çələbovun anası Cağa xanım**



**Z.Çələbovun bacısı oğlu Yaşar İslamov**



**Z.Çələbovun bacısı oğlu Fayəddin Paşayev**



**Z.Çələbovun bacısı oğlu Rəsul Paşayev**



Malik Ataşov



Arif Xəlilov



Əli Xəlilov



Hikmət Hüseynov







Soldan - Nisen dağı, sağda Şahdağ, Xuray, Suvacal və Ənix kəndləri



Zeynəddin Çələbov ana təbiəti seyr edərkən







Qusar şəhərindən bir görünüş



Elbrus Şahmar, Zeynəddin Çələbovla
üz-üzə söhbət zamanı



Soldan Z.Çələbov dostları ilə







Z.Çələbov xanımı ilə



Zeynəddin Çələbov və Hümmət Mehdiyev



**Z.Çələbov: - Məni yaşadan arzu və istəklərim, məhəbbətim və xeyir əməllərimdir.**



**Şahdağ - Suvar istirahət sahəsi**





Ciyərparalarım. Ah, yalnız indi duyuram əsil dostluq nədir, dostsuz yaşamaq necə də ağırdır!

Yalnız məktublarınızı aldığım günlər xoşbəxt oluram...

27 sentyabr 1982: Dərs dediyim məktəbin vəziyyəti məni çox kədərləndirir. Hər şey formal. Dərs var, dərsin keyfiyyəti, mahiyyəti yoxdur. Tərbiyə var, mahiyyəti yoxdur. Müəllim çoxdur, öyrədən, həqiqi bilik verən az. Dərs saatı üstündə bəziləri bir-birilərini qırır, müəllim adını, şərəfini qorumağı isə unudurlar.

Axı yazıq uşaqların nə günahı var ki, belə üzdəniraq mənəviyyatsızların əlinə düşür, onlardan «tərbiyə» alırlar. Bilirəm ki, bütün bu qara qüvvələrə qarşı durmaq, hər şeyə birdən-birə nail olmaq qeyri-mumkundur. Lakin göz görə-görə çirkinliyə dözmək dəhşətli dərəcədə əzablıdır.

30 sentyabr 1982-ci il: Bu gün şagirdlərimi daha yaxından tanımaq, onları daha yaxşı öyrənmək məqsədi ilə, onlarla gəzintiyə çıxmışam. Onlara tam sərbəstlik vermişəm, birlikdə gülür, danışır, söhbət edirik.

Uşaqlara baxıram, maskasız üzlər, riyasız təbəssümlər, həyalı sifətlər görürəm. Lakin onların tərbiyəsi elə əllərdədir ki, bu təmizliyi, həyatı sabah nə əvəz edəcək, demək çətindir. Ailədə onlara yalnız özləri üçün yaşamağın yollarını öyrədirlər. Bir çox məktəblər də, artıq nə bilik, nə də tərbiyə ocağıdır. Məktəb, çox vaxt bəzi «müəllim» adlanan, bu müqəddəs adı daşımağa layiq olmayan təsadüfi məxluqlar üçün, sadəcə, çörək ağacıdır. Onları nə uşaqların biliyi, nə tərbiyəsi, nə də taleləri düşündürür.

2 may 1983-cü il: Bu gün dağa getmişdim. Doğma çölləri, çəmənləri gəzib – dolandım. Bir dəstə bənövşə yığıb gətirmişəm. Elə gözəl ətri var ki. Onlar elə zərif, elə kövrəkdirlər ki. Onları dərdikcə qəlbim də riqqətdən titrəyirdi. Düz dörd il idi ki, ilk baharı Bakıda qarşılamalı olurdum. Elə bil heç nə dəyişməyib, hər şey dörd il bundan qabaqkı kimidir. Hər kolun dibindən, elə bil, uşaqlığım boylanırdı. Cığırlarda izimi axtarırdım. Burada hər kol, hər ağac mənə tanışdır…

19 yanvar 1985-ci il: Zeynəddinimə həsr etdiyim sətirlərdən… Mənim doğum günüm…

Mən dünyaya yalnız sənin üçün, səni sevmək üçün gəlmişəm, bunu bil!

Bu ömür sənindir, səninlə birlikdə olmaq üçün verilib mənə!

Bu ürək sənindir, gecə-gündüz o sənin üçün döyünür, onu başqasına verə bilmərəm, ondan imtina etsən belə!

Bu gözlər sənindir, onlar hər zaman, hər yerdə səni axtarır. Onların dərinliklərində yalnız bir varlıq yaşayır. O, sənsən! Onlar özgəyə baxa bilməz, özgəsi üçün onlar yaddır. Çünki, yalnız, sənə baxmaq üçündür. Sən onlara nəzər salmasan belə.

Bu təşnə dodaqlar sənindir! Onlar sənin yollarına uğurlar dilər, sənin üçün nəğmələr oxuyar, sirli sözlərlə pıçıldar.

Bu əllər sənindir, həyatım mənim! Onlar sənin yollarına qızılgül ləçəkləri səpmək, arxanca su atmaq üçün yaranıb. Onlar yalnız sənin pərişan saçlarını oxşamaq, sənin qayğını çəkmək üçündür.

Məndə nə varsa, hamısı sənin üçündür, eşqim, həyatım mənim!





Ah, gözlərindəki o ülvi kədəri qova bilsəydim! Amma yox, onu min cür hərcayı sevincə dəyişməzdim.

Həyatını səadətlə bəzəyə bilsəydim! Kaş, sənin qayğını çəkmək, sənin xidmətində durmaq həmişə mənim nəsibim olsun!

İlahi, məni bütün bunlara layiq elə!

Zeynəddin müəllim haqqında bir daha danışmaq, bir daha söz demək istəyirəm. Yanar ürək sahibi bir insan haqqında söz deməyə dəyər. Alovlu ürəyini məşəl edib, şagirdlərinin ömür yollarını işıqlandıran bir müəllim haqqında idi bu söhbət. Əsil insan, əsil kişi, əsil müəllim, əsil dost, əsil ömür-gün yoldaşı haqqında idi bu ürək çırpıntılarım. Ancaq onun haqqında nə qədər desəm də, nə qədər yazsam da ürəyimdən tikan çıxarda bilməyəcəyəm. Ona görə ki, o mənim dediklərimdən və düşüncələrimdən də çox-çox yüksəkdə, əlçatmaz, ünyetməz bir ucalıqda dayanır…»

Bir iman istəyirəm uğrunda baş qoymağa.

*Orxan Vəli*

Kökündən ayrılanın qol-budağı olmaz.

*Əfqan*

Hər cavab vaxtında verilsin gərək.

*Nizami Gəncəvi*

Səmimi söhbət ağıl üçün ən yaxşı məktəbdir.

*Vovenarq*

Sözü əgər anlamırsa dinləyən,
Söz deyənin təbi artmaz dünyada.

*Sədi Şirazi*

Hər söz öz yerində olur çox gözəl.

*Nizami Gəncəvi*

Azərbaycan musiqi baxımından Şərqin İtaliyasıdır.

*Səid Nəfsi*
*Fars şairi və alimi*

Həkimlik mənim kəbinli arvadım, ədəbiyyat isə sevgilimdir.

*A.P.Çexov*

Almaniyanın özünün böyük şairləri var, lakin Nizami Gəncəvinin qarşısında onlar nədir ki!

*Henrix Heyne*

Eyni dildə danışanlar deyil, eyni duğluları bölüşənlər razılığa gələr.

*Cəlaləddin Rumi*

# Xatirələr işığında

Dünya bir işvəli gəlinə bənzər.

*Əhməd Xani*

Su kimi bir şeydi bu dünya.

*«Quran» kəhr surəsi, 45-ci ayə*

Düzəlsə bu dünya atama lənət.

*H.Arif*

Bu amansız və rəhmsiz dünyada yalnız kobud və kütbeyinlər qalib gəlir.

*K.Trans. alman yazıçısı*

Mən Allaha açıq və sadəcə iman gətirmişəm, Lakin mən Allahın bu dünyasını qəbul etmirəm.

*F.Dostoyevski*

Məncə belə bir şeyi həqiqət hesab etmək olar ki, bizim hərəkət və əməlimizin yarısına tale ağalıq eləyir, lakin o biri yarısı bizim öz ixtiyarımıza verilir.

*Şarl M. Fransız filosofu*

Maarifdən, elmdən məhrum bir xalq işıqdan məhrumdur.

*H.b.Zərdabi*

Səhvlərinizi aşkar edən düşmən, onları örtbasdır edən dostdan yaxşıdır.

*L.Vinçi*



# DOĞMALARIN DOĞMA SÖZÜ

Dağ qartalının bir xüsusiyyəti var, nə qədər yüksəklikdə qanad çalsa da, bir gözü həmişə öz yuvasında olar.

**Kamran Hüseynov**

Mədəni və qabaqcıl ailə mənəvi zənginliyi, əxlaq saflığı və fiziki kamilliyi ahəngdar surətdə özündə birləşdirən yeni insan tərbiyəsində mühüm rol oynayır.

**Əbdül Əlizadə**

Bu gün hər tərəf qar örtüyünə bürünüb. Belə bir gündə, 2011-ci il noyabrın 16-da biz – mən, ömür yoldaşım Raya xanım, Zeynəddin müəllim və həyat yoldaşı Şərqiyyə xanım Hil kəndinə Şərqiyyə xanımın atası, 85 yaşlı Rəcəb Eyyub oğlu Qayıtmazovun evinə getdik. Bütün ailə üzvüləri bizi xoşüzlə qarşıladı. Bir neçə saat qonağı olduq Rəcəb kişi ilə, ötənlərdən – keçənlərdən söhbət saldıq. Onu da deyim ki, **Rəcəb Eyyub oğluna göstərilən yaşı vermək olmazdı**, maşallah, çox gümrah və cavan görünürdü, yaddaşı hələ də ona ögeylik etmirdi, bir qədər də yumorla danışmağı xoşlayırdı. Arada Zeynəddin müəllimdən, onun Şərqiyyə xanımla izdivacından söhbət saldım. Sözlərimdə Zeynəddin müəllimin bir qədər yaşlı olması eyhamını hiss edən ağsaqqal qayıdıb belə bir söz də işlətdi: - qızı başıpapaqlıya ərə verərlər. O başıpapaqlıya ki, kişi adam olsun, dediyi sözə ağalıq etsin, öz milçəyini qoruyan olmasın, el qayğısı, ailə qay-

ğısı çəkən olsun, hər işində elinə-obasına arxalanan olsun. Ona görə də mən həmkəndlimiz, böyük alim kimi ad-san qazanmış Kərim Kərimovla elçiliyinə gələn Zeynəddin əmioğluya yox demədim, bu xeyir işə ürəkdən xeyir-dua verdim.

**Sonra üzümü ailənin böyük oğlu Eyyuba tutdum,** Zeynəddin müəllim barədə fikirləri ilə maraqlandım. O da gülə-gülə qayıdıb dedi ki, düzü mən o vaxt Şərqiyyənin Zeynəddin müəllimə ərə verilməsinə razı deyildim. Hətta bunu eşidəndə, necə deyərlər daş atıb, başın tutdum. Bu narazılığım isə onların arasında olan yaş fərqinə görə idi. Sonralar Zeynəddin müəllimi daha yaxından tanıyandan və bacımı onunla xoşbəxt olmasını görəndən sonra səhv etdiyimi anladım. Onu da deyim ki, Zeynəddin müəllim də atam kimi mənim ağsaqqalım, yol göstərənimdir.

**Zeynəddin müəllimin Qubanın Aşağı Xuc kəndində yaşayan bacısı oğlu Fayəddin Seydulla oğlu Paşayevin qonağı olub, onunla və onun qardaşı Rəsulla söhbət etdim, dayıları barədə ürəkdolu sözlərini dinlədim.** İki qardaş dayıları barədə fəxarətlə danışdılar, onu güman yeri, uman yeri, güvənc yeri, dayaq yeri bildiklərini dönə-dönə vurğuladılar. Və bir daha dedilər ki, biz hər zaman Zeynəddin kimi dayımızla fəxr etmişik, elə bir ağsaqqalımız olduğuna görə Allaha şükran olmuşuq.

Yaşadığı Aşağı Xuc kəndindəki orta məktəbdə direktor müavini olan və tarix fənnindən dərs deyən Rəsul müəllim belə bir söz də dedi: - Ailənin ruzusuna görə bir Allahıma, yerdə isə Zeynəddin dayıma borcluyam. Onun boynumda haqqı çoxdur. Dayım ali təhsil almağımda mənə dayaq olub. O illər tez-tez məndən xəbər tutub, maddi və mənəvi köməkliyini məndən əsirgəməyib.





Sonra ev sahibi, kənddə fermer təsərrüfatı ilə məşğul olan Fayəddin dayısı barədə odlu-alovlu danışmağını davam etdirdi:

- Mənim dayımdan olmaz, o bir dənədi. O, təkcə mənim dayım deyil, bizim bölgənin dayısı və ağsaqqalıdır. Dayım həmişə haqqın tərəfində olub və həmişə də haqqı pozulanlara öz imkanı daxilində köməklik edib, onlara arxa-dayaq olub. Elə ona görə də məni tanımayanlar arasında dayımın adı çəkiləndə, çəkinmədən və fəxrlə demişəm ki, Zeynəddin Çələbov mənim dayımdı.

Bəli, Zeynəddin kimi dayımın olmasını Allahımızın bizlərə verdiyi böyük töhfəsi hesab edirəm. Bu ahıllaşan çağında onun qayğısını çəkmək, xidmətində durmaq bir bacıoğlu, nəhayət bir kişi kimi bizlərin müqəddəs borcudur.

**Vacib Rəcəb oğlu Qayıtmazov Şərqiyyə xanımın kiçik qardaşıdır.** O, 1962-ci il, oktyabrın 2-də Hildə anadan olub. Vacib adı çəkilən internatda və doğma kəndində oxuyub, orta təhsil alıb. Ailəlidir, elektrik ustası kimi Qusar şəhərində işləyir.

Mən vaxt tapıb onunla da görüşdüm, Zeynəddin müəllim barədə ürəyimdən su içən səmimi sözlərini eşitmək istədim. O da sorğuma böyük ehtiramla cavab verdi:

- Mən də böyük qardaşım Eyyub kimi, bacımız Şərqiyyənin Zeynəddin müəllimə ərə verilməsinə razı deyildim. Ancaq sonralar fikrimdə xəta etdiyimi anladım. Onu da deyim ki, həmin fikrimin bu gün də xəcalətini çəkirəm. Mən Zeynəddin müəllimi daha yaxından tanıyandan sonra gördüm ki, o, həm qohumcanlı, həm ailəcanlıdı. Üstəlik də Zeynəddin müəllim el-oba üçün, onun xoş günü üçün hər bir çətinliyə dözən, bu yöndə həqiqəti

deməkdən çəkinməyən xeyirəməl sahibidir. Mən Zeynəddin müəllimlə qürur duyuram və hər zaman onun xidmətində durmağa, ona kiçiklik etməyə hazıram.

**Klara Eyyub qızı Saruxanova** Zeynəddin müəllimin qaynı qızı, Şərqiyyə xanımın kiçik bacısıdır. O, 1977-ci il, iyunun 29-da Hil kəndində anadan olub, hal-hazırda Hilobada yaşayır, ailəlidir. Klara xanımla da Zeynəddin müəllimin evində görüşüb söhbət etdik. Mən onun Zeynəddin müəllim barədə böyük istək və məhəbbətlə danışmasının şahidi oldum. Yalnız atasını sevən, ata haqqında belə səmimiyyətlə danışa bilərdi: - Mən 14 yaşımdan özümə ikinci ata bildiyim Zeynəddin müəllimin evində yaşamışam və yaşadığım müddətdə ondan heç vaxt ögey münasibət görməmişəm. Həmişə mənə ata nəvazişi göstərib, təhsilimlə, geyim-keçimimlə maraqlanıb. Onu özümə ata kimi yaxın bilsəm də, ondan çəkinmişəm, danışığıma, oturub-durmağıma, mütaliə etməyimə, geyimimə qarşı diqqətli olmuşam. Ona görə ki, o, mülayim olduğu kimi, zəruri hallarda sərt və tələbkar da olurdu. Hərdən Hilə gedəndə avtobusla getməyimə icazə verməzdi, sanki məni yad gözlərə qısqanardı, özü məni maşınla kəndimizə aparardı. Onu da deyim ki, heç vaxt onun sözündən çıxmazdım, bilirdim ki, dedikləri mənim xeyirimədi. Az-az adam Zeynəddin müəllim kimi qonaqlı-qaralı olar. Evinə qonaq nə vaxt gəlibsə onu çox şən və xoşbəxt görmüşəm. Qonağı olmayan günlərdə isə kədərlənərdi, əhvalı xoş olmazdı. Sanki o, qonaqlarla, dost-tanışlarla nəfəs alırdı. Deyirdi ki, qonaq gəlməyən evə dərd-bəla asanlıqla ayaq açar.

Mən ailə həyatımı da Zeynəddin müəllimin xeyir-duası ilə qurmuşam. O, toyumda bir ata kimi doğmalıq





göstərib, toy mərasiminin yüksək səviyyədə keçməsi üçün özünü oda-közə vurub hər şeyə özü nəzarət edib.

Allah Zeynəddin müəllimi biz qohum-əqrəbasinə, dost-tanışına, el-obasına çox görməsin, ömrü uzun və gümrah olsun!

**Müsahibim Şərqiyyə xanımın bacısı Sveta Əliyevadır.** O, 1965-ci il avqustun 13-də Hil kəndində doğulub, natamam orta təhsilini internatda, orta təhsilini isə Hildə alıb.

O, 1991-ci ildə ailə həyatı qurub, köhnə Xudat kəndində yaşayır. Sveta xanımla da Zeynəddin müəllimin evində söhbətləşdik.

**İlk sualım belə oldu: - Sveta xanım, sizə görə Zeynəddin Çələbov kimdir?**

- Zeynəddin müəllim özü üçün yaşamayan, başqası üçün yanan xeyirxah bir insan, bacarıqlı rəhbər işçi, onu tanıyanların ağsaqqalı, ailəcanlı, qonşucanlı, elcanlı, dövlət və dövlətçiliyə sədaqətli vətəndaş, dosta dost, düşmənə düşmən olan bir şəxsiyyət və seçdiyi müəllimlik peşəsinə sədaqətli olan bir pedaqoqdur.

Bir vaxt internatda təhsil almağım da Zeynəddin müəllimin orada direktor olmasından irəli gəlib. Atam deyərdi ki, nə qədər ki, Zeynəddinin yanında oxuyub-yaşayırsan, demək səndən nigaran qalmayacam. Ona görə ki, Zeynəddinin övladlarıma olan rəftarı mənən də üstün və bəyənilәsidir.

İnternatda oxuduğum illərdə Zeynəddin müəllimin dəfələrlə şagirdlərlə birlikdə eyni qazandan çəkilən xörəyi yeməyinin şahidi olmuşam. Onun belə münasibəti biz şagirdlərin ürəyindən olardı, onu gözəl müəllim və qayğıkeş valideyn simasında görərdik. İnternatda şagirdlərin

normal təhsil almaları da, yemək-içməkləri də, sağlamlıqlarının qorunması da arzuolunan səviyyədə idi. İnternatda şagirdlərin pal-paltarını tikmək və vaxtından əvvəl cırılıb-sökülən paltarların yararlı hala salınması üçün dərzilər də fəaliyyət göstərirdi. Bir çox şagirdlər evlərində görmədiyi qayğı və təminatı internatda görürdü, ona görə də onlardan neçəsi istirahət günlərində də evlərinə getmək həvəsində olmazdı. Belə halın özü bir daha Zeynəddin müəllimin halallığından, uşaqlara, ümumən insanlara olan doğma və səmimi münasibətindən irəli gəlirdi.

Mən sonralar da təhsilimi bir daha Zeynəddin müəlliminköməkliyi və qayğısı ilə davam etdirmişəm. Yadımdadır, bir dəfə xəstələndim, özü məni Bakıya aparıb, müalicə elətdirdi, şəfa tapmağım üçün xeyli xərc çəkdi. Dəfələrlə mənə xərclik verdiyi, yaşadığım ünvana pay göndərdiyi vaxtlar olub. Toyum da onun xeyir-duası ilə başlayıb.

Mən, ömrüm boyu Zeynəddin müəllimin mənə etdiyi yaxşılıqları unuda bilmərəm. Axı, onları unutmaq ən böyük nankorluq olardı. Allah bizləri ondan saxlasın.

**El arasında belə bir deyim var, filankəs canlara dəyən oğuldur. O mənada Zeynəddin müəllimin rayonun Gədəzeyxur kəndində yaşayan bacısıoğlu Yaşar İslamoğlu İslamovu da canlara dəyən oğul kimi tanıdım, onun dayısına olan qədirbilənliyinə, səmimiyyətinə, istək və məhəbbətinə qəlbən inandım və fikirimdə yanılmadığıma da əmin oldum.**

Mən Yaşarla bir neçə dəfə görüşdüm – dayısı Zeynəddin müəllimin və bir də onun Gədəzeyxur kəndindəki evində.





O gün 2011-ci il dekabrın 15 idi. Mən, həyat yoldaşım Raya xanım, Zeynəddin müəllim və onun könül verib könül aldığı Şərqiyyə xanımla birlikdə Zeynəddin müəllimin maşınında Yaşargilə gedəsi olduq. Zeynəddin müəllimin gözündə cərrahiyyə əməliyyatı aparıldığından maşını mən sürürdüm.

Artıq, qırovlu payız öz köçünü sürüb yerini qışa verən çağı idi. Biz dağ yuxarı qalxıb dərə-təpələri aşdıqca, dağların çiyninə qonmuş duman da getdikcə çəkilirdi. Sanki bununla da qonaqpərvərliyini göstərirdi. Və bütün xoş görüntülər ürəyimdən qələm dostumuz Şuruyənin bir bənd şeirini qanadlandırdı.

*Baharına vurulduğum dağların,*
*Payızına, qışına da qurbanam.*
*Güllərindən pay umduğum çöllərin*
*Torpağına, daşına da qurbanam.*

O gün Yaşarın atası İslam kişi ilə və bütün ailə üzvləri ilə tanış olduq. Ev sahiblərinin xoş üzləri, xoş münasibətləri məni də, ömür yoldaşımı da doğmalaşdırdı o ailəyə.

Bir dəfə Yaşarla Zeynəddin müəllimin evində görüşəndə, artıq ılıq qış havası idi, bəmbəyaz qar yağırdı. Adam könül ovlayan bu mənzərəni seyr etdikcə ruhu dincəlir, ürəyi bir daha yaşamaq həvəsində olurdu.

Yaşarla söhbət edərkən əlimdə qələm, qarşımda ağ vərəq yox idi. Sözarası dayısının adını çəkdim. Sanki Zeynəddin adı Yaşarın sir-sifətində və gözlərində pardaqlanmış gülə döndü. Böyük bir təhsil görməyən ömrü boyu dağ kəndində yaşayıb, təsərrüfatla, əkin-biçinlə,

heyvandarlıqla məşğul olan bu boylu-buxunlu oğlan sözümdən xoşhal oldu.

Bu başdan deyim ki, Yaşarın dediyi sözlər ürəyimdə və yaddaşımda dərin iz qoydu, söz adamı olmasa da sözləri qəlbimi sehrlədi. Dediklərim həqiqətdir. Doğurdan da elə möhür ifadələr var ki, o qəlbində ömrün boyu yurd-yuva salır.

Sən demə ürəkdən deyilən sözün təsir gücü də çox olarmış.

Mənə mehriban nəzər yetirən Yaşarın ilk sözü belə oldu: «Mən dayımı təkcə ona görə çox istəmirəm ki, o, mənim dayımdı. Ona görə çox istəyirəm ki, o, kişi adamdı. Heç kimi təkrarlamayan, həmişə özü olan insandı.»

Onun sözləri məhəbbət dolu yanar bir ürəyin odlu püskürməsiydi deyərdim: - Ürəyimdə nə qədər dəyərli fikirlər varsa hamısını dayımın ünvanına deyərdim. Heyf ki, söz adamı deyiləm. Dayım mərd adamdı, acizin, haqqı tapdalananların havadarıdır. O el adamıdı. Xeyirxah olduğundan hörmətə layiq kişidi. İnanın ki, dayım barədə nə qədər xoş söz desəm də azdır. Dayımın gözləri biz qohum-əqrabanın üstə olub həmişə. Onun evini doğma evimiz bilmişik. Neçəmiz bu evin, bu ocağın istisində qızınmışıq. Dayım yaxın qohumlarımızdan olan neçə-neçə qız köçürüb ər evinə, Şərqiyyə xanımla bir yerdə xeyir-dualarını verib, dolanışıqları üçün pay veriblər. Eləcə də neçə-neçə qohum oğlanların toyunu ediblər. Dayım imkanına görə kimliyindən asılı olmayaraq ondan kömək umanların hər birinə əl tutub, hayan olub. Dayımın mənim də boynumda haqq-sayı çoxdu. Bu haqq-say nə ölçüyə gələndi, nə də ki saya.





Dayım ələbaxan yox, eləbaxan kişidi. Allah dayıma uzun ömür versin ki, bizlər də onun etdiklərinin müqabilində ürəyimizcə xidmətində dura bilək, nəsə bir şey edə bilək. Allah Cağa nənəmə və Ramazan babama min rəhmət eləsin ki, dayım kimi oğul dünyaya gətiriblər.

Son olaraq deyim ki, Allah dayımı, onun qədrini bilən bizlərə çox görməsin!

Sual da bilgidən doğar, cavab da.

*C.Rumi*

Nə qədər bilirsən bil, söylədiklərin qarşındakının anlaya biləcəyi qədərdir.

*C.Rumi*

Hər gülüşə vardım ləkəli gördüm,
Hər vicdana girdim kölgəli gördüm.

*Hüseyn Cavid*

Söz var kəsdirər başı. Söz var kəsər savaşı.

*Ş.İ.Xətai*

Hər şeydən yüksəkdir sözün məqamı.

*M.Füzuli*

Söz dünyanın naxışıdır.

*Nizami Gəncəvi*

İnsandan qalacaq sözü yadigar.

*Nizami Gəncəvi*

İsgəndərin zülmətdə tapa bilmədyini ağ kağız üzərinə qara mürəkkəblə yazılmış kitablarda tapmaq olar.

*Hümam Təbrizi*

Sözün qüdrətini söz qanan artırar.

*Ə.Firdövsi*

Kitabı müzakirəyə vermək yol qırağında ev tikmək kimi bir şeydir, hər ötən bir söz deyər.

*M.S.Ordubadi*

# Dost sözü

Pulu hər şeyə qadir edən adamlar özləri pul üçün hər şeyə qadirdir.

*Dante*

Vədinə əməl etməyən adam etimada layiq deyil.

*Zərdüşt*

Həqiqətin alovu onu aparanın əlini tez-tez yandırır.

*Dante*

Hər bir adam öz dilinin arxasında gizlənir.

*Həzrət Əli*

Ləkələnməmiş ürəyi qorxutmaq çətindir.

*V.Şekspir*

Əməlsiz cənnət istəmək günahdır.

*Məruf Kərxi*

Bünövrəsi boş olan bu dünyada doğruluq, əhdə vəfa axtarma.

*Hafiz Şirazi*

Mən həyatın bütün zövq səfasından istifadə edə bilərəm. Lakin mənim bütün qəlbim, fikrim iztirab çəkənlərin yanındadır.

*V.Hüqo*

Ağıllı sual elmin yarısıdır.

*Məhəmməd peyğəmbər*



# ÜRƏKDƏN SU İÇƏN XATİRƏLƏR

Mənim boynumda bir kimsənin haqqı varsa, o haqqı heç vaxt unutmadım. Bir kimsə ilə tanış oldumsa, o kimsə heç vaxt diqqətimdən kənar olmadı.

**Əmir Teymur**

Mən insanlar arasında münasibətdə həmişə dostluq və səmimiyyət axtarıram.

**Mirzə Kazımbəy**

Sevgi hissi və duyğusu insanda ən ali, ən ülvi duyğudur. Belə bir ülvi keyfiyyətlər kimdə yoxdursa, onun, «mən insanam» deməyə də haqqı yoxdur. Sevgi var ki, onu pünhan yaşadırsan, sevgi də var ki, onu ətrafında olan, səni tanıyan, səninlə münasibətdə olan hər kəs, sözün və əməlinlə tanıyır, onu təqdir edir. Bu sevgi Allahına, Vətəninə və xalqına olan sevgi və məhəbbətdir. Belə ali duyğuların daşıyıcıları harda, hansı vəzifədə, hansı imkanda, hansı yaşda olmasından asılı olmayaraq yüzlərin, minlərin, milyonların arasında seçilir, sayılır və sevilirlər. Elə insanlar öz əməlləri və fəaliyyətləri ilə, təkcə özünə, ailəsinə, dost-tanışına deyil, ümumən el-obası üçün, xalqı üçün yetərli işlər görür. Onu da deyim ki, elə insanların həyat yolları da həmişə çətinliklərdən keçib,

zaman-zaman həyatın boz üzünü görüb, sonda isə savab yiyəsi kimi alqışlanıb. **Elə insanlardan biri də, əsərimizin qəhrəmanı Zeynəddin Çələbovla 60 ildən çox ünsiyyətdə olduğu, tələbə yoldaşı Aydın Babayevdi.** Onun Zeynəddin müəllim barədə deyəcəyi ürək sözlərindən əvvəl özünü bir neçə sözlə oxucularla tanış edirəm:

Aydın Heydər oğlu Babayev respublikamızda yetərincə tanınan bir simadır. O, 1930-cu ildə Qərbi Azərbaycanımızın Vedibasar bölgəsinin Yengicə kəndində anadan olub. Aydın Babayev bir sıra məsul vəzifələrdə çalışmış, cavan vaxtlarında idman yarışlarında fərqlənmiş, güləş üzrə respublikamızda dəfələrlə birinci yerə çıxmışdır. O, həm Azərbaycan Bədən Tərbiyəsi institutunda, həm də Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsində Zeynəddin müəllimlə eyni vaxtda təhsil alıb.

Aydın Babayev tələbə yoldaşı barədə az danışdı, ancaq ürəkdən danışdı, sözləri əzizləyə-əzizləyə dedi:

«İnsan ömrünün ən gözəl, ən qaynar, ən arzulu və iddialı çağları tələbəlik günləri, ayları, illəridir. Heç fərq etməz, istər o illərdə ehtiyac içində yaşa, istərsə də təminatlı ol. Məni o illərdən ayıran zaman 60 ilə bərabərdir. Bununla belə onlar elə bil bir neçə il bundan əvvəl olub. Sanki əl uzatsan o illərin yaxasından yapışarsan. Çox təəssüf ki, bu, istəkdən, dünyaya məhəbbətdən irəli gələn duyğulardan doğan bir haldır. Bir şeyə təəssüflənirəm ki, o illərdən yaddaşımda qalanlar çox azdır. Ancaq Zeynəddin Çələbovla bağlı olan günlərim unudulmazdır. Bəlkə də bu ondan irəli gəlirdi ki, hər ikimiz sadə bir ailədən çıxmışdıq və hər ikimiz də ehtiyac içində yaşamışdıq. Vaxt olub doyunca yeməmişik də. Ancaq Bədən Tərbiyəsi institutunda oxuyanda idmanı böyük bir yanğı ilə sevmişik, əla idmançı olmaq üçün gecə-gündüzümüz olmayıb, müntəzəm olaraq məşqlərdə olmuşuq. İdmanı həm nəzəri, həm də təcrübü baxımdan mənimsəmək istəmişik və hər ikimiz də buna nail olmuşuq – yarışlarda fərqlənmişik. Məndən fərqli olaraq Zeynəddin bir balaca davakar idi. Kimlərəsə sataşmazdı, artıq-əskik söz deməzdi, ancaq kimsə ona sataşanda qabağından qaçmazdı, elələrinin layiqli payını verərdi. Əgər tələbə yoldaşlarımızdan kimsə kiminsə hədəsinin hədəfi olsaydı, o vaxt Zeynəddin işə qarışar, öz sözünü deyərdi. Tale elə gətirdi ki, illər keçəndən sonra biz yenidən tələbə yoldaşları olduq, Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsində qiyabi təhsil aldıq. Ancaq o illər mən ondan bir neçə kurs əvvəl oxuyurdum.

İndi hər ikimiz ömür adlı bir dağın zirvəsinə üz tutmuşuq. O zirvənin ömrü 100 illə ölçülür. Bəlkə də bir neçə il də artıq. Allah bizi bir daha o zirvədə görüşdürsün!»

* * *

**Hərbiçi polkovnik Şair Ramaldanovla onun iş yerində görüşüb dostumuz Zeynəddin Çələbov barədə ürək sözlərini qeyd elədim.** Kitabın ön səhifələrində onun barəsində məlumat verdiyim üçün bu səhifədə bir daha məlumat verməyi uyarlı bilmədim. İndilikdə isə Şair Ramaldanovun Zeynəddin müəllim barədə dediyi ürək sözlərini eşidək:

- Mən son 5-6 ildə Zeynəddin Çələbovla yaxın ünsiyyətdə olmuşam. Aramızda yaş fərqi çox olsa da söz-söhbətimiz həmişə tutub və onu dostlarımın sırasında ağsaqqallıq zirvəsində görmüşəm. Dediyim o zirvəni sözü

ilə əməlinin bütövlüyünə, xeyirxahlığına, ədalətli olmasına, mərdliyinə və kişiliyinə, dostcanlı, qonaqlı-qaralı olmasına görə fəth edib. Dövlətimizi və dövlətçiliyimizi də vəzifələrdə olanda qoruyub, kimlərinsə ona kölgə salmasına imkan verməyib. Zeynəddin Çələbov özündən daha çox el-obasına yanımlıdır. Və ömrü boyu bütün mübarizələri, çalışqanlığı, fədakarlığı, heç bir vəzifə sahiblərinin qarşısında çəkinmədən söz deməsi də həmin amalından irəli gəlir. Dəfələrlə şahid olmuşam ki, kimlərsə onun yanına gəlib doğma bir adam kimi dərdsərini, problemlərini ona danışıb, ondan tövsiyələr alıb, yaxud da onun özünün işə qarışması nəticəsində həmin şəxsə qarşı olan haqsızlığın qarşısını alıb. Onu da deyim ki, ona üz tutanlar bütün məqamlarda istər gecə olsun, istər gündüz, istər toy məclisi, istər yas, istər süfrə ətrafında olsun, istərsə də rəsmi məclisdə fərq etməyib, çəkinmədən sözlərini deyiblər. Onu da deyim ki, Zeynəddin müəllim seçilmiş insanlardandır, sözü üzə deyəndir, həmişə də yaxşı dost sorağında olandır. Tarixçi olduğundan, mütaliə etməyi də sevəndi. Onu da deyim ki, Zeynəddin müəllim azərbaycanlılarla ləzgilər arasında dostluq meyarıdı. Və bu dostluğa kəc baxanların düşmənidir. Bütün bu dəyərli insani keyfiyyətlərinə görə, o, el-oba arasında böyük nüfuza malikdir. Mən bayaq dedim ki, biz 5-6 ildir ki, dostluq edirik. Onu da deyim ki, həmin zamanın dəyəri 50-60 ilə bərabərdir. Mən ailəmlə onun,o da bizim qonağımız olub. Və elə vaxtlarda bir ailənin üzvü kimi oluruq, bir-birimizə ərk eləyirik, şirin-şirin söhbətlər edirik, birdən yavan çörək də yesək bal dadır. Vaxt olub məndən də kimlərinsə xahişini edib Zeynəddin müəllim və mən də imkanım və səlahiyyətim





çərçivəsində həmin işin qanuni həllinə köməklik göstərmişəm. Elə vaxtlarda məndə böyük bir əminlik olub ki, Zeynəddin müəllim kimin xahişini edirsə, demək həmin adamın hüququnu təmənnasız olaraq müdafiə edir. Zeynəddin müəllimdə dediyim insanı deyərlər olduğundan yüzlərin, minlərin içindən seçilir. Ona görə də, o, mənim dostum olmaqla bərabər həm də ağsaqqalımdı. Allah bizləri ağsaqqalsız qoymasın.

* * *

**Ramiz Qusarçaylı əslən Qusarın Yasar kəndindəndir.** 1958-ci ildə Qubanın Çartəpə kəndində anadan olub. Azərbaycan Politexnik institutunun mexanika və Moskvada Dövlət Sosial Universitetinin hüquq fakültəsini bitirib. O, bir sıra vəzifələrdə çalışıb. Hazırda Quba rayon İcra Hakimiyyətində işləyir. Ramiz Qusarçaylı Azərbaycan Yazıçılar Birliyinin üzvü və həmin birliyin Quba bölməsinin sədridir. Eyni zamanda Qubada yerləşən «Ay işığı» ədəbi məclisinə də rəhbərlik edir. 2009-2010-cu illərdə Prezident təqaüdçüsü olan Ramiz Qusarçaylı bir neçə kitabların müəllifidir. Və onun kitabları bir neçə dildə də çap olunub. Onu da qeyd edim ki, şairin bir neçə şeirinə mahnılar bəstələnib və tanınmış müğənnilər tərəfindən ifa olunur.

Oxucu diqqətinə çatdırılan «Vətən oğlu» başlıqlı yazıda isə Ramiz Qusarçaylı, Zeynəddin Çələbova olan dostluq və qardaşlıq duyğularını böyük məhəbbət və ehtiramla qələmə alıb. Gəlin tanış olaq:

«Uşaqlığım Qusarçayın sahillərində, təbiətin əsrarəngiz guşəsi olan Qusarın ətrafındakı cənnətməkan yerlərdə keçib. Tez-tez yolumu saldığım Qusarın mərkəzi parkı, hər oxucunun könlündə bədii duyğular yaradan

kitab köşkləri, bazar ətrafı yamyaşıl meşələri, Hil – Yasab yolunun ağzındakı güllü-çiçəkli yamaclar, Ləzə yolunun hər iki tərəfində yerləşən zövq oxşayan mənzərələr, Qazan bulağına aparan yolların bənzərsiz lövhələri, Qarabulaqla Qayabulağın qovuşuğundakı ürəkləri riqqətə gətirən görüntülər həmişə məni valeh edib.

İlk misralarımın mayası yoğrulan bu ərazidə tarixən dağ cüssəli, üzünün qırışlarında qədim tarixi əks etdirən nişanələr gəzdirən ağsaqqal el adamları həmişə diqqətimi cəlb edib. Belə ağsaqqallardan biri respublikanın ictimai-siyasi həyatında özünəməxsus iz qoyan, sözün həqiqi mənasında bir ziyalı kimi el adamına çevrilən Zeynəddin müəllimdir.

Zeynəddin müəllimi ilk dəfə görəndə içimdə qəribə hisslər baş qaldırmışdı, elə bilirdim ki, bu adam əsrlərin o üzündən ədəb-ərkanı, qabiliyyəti, nadir mədəniyyəti, uzaqgörənliyi, xalqın adət-ənənələrindən doğan xəlqiliyi, sadəliyi, eyni zamanda sadəlik içində böyük və mürəkkəb ideyalar toplumunu əsrlərin bu üzünə daşımaq üçün yaranıb. Doğulub boya-başa çatdığı yurduna olan məhəbbətini Vətənləşdirə bilən, Vətənləşən sevdalarını bəşəri hisslərə kökləyib dünyəviləşdirən bu çoxşaxəli fəaliyyətə malik ziyalımız ötən əsrin 80-ci illərində nəinki Qusarda, eləcə də bütün bölgənin ictimai, siyasi və mədəni həyatında önəmli rol oynayırdı, bu fəaliyyət 90-cı illərdə pik nöqtəsinə çatmışdı.

Ağsaqqallıq istənilmir, əldə edilmir, təqdim olunmur, Allah tərəfindən əta edilir. Zeynəddin müəllimə əta edilən ağsaqqallıq bir bölgənin xoşbəxtliyi, özü də Azərbaycanda separat qrupların at oynatdığı bir dövrdə bir respublikanın xoşbəxtliyi idi. Bu ağsaqqalın nüfuzu ətrafında





çox oyunlar öləzidi, çox siyasi tələlərə günahsız canlar düşmədi, düşmənlərin məkr və fitvaları qısır qaldı, şimaldan, eləcə də digər istiqamətlərdən bölgəyə göndərilən «siyasi kəndirbazlar»ın qara niyyətləri lillənib ürəklərində qaldı, bölgənin vətənpərvər və hər cəhətdən sağlam ailələri bu qara əməllərə bələnmiş imtahanlardan kəsirsiz və üzüağ çıxdı. Çünki el ağsaqqalı Zeynəddin müəllim doğma Azərbaycanımızın müstəqilliyini, ərazi bütövlüyünü və işıqlı gələcəyini öz vicdan normalarına çevirən digər qusarlılarla birlikdə bölgəni bu oyunlardan qorumağı bacardı.

1992-ci ilin qışı idi. Bölgədə qarışıq siyasi hava yaratmaq istəyən qüvvələr fəallaşmağa cəhd edirdi. Zeynəddin müəllimin rayon icra hakimiyyətinin başçısı olduğu bu dövrdə rayonun inzibati orqan rəhbərlərindən birinin nənəsinin erməni olduğu yerli ziyalılara məlum idi. Vətənin dar günündə, Qarabağda qızğın döyüşlərin getdiyi bir vaxtda həmin adam guya ləzgi xalqına olan böyük məhəbbətini ləzgilərin əsgərliyə getməsinin qarşısını almaqda görürdü. Bu mövqe təbii ki, yerli sakinlər kimi Zeynəddin müəllimi də möhkəm qəzəbləndirmişdi. Odur ki, tez bir zamanda ölkə rəhbərliyinin göstərişi ilə həmin adam Qusardan uzaqlaşdırıldı.

Həmin dövrdə bölgənin kənd və qəsəbələrində iclaslar, yığıncaqlar, müşavirələr keçirilirdi. Belə iclasların bir neçəsində bir yazar və jurnalist kimi mən də iştirak etmişdim, təbii ki, Zeynəddin müəllimin vasitəsilə. Qusarda ezamiyyətdə idim. Zeynəddin müəllimlə birgə mərkəzi televiziyanın əməkdaşları ilə rayonun kəndlərini gəzirdik. Eyni gündə İmamqulukənddə, Bədişqala və Həzrədə iclaslarda olduq. 15 dərəcə şaxtada, işıqların yanmadığı,

yolların buz bağladığı bir şəraitdə «Niva» markalı maşınla bağ və əkin sahələrindən keçib 25-30 sm qalınlığında qarın içi ilə adı çəkilən kəndlərdə çıxış etməyə tələsən Zeynəddin müəllimlə yol yoldaşı olmaq ömrün unudulmaz səhifələrindəndir. Samur sahillərində rusların əli ilə ermənilərin təbliğat vasitəsi olan müxtəlif araqarışdırıcı qeyd kağızlarını bu taya keçirib su bulandırmaq istəyənlərin qarşısını yerli ağsaqqallar ala bilərdi, bu doğrudan da belə oldu. Zeynəddin müəllimi bütün kəndlərin ağsaqqalları böyük hörmətlə qarşılayırdılar, onun məsləhətlərinə ciddi reaksiya verirdilər, yüksək səviyyədə dəyərləndirirdilər. Bu iclaslardan sonra həm Qusarlı ziyalılara, həm sadə camaata, ümumiyyətlə bütün Qusar sakinlərinə bir daha valeh olan jurnalist həmkarlarımın üzündəki sevincə baxıb içimdən qürur hissi keçirdim...

Zeynəddin müəllim rayon rəhbərliyinə pedaqoji fəaliyyətdən gəldiyi üçün rayonda hamını gözəl tanıyırdı, eyni zamanda onu da hamı gözəl tanıyırdı. Zeynəddin müəllim həm də hamının dilini gözəl bilirdi. Ancaq... onun dilini başa düşmək istəməyənlər də olurdu, istər aşağı, istərsə də yuxarı səviyyələrdə. Ancaq Zeynəddin müəllimin dili çox sadə idi, asan başa düşülən idi. O dil hamını birliyə çağırırdı, müstəqil Azərbaycanı qorumağa çağırırdı, düşmənlərin felinə uymamağa çağırırdı, - bu çağırışın içində yenicə istiqlaliyyətini qazanmış Vətənimiz boy verirdi, böyüyürdü.

Vətən öz oğullarının çiynində uca görünür. Zeynəddin müəllim kimi oğulların çiynində bu Vətən bir az da qəlbidir, bir az da ucalarda qərar tutub.

Zeynəddin müəllimin ədəbi-bədii keyfiyyətləri də özünəməxsusdur. Onun mütaliə etdiyi şair və yazıçılar,





dinlədiyi xanəndələr, seyr etdiyi rəssam əsərləri dərin sənətkarlıq nümunələridir. S.Vurğunu, M.Ə.Sabiri, Ü.Hacıbəylini, Niyazini, S.Bəhlulzadəni az qala bütün söhbətlərində canlandırır, onları vəsf edir. Qusara gələn söz-sənət adamlarına qucaq açır, qonaq saxlayır. Onun qonaqpərvərliyi bütün bölgədə məşhurdur. Onun duzlu-məzəli söhbətləri, mənalı və ibrətamiz tövsiyələri diqqətəlayiqdir.

Zeynəddin müəllim təbiət vurğunudur, Qusarın bütün bulaqları, meşə və yamacları, zirvə və yarğanları onun izlərini yaşadır, onunla tez-tez təmasda olur. Təbiət Zeynəddin müəllimin bir parçası kimi ona qaynayıb qarışır. Bu ziyalıda nəinki bir bölgənin, bir ölkənin təbiətinin saflığı var.

Mən sevinirəm ki, mənim bu simada, bu ucalıqda ağsaqqal bir dostum var:

### Hər gün salamlayır ellər oğlunu

Yenə görüşünə gəlmişəm, görək
Bağrına basırmı ellər oğlunu.
Yenə də şimaldan əsirmi külək,
Yenə oynadırmı yellər oğlunu.

Əzmində dağ yükü, qaya adı var,
Səsində, sözündə Vətən dadı var.
Qartalın öz qıyı, öz qanadı var
Ötür zirvələrdə dillər oğlunu.

Şəklini köçürüb suya, bulaqda,
Gözəllər telini saya bulaqda...

Hər səhər Suvarda, Qayabulaqda
Öpür şehli-şehli güllər oğlunu.

Çox da ömrü dərddən, əzabdan gəlib,
İmanı müqəddəs kitabdan gəlib.
Özü Hildən gəlib, Yasabdan gəlib
Hər gün salamlayır yollar oğlunu.

Coşur Qusar çayı nərədən keçib
Yarğandan adlayıb, dərədən keçib.
Çatdırar min adda bərədən keçib
Əbədi ümmana sellər oğlunu.

*Dekabr 2011-ci il*

* * *

**Məmməd Aslan (Aslanov Məmməd Muxtar oğlu)** 1939-cu il, dekabrın 23-də Kəlbəcər rayonun Laçın kəndində anadan olub. O, 1981-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair və publisistdir. 1970-ci ildən Qabaqcıl Maarif xadimi, 1998-ci ildən isə Əməkdar incəsənət xadimidir. 2000-ci ildə isə «Şöhrət ordeni» ilə təltif olunub. 20-dən çox kitab müəllifi olan Məmməd Aslanın yaradıcılığında poeziya önəmli yer tutur.

Məmməd Aslan 1962-ci ildə Azərbaycan Pedaqoji İnstitutun filologiya fakültəsini bitirəndən sonra, əmək fəaliyyətinə Kəlbəcər rayonun Yanşaq kənd məktəbində müəllim kimi başlamış və sonralar əmək fəaliyyətini dövrü mətbuatda davam etdirmişdir. Məmməd Aslanın yaradıcılığında başqa xalqların ədəbiyyatından tərcümələr də xüsusi yer tutur.





Oxucu mühakiməsinə verilən «**Fırtına kimi**» başlıqlı yazı, onun özünün dediyi kimi Zeynəddin müəllimə düşüncə çələngidir:

«Ömürlər dünyadan daha çox ömürlərə bağlıdır. Başqa sözlə, insan özündən başqa insanlarla bir uyuşum içində dünya həyatını yaşamağa məcburdur. Təkbaşına həyat zindan kimidir. Quşlar, heyvanlar və bütün canlılar belə bir həmcins nəfəsə möhtacdır. Məmməd Araz nə gözəl deyirdi:

**«Tənhalaşmış ağacın qəfil çökmək qorxusu var.»**

Bu siftəliyi söyləyəcəyim həqiqətə bir söykək kimi bəri başdan dilə gətirdim:

Aşıq Ələsgərin mükəmməl nəvəsi Haqverdi Talıboğlu və Şahdağın ətəyində özü-özünü yetişdirib kamilləşmiş Zeynəddin Çələbovla bu dünyada tapışıb dostluq əlaqələri qurmasaydım, yəqin ki, ömrüm yarımçıq qalardı. Həyat dadsız-duzsuz olardı, könlüm istədikcə qanadlanmağa gücüm çatmazdı.

Haqverdiyə doğmalıq duyğularını bundan əvvəl çox yazımda bəyan eləmişəm. Nədənsə, Zeynəddin haqqında danışmağa fürsət tapmırdım.

Yazmasaydım belə, Cənnət Qusarın qədirbilən insanları bir yana dursun, o dağların qurdu-quşu da bizim bir-birinə bağrı-badaş dostluğumuzdan yaxşı xəbərdardır. Qusara yolum düşdükcə onun özünəməxsus dolub-daşan bazarına, əslində, bir sərgi kimi baş çəkməmiş geri qayıtmıram. Ömürlər sərgisi, nemətlər sərgisi, insan münasibətləri sərgisi kimi. Sizə qəribə gəlməsin, bir də Zeynəddin müəllimlə mənim qeyri-adi dostluğumuzun çox qabarıq təntənəsinin böyük güldəstə sərgisi kimi...

Adamlar piştaxta arxasından qalxıb, mənə yaxınlaşırlar. Şirin bir təbəssümlə: - Xoş gəlmisən bizim Qusara, Məmməd müəllim! Bəs niyə təkcə gəlmisiniz? Dostunuz Zeynəddin müəllim hanı bəs? Allah eləməsin, yoxsa aranız dəyib?

Desəm ki, bir incikliyimiz oldu... Kimsə inanmaz! Lafı uzatsam, eldə deyildiyi kimi. «Qurandan don geysəm» belə inanmazlar. Dostluğumuza o qədər dərindən inanırlar ki!..

Boynuma alım ki, çiynimizə aldığımız dostluq tirinin ağır başı Zeynəddinin üstünə düşür. Bu mətləbi onun bir təbəssümü ilə deməyim, elə bilirəm sizə ləzzət verər.

Zeynəddini tez-tez Bakı toylarına qonaq çağırırlar: Duzlu-məzəli söz-söhbətinə görə. Yoxsa məndən beşbetər qara qaşına, qara gözünə baxmayacaqlar onun. Söz verəndə, Zeynəddin toy camaatını şirin qımışıqlarla bir süzər, sonra soruşar:

- Siz Məmməd Aslanı tanımırsınız ki?

Çox adam tapılır ki, tanıdıqlarını bildirir.

Zeynəddin əlini yellədər:

- Ay tanıdınız ha!... Məmməd Aslanla dostluq eləmək zolaqlı pələngi tutub öpmək kimi hünərdir!...

Bu hesabla, görün, Zeynəddin müəllim məndən nələr çəkir?!

Burası da var ki, ayrı cür olmağıma da dözməz. Dost dostuna tən gərək!

Qusarın yuxarı başında yerləşən sadədən sadə o ikimərtəbəli evdə məmləkətimizdən kimlər olmayıb! Kimlər gəlmiş, kimlər getmiş?! Bu ev Zeynəddinin dostları üçün Məkkə-Mədinə olmuş!..





Zeynəddin müəllim zatən dostluqlar qurmaq üçün dünyaya gəlmiş möhtərəm bir insandır. Çox insan onun insani məziyyətlərindən xəbərdar olsa da, sinəsinin altında yaşatdığı dünyadan çoxları da xəbərsizdir. Onun mənəvi dəyərləri yaşanan dostluqlar da üzə çıxır.

Tanrı vergili şairimiz Ramiz Qusarçaylı məni Zeynəddin Cələbovla tanış edəndə bu adam Qusar rayon İcra Hakimiyyəti başçılığından çox da keçməmişdi: Camaat arasında eynən əvvəlki isti münasibət, adamlarla əvvəlki istiqanlı ovqat yaşantısı ... o üstün vəzifə məqamından hər kəsdə eyni heyfsilənmə və çaşqınlıq...

Zeynəddin o zaman və ümumiyyətlə bütün ömrü boyu peyğəmbər gözütoxluğu yaşayıb. Onun comərdliyindən xanımı Şərqiyyə müəllimə necə məmnundur! Qıldığı namazını ürəkaçıqlıq ilə yerinə yetirdiyindən, ibadəti bir toz belə qonmadığından Rəbbinə şükür eləyir.

Şərqiyyə müəllimə həm də Zeynəddinin dostu və bütün qovqalarında silahdaşıdır!

Zeynəddin müəllim ixtisasca tarixçidir. Amma elmin hansı sahəsini seçsəydi, ona mükəmməl yiyələnərdi. Yetmiş səkkiz yaşına baxmayaraq dəmir yaddaşına zədə düşməyib.

Ağlı-təfəkkürü yerli-yerində. Günün və zamanın hadisələrini dərin məntiqlə dəyərləndirməyi bacarır.

İlk gəncliyindən bəri Azərbaycan türkcəsi ilə və ləzgicə bədii cəhətdən dolğun və dərin mənalı lirik şeirlər yazır. Rəhmətlik Bəxtiyar Vahabzadə vaxtilə onun şeir yaradıcılığı ilə tanış olduqdan sonra şairliyini ara vermədən davam etdirməyini Zeynəddinə məsləhət görmüşdür.

Şahdağın ətəkləri qışda qarlı-boranlı, yayda sərindən sərin olur. Bu yerin havasını və gözəlliklərini Aşıq Ələsgər sanki elə o zirvədən tərənnüm etmək üçün dünyaya gəlib! Ayrı heç nə yazmasaydı belə, «Aləmdə dastan olub: səddi sorağın Şahdağı» bəyanı ilə başlayan ölümsüz müxəmməsi bəs elərdi. Kaş bu gözəllik silsiləsinin cəmini ya Şərqiyyə xanımın, ya da Zeynəddinin dilindən heç olmasa bircə yol eşitmiş olasınız! Ustadın ruhu sevinsin!..

Zeynəddin bir yandan belə şeir-sənət qanadında, bir yandan Səməndər quşu kimi od-alov içində belədən belə qıy vuran bir ömür yaşayıb və bu ixtiyar yaşında da eyni gənclik xislətini hələ də ömrüylə bərabər yaşatmağındadır. Peyğəmbərimiz buyurub ki, «Qocalıq bütün xəstəliklərin cəmləşdiyi bir limandır!» Zeynəddin də bu qocalıq afəti ilə qarşılaşdı. Amma eynən o, Səməndər quşu kimi cəsurluqla qanad çalıb, o, amansız afətlərdən xilas olmaqdadır. Nə qədər nəfəsi var, inşallah o qədər şax tutub qamətini, Şahdağa layiq yaşayar!

Qəribə ovqatdayam: Zeynəddin haqqında çox söz demək istəyirəm. Mənə bəlli olan çoxyönlü məziyyətlərinə işıq tutmağa çalışıram. Amma hər yöndən bir zərrə ha ki, dilə gətirə bilirəm. Çünki bu, dəyərləndirmə toplusudur. Burada çox insanların dəyərləndirmə haqqı var axı.

Bu abidəvi adam həm də bir söz cəngavəridir: haqsızlıq önündə bütün qorxu-qadağanı eyninə almaz, kimsədən pəhsinməz! Kimsə nə boyda və nə biçimdə olsa belə!

Zeynəddin uzun ömru boyu təkcə ləzgilərin uğrunda özünü qana qoymayıb! Məmləkətimizdə insan sayılacaq







**Z.Çələbovun dostu və tələbə yoldaşı Aydın Babayev**



**Ramiz Qusarçaylı**



**Şair Ramaldanov**



**Cəlil Səfərov**



**Hacıbala Şıxıyev**



**Bəxtiyar Pirəliyev**







**Bulaqdan su iəndə ya gərək dizlrini yerə qoyub içəsən,
ya da Zeynəddin müəllim kimi ovcunda içəsən**



Zeynəddin müəllimin evi həmişə qonaqlı olur







Ləzədərəsi. Nizami Rüstəmov və onun övladları - Səbinə, Aysel və Şahin



Ləzədərəsi, Peyğəmbər daşları deyilən yer.
Soldan Nizami Rüstəmov, Elxan Osmanov və Şahin Rüstəmov







Silebur düzü



**Şahdüzü. Şahdağın arxa tərəfdən görnüşü**





hər kəsin yorulmaz-usanmaz bir mücahidi kimi haqqı qaytarıb sahibinə verməyə qeyrət göstərib.

Bir fırtına kimi görmüşəm Zeynəddini. Qaynayan, coşan varlığını daha qabarıq göstərmək üçün köpürüb qalxan bir fırtına!..

Əzizim Zeynəddinlə bağlı nəsrlə yazdığım dəyərləndirməni bir qoşma ilə qurtarmaq keçdi ürəyimdən:

Sevib-seçib bir məkanda dayanıb,
Şahdağ ilə boy-boyadır Zeynəddin!
Bilmək olmur nə yarışdır bağlayıb:
Şahdağ ilə bir boy atır Zeynəddin!

Gün diləsə, Şahdağ ona yay verər!
Qar istəsə, zirvəsini pay verər!
Nə çağırsa, Şahdağ ona hay verər:
Şahdağ ilə hay-hayadır Zeynəddin.

Hara belə, səfər hansı yönədir?!
Hara getsə, işığadır, günədir!
Zirvədəki qaraltımı, ya nədir?!
Şahdağ üstdə sal qayadır Zeynəddin!

Dağın övladı, əlbətdə, dağ olar!

Zeynəddin hirsi-hikkəni, tərlanlar kimi qayadan-qayaya səkməyi, dərədən-zirvəyə pərvazı, hər xislətini Şahdağdan öyrənib!

Zirvələr yolçusu qəmxarım mənim!

*26.02.2012*
*Sumqayıt»*

* * *

**Bu yazı 1953-cü il aprelin 8-də Qusar rayonunun Piral kəndində anadan olmuş Hüseynov Hikmət Seyfulla oğluna məxsusdur. O, BDU-nin mexanika-riyaziyyat fakültəsini bitirib. Hazırda Piralda orta məktəb müəllimidir.**

**Hikmət Seyfulla oğlu Hüseynov riyaziyyat üzrə bir neçə kitabların da müəllifidir.**

**O, Zeynəddin Çələbov barədə belə deyir:**

«İnsan üçün insaniyyətə tam sahib olmaq ən böyük səadət, ən böyük qəhrəmanlıq, ən böyük şərəfdir. Qoy bu səadət, qəhrəmanlıq və şərəf hamıya nəsib olsun.»

Bir dəfə qədim dövrün «əxlaq peyğəmbəri» hesab edilən Sokratdan soruşurlar: «İnsanda ən çox nəyi qiymətləndirirsən?» Filosof tərəddüd etmədən cavab verir: «İnsaniyyəti». «Bəs insaniyyət dedikdə nəyi başa düşürsən?» - sualına isə mütəfəkkir «insana layiq keyfiyyətləri» – deyə cavab verir.

Keçən əsrdə İngiltərədə ictimai islahatlar uğrunda əzmlə mübarizə aparan məşhur Çarlz Dikkensə buna bənzər sual verilir: «Siz bu qədər çalışıb nə islahatı keçirmək istəyirsiniz?» yazıçı cavab verir ki, «insaniyyət və xeyirxahlıq islahatı».

İndiki bəşəriyyət üçün ən zəruri islahat məhz insanlıq və xeyirxahlıq islahatıdır. İnsanların insanlığa və xeyirxahlığa olan ehtiyacı indi heç bir dövrlə müqayisəedilməz dərəcədə artmışdır. Bəşəriyyətin əxlaqi sərvətlərinin qızıl fondunu təşkil edən insaniyyəti və xeyirxahlığı şəxsiyyətinə çox böyük hörmət etdiyim Zeynəddin müəllimin simasında gördüm desəm, səhv etmərəm. Bəli, bircə dəfə bu sadə və müdrik insanla ünsiyyətdə olan hər bir kəs bir daha onunla söhbət etmək, saf qəlbdən məsləhət və nəsihətlərinə qulaq asmaq istəyir, sözün əsl mənasında





elin ağsaqqalı kimi tanınan bu insanla daima təmasda olmağı arzulayır.

Ömrü boyu daim axtarışda olmuş Zeynəddin müəllim, axtarışlarını dayandıran kimi, sanki sahib olduğu ülviliklər zirvəsindən aşağı, adi canlılar səviyyəsinə doğru enirmiş kimi, axtarışlarına ara vermək istəməyərək, tapanda da axtarmaq, tapmayanda da axtarmaq eşqi ilə ömür sürmüş, getdikcə daha dərinliklərə enmək, öz zəka nuru ilə zülməti işıqlandırmaq yolu – insana nəsib olan yeganə yolla irəliləmək arzusu ilə yaşamış və yaşayır.

Mənəviyyatında saflığı, süfrəsində halallığı qorumaq istəyən Zeynəddin müəllim və həyat yoldaşı Şərqiyyə xanım haqqında şair Zəlimxan Yaqubun sözləri ilə belə deyərdim:

*Bu süfrəyə uzanan əllərində ləkə yox,*
*Bu süfrənin üstündə haram adlı tikə yox,*
*Burda yavan çörək var, burda yağlı tikə yox,*
*Bu süfrə duasını özün oxu İlahi!*

*Bu süfrədə kitab var, qələm, bir də mürəkkəb,*
*Yaşaran göz, yanan can, coşan ilham, daşan təb,*
*Bu süfrənin neməti ulu söz, ali mətləb,*
*Bu süfrə duasını özün oxu İlahi!*

Bəli, köməkliklərini ehtiyacı olan hər kəsdən əsirgəməyən, həyət qapıları heç vaxt bağlanmayan, evləri daima qonaqlı olan Zeynəddin müəllim və Şərqiyyə xanımın halal süfrələrinin duasını Rəbbimiz özü oxumuşdur.

İşlədiyi bütün vəzifələrdə büllur kimi təmiz olmuş Zeynəddin müəllim «Niyə bəzən həyatda əxlaqlı, fəzilətli ömür sürənlər deyil, məhz dələduzlar, hiyləgərlər, ikiüz-

lülər, yalançılar, fırıldaqçılar, vəzifəpərəstlər, əliəyrilər, oğrular, rüşvətxorlar, şöhrətpərəstlər müvəffəqiyyət qazanırlar, onlar cəmiyyətdə hətta hörmət də, şöhrət də qazanırlar?» şəklində verilən sualları səbrlə cavablandırır, haqq və ədalət uğrunda mübariz olmağı məsləhət görür. Belə insanlar haqqında şair Zəlimxan Yaqub necə də gözəl deyib:

*Sudan duru, aydan arı mənəm, mən,*
*Dağ çiçəyi, zirvə qarı mənəm, mən,*
*Can sirdaşı, könül yarı mənəm, mən,*
*Haqqa doğru yol gedirəm nə vaxtdı.*

Zeynəddin müəllim

Nur yağan üzünə baxanda elə bil dağ görürəm, özüm də ucalıram, heyy.. ucalıram!

Nur yağan üzünə baxanda elə bil dərya görürəm, özüm də dərinləşirəm, heyy.. dərinləşirəm!

Nur yağan üzünə baxanda elə bil dəniz görürəm, özüm də ləpələnirəm, heyy.. ləpələnirəm!

Nur yağan üzünə baxanda elə bil çay görürəm, özüm də dalğalanıram, heyy.. dalğalanıram!

Nur yağan üzünə baxanda elə bil səma görürəm, özüm də aydınlaşır, heyy.. aydınlaşıram!

Nur yağan üzünə baxanda elə bil bulaq görürəm, özüm də saflaşır, heyy.. saflaşıram!

Nur yağan üzünə baxanda elə bil Günəş görürəm, özüm də isinir, heyy.. istisinə qızınıram!

Hər dəfə söhbət əsnasında ağır yerişindən yer ləngərlənən, qaməti, duruşu şux, ana-bacılara ər vəfasını, namusunu, qeyrəti ən üstün tutan başı papaqlıların qalmadığını görən, «kişi təpərindən, ər nəfəsindən qəlbimə,





ruhuma qüvvət istərəm» deyən, böyüksüz ocağın, böyüksüz evin təməli dağılar, özülü laxlar, varlana-varlana yoxsullaşırıq kimi fikirləri ilə yuxusuna haram qatan Zeynəddin müəllimin el ağsaqqalı kimi fəryadlarını Zəlimxan Yaqubun sözləri ilə belə tamamlamaq olur.

*Gör-götür dünyası göstərib bizə,*
*Elin başbiləni başda tac olub.*
*Sağlam toxum kimi düşüb torpağa,*
*Hər sözü bar verən bir ağac olub.*
*Əsil ağsaqqala, ağsaqqallığa*
*Nəsildən-nəsilə ehtiyac olub.*
*Oğullar görmüşəm bir kəndin deyil,*
*Çiynində mahalın yükünü saxlar.*
*Aqil babalarım, de hardasınız?*
*Gözümə az dəyir qarapapaqlar!*

Zeynəddin müəllim, ağsaqqalım kimi Sizə möhkəm can sağlığı arzulayır, yüzlərlə insana əhdə vəfa, dərdə şəfa və xeyirxahlıq yolunda uğurlar diləyirəm və ürək sözlərimə Zəlimxan Yaqubun iki bənd şeiri ilə nöqtə qoyuram:

*Ürək geniş olsa, sığmaz darlığa,*
*Saçar işığını bütün varlığa.*
*Saxtalar içində saxtakarlığa*
*Tərsinə açılan şillə kimiydik.*

*O mənə ataydı, mən ona oğul,*
*Mən ona ürəkdim, o mənə ağıl.*
*Uzun bir dastandı, şirin bir nağıl,*
*Damladan yağışa, selə kimiydik.»*

* * *

**Arif Camal oğlu Xəlilov 1960-cı il, iyulun 18-də Qusar rayonunda, Şahdağın ətəyində yerləşən Ləzə kəndində dünyaya göz açıb.** Arif 1977-1982-ci illərdə M.F.Axundov adına Rus dili və ədəbiyyatı İnstitutunda təhsil alıb və təyinatla Sabirabad rayonun Maarif şöbəsinə göndərilib. Bir müddət Sabirabadda təhsil sahəsində çalışandan sonra Arif müəllim doğma yurduna dönüb, Zeynəddin Çələbovun vasitəsilə, onun direktor olduğu internat məktəbində pedaqoji fəaliyyətini davam etdirib. Daha sonra Arif, Qusar rayon İcra Hakimiyyətində ümumi şöbəyə rəhbərlik edib, 1992-ci ilin sentyabrından isə yenidən Zeynəddin Çələbovun başçılığı ilə fəaliyyətini davam etdirib.

Arif Xəlilov 2001-ci ildən 2011-ci ilin fevralına kimi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əlillərin Sosial Müdafiəsi baş idarəsinin 13 saylı zona şöbəsinin müdiri vəzifəsində çalışıb, birinci dərəcəli dövlət qulluqçusudur.

Arif Camal oğlu ailəlidir, üç övladı var. Gəlin onun Zeynəddin müəllimlə bağlı ürək sözlərini eşidək:

«Mən Zeynəddin müəllimi 1951-ci ilin avqust ayından tanıyıram. O vaxt mən, 9 il başqa rayonda müəllim və orta məktəbin direktoru işləyəndən sonra Qusarda iş tapa bilmirdim. Nəhayət, atam «bəlkə Zeynəddin müəllim kömək edər» deyərək ona müraciət etdi. Zeynəddin müəllim diplomuma və institutda aldığım qiymətlərə baxıb – sabahdan gəlib internatda işləyərsən, dedi. Maaşımın az olduğunu görüb öz dərslərindən mənə əlavə dərs saatı ayırdı.

Sonra Rayon İcra Hakimiyyətində ümumi şöbənin müdiri işləyəndə Çələbov RİH başçısı təyin olundu və





onu daha yaxşı: mərd, sözü heç nədən və heç kimdən çəkinmədən üzə deyən, rüşvətə nifrət edən şəxs kimi tanıdım. O vəzifədə olanda da, vəzifədən çıxanda da dəyişməyən nadir şəxsiyyətlərdən biridir. O, vəzifəpərəst adam deyil, RİH başçı təyinatına 2-ci müraciət və xahişlərdən sonra razılaşıb. Hesab edirəm ki, onun Qusara başçı təyin edilməsi o vaxtki iqtidarın çox düzgün qərarı idi.

O dövrdə respublika qaynar qazan kimi qaynayırdı. Xaricdə və ölkə daxilində olan bəzi qüvvələr Qusarda da milli qarşıdurma yaratmaq istəyirdilər. İndi MM-də millət vəkili kimi oturan bir qadın – jurnalist - Şuşa əldən getsə Qusarda 2-ci cəbhə açılacaq – rəyini vermişdi. Çələbov o vaxt belə qüvvələrə qarşı sərt mövqe tutdu, dövlətçiliyin keşiyində möhkəm durdu.

Mən şahidəm – bir dəfə şimal qonşularımızın mötəbər nümayəndə heyətini kabinetində, «lazım gələrsə silahla sizə qarşı duraram, amma rayonu qarışdırmağa sizə imkan vermərəm» - dedi.

Zeynəddin müəllim xidməti vəzifələrin icrasında nə qədər ədalətli, amma sərt olubsa, adi həyatda incə yumor hissinə malik, zarafatı dəyərləndirən, dostluqda sədaqətli bir adamdır.

Onun xarakterinin daha yaxşı başa düşülməsi üçün 2 epizodu xatırlatmaq istəyirəm:

1992-ci ilin axır ayları idi. Çələbov məni kabinetinə çağırdı. O vaxt respublikanın ali hakimiyyətində vəzifə sahibinin Azərbaycanın Almaniyada səfiri işləyən qardaşı ilə söhbət edirdi. Söhbət əsasında qonaq Çələbovun cavabından əsəbiləşərək siqaret çıxardıb yandırdı. Mən durub külqabını onun qabağına qoymaq istədim. Zey-

nəddin müəllim gözünü mənə ağartdı. Qonaq məcbur olub siqareti söndürdü və bir azdan çıxıb getdi.

Zeynəddin müəllim mənə nə desə yaxşıdır? O, adi etiket qaydalarına riayət etmək istəmədi. Mən bu kabinetin sahibiyəm və yaşda da ondan iki dəfə böyüyəm. Onun mənim yanımda siqaret çəkmək arzusu isə həm onun ədəbazlığından, həm də düzgün olmayan əxlaqından xəbər verirdi.

Bir dəfə də Rusiyanın Azərbaycanda səfiri Valter Şoniya Qusara gəlmişdi. Yemək yeməyə Qarabulağa getdilər. Səfirin niyyətini başa düşən və ona baş qoşmayan Çələbov 1-ci sağlıqda ona «pey, alkaş» - deyir. Səfir əvvəl hirslənsə də, arağı içir. Çox danışmaq olar, amma bir şeyi dəqiq bilirəm: Zeynəddin Çələbov rayonun tarixində müsbət rol oynamış ziyalılar arasında müstəsna yeri olan adamlardan biridir.

Axı, O, şəxsiyyətdir.

* * *

**Oqtay Rza, (Rzalı Oqtay Məhərrəm oğlu)** – şair, 1981-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, «Mikayıl Müşfiq» və «Qızıl qələm» mükafatları laureatıdır. Bu vaxta qədər Oqtay Rzanın 15 kitabı çap olunub. O, 1934-cü il oktyabrın 10-da Salyan rayonun Qalalı kəndində anadan olub, 1956-cı ildə Azərbaycan Sənaye İnstitutunun geoloji-kəşfiyyat fakültəsini bitirib. Geologiya-mineralogiya elmləri namizədi olan Oqtay Rza uzun illər elmi və pedaqoji fəaliyyət göstərmiş, 2008-ci ildən isə Azərbaycan Pedaqoji Universitetinin filologiya fakültəsində Dədə Qorqud elmi tədqiqat Mərkəzində böyük elmi işçi kimi fəaliyyət göstərir. Aşağıdakı şeir isə Oqtay Rzanın, dostu Zeynəddin Çələbova həsr etdiyi ürək döyüntüləridir.





Qusar! Qusar!
Necə susar,
Ürək sən tək diyarda
Talaları naxış-naxış,
Çiçək-çiçək diyarda?
Halal eylə meşələrin
Havasını, ətirini:
Çeşmələrin özü yazıb
Şeirimin ilk sətrini.
Goy yoxuşda bitən lalə
Oda, közə bənzəyir,
Axşam yanan çıraqların
Min-min gözə bənzəyir.
Bir dünyaya dəyişmərəm
Ləzə kimi yaylağı,
Salam, çoban Salamatın
Doxsan illik oylağı.
Qusar! Qusar!
Necə susar
Ürək sən tək diyarda –
Səyyahların vurulduğu,
Zeynəddinin doğulduğu
Gözəl-göyçək diyarda!

* * *

**Cavanşir Sultanovun rəhmətlik atası Dadaş kişi, Zeynəddin Çələbovla ömürlərinin qaynar çağlarından dost olub və bu dostluq Cavanşirin simasında indi də davam edir.** Cavanşirin özü bu dostluqdan belə deyir, belə danışır, doğma əmi kimi tanıdığı Zeynəddin Çələbov barədə fikirlərini belə səsləndirir: «Atam, Zeynəddin əmimlə

uzun illərin qardaş timsallı dostu olublar və dostluğu bu gün bütün məhəbbət və ehtiramla davam etdirməyi, onu qırılmağa, sozalmağa və istiliyini zəifləməyə qoymayıb davam etdirməyi özümün müqəddəs borcum, ata vəsiyyətini bir oğul kimi yerinə yetirməyi mənəvi dəyərlərimizdən biri kimi qiymətləndirirəm. Atamla Zeynəddin müəllim görkəmli alim Kərim Kərimovun vasitəsilə dostlaşıblar. Və bu dostluğun ömrü bir igidin ömrü qədər olub. Mən uşaq vaxtı elə bilirdim ki, Zeynəddin əmimlə atam həqiqətən doğma qardaşdılar, bir atanın, bir ananın övladlarıdırlar. Bax, belə dostluqlar hörmət və ehtirama, həyatda yaşamağa, tərənnüm və təbliğ olunmağa layiqdir. Mənim üşaqlıq və gənclik illərim hər yay fəsli Qusarda, Zeynəddin müəllimin evində keçib. Onun anası Cağa nənəni də doğma nənəm bilmişəm. Atam danışırdı ki, Cağa nənə hər zaman təsbeh çevirəndə zikr edər, Allahdan atama oğul payı arzularmış. Görünür onun duaları qəbul olduğundan üç bacımdan sonra mən dünyamıza göz açmışam. Bizim ailə Zeynəddin əmimgillə birlikdə Qusarın dağlarında, eləcə də Dərbənddə dönə-dönə gəzintidə, istirahətdə olub. Zeynəddin əmim yolu olan bulaqların üstündə bizləri qonaq edib. Onun duz-çörəyi həmişə dadlı olub və o dad həmişə məni halallığa, sədaqətə, ülfətə səsləyib.

Mən həmişə olduğu kimi, bu gün də öz ailəmlə Zeynəddin Çələbovun qapısını əmi qapısı kimi açıram. Nə vaxt orda olmuşamsa həm Zeynəddin əmimdən, həm də həyat yoldaşı Şərqiyyə xanımdan mehribanlıq və doğmalıq görmüşəm. Allah Zeynəddin əmimi bizlərə çox görməsin!»





Cavanşir Sultanovun son sözləri yadıma Vaqif İbrahimin bir bənd şeirini saldı.

*Hardakı dostun var, o şəhər sənə,*
*Doğmadır öz ata ocağın kimi.*
*Ən uzaq bir yerdə olsa da yenə,*
*Doğmadır çırağı çırağın kimi.*

* * *

**Nizami Bəybala oğlu Rüstəmov 1954-cü il fevralın 10-da Hil kəndində anadan olub.** 1971-ci ildə orta təhsilini başa vurub, 1971-1977-ci illərdə Azərbaycan Tibb Universitetinin müalicə-profilaktika fakültəsində təhsil alıb. Bir sıra tibb ocaqlarında işləyib, 12 il məhkəmə tibb ekspertizasında çalışıb, daha sonra Qusar rayon mərkəzi xəstəxanasının həkimi olub. Nizami Rüstəmov 1997-ci ildən isə Qusar şəhərində yerləşən, ətraf rayonlar arasında «OKİ» kimi tanınan özəl tibb müalicəxanasında baş həkim işləyir. Ailəlidir, 4 övladı, 2 nəvəsi var.

Nizami həkimi 2011-ci ilin yayından tanıyıram. Onunla ilk tanışlığım da Zeynəddin müəllimin evindən başlayıb. Ondan sonra Nizami Rüstəmovla bir neçə dəfə görüşmüşəm. Bu günsə onun Zeynəddin müəllim barədə dediklərini qələmə alıram. Onu da deyim ki, Nizami həkim təbiətsevərdi, hər il yaxın dostları ilə Qusarın quşqonmaz dağlarına səyahət edir, dağların zirvəsinə çıxıb üzü Azərbaycana boylanır. Kitabda çap olunması nəzərdə tutulan, təbiəti əks etdirən şəkillərin bir çoxunun müəllifi odur.

Nizami Bəybala oğlu Zeynəddin müəllim barədə deyir: - Düzdür, biz hər ikimiz Hil kəndindənik. Ancaq

onunla tanışlığım 1985-ci ildən başlayıb. O vaxt Zeynəddin müəllim internatın direktoru idi. Yorğan-döşək salmaq üçün xeyli yun lazım idi. Mənə dedilər ki, internatda ucuz qiymətə satılır. Mən də internata gedib Zeynəddin müəllimlə görüşdüm, həmkəndli olduğumu deməsəm də, mənə münasib qiymətə yun lazım olduğunu dedim. Əvvəl gülüb dedi ki, bəyəm bura bazardır. Sonra kiməsə tapşırdı, istədiyim qiymətdən də aşağı yun aldım. Aldıqları məbləği təsdiq edən qaimə də verdilər mənə. Bax, elə o gündən də aramızda xoş münasibət yarandı, istədiyim vaxt qapısını açdım, halal çörəyini halallıqla kəsdim. Və həmişə də evini qonaqlı-qaralı gördüm. Biz tez-tez ailəlikcə təbiətin qoynunda oluruq, çox vaxt da Qazanbulaq deyilən yerdə süfrə açıb, təbiətin gözəlliyini seyr edirik.

Onu da qeyd edim ki, Zeynəddin müəllim öz hesabına imkansız adamları bizim müalicə ocağında dəfələrlə müalicə etdirib və ona görə heç kimə də minnət qoymayıb, etdiklərini də özünün ağsaqqallıq borcu bilib. Mən ona da, onun həyat yoldaşı Şərqiyyə xanıma da salamatlıq, xoş həyat arzulayıram.

* * *

**Müsahibim Qusar şəhər internat məktəbinin direktor müavini Malik Müsənnif oğlu Ataşovdur.** O, 1950-ci il martın 20-də Qusarın Cibir kəndində anadan olub, öz talehini 1974-cü ildən internata bağlayıb, hal-hazırda orda çalışır. Malik müəllim 1992-93-cü illərdə həmin internatın direktoru vəzifəsində də çalışıb. Mən, Zeynəddin müəllimlə bağlı onunla söhbət edərkən, onun qədirbilənliyindən və səmimiyyətindən çox məmnun oldum. İnanıram ki, bu müsahibəni oxuyan hər bir oxucu da





mənimlə həmfikir olacaq. Eləsə gəlin Malik müəllimin özünü dinləyək:

- Şagirdlərin mənəvi tərbiyəsini daha da yaxşılaşdırmaq məqsədilə 60-cı illərin ikinci yarısında respublikamızda məqsədyönlü işlər aparılıb. İnternat tipli məktəblərə daha geniş yer verilib. Qusar şəhər internat məktəbi həmin dövrdə özünün çiçəklənən illərini yaşayırdı. 1968-ci ildən Qusar şəhər internat məktəbinə Çələbov Zeynəddin Ramazan oğlu direktor təyin olunub. Məktəbdə rus və Azərbaycan bölmələri fəaliyyət göstərib, rayonumuzun bir çox məktəbləri rusdilli təhsilə keçməsi və ibtidai məktəbi qurtardıqdan sonra rus dilində təhsillərini kənddə davam etdirmək mümkün olmadığına görə internat məktəbinə məcburi axın olub. Bu illərdə internat məktəbi zamanın tələbi ilə beynəlmiləl orta məktəbə çevrilib.

1973-74-cü illərdə hər iki bölmədə 641 nəfər şagird təhsil alıb.

1970-80-cı illərdə internata Azərbaycan və keçmiş SSRİ-nin müxtəlif bölgələrindən gəlmiş görkəmli elm xadimləri, müharibə və əmək veteranları, kosmonavtlar və s. qonaqlar məktəb kollektivinin qonaqları olub.

1971-ci ildə SSRİ təyyarəçi-kosmonavtlarından A.Şatalov və A.S.Yeliseyev internat məktəbinin qonağı olublar. Kosmonavtlar məktəblilərə kosmos haqqında maraqlı məlumatlar verib, öz xatirələrini danışıb və məktəbin muzeyindəki «Şərəf» kitabında öz xatirə sözlərini yazıblar.

Ayrı-ayrı illərdə SSRİ EA-nın akademiki Rəhmutullin Xəlil Əhmədoviç, Azərbaycan EA-nın prezidenti Zahid Xəlilov, Azərbaycan SSR Maarif naziri Mehdi

Mehdizadə, fizika-riyaziyyat elmləri doktoru, professor Kərim Kərimov, Azərbaycanın görkəmli rəssamı, dünya şöhrətli Səttar Bəhlulzadə, Qazaxıstan SSR Maarif nazirinin birinci müavini Siderenko Viktor Kuzmiç və başqaları internat məktəbinin qonaqları sırasındadır.

Səttar Bəhlulzadənin iki tablosu məktəbin divarlarını indi də bəzəyir.

İnternat məktəbinin şagirdləri ayrı-ayrı illərdə Moskva, Kiyev, Brest qalasına, Lvov, Bakı, Dərbənd, Maxaçkala, Quba şəhərlərində ekskursiyalarda bu şəhərlərin tarixi yerləri ilə tanış olub, əmək və müharibə veteranları ilə görüşlər təşkil edib.

Moskvaya ekskursiya zamanı onlar SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri sərgisində, V.İ.Lenin adına mərkəzi muzeydə, Tarix muzeyində, Mavzoleydə, Kremldə və s. tarixi yerlərdə olub.

Qəhrəman Brest qalasını ziyarət edərkən məktəblilər Brest qarnizonu əsgərlərinin Böyük Vətən müharibəsinin ilk günlərində alman-faşist işğalçılarına qarşı göstərdiyi rəşadətli döyüş yolu ilə tanış olub və Brest qalasının xatirə kitabına öz ürək sözlərini yazıblar.

Z.Çələbovun direktor işlədiyi müddətdə məktəbin təsərrüfat həyatında mühüm dəyişikliklər baş vermişdir. Belə ki, internat ərazisinin hasarlanması, kanalizasiya sisteminin genişləndirilməsi, yeni yeməkxana və ərzaq anbarının inşası, məktəbin Qusar şəhərinin mərkəzi ilə əlaqəsini yaxşılaşdıran Müqtədir küçəsindən pilləkənli yolun salınması, Sumqayıt alüminium zavodunun hamiliyi dövründə məktəb binalarının şifer örtüyünün alüminium örtüyü ilə əvəz edilməsi, Qusaroba, Yasaboba və Ləyər qışlaq kənd əraziləri arasında «Catal» adlı yardımçı təsərrüfatın təşkil edilməsi, hazırda M.Ə.Sabir adına Bakı Pedaqoji Kollecinin Qusar filialının yerləşdiyi dörd mərtəbəli binanın (əvvəllər həmin bina internatın üçüncü binası idi) və s. inşası məhz Zeynəddin Çələbovun dövründə həyata keçirilib.





1985-ci ilin əvvəllərindən internatda arıçılıq təsərrüfatı yaradılır. Arı ailələri Kürdəmirdən, lazımi ləvazimat: pətək, mum, daraq və digər avadanlıq qonşu Dağıstan respublikasından gətirilib.

Burada az müddətdə 150 kq bal almaq nəzərdə tutulmuşdu. Bu da internatın gəlirinin artmasına imkan verirdi. 80-ci ilin ortalarında Qusar internat məktəbi respublikamızın ən varlı, təhsil və nizam-intizam sahəsində birincilər sırasında gedən məktəblərdən biri idi. Respublikanın Təhsil nazirliyi Qusar internat məktəbinə öz qayğısını əsirgəmirdi.

1983-cü ildə internat məktəbinə Təhsil nazirliyi tərəfindən təmənnasız olaraq UAZ-452 markalı avtomaşın, PAZ- markalı avtobus, DT-52 markalı traktor bağışlanmış və təlim-tərbiyə, təhsil və təsərrüfat sahəsində qazandığı nailiyyətlərə görə «Fəxri fərman» verilmişdi.

1979-cu ilin yazında internata təmənnasız olaraq Quxuroba, Yasaboba və Ləyər qışlaq kəndinin əhatəsində olan 26,5 ha yararsız torpaq sahəsi ayrılıb.

Bu təsərrüfat SSRİ dövründə xalqın rifah halını yaxşılaşdırmaq üçün sovet hökuməti tərəfindən irəli sürülmüş «ərzaq proqramı» ilə yaradılıb.

1982-ci ildə məktəb yardımçı təsərrüfatdan 300 kq ət, 80 kq yun, 5200 kq qarpız, 2310 kq soğan, 1000 kq meyvə, 600 kq qarğıdalı, 2325 ədəd süpürgə əldə edərək 8000 manat qazanmışdır. («Azərb. müəllimi» 8 avqust 1984-cü il)

Onu da qeyd edim ki, Zeynəddin müəllimin yaxşı yol yoldaşlığı da var. Mən deyərdim ki, qorxu hissi hər zaman ondan uzaq olub. O, iş vaxtı nə qədər tələbkar və ciddi idisə adi vaxtlarda yumorlar danışıb, özünün tabeçiliyində olanların yanında özünü dartmazdı, kollektivin hər bir üzvü ilə ünsiyyət saxlaya bilirdi. Zaman-zaman internata gələn yoxlayıcılarla çox sərbəst ünsiyyətdə olar, onların heç birindən çəkinməzdi. Bu da ondan irəli gəlirdi ki, o, işində düz idi, heç bir əyintiyə yol vermirdi. Bəzən özünü təşəxxüslü aparan neçə nəfər yoxlayıcını yerində otuzdurar, eləsi ilə daha sərt davranardı. Ancaq kimliyindən asılı olmayaraq öz yerini və hərəkətini bilən hər kəslə xoş ünsiyyətdə olar, bir qonaq kimi onların hörmətini saxlayardı.

Bir dəfə iki nəfər məsul şəxs maarif nazirliyindən internatı yoxlamağa getmişdi. Onlar internata gələn kimi bir çox qapılara plomb vurdu. Həmin vaxt Zeynəddin müəllim dostlarından birinin toy məclisində idi. Ona xəbər verdik. Zeynəddin müəllim internata gələndə yoxlayıcılardan biri onunla hündürdən danışdı, ona «xox» gəlmək istədi. Zeynəddin müəllim də kabinetinin açarlarını onun üstə tullayıb toya qayıtdı. Az sonra hərəkətində düz olmadığını dərk edən yoxlayıcılar da həmin toy məclisinə gedib Zeynəddin müəllimlə barışıb və «ləzginka» havasında sümük sındırdılar.

1980-ci ilin yayında Zeynəddin müəllimin başçılığı altında internatın əlaçı şagirdlərini dünyagörüşlərini artırmaq məqsədilə Kiyev şəhərinə apardıq. O vaxt şəhərə gəzməyə çıxanda Zeynəddin müəllim bir ləzgi xəncərini də özü ilə götürüb görünən bir yerində asardı. Belə vaxtların birində bir nəfər milis əməkdaşı qarşımızı kəsib







Şahdağında Kabaşaltı sahə



Ləzədərəsi







Şahdağdan bir görnüş



Duman dağa [illegible]raşır







Şahdağı qarsız olmaz



**Qusarda qış**







**Şahdağın zirvəsi**



Bazaryurd zirvəsində. Soldan Çingiz Abdullayev, Nizami Rüstəmov və İlqar İsrafilov





Zeynəddin müəllimdən xəncərin sənədlərini tələb etdi. Bu vaxt Zeynəddin müəllim özünü onun sözündən təəccüblənən kimi göstərib, bir qədər qə kəskin şəkildə həmin milis əməkdaşına dedi: «Çox təəssüf edirəm ki, sizi dövlət və partiya qərarlarından xəbərsizsiniz. Əgər xəbəriniz olsaydı bilərdiniz ki, bir neçə ay bundan əvvəl MK ləzgilərin milli xüsusiyyətlərini nəzərə alıb, onların heç bir sənəd olmadan xəncər gəzdirmələri barədə xüsusi qərarı qəbul edib.»

Zeynəddin müəllimin belə ötkəm danışığından sonra milis əməkdaşının ondan dönə-dönə üzr istəməsindən başqa çıxış yolu olmadı.

Zeynəddin müəllim həmişə yumorla danışmağı sevdiyindən, onunla yol yoldaşı olmaq maraqlı olurdu. O həm də xeyir-şər adamıdır, hər məqamda özünü ağsaqqal kimi aparmağı bacarandı. Ona görə də məclislərdə həmişə hörmətlə qarşılanır və hörmətlə də yola salınır.

1981-ci ildə əlaçı şagirdləri Moskva şəhərinə aparmışdıq. Orda olan internatların birinin yataqxanasında bizə yer vermişdilər. Yataqxananın komendantı qorxa-qorxa bizə dedi ki, yerli uşaqlar internata hücum ediblər və onlar sizin uşaqlarla dava etmək istəyir. Bu vaxt Zeynəddin müəllim dedi ki, qorxmağa dəyməz, mən bu saat hər şeyi yoluna qoyaram. Və bu sözü deyən kimi də hücum edən uşaqların qabağına çıxıb. Onlara dedi: «Sizdə qonaqpərvərlik beləmi olur. Əgər siz bizim şəhərə gəlmiş olsaydınız hər biriniz xüsusi qayğı ilə əhatə olunardınız. Bir də xəbəriniz yoxdur ki, bizim uşaqlar hamısı igid və qorxmazdılar, onlardan biri sizin onunuza cavab verə bilər. Onu da qeyd etdi ki, hər uşağın üstündə yarım metrlik xəncər də var. Sonra qayıdıb bunu da əlavə

etdi: ancaq onlar sizinlə dost olmağa da hazırdı. İndi özünüz seçin, dava, yaxud sülh?»

Zeynəddin müəllimin belə odlu-alovlu və məntiqli danışığı nəticəsində sonda barışıq oldu.

Zeynəddin müəllimlə bağlı yadıma bir maraqlı əhvalat da düşdü. 1987-ci il idi, kollektiv olaraq «Catal» yardımçı təsərrüfatında işləyirdik. Hərə bir iş görürdü. Zeynəddin müəllim də yemək üçün kəsilən qoyunun qazanda bişirilməsini öz boynuna götürdü. Yeməyə əlinə keçən göy-göyərtidən, mer-meyvədən də vurmuşdu. Bir də gördük ki, yeməyin içində qoyunun qığından da var. Zeynəddin müəllim də gülə-gülə qayıdıb dedi ki, onun da bir gözəlliyi, bir ləzəti, bir dadı-tamı var, yeyin getsin.

Sonda onu da deyim ki, iş vaxtı tələbkar və ciddi olan, yeri gələndə müəllimlərə və şagirdlərə haqlı cəza verən Zeynəddin müəllim işçisini, yaxud şagirdi başqasının ayağına verməzdi, hər yerdə onları müdafiə etməyi bacarardı. Belə kollektiv rəhbəri ilə işləmək əlbətdə ki, hər bir işçiyə xoş olan hal və xüsusiyyətdir. Onun yeri indi də aramızda görsənir. Allah uzun ömür versin. Axı, bizlərin bir ağsaqqal kimi ona həmişə ehtiyacı olub. Bu ehtiyac dünən də olub, bu gün də var, sabah da olacaq.

* * *

**Müsahibim uzun illər Zeynəddin Çələbovla internatda pedaqoji fəaliyyət göstərmiş, bir-biri ilə həm də qardaş-bacı münasibətində olan Zəmirə Ricəddin qızı Qədiyevadır.** O, 1932-ci ilin 5 dekabrında Qusar şəhərində anadan olub, M.F.Axundov adına institutu bitirib, 1957-ci ildən 2010-cu ilə kimi internat məktəbində rus dili və ədəbiyyatından dərs deyib. 1960-cı ilin 15 noyabrında SSRİ Ali Soveti Rəyasət heyətinin fərmanı ilə «Əmək əlaçısı» medalı ilə təltif olunub, 1960-cı ildə respublika üzrə keçirilən müəllimlər qurultayının iştirakçısı və məruzəçisi olub.





Zəmirə xanımla söhbətimiz elə Zeynəddin müəllimin iştirakı ilə oldu. Ancaq Zeynəddin müəllim çox vaxt bizi ikilikdə qoyurdu. Görünür üzünə qarşı təriflənməyindən ya xoşlanmır, ya da sıxılırdı. Mən onların görüşündə sözün müstəqil mənasında qardaş-bacı münasibəti gördüm. O dəm Zəmirə xanım mənim gözlərimdə böyük bacı timsalında idi. O, Zeynəddin müəllim barədə qısa olsa da, böyük ehtiram və məhəbbətlə danışdı: - Mən, Zeynəddin müəllimi keçən əsrin 50-ci illərin əvvəllərindən tanıyırdım. O vaxtlar biz ayrı-ayrı Ali məktəblərdə təhsil alsaq da bir-birimizi həmyerli kimi tanıyırıq. Ağır illər olduğundan mən də, rəfiqələrim də ona arxalanar, ona güvənərdik. Hətta tətil olan zamanlarda da onunla birlikdə Qusara gəlib - gedərdik. Onun biz qızların üstə davaya düşən vaxtları da olub. Zeynəddin heç kimin qabağından qorxub çəkinməzdi. Sonralar taleyin qismətindən eyni təhsil ocağında fəaliyyət göstərməli olduq. Əvvəllər internatda sıravi müəllim işləyən vaxtlarda internatın direktoru onunla məsləhətləşər və onunla hesablaşardı. Zeynəddin müəllim neçə illər internatın direktoru işlədiyi vaxt sözün həqiqi mənasında şagirdlər xoşbəxt idi. Eləcə müəllimlər də arın-arxayın işləyirdi. Onlar yaxşı bilirdi ki, haqsızlıqla barışmayan, nöqsanlara göz yummayan Zeynəddin müəllim hər kəsin barəsində özü ölçü götürər, ancaq onları heç kimin ayağına verməz. Dəfələrlə onun fəhlələrlə birlikdə işləməsinin, yardımçı təsərrüfatda çalışmasının, yeri gələndə əkin sahəsini, bağ-bağatı suvarmasının şahidi olmuşam. O, hamıya eyni münasibət göstərərdi. Yaxşı yadımdadır, onun internatın

müəllimi olan öz həyat yoldaşı Şərqiyyə xanımı geyiminə görə danlayıb, onu doluxsunmuş halda evə göndərməsi. Bir dəfə, 23 fevralda qadın müəllimlər adama 3 manat pul yığıb kişi müəllimlər üçün bayram süfrəsi açdıq. Zeynəddin müəllim məclisin sonunda qadın müəllimlərə diqqətlərinə görə öz təşəkkürünü bildirib, öz hesabından pullarımızı özümüzə qaytardı.

İndi bizim müəllimlik peşəmiz sona yetsə də, qardaş-bacı münasibətimiz bu gün də yaşayır və ömrümüzün sonuna kimi də o münasibətin qalacağına əminik.

Bu gün dekabrın 14-dü, ılıq payız havasında Zeynəddin müəllimin evində masa arxasında oturub kitabla bağlı fikirlərimi ağ vərəqlərə köçürməkdə idim. İki nəfər orta və ahıl yaşlı qadın qonaq gəldi. Şübhəsiz ki, heç birini tanımırdım. Davranışlarından, söz-söhbətlərindən ziyalı olduqları hiss olunurdu. **Kim idi onlar? Biri 1945 il, yanvarın 3-də Qusar şəhərində təvəllüd tapmış Gülarə Əlövsət qızı Əliyeva və Xonça Sabir qızı Nağıyeva idi. Hər ikisi Zeynəddin müəllimin gözündə cərrahiyyə əməliyyatı aparıldığını eşidib, onu yoluxmağa gəlmişdi.**

Gülarə xanım uzun illər Qusarda rəhbər vəzifələrdə çalışmış – Rayon Partiya komitəsinin 3-cü katibi, VVADQ (ZAQS) şöbəsinin müdiri işləmişdi. Hazırda təqaüddə olan Gülarə xanım bir vaxtlar Zeynəddin müəllimlə işlədiyi illərə, aylara, günlərə qayıtdı, onun sözübütövlüyündən, vəzifəli adamların qarşısında əyilməzliyindən söz saldı. Dedi ki, bir dəfə rayona yenicə işə təyin olunmuş Rayon Partiya komitəsinin birinci katibi mənim yanımda Zeynəddin müəllimə qəti şəkildə dedi ki, onu internat direktorluğundan azad edəcək. Zeynəddin müəllim də çəkinmədən katibin əlinin üstə olan «nakolka» yazını göstərib dedi, necə olur ki, sizin kimi nakolkalı adam rayona rəhbərlik edə bilər, amma mənim kimisi internata yox. Az sonra katib Zeynəddin Çələbovu büronun qərarı ilə işdən götürsə də sonda Zeynəddin haqlı olduğunu sübut edə bilib, işinə bərpa oluna bildi.





Gülarə xanımdan sonra Xonça xanım Zeynəddin müəllimlə bir vaxtlar birlikdə işləmələrindən söz saldı. Dedi ki, Zeynəddin müəllim internatda direktot olan vaxt o da yeddi il onunla birlikdə işləyib, biologiya fənnindən dərs deyib. Daha sonra Rayon İcra Hakimiyyətində birlikdə işləyiblər. Onu da dedi ki, Zeynəddin müəllim bacarmadığı işi boynuna götürən olmayıb. Nə vaxt ki, nəyə görəsə söz verdi, onu mütləq yerinə yetirərdi. İşlədiyi kollektivdə özünü bir ata, bir böyük qardaş kimi aparardı, ona görə də hamımızın yanında xətirli-hörmətli olardı. Bu da onun halal qazancı idi.

* * *

**Əli Nəsrəddin oğlu Xəlilov 1937-ci il, avqustun 22-də Sudurda anadan olub.** 1969-1984-cü illərdə Qusar şəhər internat məktəbində sürücü işləyib, hazırda təqaüddədir və Zeynəddin müəllimlə qonşuluqda yaşayır.

Əli Xəlilovla görüşüb tanış olan kimi Zeynəddin Çələbov barədə söhbət edəsi olduq. Əslində söhbət zamanı qulaq asan mən, danışan o oldu: - Mən, Zeynəddin müəllimlə 1969-cu ildən qonşuluqda yaşayıram. Başqa qonşular kimi mən də şükür eləyirəm ki, Zeynəddin Çələbov kimi qonşumuz var.

Bir gün Zeynəddin müəllim mənə dedi ki, nə görmüsən bu Avtobazada sürücü işləməkdən, gəl birlikdə işləyək. Onun sözləri ürəyimdən oldu, axı, elə bir kişinin rəhbərlik etdiyi yerdə işləməkdən kim imtina edərdi ki,

mən də edəydim. Onu da deyim ki, internatda olan maşınların demək olar ki, istismar müddəti qutarmışdı, onların əsaslı təmirə ehtiyacları vardır. Ona görə əvvəl mən maşınlardan birini təkbaşına təmir üçün onu Zelenekomsk şəhərinə sürüb çətinliklə təmir üçün zavoda verə bildim. Sonra Qusara qayıtdım və bu dəfə internatın balansında olan «Qaz-69» markalı maşınla Zeynəddin müəllimlə birlikdə yenidən həmin zavoda qayıtdıq və həmin maşını da təmir üçün zavoda təhvil verdik. Onu da deyim ki, o vaxta kimi mən çox adamlarla yol yoldaşı olmuşam, eləcə sonralar da. Ancaq Zeynəddin müəllimin yoldaşlığı tamam bambaşqa idi. Onunla işləmək də, onunla gəzintidə olmaq da, eləcə də hər hansı bir tədbirdə olmaq da mənim üçün xoş olub.

Zeynəddin müəllim həm pedaqoq, həm rəhbər işçi, həm də dost və qonşu kimi dəyərli insandı. Onunla işlədiyim müddətdə şahid oldum ki, internat demək olar ki, özü-özünü maliyyələşdirə bilirdi. Bu haqda yəqin siz də dəfələrlə eşitmisiniz, məlumatlısınız. Ona görə də mən olanları sadalamağa ehtiyac görmürəm. O baxımdan atalar necə də tən-dürüst deyib: «Çörəyi ver çörəkçiyə, birin də üstəlik.»

* * *

**Hacıbaba Canəhməd oğlu Şıxıyevlə dekabrın üçüncü ongünlüyündə, Bakıya qayıtdığım gün görüşdük.** O, 1947-ci il fevralın 21-də Yuxarı Ləyər kəndində anadan olub və bu gün də öz doğma kəndində yaşayır. Ailəlidir, 6 övladı, 7 nəvəsi var.

Hacıbaba 1971-ci ildə Xarici Dillər institutunun ingilis dili fakültəsini bitirib, hal-hazırda Yuxarı Ləyər kənd məktəbində ingilis dilini tədris eləyir.





Hacıbaba müəllim, Zeynəddin Çələbov barədə böyük ürək, böyük məhəbbətlə danışmağa başladı:

- Mən, onu 1957-ci ildən tanıyıram. O vaxt internatın 4-cü sinifində oxuyurdum. Həmin il Zeynəddin müəllim internatda müəllim idi, bir neçə il sonra isə internatın direktoru oldu. Onu da deyim ki, mənim yaşıdlarım internatın birinci buraxılışı olduq. Biz şagirdlər Zeynəddin müəllimdən həm çəkinər, həm də ona yaxınlıq göstərərdik, bir çətinliyimiz olanda ona yaxınlaşardıq. Daha sonra Zeynəddin Çələbovun rəhbərliyi altında işləyən vaxtım da olub. O, rayonda İcra Hakimiyyətinin Başçısı olanda mən də Xuray inzibati ərazi üzrə icra nümayəndəsi işləmişəm. Nümayəndəsi olduğum inzibati ərazidə dörd kənd vardır - Xuray, Yuxarı Ləyər, Suvacal və Ləyərqışlaq. Bir dəfə çətinlik çəkmədən Zeynəddin müəllimlə görüşdüm, azərbaycanlılardan ibarət olan Yuxarı Ləyər kənd sakinlərinin problemini ona çatdırdım: Vaxtı ilə əsassız yerə bizim kəndin 158 hektar olan biçənək sahəsini Urva kəndinin istifadəsinə verildiyindən malqaramızın otlaq sahəsi demək olar ki, yox idi. Zeynəddin müəllim mənim sözlərimi dinlədiyi günün sabahı kəndə gəldi, camaatın haqlı şikayətini dinlədi və bir gün sonra həmin torpaq sahəsinin Yuxarı Ləyərə qaytarılması barədə sərəncam imzaladı. Ona görə bizim camaat onun haqlı qərarından çox razı qaldılar və bu barədə dönə-dönə ona minnətdar olduqlarını bildirdilər.

Zeynəddin müəllim gözütox kişidi. Sözünü bütün məqamlarda deyəndi. Hər kəslə səviyyəsinə görə danışmağı bacarandı. Sözünün ağasıdır. Xeyirəməl sahibidir. Xeyirəməl sahibləri də uzun ömürlü olur. Və mən də müəllimim və ağsaqqalım Zeynəddin Çələbova uzun

ömür, salamatlıq və gümrahlıq arzulayaraq deyirəm ki, biz Aşağı Ləyərlilərin qapısı onun üzünə həmişə açıqdır.

* * *

**Həmsöhbətim Qusar şəhərində yaşayan Bəxtiyar Gülməmməd oğlu Pirəliyevdir.** O, 1954-cü ildə Suval kəndində müəllim ailəsində anadan olub. Azərbaycan Pedaqoji İnstitutunun Tarix fakültəsini bitirib. Hazırda Kuzun kənd məktəbində tarixdən dərs deyir. Ailəlidir - 6 övladı, 1 nəvəsi var.

Bəxtiyar müəllimin dediklərindən:

- Mən, Zeynəddin müəllimin bacısı oğlu Rəsulla institutda birlikdə oxumuşam. Zeynəddin müəllim o vaxtlar bizdən tez-tez xəbər tutardı. İnstitutun rektoru Haşım Ağayevlə dost olduğundan biz də qorxusuz oxuyardıq. Bilirdik ki, bir çətinlik olsa arxamızda dayanıbdı. O illər Zeynəddin müəllim maddi və mənəvi dayağımız oldu. Sonralar Qusarda əmək fəaliyyətinə başlayanda da bir çətinliyim olan kimi ona yaxınlaşmışam, ondan düzgün məsləhət alıb, onun köməkliyindən bəhrələnmişəm. O, dünən də ağsaqqalım olub, bu gün də və nə qədər ki, canımda can varsa ağsaqqalım olacaq.

Belə bir deyim var, dünyanın cahangiri olsan da, qonşuya qonşu olmalısan. Belə bir atalar sözümüz də var, uzaq qohumdan yaxın qonşu yaxşıdır. Bütün bunları ona görə xatırladım ki, müsahibim uzun illər Zeynəddin müəllimlə qonşuluq edən Qusar şəhər 1 saylı orta məktəbin direktor müavini Vidadi Şəfayət oğlu Cavadov idi. Onunla Zeynəddin Çələbovun evində görüşdük, çay içə-içə ötənlərdən-keçənlərdən, dərədən-təpədən söhbət etdik. Söz-sözü çəkdiyindən gəlib Zeynəddin müəllimin üstə dayandıq. Vidadi Cavadov böyük ehtiram, böyük





məhəbbətlə sözə başladı: - Tək mən yox, bütün qonşular Zeynəddin müəllimi ağsaqqalımız bilirik. O, sözünün ağası olan, xeyir əməl sahibidir. Kimliyindən asılı olmayaraq ona müraciət edən, ondan köməklik uman hər kəs onun xeyirxahlığından bəhrələnib. Zeynəddin müəllim dəfələrlə hər birimizin dadına çatıb, həmişə bizlərə doğma olub.

Zeynəddin Çələbov internatda direktor olan vaxt atam onunla görüşüb xahiş edir ki, bacım Aybənizi yanında işə düzəltsin. Məqsəd də o idi ki, o vaxtlar ali məktəbə daxil olmaq üçün iş stajı tələb olunurdu. Zeynəddin müəllim atamın xahişini böyük xoşluqla qəbul edib. Bacım Aybəniz düz üç il internatda işlədi və bundan sonra sənədlərini ATİ-ə verdi və qəbul olundu.

Bu dediyim Zeynəddin müəllimin qonşulara etdiyi doğmalıqdan biri idi. Bu yöndə xeyli misallar çəkmək olar. Ancaq mən onlardan birini deməklə kifayətləndim. Onu da deyim ki, Zeynəddin müəllim vəzifədə olanda da, olmayanda da biz qonşulara, küll halında onunla təmasda olanlara qarşı münasibəti dəyişməyib. Həmişə mehriban, səmimi və qayğıkeş olub. Eləcə də bizlər də, onun vəzifədə olub-olmamasına fərq qoymamışıq, ona qarşı həmişə ehtiramlı olmuşuq və indi də ona qarşı iltifatlıyıq.

* * *

**Cəlil Alışan oğlu Səfərov 1968-ci il, martın 8-də Qubadlı rayonun Qayalı kəndində anadan olub.** 1985-ci ildə Qubadlıda orta məktəbi, 1990-cı ildə isə Bakıda Ticarət texnikumunu bitirib. 1993-cü il, avqustun 31-dən ailəsi ilə birlikdə Sumqayıt şəhərində məcburi köçkün həyatı yaşayır. Cəlil Səfərov iş adamıdır, ailəlidir – Qusarın Bədişqala kəndindən olan Zəmirə xanımla ailə həyatı

qurub, Azər və Şamil adlarında oğlanları var və hər ikisi ali təhsil ocaqlarında oxuyur. Cəlil Alışan oğlu ilə görüşüb Zeynəddin müəllim barədə söz-söhbətini eşitdim. Hörmətli eloğlum Cəlil, Zeynəddin adı eşidəndə, sanki çiçəyi çırtladı, üzü işıqlandı və xoş təbəssümlə dostumuz barədə sözə başladı: - Mən Zeynəddin müəllimi 1994-cü ilin yayından tanıyıram. İlk görüşümüzdən onun nurlu çöhrəsinin sehrinə düşmüşəm. Və bu günə kimi də həmin sehrin təsiri altındayam. O vaxt mənə xeyli tövsiyələr verdi, həyat haqqında müdrik bir ağsaqqal kimi fikir söylədi. Xüsusən məcburi köçkün kimi Qubadlıdan çıxmağımı biləndə, daha da məhrəm oldu mənə. Elə o gündən də Zeynəddin müəllimlə dostluq edirik. Dəfələrlə evində olmuşam, halal çörəyini kəsmişəm. Eləcə, o da mənim Qusarın Bədişqala kəndindəki evimdə qonağım olub. Zeynəddin müəllim qənimət kişilərdəndir. Necə deyərlər barmaqla sayılan kişilərdəndir – mərd, səxavətli, sözünün ağası, elcanlı, qonaqpərvər və dostcanlı.



# Ömrün əməl dastanı

Dünya ayağı sürüşkən qadın kimidir, onun aşiqi çoxdur.

*Əmir Teymur*

Dövlətin daxilində fəaliyyət göstərən düşmənləri əzmədən onların havadarı olan xarici düşmənləri məğlub etmək olmaz.

*Demosfen*

Ağıllı cavab almaq istəyirsənsə, ağıllı sual ver.

*V.Hüqo*

Ağıllı, səxavətli adamlar mallarını dostlarla yeyərlər, ağılsız xəsislər isə yeməyib düşmənlərə saxlayarlar.

*Ə.Cami*

Ədaləti anlamaq, gözəlliyi duymaq, yaxşını arzu etmək - şüurlu həyatın məqsədi budur.

*Platon*

Namuslu insan olmaq istəyirsənsə ömrünün mənasını vətənə xidmətdə gör.

*D.İ.Fonvizin*

Bu günü daha yaxşı görmək üçün keçmişi bilməliyik.

*Ömər Xəyyam*

Poeziya insan ruhunun musiqisidir.

*Aristotel*



# ZEYNƏDDİN ÇƏLƏBOVUN DÖVRÜ MƏTBUATDA VƏ TOPLANTILARDAKI SÖZÜ VƏ ÜNVANLI YAZILARINDAN SƏTİRLƏR

Nə qədər bilirsən bil, söylədiklərin qarşısındakının anlaya biləcəyi qədərdir.

**Cəlaləddin Rumi**

İnsanlara öz ağlınızın yetdiyi qədər deyil, onların ağıllarının qavrayacağı dərəcədə söyləyin.

**Hədisi Şərif**

## HAMI CANİ-DİLDƏN İŞƏ GİRİŞSƏ...

Qusarın gələcəyini nikbin görə biləcəyik

*Müxbirimizin Qusar rayon İcra Hakimiyyəti başçısının Qusar şəhəri üzrə nümayəndəsi Zeynəddin Çələbovla söhbəti.*

- Zeynəddin müəllim, bilirəm ilk sualım sizə kövrək təsir bağışlayacaq. Amma soruşacağam. Neçə illər direktoru olduğunuz internatdan, onun qayğıya həsrət, şagirdlərindən ayrılmaq, pedaqoji işdən sonra birdən-birə şəhər həyatı ilə sıx bağlı, narahat və gərgin bir sahədə çalışmaq sizə çətin olmadı ki?

- Düz tapmısınız, bu sualınızla ürəyimin ən incə, kövrək yerinə toxundunuz. 24 ildən bəri işlədiyim, öyrəşdiyim internatdan ayrılmaq mənə asan olmadı. İlk günlər mənə çox çətin idi. Amma təzə işin məsuliyyəti, ağırlığı,

şəhər həyatının min bir qayğısı tezliklə mənə bu çətinliyi unutdurdu. Özünüz yaxşı bilirsiniz, internatdan fərqli olaraq, yeni iş yerim həqiqətən işləməyi tələb edən (söz verməyi yox) gərgin bir sahədir. Qusar şəhərində yaşayan 17 min əhalinin sudan tutmuş ta kanalizasiyaya qədər bütün dərd-səri cəmləşib bizim idarədə. Düzü, illərlə yığılıb qalmış problemlər o qədərdir ki, hansının həllinə dərhal başlamağı müəyyən edə bilmirdim. Hər halda ilk növbədə əhalinin içməli suya olan tələbatını necə ödəmək yollarını arayıb axtarmağa başladıq. Qaldı ki, internata, onun qayğıya həsrət, şagirdlərindən ayrılmağıma, onlar mənim üçün həmişə əzizdirlər, əziz olacaqlar da. İnternatla daima əlaqə saxlayacağam. Bir qədər loru dildə desəm, direktorluqdan çıxmışam, insanlıqdan ki, çıxmamışam.

Rayon İcra Hakimiyyəti başçısının sərəncamı ilə aprel ayı şəhərdə təmizlik və yaşıllaşdırma aylığı elan olunmuşdur. Şəhərin rəhbəri kimi aylığın nəticəsi sizi qane edirmi?

- Açığını deyim, yox, qətiyyən yox. Protokol xatirinə görülən işdir. Bayaq dedim ki, müxtəlif problemlərlə bağlı şəhər əhalisinin qayğıları çoxdur. Bütün bunları bir ayın içində həll etmək qeyri-mümkündür. Gedənin arxasınca danışmaq kimi çıxmasın, şəhərin abadlığı, gözəlliyin naminə əvvəlki illərdə görülmüş işlər bizi qətiyyən qane etmir. Bir faktı deyim, təkcə 1991-ci ildə şəhərdə bu məqsədlə 1 milyon 800 min manat pul xərclənib. Amma gəlin addım-addım şəhəri gəzək. Görülmüş işlərdəki pərakəndəlik, diqqətsizlik, keyfiyyətsizlik dərhal diqqəti cəlb edəcək. Şəhər parkı bu gün bərbad vəziyyətdədir. İllərlə buraya sərf olunmuş vəsait necə gəldi xərclənib.





Şəhər təsərrüfatında bir çox nöqsanlar mövcuddur. Haranı qurdalasan mənimsəmə çıxır. Bəzi sahələr hüquq mühafizə orqanları tərəfindən yoxlanılandan sonra əhaliyə dəqiq məlumat verəcəyik.

Fərdi ev tikmək istəyən vətəndaşlara torpaqvermə işində kobud qanunsuzluqlar var. Açıqdan-açığa yer alveri gedir. Kimin imkanı var, 2-3 yerdə torpaq sahəsi alır. Həqiqətən evə ehtiyacı olan vətəndaş isə bir yerdə də olsa sahə ala bilmir. Biz bütün bu hallara qarşı kəskin və barışmaz mövqe tutacağıq.

- Bayaq su problemindən danışmağı sonraya qoydunuz.

- Doğrudan da, şəhərdə əhalinin içməli suya olan tələbatı əsil problemə dönüb. Gündə bunun üçün nə qədər şikayətçi yanıma gəlir. Susuz şəhərin təmizliyindən necə söhbət gedə bilər? Hər şeyi təmizə çıxaran, saf edən, quru sahəni yaşıl ormana çevirən sudur. Dirilik, həyat rəmzi olan su... Bizim camaat sudan çox korluq çəkir. Məlumdur ki, bir adam gündə 300 litr su işlətməlidir. Ancaq olsa, olmasa? Olmasa nə işlədəcək? Hazırda şəhərdəki 2 su hövzəsinin su tutumu cəmi 1000 kub metrdir. Bu isə 17 min əhali üçün çox azdır.

Su problemini aradan qaldırmaq üçün ilk növbədə qərara aldıq ki, şəhər əhalisinin həyatyanı sahələrini suvarmaq üçün Avaran kəndinin böyründəki Cağar – Cibir kanalında bir neçə su arxı çıxarmaqla şəhərə fasiləsiz su verə bilək. Özü də bu arxların hamısında eyni səviyyədə su olmaq şərti ilə. Bu sahədə artıq müəyyən işlər görməyə başlamışıq. Şəhərin yeni su xətti isə yaxın vaxtlarda istifadəyə veriləcək.

Yeri gəlmişkən, su ilə bağlı bir məsələni də qeyd etmək istəyirəm. Şəhərin bir məhəlləsində su olanda o biri məhəlləsində camaat onun bir damcısını da tapmır. Uzağa getməyək, şəhər mərkəzi xəstəxanasında xəstələr sudan olmazın korluq çəkirlər. Su olmayan yerdə isə hansı təmizlikdən, hansı sanitariya-gigiyena qaydalarına əməl olunmasından söhbət gedə bilər? Ona görə əhalinin nəzərinə çatdırırıq ki, içməli sudan olduqca qənaətlə istifadə etsinlər, israfçılığa yol verməsinlər.

- Zeynəddin müəllim, mənə elə gəlir ki, şəhərin təmizliyinin və abadlığının qorunmasında əhalinin də üzərinə ciddi məsuliyyət düşür. Bu fikrimlə razılaşırsınızmı?

- Əlbəttə, razıyam. Qusarın gözəlliyi, abadlığı və təmizliyinin qorunmasında əhalidən də çox şey asılıdır. Amma təəssüf ki, bəzi sakinlər şəhərdə təmizlik və sanitariya qaydalarına qətiyyən əməl etmirlər. Belə ki, onlar həyət-bacalarından çıxan zibili küçəyə tökür, çirkab sularını arxlara axıdır və s. hərəkətlərlə şəhərin təmizliyinə xələl gətirirlər. Di gəl, belə sakinləri olan şəhərdə təmizlik yarat. Bilirsiniz, indi inzibati amirlik dövrü deyil. Şəhərdə natəmizlik yaradan sakinləri uzağı cərimə edirik, çağırıb danlayırıq. Amma bundan da bir şey çıxmır. Gərək təmizlik adamın canında olsun, ona kənardan nə qədər desən də, nə qədər cərimə etsən də xeyri olmayacaq. Necə deyərlər, quyuya su tökməklə sulu olan deyil.

- Şəhərimizdə tikiləcək, məscidin inşa ediləcəyi yerə münasibətiniz necədir?

- Yaxşı, Qusarda məscid məhz orada – musiqi məktəbinin arxasında tikilməlidir, başqa natəmiz, qızdıqca zir-zibil çıxan yerdə yox. Çünki məscid ən təmiz, ən pak yerdə və şəhərin mərkəzində ucalmalıdır. Türk memarlıq





üslubunda da belədir. Allahın evi, ən ali etiqadgahımız olan məscidi də şəhərimizin bu dediklərimə uyğun olan yerində tikməyi planlaşdırmışıq. Məscidin burada tikilməsi üçün şəhər əhalisinin, ağsaqqaların, din adamlarının rəyi əsas götürülüb.

- Şəhərimizin gələcəyini necə görmək istərdiniz?

- Bilirsiniz, şəhərimiz olduqca çox təbii gözəlliyə malik olan bir yerdə yerləşir. Amma gəlin görək hamımız bilirik bu gözəlliyin qədrini? Şəhərimizdə həqiqətən kökündən abadlıq işləri getsə, Qusar MDB-nin bir çox kurort şəhərləri (Yessentuki, Kislovodsk) ilə müqayisə oluna bilər. Amma indiki halında yox, qətiyyən yox. Mən şəhərimizin gələcəyinə nikbinliklə baxıram. Təmiz ab-havalı, səfalı Qusarın gələcəkdə hər qarışını gözəl, abad, təmiz görmək istərdim. Amma yenə bir şərtlə. Atalar demiş, tək güllə bahar olmaz. Bir mən şəhərin abadlığı naminə düzlükdən, görüləcək iş və arzulardan danışmaqla heç nə edə bilməyəcəyəm. Çünki, gərək şəhərdə vəzifə stolu arxasında əyləşən hər kəs bu məsuliyyəti hiss eləsin, doğma şəhərini sözdə yox, görünüşdə gözəl və abadlığı üçün əlindən gələn, bacardığı işi görsün, öz cibi üçün yox, ana torpağı üçün cani-dildən işə girişsin. Belə olarsa, biz hamımız gözəl təbiəti ona Allah tərəfindən əvəzsiz vergi kimi verilmiş Qusarın gələcəyini nikbin görə biləcəyik.

*Söhbəti apardı: «Qusar» qəzetinin*
*Müxbiri Aytəkin Alxaslı*
*23 may 1992*

## ÇOX ŞEY DƏYİŞİB, TƏKCƏ...

Müsahibimiz Qusar Rayon İcra Hakimiyyətinin başçısı Z.R.Çələbovdur.

Qusar rayon İcra Hakimiyyətinin başçısı Zeynəddin Çələbovu hazırda hansı məsələlər narahat edir, düşündürür? O hansı qayğılarla yaşayır? Əməkdaşımızın Z.Çələbovla söhbəti məhz İcra Hakimiyyəti başçısını düşündürən məsələlərə həsr olunmuşdur?

- Zeynəddin müəllim, təxminən bir neçə ay bundan əvvəl qəzetimizdə sizinlə rayon İcra Hakimiyyəti Başçısının Qusar şəhəri üzrə nümayəndəsi kimi müsahibə aparmışdır. İndi isə rayon icra hakimiyyətinin yeni başçısı kimi vaxtınızı almalı olacağıq. Yeni vəzifədə sizə məhz uzunömürlü fəaliyyət arzulamaqla dərhal mətləbə keçmək istəyirəm. Rayonda kadr siyasəti necə aparılacaq? Axı, rayon həyatının bütün sahələrini nizamlayan məhz kadr amilidir.

- Tamamilə doğrudur. İşlərin düzgün və öz qaydasında getməsi üçün əsas amil kadr siyasətidir. Vay o gündən ki, bu iş sistematik qaydada aparılmaya, ixtisaslı kadrlar öz qabiliyyətinə görə deyil, «dayı» gücünə yerləşdirilə. Bax, müsibətimiz də elə buradan – şair Qabil demişkən, yerlərimizin səhv düşməsindən başlayır, işimiz yamanlaşır. Gizlətmirəm, heç kimə yeni söz də deyil. Uzun illər həm respublikada, həm də rayonda kadrların düzgün yerləşdirilməməsi bizi indi qıtlıq və bahalıq kimi güclü iqtisadi bəla ilə qarşılaşdırıb.

Desəm ki, artıq adət halını alıb, heç də səhv etmərəm. Hər hansı bir rayonda seçilən başçı işə başlayan kimi dərhal böyür-başına yeri gəldi-gəlmədi, bacardı-bacarmadı öz «komandası»nı toplayır. İş bacaran, «dayı»sız





kadrlar isə qalır kənarda. Mən də bir növ bu ənənəyə sadiq qalacağam. Amma tamam başqa aspektdə. Rayonda öz qabiliyyətinə, savad və biliyinə görə xalqa xeyir verə biləcək kadrlar vəzifə başına gələcək. Əlbəttə, bu şərtlə. Təki sağlıq olsun, dünyamız sakitləşsin. Yeni vəzifədə nə qədər işləyəcəyimdən asılı olaraq, kadr siyasətini məhz bu aspektdə aparacağam.

## SÖZ Kİ, İQTİSADİ BƏLADAN DÜŞDÜ

- Elə isə maraqlıdır, rayonu iqtisadi böhrandan çıxarmaq üçün nə etmək fikrindəsiniz?

- Bilirsiniz, indi zəmanə, dövr çox dəyişib. Kəndlinin şəxsi marağı təsərrüfata, torpağa qayğı-diqqəti, el malının qorunmasını qat-qat üstələyib. Hər yerdə pərakəndəlik, təsərrüfatsızlıq baş alıb gedir. Təsərrüfat rəhbərlərinin başdansovduluğu, fərasətsizliyi olduqca ağır olan iqtisadi vəziyyəti daha da pisləşdirir. Nümunələr gətirəcəyəm. Qazıməmməd adına sovxozun ərazisindəki kəndlərin sakinləri iribuynuzlu şəxsi mal-qaralarını sovxozun bağlarına buraxırlar. Deyək ki, camaatın ictimai şüuru korlanıb. Bəs haradadır təsərrüfatın rəhbərləri - «Taxıl elin sərvətidir» deyirik. Bu, öz yerində. Bəs kəndlərdə taxılçı əməyi, taxılçı nüfuzu təsərrüfatsızlığa qarışıb itib batıbsa, bəs onda necə? Bu gün kəndli də sumka götürüb şəhərə çörək dalınca gələcəksə, şəhərdə yaşayanın payına ortaq olacaqsa, günü sabahdan təknələrimizin bom-boş qalacağı ehtimalı yaranmırmı? Telman adına sovxozda hər hektardan 40 sentner əvəzinə cəmi 8 sentner taxıl götürülməsi dediklərimə əsas verir.

1962-ci ildə rayonumuzun təsərrüfatlarında 86 min qoyun-quzu vardı. İndi isə cəmi 35 min. Otuz il sonra

güclü artım əvəzinə ciddi geriliyin nəticəsidir ki, Qusar kimi dağlıq bir rayonda bazarda qoyun ətinin kiloqramı 130 manatdır. Bütün bu giley-güzarlar məni ciddi narahat edən məsələlərdəndir. Qısa müddət ərzində bu məsələlərin müsbət hællinə doğru mühüm tədbirlər həyata keçiriləcək.

- HANSI YOLLARLA? Ən əvvəl yuxarıda dediyi kimi kadr siyasətinin düzgün aparılması və yerli şəraitə uyğun intensiv metodlardan istifadə edilərək təsərrüfatların dirçəldilməsi bu sahədəki fəaliyyətimizdə əsas metodumuz olacaq.

- Yoldaş Çələbov, söhbətinizdən belə görünür ki, onda rayonda işsizlik problemi də mövcuddur.

- Sözsüz. Bayaqdan iqtisadi geriliklərdən danışıram, belə yerdə işsizlər olmaya bilərmi? Biz indi təkcə iqtisadi geriliklə mübarizə aparmalıyıq. Boşalmış kəndlərimizdə sosial-mədəni sahələrdəki şəraitsizliyi, geriliyi bəs kimin ayağına yazaq? Kican, Düztahir kəndlərində klub da, kitabxana da, üstəlik məscid də eyni binada yerləşir. Təsəvvür edin, bir tərəfdə musiqi səsi yüksəlirsə, bu Allahın evi sayılan məsciddəkilərə necə təsir edər? Elə belə hallar deyilmi xeyir-bərəkətimizi yoxa çıxaran?

Belə bir məqsədim var. Yerlərdə işsizlik problemini aradan qaldırmaq, bütün sahələri eyni dərəcədə inkişaf etdirmək üçün kəndləri bir-birindən ayırmaq lazımdır. Belə bir müqayisə: ata evində birgə yaşayan 2 qardaş bir yerdə olanda heç biri təsərrüfata, evə fikir vermir, ümumi mənbədən dolanmağı qənimət sayırlar. Amma elə ki, ayrılırlar, hərə özünə bəh-bəhlə bir ev-eşik düzəldir ki, gəl görəsən. Bax, indi kəndlərimizin çoxu bir yerdə yaşayan





qardaşların günündədir. Ayrılsalar, tezliklə hərə özünə bir gün ağlayacaq.

Daha sonra. İctimai təsərrüfatların inkişafını sürətləndirmək lazımdır. Bu saat kəndli şəhərlinin payını əlindən alır. Bəs onun istehsal etdiyi məhsul hanı? Bazarlardakı bahalıq və qıtlıq baş alıb getmirmi? Belə bir misal Respublikanın böyük şəhərlərindəki bazarlarda olduğu kimi, rayon bazarında da 1 ədəd yumurtanın qiyməti 7-8 manatdır. Buna səbəb nədir? Olmaya qadınlarımız toyuq-cücə saxlamağı yadırğayıblar? Düzdür, bunun bəzi digər səbəbləri olsa da (taxılçılığın zəif inkişafı kəndliyə istədiyi qədər toyuq-cücə saxlamaqda mane olur, toyuq dəni çatışmır) bir səbəbi də uzun illər zəhmətinin bəhrəsini görməmiş kəndlinin əlinin işdən soyumasıdır. Bütün bunları canlandırmaq üçün kəndlərdə hərtərəfli iş tələb olunur. Kəndlini gərək maddi-mənəvi cəhətdən həvəsləndirəsən ki, ondan məhsul da gözləyəsən.

- Zeynəddin müəllim, Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan respublikasında yaşayan milli azlıq, azsaylı xalq və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətinin inkişafı üçün dövlət yardımı haqqında» sentyabr 1982-ci il tarixli fərmanı ilə əlaqədar rayonda hansı işlər görüləcək?

Əvvəla, mən bu fərmanı respublikada atılan demokratik addımlardan biri kimi qiymətləndirirəm. Fərmanda respublikada yaşayan bütün azsaylı xalqlar və etnik qruplar kimi, biz ləzgilərin də dil və mədəniyyətinin inkişaf etdirilməsi, hüquq və mənafelərinin qorunması sahəsində mühüm tədbirlər nəzərdə tutulur. Rayon icra hakimiyyətində fərmanı tam əhatə edən tədbirlər planı tutulub və oktyabr ayından həyata keçirilməsinə başla-

nılmışdır. Nəzərdə tutulan tədbirlərin hamısı vacib olsa da, bəzilərini oxucuların diqqətinə yetirmək istəyirəm. Planda rayon tarix və diyarşünaslıq muzeyinin eksponatlarının ləzgi xalqının tarixi, mədəniyyəti ilə bağlı sənət nümunələri ilə zənginləşdirilməsi məktəblərdə ləzgi dilinin tədrisi tədris ocaqlarındakı dərnək və fakultativ məşğələlərdə ləzgi dili, ədəbiyyatı və tarixinin öyrənilməsi vəziyyətini yaxşılaşdırmaq üçün müxtəlif tədbirlərin həyata keçirilməsi qərara alınıb.

Qarşıdakı ildə rayonda respublika yazıçılar birliyinin bölməsinin yaradılması, M.Ə.Əliyev adına Azərbaycan Dövlət İncəsənət Universitetinin Quba filialında yeni yaradılan Ləzgi Dövlət Dram Teatrı üçün ləzgi dilində şöbə açılması üçün respublikanın əlaqədar təşkilatları qarşısında məsələ qaldırılacaq və müsbət həllinə çalışacağıq. Hələlik Qusar Ləzgi Dövlət Dram Teatrı üçün maşın verilmiş, kollektivə lazımi iş şəraiti yaradılmışdır.

Bir sözlə, çalışacağıq ki, fərmanda göstərilən müddəalar kağız üzərində qalan qərarlara oxşamasın. Ləzgi xalqının dilinin, mədəniyyəti və tarixinin inkişafı üçün həlli vacib olan işlər görülsün.

- Söz sözü gətirər – deyiblər. Söz ki, fərmandan düşdü, yeri gəlmişkən soruşmaq istəyirəm. Tədbirlər planınıza əsasən «Qusar» qəzetinin üzərinə hansı vəzifələr düşür? Qəzetin təsisçi təşkilatlardan birinin başçısı kimi onun qayğıları barədə nə deyə bilərsiniz? «Kütləvi informasiya vasitələri haqqında» Azərbaycan Respublikası qanunundan məlum olduğu kimi, (maddə 15) təsisçi kütləvi informasiya vasitəsinin maliyyə, yayım, avadanlıq və texniki təchizat məsələlərini həll edir.





Mənə elə gəlir ki, «Qusar» qəzeti fərmanla bağlı vəzifələri çoxdan yerinə yetirir. Rayon həyatının bütün sahələrinin güzgüsü kimi qəzet öz işini düzgün qura bilib. Amma, bütün bunlar azdır. Unutmayaq ki, «Qusar» əsasən ləzgi dilində çıxan yeganə rayon qəzetidir. Qəzetin səhifələrində ləzgicə gedən yazıların dilinə, üslubuna janr və mövzusuna ciddi diqqət yetirmək lazımdır.

Təsisçi təşkilatlardan birinin başçısı kimi qəzetə qayğını artıq göstərmişəm. Gələcəkdə lazım olan bütün hallarda «Qusar»a kömək və yardım məsələlərində öz qayğımızı əsirgəməyəcəyəm.

- Zeynəddin müəllim, sizi tanıyanlar yaxşı bilir ki, siz siravi müəllimlikdən indiki məsul vəzifəyə pillə-pillə yüksəlmisiniz. Adi müəllim işlədiyiniz vaxtdan neçə-neçə illər ötüb. Maraqlıdır: ötüb keçən bu illərdə çox şey dəyişib: vəzifəniz də, yaşınız da, görkəminiz də. Bəs deyə bilərsinizmi sizdə dəyişməyən nə olub arxada qalan bu illərdə?

Sualınız keçmiş günlərimi bir növ silkələdi, yadıma saldı. Geniş cavab vermək istəməzdim. Qısaca deyim. Düz deyirsiniz, çox şey dəyişib. Dəyişməyən təkcə insanlıq mövqeyim olub, qızım. Göz qırpımında keçən illər təkcə bu mövqeyimi dəyişdirə bilməyib. Məni yaşadan, xalqıma xidmət etməyə vadar edən də elə budur.

- İşdən sonra nə ilə məşğul olmağı sevirsiniz?

İş vaxtı deyəndə qəribə çıxmasın. İşə başlamağımın, işdən qayıtmağımın dəqiq vaxtı məlum deyil. Bu saat payız əkininə nəzarətdən tutmuş ta adi bir vətəndaşı qəbul etməyə qədər olan bütün işlər mənə baxır. Hər halda deyim, işdən sonra poeziya ilə məşğul olmağı (yazmağı yox ha, şeir oxumağı) çox sevirəm. Sirr olmasın, özüm gəncliyimdə bir–iki şeir yazmışam, çap olunub da.

Daha sonra, internat məktəbin (Çatal) təcrübə sahəsindəki təsərrüfatda işləməyi də çox xoşlayıram. Bu sözləri heç kim özünü tərif kimi başa düşməsin. Mən uşaqlıqdan əməyə bağlı olmuşam. Bu yaşımda o adətimi tərgidə bilmərəm. Bu il belə bir eksperiment aparmaq fikrindəyəm. «Çatal» da 30 hektar taxıl sahəmiz var. Həmin sahədən gələn il hektardan 40 sentner biz, 35 sentner sovxoz rəhbərləri götürsələr, aramızda narazılıq olacaq. Hədələmirəm, indidən tapşırıram. Sözümüz sözdür. Bol məhsul götürmək üçün indidən ciddi çalışmaq gərəkdir. İndiki payız əkinindən çox şey asılıdır.

- Yoldaş Çələbov, rayonumuzun sabahına necə baxırsınız?

- Bilirsiniz, bütün ömrüm boyu haqq-ədalət tərəfdarı olduğumdan bu hissi həmişə mübarizə silahım hesab etmişəm. Ədalət naminə mübarizəmi yenə inadla davam etdirəcəyəm.

Məni indiki iqtisadi vəziyyət çox düşündürür. Yuxarıda dedim, bu bəladan xilas olmaq üçün səmərəli yollar arayıb axtarmalıyıq. Rayonumuzun sabahına bu yolda uğur, qələbə, dönüş qazanmaq ümidilə, nikbinliklə, gülərüzlə baxıram. Amma bir qayğı dərhal məni üstələyir. Sabahımız bu gün öz əlimizdədir. Bu gün kəndli də, təsərrüfat rəhbəri də, hətta rayonun başçısı da qızıl kimi qiymətli, münbit torpağımızdan nə qədər möhkəm yapışsa, açılan sabahımızın bir o qədər bolluq, firavanlıq içində olacağına şübhəmiz olmamalıdır.

Aytəkin Alxaslı,
«Qusar»ın xüsusi müxbiri
4 noyabr 1992





## HAMININ GÖZÜ ÖNÜNDƏ

Sübut etməyə ehtiyac varmı ki, insanın mədəniyyəti, onun təhsili, etik qaydalara riayət etməsi, işinin keyfiyyətini, insanlar arasında olan avtoritetini, sözünün kəsərliyini insanlara təsir dərəcəsini müəyyən edir? Görünür, bu hamı üçün məlum həqiqətdir. Lakin, mənim fikrimcə, hər kəsə aid olan bu keyfiyyət göstəriciləri inzibati orqanlarda işləyənlər üçün daha vacibdir.

Fərqi yoxdur, sıravi milis işçisi, yoxsa, şöbənin rəisi, müstəntiq yoxsa prokuror, xalq hakimi, yoxsa məhkəmə icraçısıdır.

Qabaqcadan deyirəm ki, inzibati orqanların işçilərində bu keyfiyyətlərinin olmadığında mən günahlandırmaq məqsədi güdmürəm. Əksəriyyəti savadlı, fədakar, cəsarətli və mədəni insanlardı: belə nizam-intizam keşikçiləri haqqında hekayələr, povestlər yazılıb (və yazılacaq) kinofilmlər çəkilib və mahnılar bəstələnib.

Lakin hələ ki, bunların arasında elə insanlara rast gəlirik, hansılar ki, ümumi dünya görüşləri, mədəni səviyyələrinə görə onların tutduğu vəzifələri uyğun deyil.

İnsan xidməti geyimində hər zaman göz qabağındadır. İnsanlar onda qanun və hökumət görürlər. Ona görə də ona bizim həyatımızın normalarına zidd olan əhəmiyyətsiz, heç nə bağışlanmır. Heç bir şeyə qadir olmayan, mədəniyyətsiz, kobud və qaba orqan işçisi böyük məyusluq və qəzəb yaradır. İnzibati orqan işçisindən «Ey, sən!» müraciətini eşidəndə, necə qəzəblənmiyəsən. Axı çox vaxt o, belə müraciəti normal hesab edir.

Təəssüf ki, hətta hakimlər arasında da dardüşüncəli, aşağı nitq mədəniyyətli və yaxşı tərbiyə almamış insanlara da rast gəlmək olur. Belə insanlardan necə gözlə-

yəsən ki, istintaq zamanı onlar həqiqəti aşkar çıxarmaq, müttəhimin günahının dərəcəsini təyin etməkdən savayı, insanlar arasında tərbiyəli və izahedici vəzifə yerinə yetirəcəklər?

Əfsuslar olsun, təcrübə göstərir ki, məhz dar dünyagörüşlü, aşağı səviyyəli işçilər, daha doğrusu səhlənkarlıq, prinsipsizlik və nöqsanlara razılaşmalı münasibət göstərirlər. Qanunun və nizam-intizamın keşiyində dayanmaq, insan hüquqlarını qorumaq, ləyaqətsiz hərəkətlərə görə cəzalandırmaq - bu böyük məsuliyyət tələb edir. İnzibati orqanların işçiləri çətin və şərəfli vəzifə yerinə yetirirlər. Bu vəzifə onlardan maksimum fədakarlıq, mədəniyyət və etik normalara riayət etməyi, geniş dünyagörüşünün olmasını, ədalətliyi və obyektivliyi tələb edir.

Hamıda, kimdən ki söhbət gedir, bu keyfiyyətləri görmək çox çətindir. Lakin, aydındır ki, insanları hüquqmühafizə orqanlarına işə göndərəndə, onların dözümünü, insanlarla ünsiyyət qurmağı nəzərə almaq lazımdır. Lakin orqanlarda işləyənləri, hər şeydən əvvəl, ciddi nəzarət altında tərbiyə etmək lazımdır. Azərbaycan KP MK-nın Nərimanov rayonu haqqında çıxardığı qərar çox kəskin xatırladır ki, burada hətta cüzi mərhəmət də yolverilməz.

Z.Çələbov
İnternat məktəbinin direktoru
Qusar «Bakinskiy raboçiy» qəzetı. 211
10 sentyabr 1981

* * *





**Zeynəddin Çələbov internat direktoru olduğu zaman kəsiyində Qusar rayonunda olan bir toplantıda aşağıda göstərilən məzmunda iştirakçılar qarşısında çıxış etmiş və onun bu çıxışı alqışlarla qarşılanmışdır:** Hörmətli toplantı iştirakçıları, Siz bilirsiniz ki, bu gün, ən əsası, yardımçı təsərrüfatımız var. Budur, mən, o insanam ki, Azərbaycanın məhsuldar torpağında doğulmuşam və bütün ömrümü burada yaşamışam.

Bir əllərimə baxın. Yadımdadı, mənim atam deyirdi: «Oğlum, torpaq (bizim qida mənbəyimizdir) bizi dolandırır. Ona nə qədər əmək sərf etsən, o qədər xeyir görərsən.»

Bunu ta uşaqlıq illərindən dərk edərək, buna başqa cür münasibət göstərə bilməzdim. Budur, artıq iyirmi altı ildir, uşaqların tərbiyəsilə məşğul oluram.

Onların aralarında həmkəndlilərimiz də var, dosttanışımın uşaqları da.

Bizim internat məktəbimiz, demək olar ki, təmiz akademik biliklərlə məşğuldur, yəni ümumi təhsillə.

Amma, ətrafımızda o qədər istifadəsiz torpaqlar var ki, orada cavan əllər möcüzələr yarada bilər.

Sözün qısası, çox çətinliklə ona nail olduq ki, bizə 27 ha yararsız torpaq sahəsi ayırdılar. Bilirsinizmi, elə bil uşaqlarımıza yeni həyat verdilər. Ola bilər, bu ya əkinçi ata-babalarımızın çağırışı idi, ya da ərzaq proqramının həllinin ölkəmiz üçün necə vacib olduğuyu dərk edən gənclərimizin ruh yüksəkliyi idi. Uşaqlarımız çox şey qazandılar. Bu gün bizim hər cür bostan məhsulları ilə dolu olan torpağımız, bağçamız, meyvə bağımız və öz fermamız var. Bilirsinizmi, bu işin baş tutacağına heç

kəsin inanmadığı bir vaxtda, bizim uşaqların mənəvi və fiziki tərbiyəsində mühüm rol oynayır.

Biz bu gün on minlərlə manatlıq ərzağı təhvil verdikdə, hamı bizə inanır. İnternatın yetirmələri, bu gün təhsili əməksiz təsəvvür etmir.

Çox danışmaq istəmirəm, amma öz şəxsi pedaqoji təcrübəmə əsaslanaraq deyə bilərəm ki, hər kənd məktəbində, xüsusilə də internat məktəbində yardımçı təsərrüfat, şagirdlərin ərzaq proqramının yerinə yetirilməsində qoyulan ata-babalarımızın ənənəvi əmanətidir.

Mübaliğə etmədən deyə bilərəm ki, məktəbimizin yetirmələri həmişə əkinçinin əməyini qiymətləndirəcək və əkinçi əməyinə hörmət edəcəklər.»

* * *

Azərbaycan KP MK-nın ikinci katibi yoldaş V.N.Konovalova 1960-cı ildən KP-nın üzvü 30 illik pedaqoji stajlı Qusar rayonunun internat məktəbinin keçmiş direktoru Çelyabov Z.R. tərəfindən

**Şikayət ərizəsi**

Mən, 1968-ci ilin sentyabr ayından fasiləsiz Qusar rayonunda internat-məktəbinin direktor vəzifəsində çalışmışam. Kollektivimizin səyi nəticəsində geridə qalmış internat məktəbi qabaqcıllar sırasına çıxmışdır.

Bu müddət ərzində internatda 300 nəfərlik yeməkxana, hamam, içməli su üçün hovuz tikilmiş, mərkəzləşdirilmiş istilik sistemi və məktəbin sahəsi 2000 metrlik hasara alınmışdır. Bunların hamısı respublika mətbuatında işıqlandırmış, maarif nazirliyinin kollegiyasında qeyd edilmiş və nazirliyin kollegiyasının qərarı ilə məktəbimizin iş təcrübəsi başqa məktəblərdə yayılmasına tövsiyə edilmişdir.





1980-cı ildə yardımçı təsərrüfatın yaradılması ilə bağlı Partiya və hökumətin mühüm qərarından sonra bizim internat birinci olaraq yararsız torpaqlarda heç bir kənd təsərrüfatı maşınları, inventar və avadanlıq olmadan, qısa müddətdə nümunəvi yardımçı təsərrüfat yaratdı. İndiki yardımçı təsərrüfat 26,5 ha torpaq sahəsi, DT-75 markalı traktor, UAZ-452 maşını, PAZ avtobusu, ot presləyən və toxum səpən maşın əhatə etmişdir. Təsərrüfatımız 138 xırda buynuzlu heyvan, çobanlar üçün yaşayış evi, heyvanlar yatağı üçün ağıl yaradıb. Qeyd etmək lazımdır ki, Maarif nazirliyinin bizə verdiyi traktor və avtomaşından başqa, rayon təşkilatları bizə heç bir maliyyə yardımı göstərməmişdir.

İnternatda yaşayan şagirdlər fasiləsiz olaraq ət, kartof və tərəvəzlə təmin olunmuşlar. 1958-ci ildə şagirdlərin yemək menüsuna 9600 kq qarpız, 157 kq ət, 1500kq kartof əlavə edilmişdir.

Rayon təşkilatlarının sərəncamına əsasən sovxozlara son iki ildə 100 ton toxumluq buğda, 260 ton ot və saman və başqa təşkilatlara 3 ton soğan və s. verilmişdir.

1 aprel 1986-cı ildə yardımçı təsərrüfatın hesabında 90000 manat pul, 138 baş xırda buynuzlu heyvan olmuşdur ki, bu da bizim təsərrüfatımızın təmiz gəlirini təşkil etmişdir.

1986-cı ilin məhsulu üçün 1985-ci ilin payızında 20 hektar sahəyə taxıl səpilmişdir.

1986-cı ilin dekabr ayının sonunda rayon partiya konfransı keçirildi. Konfransdan bir neçə gün sonra yeni seçilmiş RPK-nın I katibi yoldaş Bədirov R.M. anonim məktublara əsasən 15 yanvar – 10 aprel tarixlərdə internata 7 müxtəlif yoxlama komissiyası göndərmişdir. Yoxlama komissiyaları internatın faktiki fəaliyyətini, tədris-pedaqoji işini, şagirdlərin məişət vəziyyətini və yardımçı təsərrüfatının işinin faktiki vəziyyəti deyil, bu komissiyalar xüsusi göstərişlə məni süni surətdə mənə qarşı qərəzli yoxlama aparmışdır. Yoldaş Bədirov R.M. bu müddət ərzində bizim internatdan başqa bütün təşkilatlarda və şəhərin məktəblərində olmuşdur. Beləliklə bizə məlum oldu ki, yoldaş Bədirov R.M. internatın həyat fəaliyyətini yaxşılaşdırılması ilə yox, yalnız məni ləkələmək, işdən çıxartmaq və partiya cəzası vermək məqsədi güdmüşdür.

16 aprel 1986-cı ildə Partya Komitəsinin büro iclası keçirildi. Yoxlama komissiyasının üzvləri bu iclasda iştirak etmirdilər. Rayon Partiya komitəsinin III katibi Əliyeva G. arayışı oxudu. Mənim izahatım eşidildi. Bundan sonra yoldaş Bədirov R.M. bir neçə dəfə büro üzvlərinə müraciət edərək, onların büroda çıxış etmələrini əvvəlcə xahiş, sonra da tələb etdi. Lakin, doqquz büro üzvlərindən heç biri çıxış etmədi.

Onda yoldaş Bədirov R. M. büro qərarının mətnini oxudu... Bununla, o, partiyanın demokratik prinsipini iclasın aparma qaydasını pozmuş, səsverməyə qoymadan, ayrı-ayrılıqda doqquz büro üzvünün hər birini qaldıraraq, onların «büronun qərarı ilə razısınız» deyərək, onlara təzyiq göstərmişdir. Bundan sonra büro üzvləri yoldaş Bədirovun təzyiqinə dözməyərək «hə» cavabını vermişlər. Beləliklə o, doqquz «hə» cavabını eşidərək, məni internat direktoru vəzifəsindən azad edərək, partiya «uçot» vərəqəsinə yazılmamaqla töhmət vermişdir.





Beləliklə, mənim gərgin və fasiləsiz 17 illik iş fəaliyyətim başa çatdı.

Təvazökarlıqdan uzaq olaraq mən bir kommunist kimi yalnız öz vəzifə borcumu yerinə yetirirdim. Mən başqa cür işləyə bilməzdim. Ona görə xahiş edirəm, mənə qarşı daha obyektiv olasınız.

Yardımçı təsərrüfat Qusardan 30 km aralıqda yerləşir. Mən öz sağlamlığımı və vaxt azlığımı nəzərə almadan, hər gün yardımçı təsərrüfatda olurdum. 1985-ci ildə Qusar rayonunun təsərrüfatların böyük əksəriyyətləri hər hektardan 15-16 sentner taxıl götürürdülərsə, bizim yardımçı təsərrüfat 40-42 sentner taxıl götürüb. Düşünürəm ki, burada izahata ehtiyac yoxdur. Bununla da məni, bizim yardımçı təsərrüfatın yüksək nailiyyət əldə etməsində günahlandırırdılar. Ona görə, sizin bu məsələyə qarışmağınızı artıq dərəcədə xahiş edirəm.

Çələbov Z.R.

## KƏNDLİ TORPAĞIN ƏSL SAHİBİ OLMALIDIR

Müsahibim Qusar rayon icra hakimiyyətinin başçısı Zeynəddin Çələbovdur.

- Zeynəddin müəllim, Siz rayonda kənd təsərrüfatında böhranlı vəziyyətin getdikcə dərinləşdiyi bir vaxtda İcra Hakimiyyətinin başçısı təyin olunmusunuz. Böhranlı vəziyyətdən çıxmaq üçün nə etmək fikrindəsiniz?

- Getdikcə güclənən ərzaq qıtlığı rayonumuzun da kənd təsərrüfatının tənəzzülə uğradığını aydın göstərir. Kənd təsərrüfatının bütün sahələrində istehsal və məhsulların satışı azalmışdır. Rayonda taxılçılıqla məşğul olan 33 təsərrüfatın 29-u taxıl istehsalı tapşırıqlarına əməl etməmişdir, rayon üzrə hər hektardan cəmi 14,8 sentner məhsul götürülmüşdür. Dövlətə süd satışı keçən ilin müvafiq dövründəkinə nisbətən təxminən 1500 ton azalmışdır. Meyvəçilikdə, tərəvəzçilikdə və mal-qaranın qışlamasına hazırlıqda da işlər yaxşı deyildir.

Bütün bunların başlıca səbəbləri kolxoz və sovxozlarda intizamın zəif olması təsərrüfatsızlığın hökm sürməsi, torpağa münasibətin pis olmasıdır.

Kənd təsərrüfatında ciddi dönüş yaratmaq üçün kəndliyə torpaq vermək, onda sahiblik hissi yaratmaq lazımdır. Bu işi tədricən kəndlinin razılığı ilə görülməlidir. Yadda saxlamaq lazımdır ki, insanları yaşadan torpağın bərəkəti, əkinçinin qabarlı əlləridir. Buna görə də kəndlinin itmiş inamı sönmüş həvəsini ona qaytarmalıyıq. Əməyin təşkilinin mütərəqqi formalarına üstünlük verməliyik.

Biz bu il payız əkin sahəsini 2000 hektar artırmaq, səpini keyfiyyətlə başa çatdırmaq, suvarılan torpaqlardan səmərəli istifadə etmək, mal-qaranın qışlamasını yaxşı keçirməyi planlaşdırmışıq. Bağçılığın və tərəvəzçiliyin inkişafında da böyük qayğı göstəriləcəkdir. Bağlarımızda çox məhsuldar yerli alma sortlarının yetişdirilməsinə çalışmaq lazımdır. Alma soyuducularının sovxozlara qaytarılması da onların iqtisadiyyatının möhkəmləndirilməsinə kömək edəcəkdir.





Mən bunu da deməliyəm ki, qarşılaşdığımız problemlər birdən-birə meydana gəlmədiyi kimi onun aradan qaldırılması da müəyyən vaxt tələb edir. Burada real vəziyyət və maddi ehtiyatlar nəzərə alınmalıdır.

- Bəs kəndin sosial problemlərinə münasibətiniz necədir?

- Hər şeydən əvvəl kəndin siması özünə qaytarılmalıdır. Kəndlər abadlaşdırılmalı əhaliyə göstərilən xidmətlərin səviyyəsi yüksəldilməlidir. Ona nail olmaq lazımdır ki, hər kəndlinin qapısında mal-qarası, toyuq-cücəsi olsun. Kəndin dəyirmanı, kəndlinin həyatində təndiri olmalıdır. Kəndlərdə əmək ehtiyatlarından səmərəli istifadə etmək üçün müəssisələr və sexlər yaradılmalı, gənclərə peşələr öyrədilməlidir. İdmanın və bədii özfəaliyyətinin kütləviliyi təmin olunmalıdır. Belə olanda kəndin axını dayanar, gənclər torpağa bağlanar, qızlarımızın qarıyıb qalmasının qarşısı alınar.

- Zeynəddin müəllim, rayon icra hakimiyyətinin başçısı təyin olunan ilk günlərdən kadrların seçilməsi və yerləşdirilməsi ilə məşğul olursunuz. Apardığınız kadr siyasətinə necə baxırsınız?

- Kadr siyasəti çox məsul və incə məsələdir. Çünki bütün problemlərin həlli bundan asılıdır. Bu məsələdə səhvə yol vermək və tələsmək olmaz. Təsadüfi kadr hökuməti də gözdən salar, ona tapşırılan sahəni də bərbad hala qoyar. Mən işin öhdəsindən gələ bilməyən, başçılıq etdikləri təsərrüfatları bərbad hala qoyan 4 nəfər sovxoz direktorunu və idarə rəhbərini işdən götürməyə məcbur olmuşam.

Dəfələrlə demişəm, bir də təkrar etmək istəyirəm ki, namuslu, işci kadrları dəyişmək fikrim yoxdur. Lakin

kim işi bacarmır, işdə dönüş yarada bilmir, o, mütləq başqası ilə əvəz olunmalıdır. Rüşvətxorluğa meyilli olanlar ifşa edilmişdir. Hər kadr yerində olanda işlər rəvanlaşır. Kadr siyasətində heç vaxt qohumluq, tanışlıq və yerliçilik hallarına yol verməyəcəyəm.

- Rayonda son hadisələrin içində olmusunuz. Xalqlarımızın dostluğu haqqında nə deyə bilərsiniz?

- Mən fikrimi qısa ifadə edərək demək istəyirəm ki, tarix boyu can deyib, can eşidən, dini bir olan azərbaycanlıların və ləzgilərin dostluğu əbədidir, onu heç kim sarsıda bilməz. «Əti sümükdən ayırmaq nə dərəcədə müşküldürsə, ləzgini azərbaycanlıdan ayırmaq eyni dərəcədə müşküldür» heç kim heç vaxt bu dost xalqların arasına nifaq sala bilməz. Onlar bir torpağın, doğma Azərbaycanın övladlarıdırlar. Bunu da deməliyəm ki, ləzgilərin də həll etməli çoxlu problemləri vardır. Bu problemlərin həllində «Azərbaycan Respublikasında yaşayan milli azlıq, azsaylı xalq və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətinin inkişafı üçün dövlət yardımı haqqında» Azərbaycan respublikası prezidentinin fərmanı mühüm rol oynayacaqdır. Vəzifə burada göstərilən məsələlərin həllinə nail olmaqdır.

Lakin bir qrup adam qondarma ləzgi məsələsini ortaya ataraq xalqlarımız arasında nifaq salmaq istəyir. Ləzgilərin halına «yananlar» bilməlidirlər ki, xalqlarımızın dərdləri, qayğıları həmişə eyni olub, Qarabağda erməni quldurlarına qarşı azərbaycanlılarla yanaşı ləzgilərin də qəhrəmanlıqla vuruşması dediklərimizi aydın təsdiq edir.





Sizin məşğuliyyətiniz, iş vaxtından sonra nə ilə məşğul olursunuz?

- Mən evə işdən gec qayıdıram. İş məni yormur. Lakin vaxtım da az qalır. Buna baxmayaraq uşaqlıqdan təbiət və poeziya vurğunuyam. İnternat məktəbində işləyərkən məktəbin sahəsində taxıl, tərəvəz əkir, mal-qara saxlayırdıq. Yaxşı xidmət nəticəsində rayonda ən yüksək məhsuldarlığa, hər hektardan 44 sentner taxıl götürməyə nail olmuşuq. İndi də həyətyanı sahədə çalışıram. Bir çox şairlərin şeirlərini əzbərdən bilirəm. Vaxt olanda özüm də qələmimi sınaqdan keçirirəm. Qəzet oxuyuram, televiziyaya baxıram və sabah görüləcək işləri müəyyənləşdirirəm.

- Müsahibəyə görə çox sağ olun.

Qusar rayon radio qovşağı üçün
jurnalist S.Z.Əzizov

El üçün dağ yolu salsan – igidsən,
Küsənin könlünü alsan – igidsən.

*Oqtay Rza*

Aşığın sirdaşı telli saz olub,
Sevənin qışı da güllü yaz olub.

*Oqtay Rza*

Ağlayırsan, indi ağla,
Məni öləndə ağlama.

*Ramiz Qusarçaylı*

Dünya axirət əkini,
Əkib götürən bilər.

*Yunis İmrə*

Adamlar məhv olur yal döyüşündə.

*Ramiz Qusarçaylı*

Adam boğuşdurur tazılar indi.

*Ramiz Qusarçaylı*

Müəllim adı dünyada ən yüksək addır. Mən yer üzündə müəllimlikdən yüksək ad tanımıram.

*Heydər Əliyev*

Hər zaman millətim bəxtiyar olsun.

*Aşıq Veysəl*

Mən gedərəm adım qalar,
Dostlar məni xatırlasın.

*Aşıq Veysə*

Nəbzini tutana behiştdi dünya.

*Məmməd Aslan*

# Ömrün sonsuzluğa gedən karvanı

Ədalət dünyadan qalxarsa, insan həyatına dəyər verəcək bir şey qalmaz.

*Kant*

Biz heç kimə düşmən deyilik, yalnız insanlığın düşməni olanların düşməniyik.

*Atatürk*

Hindistanın hər bir vilayətində yerindən duran səltənətin taxt-tacına yiyələnmək iddiasında olduğundan duyurdum ki, Hindistanı asanlıqla zəbt edəcəyəm.

*Əmir Teymur*

Axırını düşünə-düşünə döyüşə gedəndən igid olmaz.

*Şeyx Şamil*

Döyüşə girəndə ya zəfərlə qol-boyun olub qalib gəlməlisən, ya da şəhid olmalısan.

*Əmir Teymur*

Qoyun olmaya-olmaya
Qoyun olmaq çətin şeymiş.

*Ramiz Rövşən*

Mənə yarımçıq azadlıq verincə,
Bütöv bir ölüm ver, Allah.

*Eldar Baxış*

Əməlsiz elm, ruhsuz bədən kimidir

*İmam Əzəm Əbu Hənifə*

Müəllimlik çox çətin və məsuliyyətli vəzifədir. Hər kəs onun öhdəsindən gələ bilməz və hər adama müəllim deyib, uşaqları ona tapşırmaq böyük xətadır.

*Üzeyir Hacıbəyli*

Bir də görürsən ki, böyük bir oğru,
Səsləyir hamını düzlüyə doğru.

*Zeynal Vəfa*

İstəyirsən dediyinə əməl etsinlər, özün dediyinə əməl et.

*«Qabusnamə»*

Günahdan keçməyənin günahından keçilməz.

*Məhəmməd peyğəmbər*

Hər kəsin dəyəri onun nəyə can atmasındadır.

*Avreli Mark*

Ölçülməmiş suala biçilməmiş cavab verilər.

Sədi Şirazi

Dərdin də öz baharı var.

*Hacı Ərşad Hacı Bədəlli*

Tutdum hicran yaxasın, gördüm öz yaxam əldə.

*Sarı Aşıq*

İntiqam Tanrının böyük vergisidir.

*Atilla*

İndi elə zamandır ki, hər sözə inanmaq olmaz.

*V.Şekspir*

Müəllim öyrədə bilmədiklərini həyat özü öyrədəcək.

*Qətran Təbrizi*

Elm və ədəb öyrətmək ən şərəfli vəzifədir.

*Ş.M.Şəbüstəri*

Bizdə hamı müəllimi təhqir edir.

*A.Çexov*

Bizi ancaq məktəb nadanlıqdan xilas edə bilər.

*N.Nərimanov*

Dünyada hər şeyə qiymət qoymaq olar, lakin müəllimin əsərinə qiymət qoymaq olmaz.

*Sokrat*

Müəllimlik peşələrin ən az qazanc gətirəni, ancaq insanı ən çox mükafatlandıranıdır.

Naməlum

Müəllim bir şama bənzər, özünü əridərək başqalarına işıq verər.

*Paulo Ruffini*

Yalnışlıqların üzünə qapı bağlananda, həqiqət də bayırda qalar.

*R.Taqor*

Hər məhəbbət bir xəyanət, hər gülüş bir hiylədir,
Hər səadət ruhu oxşar, çox sönük bir şölədir.

*Hüseyn Cavid*

Eldən çıxan çıxdaş olur.

*Məmməd Aslan*

Ər gözdən salınsa bir evdə əgər,
O evin başına fəlakət çökər.

*Məmməd Aslan*

Biz dünyadan gedər olduq,
Qalanlara salam olsun!
Bizim üçün xeyir-dua,
Qalanlara salam olsun!

*Yunus İmrə*

Çobandan da sultan olar, əzizim.

*Ləzgi Əhməd*

Düz danışan peşman olar, əzizim.

*Ləzgi Əhməd*

Mənə yaşamağı xalqım, yaratmağı isə Yetim Əmin öyrətdi.

*Süleyman Stallı*

Azərbaycan dili mənim üçün ikinci ana dilidi.

*S.Stallı*

Mənim üzüm gülməz Vətəndən ayrı.

*Qurbani*

Məni məndə demə: məndə deyiləm
Bir mən vardır məndə məndən içəri.

*Yunus İmrə*

Zaman, məkan, ad, titul, sərvət, şöhrət, varidat,
Dəhşətli bir yuxudur başdan-başa bu həyat.

*M.Ş. Vazeh*

Çünki alçaqlar üçün ən alçaq işlər,
Alçaqlıq deyildir, hünərdir, hünər!

*M.Ş. Vazeh*

Qəlbimin, idrakımın hər birinin öz yolu var.
Çərxi – gəcrəftar əlindən əməlim puçdur mənim.

*M.Ş. Vazeh*

Həyatım, dünyada azadlıq ilə xoşdu mənim.

*M.Ş. Vazeh*

Sən mənim dilimi kəsə bilməzsən,
Haqsızlıq önündə susan deyiləm.

*Məmməd Aslan*

Yaltaq yarışında yallı gedən var.

*Əliağa Aslan*

Başçıda baş olanda baxtınıza gün düşər,
Başçı başsız olanda, baxtınız düyün düşər.

*Zəlimxan Yaqub*



# SON SÖZ əvəzi

Fələyin yazdığını mən poza bilsəydim haman,
Onu arzumla, məramımla yazardım tazadan.

Hüseyn Cavid

Biz kimik, Tanrıdı qələm yiyəsi.

Əliağa Aslan

Tanıtsa bir misra tanıdar məni.
Məmməd Aslan

Şahdağın ətəyində gözəl bir məkan var – adına Qusar deyilir. Torpağı münbit və bərəkətli, havası gözəl, insanları xeyirxah, xoş məramlı, qonaqpərvər... Bu gözəl diyarda dünyamıza göz açan bütün xeyir əməl sahibləri ehtirama layiqdir. Onların bir çoxu bədii əsərlərin qəhrəmanına çevrilməyə layiqdirlər. Bu sırada mən Zeynəddin Çələbovu da görürəm. O, təkcə öz kəndini deyil, Qusarı layiqincə təmsil edən bir insandır. Zeynəddin müəllim Qusarın hər bir yerini, qarışını gəzib, dolaşıb, onun otunun, çiçəyinin, sularının dilini bilir, insanları ilə həmdərd, həmsevincdir. Və təkcə qusarlı olaraq qalmır, ölkəmizin müstəqilliyi və möhkəmləndirilməsi yolunda xidmətlərini əsirgəməyib. Şübhəsiz ki, Zeynəddin Çələbovun tərcümeyi-halının əzəli də, sonu da Qusarla bağlıdır.

Kitabda Zeynəddin müəllim barədə söz açan dəyərli ziyalılar, dost-tanışlar, doğmalar məhz bu məqama daha çox diqqət yetiriblər. Hiss edirsən və inanırsan ki, onun barəsində deyilən sözlər süni deyil, ürəkdən gəlir,

səmimidir, təmiz duyğulardan su içir. Və hər bir sözdə Zeynəddin Çələbovun insan obrazının bir cizgisi üzə çıxır. Yalnız mənən zəngin insanlar haqqında belə ürəklə, belə səxavətlə söz açmaq olar.

Kitabın başqa bir bölməsində mən Zeynəddin müəllimlə üz-üzə dayandım, onun səsini dinlədim, həyat məramı ilə tanış oldum! Beləliklə, gözümün qarşısında sözünün və əməlinin ağası olan çağdaş insan obrazı canlandı. Bu müasir insan Qusarı respublikamız səviyyəsində təmsil edə bilən bir simadır. Onu da deyim ki, neçə illərdi ki, Zeynəddin müəllimlə ünsiyyətimə baxmayaraq son zamanlar onu daha yaxından tanıdım. Bu mənada bir hədisdə necə də tən-dürüst deyilib: «Əgər bir adamın təbiətini yaxından bilmək istəsən onunla söhbət elə. Bununla sən onun ədalətindən xeyir və şərindən agah olarsan.»

Elə bilirəm ki, bu kitabda öz məqsədimə qismən olsa da çatdım – gözəl və işıqlı bir insanı, xeyirxah əməllər sahibini, müəllim adının ucalığını qoruyan, yüksək təşkilatçılıq və rəhbərlik səriştəsi olan əsl ziyalını, vətəndaşı və ağsaqqalı oxucuya təqdim edə bildim.

Zeynəddin müəllimlə sümük sındıran söhbətlərimiz zamanı onu necə gördüyümü də oxucu diqqətinə çatdırmaq istərdim: tez-tez yaşlı adamlara məxsus bir vərdişlə əllərini sığallayıb, barmaqlarını daraqlayıb, maraqla üzümə baxıb. Onun sifətində tez-tez nurlu bir təbəssümün alovları da məni qarsıb. Hərdən illərin izini saxlayan alın qırışlarının düyünləndiyini, gözlərinin dərinliyində güclə sezilən sevinc qığılcımları da gördüm. Onun dünyasına boylandığım zaman gözlərində dalğın bir





kədər, xəfif bir qüssə və böyük bir yanğının qığılcımlarını da hiss elədim.

Mən onunla yayın boğanağında, bürküsündə, payızın, qışın sazağında, şaxtasında da görüşdüm. Bu görüşlərimiz şəhər qaranlığı əyninə geyən vaxt da oldu, doğan günəş sübh ayazını qovan vədəsi də, gecə çadrını şəhərin üzərinə çəkən çağında da. Biz səmanın qaş-qabaq sadaladığı vaxtında da görüşdük, üzünün güldüyü çağda da.

Onu da deyim ki, onun cavabları həmişə sarı yağ kimi ürəyimə yayılıb, hər sözü ürəyimdən tikan çıxardıb...

Onu bir daha yaxından tanıdım bu günlərdə. Belə bir qənaətə gəldim ki, iliyi sümükdən, əti qandan, ruhu candan ayırmaq mümkün olmadığı kimi, Zeynəddin Çələbovu da Qusardan, bütünlükdə Azərbaycanımızdan ayırmaq olmaz. Ürəyimizi sözlə boşaldıb, sözlə ovunduğumuz məqamlarda dediyi sözlərdən onun dodaqlarının, mənimsə ürəyimin yandığı anlar da yetərincə oldu. Bəzən qəhrəmanın, yatağına sığmayan dağ çayı kimi kükrədiyi anlarda hər ikimiz zirvəsi Xəzərin ayna sularında güzgülənən Şahdağa boylanıb bir toxtaqlıq, bir təskinlik tapmağımız da oldu.

Onun rahat ömür sürdüyünün də şahidi oldum bu günlərdə. Bu bir tərəfdən, onun tamahsızlığı, olanı ilə barışması, dost-tanış yanında üzüağ, başıuca olması idisə, digər tərəfdən, onun rahatlığı, ruh dincliyi ailədə şirin bir ünsiyyətin, ömür yoldaşı Şərqiyyə xanımla bir-birinə olan məhəbbətin bəhrəsi idi. Onların məhəbbət dolu nəzərlərlə baxdıqlarını görəndə sanki iki gəncin bir-birinə olan sevgisinin şahidi olurdum.

Mən Zeynəddin Çələbovla söhbət edəndə fikirlər bolluğundan təntidiyim də olub. Nə vaxt onunla söhbət etmişəmsə, gözlərindən və nurlu simasından xoş duyğular oxumuşam. Həmişə fikirlərini dağ edib mənimlə həmsöhbət olanda nəfəs aldığım Qusar dağlarının zirvəsi qədər ucalıb. Müsahibələr zamanı heç vaxt bir-birimizi bezikdirmədik, yormadıq. Nə vaxt dostumla görüşdümsə mənimlə həmsöhbət olmaq istəyini sir-sifətindən oxudum. Onu da deyim ki, kölgəsini qalın salan bir çox dövlətli adamların var-dövləti özlərinin buxovu olub, onları tərpənməyə qoymayıb. Qəhrəmanım isə belə bir buxovdan çox-çox uzaqda dayandığından sərbəst və rahat idi.

Onu da deyim ki, söhbətlərimizdə bir-birinə zidd fikirlər olmayıb, ancaq bəzi vaxtlar fikirlərimizin istiotunun çox olduğu anlar da olub. Zeynəddin müəllimin qəlbindəki qövsi-quzey xatirələri baş qaldıranda inandım ki, məhəbbəti qocalmayıb, fikirləri kimi o da təzə-tər bənövşə ətirlidir, pərgarı pozulmayıb.

Onunla tanışlıq zamanı, üstəgəl kitabla bağlı dəfələrlə həmsöhbət olmağımızdan gəldiyim qənaət belə oldu: Z.Çələbovun təhsil sahəsində böyük xidmətləri olub, onda pedaqoji işə və gəncliyə böyük məhəbbət, canyanğısı, apardığı vəzifələrdə rəhbərlik etmək səriştəsi, tamahsızlıq, sözündə kəsərli olması, yaltaqlıqdan uzaq durması kimi müsbət keyfiyyətlər formalaşıb. O, sözün müstəqim mənasında əsl vətəndaş, yerini-yurdunu və Azərbaycanımızı sevən kişidi. Təəssübkeşdi, ancaq korkoranə təəssübkeş deyil. Azərbaycanımızın ağrı-acıları da, sevinci də ona doğmadır. Qusar torpağının nəfəsi onun öz nəfəsi, öz həyatıdır. Zeynəddin xeyirxah insandı,





heç kimin pisliyini istəyən deyil, yəqin ki, kitabı oxuyub qurtaran oxucu mənim bu sözlərimlə razılaşar...

Zeynəddin müəllimlə dirsək söhbəti etdiyim zaman bütün sorğularıma özünəməxsus şəkildə cavab verib. Söz bulağımızın qaynayan məqamı da oldu, sızqalanan anları da. Ancaq suallarımız da, cavablarımız da ürəyimizdən su içdi, səmimiyyətimizin cazibəsindən çıxmadıq. Hər ikimiz basmaqəlib söz-söhbətdən uzaq qaçdıq. Onu da deyim ki, dostum Zeynəddinin, verdiyim suallardan üzgözünü turşudan vaxtları da olub, sualımdan çiçəyi çırtlayan anı da.

Onu da qeyd edim ki, bu kitabımda qəhrəmanın Zeynəddin Çələbovu bir daha onu tanıyanlara və tanımayanlara, dost-tanışlarına təqdim etməklə bərabər, dost-tanışlarını da saf-çürük edib Zeynəddin müəllimə tanıtmağa səy göstərdim və elə bilirəm ki, buna yetərincə nail ola bildim. Yaşına, həyat təcrübəsinə, mübarizələrlə dopdolu olan ömür yoluna görə Zeynəddin Çələbov qusarlıların yaşlı nəslinə mənsubdur. Ancaq hal-hazırda həyata baxışlarına, arzu və istəklərinə, təbiətə vurğunluğuna, sabahımıza olan ümid və inamına görə o hələ cavandır deyərdim.

Bir daha onu da vurğulayım ki, vəzifə heç vaxt Zeynəddin Çələbovu deyil, Zeynəddin Çələbovun özü hər zaman, hər vaxt tutduğu vəzifəni ucaldıb, onu daha nüfuzlu, daha da möhtəşəm eləyib.

Dünyamız bir yandan dolub, bir yandan boşalan dünyadı... Onu da deyiblər: o kəs uzun ömürlü olur ki, dünyasını dəyişəndə özündən sonra rəhmət qazanan əməlləri qalır. Nə vaxtsa bizlər də xatirələrə dönəcəyik, o xatirələrin içində bizləri yaddaşlarında, qəlblərində

yaşadanlara eşq olsun deyirəm. Tacik şairi Baqi Rəhimzadə demişkən:

*Ömrünü-gününü elə verənlər,*
*Ellərin qəlbində yaşayan olar.*

Bu məqamda yadıma Bəhram Nəsibovun «Barı yada sal məni» mahnısının sözləri düşür:

*Sevirəm çəməndə gülü-çiçəyi,*
*Gələndə ilk bahar, xatırla məni.*
*Öpsün yanağını dağlar küləyi,*
*Dinəndə kaman-tar xatırla məni.*

*Torpağı bəzəsin bənövşə, nərgiz,*
*Ruhuma doğmadır, hər cığır, hər iz.*
*Geniş sinəsini açanda dəniz,*
*Coşanda dalğalar, xatırla məni.*

*Fəsillər dəyişir ötdükcə zaman,*
*Vaxt olur həyatda dəyişir insan.*
*Mən səni unudan deyiləm, inan,*
*Sən də ey gözəl yar, xatırla məni.*

Hər ikimizin ruhunun, düşüncəsinin məhsulu olan bu kitabda həqiqəti deməyə çalışdım. Axı, həqiqət deyiləndə daha dəyərli olur. Bir də ki, böyük hakim və mühakimə zamandı. Təki zaman öz sözünü desin. Zəlimxan Yaqub demişkən: «Yaxşı ki, hər əməlin son hakimi zamandı».

Bir daha qeyd edim ki, Zeynəddin müəllimlə mən, həm ötənləri, keçənləri, həm də bu günümüzü bir daha xatırlayıb oylaq-oylaq gəzdik. Gəzdik ki, oxucu sevincimizə, ağrılarımıza da şərik olsun. Və fikirlərimizin pöhrəsi olan bu yazılarımızın çiçəklənməsinin də şahidi olsunlar. Göründüyü kimi, əsərimin qəhrəmanı da hər birimiz kimi ömür sürür, həyatda uğurları da olub, uğursuzluqları da. Ancaq o, xalq üçün çox işlər görüb, hər işi tən-dürüst etməyə çalışıb, bəzən ona nail olmadığı məqamlar da olub, arzularının çilikləndiyi zaman da. Ancaq heç vaxt ləyaqət hissini itirməyib, insanlıq adını həmişə də uca tutub. Şübhəsiz bu yazılarıma zamanın da ruhu hopub. Belinski demişkən: – «Hər bir əsərdə öz dövrünün möhürü olur.»





Onu da bilirəm ki... Yox, yaxşısı budur ki, fikrimi De Servantesin bu sözləri ilə oxucu diqqətinə çatdırım: «Öz əsərini çapa verən adam çox böyük məsulliyyət qarşısında qalır, çünki hamını təmin edə bilən əsər yaratmaq mümkün deyil.» Böyük yazıçımız M.S.Ordubadi də gözəl deyib: «Kitabı oxucu mühakiməsinə vermək yol kənarında ev tikdirməyə bənzər, hər görən ona bir irad tutar.»

Səksənində səksənməyən dostum Zeynəddin Çələbovun yüzündə də üzülməyəcəyi arzu və inamı ilə bu kitabımızı, torpaqlarımızın tezliklə işğaldan azad olacağı əminliyi ilə, bir vaxtlar Qusarın təbiətindən ilhamlanmış, möhtərəm şairimiz Əhməd Cavadın bu misralarını xatırladım:

*Mən bir aşiqəm, bu çaldığım saz,*
*Dumanlı dağlara səs salacaqdır.*
*İnlətdiyim teldə ağlayan avaz,*
*Elin xatirində çox qalacaqdır!*

Hörmətli oxucular, mən sizin Zeynəddin müəllim barədə qələmə aldığım bu kitabdakı fikirlərimlə şərik

olub-olmayacağınızı dəqiq bilmirəm. Ola bilsin ki, aranızda Zeynəddin müəllimə sayqıları olmayan da olsun, bu olduqca təbiidi. Axı, bir nəfər hamı üçün yaxşı ola bilməz. Axı, hamı üçün yaxşı olmaq da yüksək insani keyfiyyət deyildir. Bir sözlə oxucuların kitab barədə fikirlərini normal hal kimi qəbul edirəm. Ola bilsin ki, kitabımdakı duyğu və düşüncələrim, Zeynəddin müəllimin ömür yolundan açıqlamalarım, haqqa tapınan oxucuları da razı salmasın. Belə hallarla tam razıyam, ona görə ki, bunu Zeynəddin müəllimə olan oxucu hörmət-ehtiramı, istək və yanımlığı kimi qəbul edirəm. Axı, o bir şəxsiyyət kimi mənim fikirlərimdən çox-çox yüksəkdə duran insandı. Axı, bir köşə yazıda elə bir insanın ömür yoluna işıq tutmaq da mümkün deyil.

Hər halda mən bir müəllif kimi dəyərli vaxtlarını sərf edib bizi oxuduğuna görə öz adımdan və Zeynəddin müəllimin adından minnətdarlığımızı və təşəkkürümüzü bildirirəm.

P.S.

*Kitabı çapa hazırladığım zaman Zeynəddin müəllimin üzərində yenidən ağır cərrahiyyə əməliyyatı aparıldı. O günlər varımdan yox oldum, bir dost kimi mənim də əllərim göylərə uzandı, Allahdan şəfa dilədim dəyərli dostuma. Təhlükəli günlər sovuşandan sonra mənə cərrahiyyə əməliyyatı zamanı keçirdiyi ağır saatlarından, günlərindən söz açdı... Dedi ki, həmin vaxtlar mələklər görkəmində olanlar, ona rahatlıq verməyib, vaxtın-vədən tamamdı, bizimlə getməlisən deyiblər. Zeynəddin müəllim də barəmdə yazılmış «Qusar beşiyim mənim» kitabını görməyincə Qusardan ayrıla bilmərəm, heç hara, heç yana gedə bilmərəm deyib.*





*Bu sözdən sonra mələklər qeyb olub. Üzümü qeyb olmuş mələklərə tutub deyirəm ki, Zeynəddin ömrü davam edir, ömrünün qocalıq adlı illəri yenicə başlayır hələ.*

*İnanıram ki, 100 ili yola salacaq əsərimin qəhrəmanı. O, bundan sonra müdrik el ağsaqqalı kimi də öz layiqli sözünü deyəcək və bizdən sonra gələn nəsillər üçün Zeynəddin Çələbovun qocalıq çağları da örnək olacaq. Bax, o vaxtlar ya mən, ya da ki, başqa bir qələm əhli söz açacaq Zeynəddin müəllimdən. Ona görə də qəhrəmanım barədə olan bu kitabımın «ardı var» deyirəm. Qoy, mələklər tələsməsin, qoy mələklər dostumuz Zeynəddini öz şahpərləri altında hifz eləsin.*

*Elə bu arzu, bu diləklə də Zeynəddin müəllimin ömür yolu barədə yazdığım bu kitaba nöqtə qoyuram.*

*«Nə yaxşı bu dünyada belə insanlar var» deyirəm...*

## İstifadə olunmuş ədəbiyyat


1. «Azərbaycan sovet ensiklopediyası».
2. «Azərbaycan - Dağıstan ədəbi əlaqələri tarixindən» kitabı. Bakı. 1985. «Elm» nəşriyyatı.
3. «Qusar - 60» məcmuəsi.
4. Sədaqət Kərimova «Qusar, qusarlılar» Bakı, 2011.
5. «Azərbaycan yazıçıları XX-XXI yüzillikdə». Bakı, 2011.
6. «İstoriya Daqestana» Moskva, 1967.
7. «Qarabağnamə» kitabları.
8. Şəmistan Nəzirli «Arxivlərin sirri açılır». Bakı, «Elm» nəşriyyatı. 1999.
9. «Azərbaycan ədəbiyyatı tarixi» Bakı, 1960.
10. A.Bakıxanov «Gülüstani-irəm».
11. Dağıstan ədəbiyyatı antologiyası. Bakı. 1959.






## UNUTMAQ OLMAZ!

1813-1828-ci illərdə Azərbaycanın sahəsi təxminən 410.000 $km^2$ idi.

1813-1828-ci illərdə işğal edilmiş Azərbaycan əraziləri:

İran əsarəti altındakı Cənubi Azərbaycanın sahəsi təxminən 280.000 $km^2$.

Rusiya əsarəti altındakı Şimali Azərbaycan təxminən 130.000 $km^2$.

1918-ci ildə Rusiyanın təzyiqi ilə ermənilərə verilmiş İrəvan xanlığı – sahəsi 9.000 $km^2$.

Rusiya əsarəti altındakı Dərbənd xanlığı – sahəsi 7.000 $km^2$.

1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının qurulduğu ərazisinin təxminən 114.000 $km^2$.

1920-ci ildə ADR-nı işğal edən rus Sovet imperiyasının bölüşdürdüyü Azərbaycan əraziləri:

Ermənistan Sovet Sosialist Respublikasının nəzarətinə verilən Zəngəzur, Göyçə, Şərur, Dərələyəz, Dilican və Gürcüstan Sovet Sosialist Respublikasının nəzarətinə verilən Borçalı. Ümumi sahəsi 274.000 $km^2$.

Beləliklə Azərbaycanın 80 faiz torpağı işğal olunub.

## AZƏRBAYCANIN 1988-1993-CÜ İLLƏRDƏ İŞĞAL OLMUŞ ƏRAZİLƏRİ

Dağlıq Qarabağ 1988-1992-ci illər. Sahəsi: 4.400 km², 274 məntəqə,
Laçın (17may, 1992-ci il) – 1,835 km², 124 məntəqə,
Kəlbəcər (3-4 aprel, 1993-cü il) – 1,936 km², 120 məntəqə,
Ağdam (23 iyul, 1993-cü il) – 1,094 km², 83 məntəqə,
Cəbrayıl (18 avqust 1993-cü il) – 1,050 km², 77 məntəqə,
Füzuli (23 avqust 1993-cü il) – 1,386 km², 73 məntqə,
Qubadlı (31 avqust 1993-cü il) – 802 km², 94 məntəqə,
Zəngilan (30 oktyabr 1993-cü il) – 707 km², 81 məntəqə.





## Mündəricat

Dəyərli ömürdən anlar ... 5
Tarixdən gələn səslər ... 15
Salam, Zeynəddin daxa! ... 63
Hildən başlanan ömür yolu ... 89
Həyatla üz-üzə ... 131
Axar sudu bu dünya ... 147
Yaxşılar əbədi yaşayır ... 171
Allah dərgahına gedən yolda ... 187
Ürək qocalmayanda ... 215
Zeynəddinin ömür çırağı ... 225
Kişiləri qoru, dünya ... 243
Bir könülün harayı ... 255
Xatirələr işığında ... 285
Dost sözü ... 297
Ömrün əməl dastanı ... 355
Ömrün sonsuzluğa gedən karvanı ... 381
Sön söz əvəzi ... 387
İstifadə olunmuş ədəbiyyat ... 396
Unutmaq olmaz! ... 397
Azərbaycanın 1988-1993-cü illərdə işğal olmuş əraziləri ... 398

**ELBRUS ŞAHMAR**

# Qusar beşiyim mənim

*(Sənədli, bədii-publisistik xatirə roman)*

**Müəllifin əlaqə telefonu:**
**Mob.: (050) 325-42-65**


**Redaktorlar:** ***Vaqif Yusifli***
***Elman Qasımov***
**Korrektorlar:** ***Dilşad Fərhad qızı***
***Mətanət Əliqızı***

**Mətbəənin direktoru:** ***Elman Qasımov***
**Dizayner:** ***Mətanət Əliqızı***

Çapa imzalanmışdır: 19.04.2012
Formatı 60x84 1/16. Həcmi 25 ç.v.
Sifariş №252. Tiraj 1000

«Zərdabi LTD» MMC
Nəşriyyat Poliqrafiya müəssisəsi
☎ iş (012) 514-73-73,
mob. (050, 055) 344 76 01
e-poçtu: zerdabi_em@mail.ru

Azf-267410



ELBRUS ŞAHMAR

Elbrus Şahma
mədov - yazıçı-publisist, Respublika Yazıçılar Birliyinin, Azərbaycan Vətən müharibəsi veteranları birliyinin və "Əsilzadələr məclisi"nin üzvü, "İlin nüfuzlu ziyalısı" (1996), "Qızıl Qələm" və "Araz" ali ədəbi mükafatları laureatı. O, 1945-ci il aprelin 11-də Qubadlı rayonunun Mahmudlu kəndində anadan olub. Bakı Mədəni-Maarif texnikumunu, Azərbaycan Dövlət Universitetinin kitabxanaçılıq və hüquq fakültələrini bitirib. 1968-ci ilin fevralından 2000-ci ilin martına kimi daxili işlər orqanlarında müxtəlif vəzifələrdə işləyib. Hazırda təqaüddə olan polis-polkovnikidir.